**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XX ƏSR ŞİMALİ AZƏRBAYCAN NƏSRİ VƏ MÜHACİR CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATINDA BÖLÜNMÜŞ VƏTƏN VƏ MİLLİ-MƏNƏVİ BÜTÖVLÜK İDEYASI

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş

**D İ S S E R T A S İ Y A**

**İddiaçı: _______ filologiya üzrə fəlsəfə doktoru, dosent Arzu Hüseyn qızı Hüseynova**

**BAKI-2021**

## MÜNDƏRİCAT

GİRİŞ ........................................................................................................ 4

I FƏSİL

XX ƏSR ŞİMALİ VƏ CƏNUBİ AZƏRBAYCAN NƏSRİNDƏ BÖLÜNMÜŞ VƏTƏN İDEYASININ YARANMASINI ŞƏRTLƏNDİRƏN İCTİMAİ-SİYASİ VƏ TARİXİ-KULTUROLOJİ AMİLLƏR ................................................................ 16

1.1. Bölünmüş vətənin bütövlüyü uğrunda Azərbaycan ziyalılarının ədəbi-mədəni və siyasi mücadiləsi................................................................ 16

1.2.Azərbaycan Xalq Cümhuriyyəti və Azadistan dövrü ədəbiyyatında bölünmüş vətən ideyası ........................................................................ 37

II FƏSİL

XX ƏSRİN 20-50-Cİ İLLƏRİNDƏ O TAYLI BU TAYLI AZƏRBAYCANDA BAŞ VERƏN İCTİMAİ-SİYASİ PROSESLƏRİN NƏSRDƏ İNİKASI.............. 50

2.1.XX əsrin 20-30-cu illərində sovet Azərbaycanında bölünmüş vətən və milli-mənəvi bütövlük ideyası ...................................................... 50

2.2. XX əsrin 40-cı illərində Cənubi Azərbaycanda milli-azadlıq hərəkatına münasibətin bədii ifadəsi........................................ 68

2.3. Şimali Azərbaycan ədiblərinin Cənubi Azərbaycanda bədii-publisistik fəaliyyətlərində vətən həsrəti motivləri ............................ 105

III FƏSİL

XX ƏSRİN İKİNCİ YARISINDA ŞİMALİ AZƏRBAYCAN NƏSRİNDƏ BÖLÜNMÜŞ VƏTƏN, AZƏRBAYCANÇILIQ VƏ MİLLİ-MƏNƏVİ BÜTÖVLÜK İDEYALARI ..................................................................................... 127

3.1. XX əsrin II yarısında Şimali Azərbaycan nəsrində bölünmüş vətən mövzusu .........................................................................................127

3.2. Ulu Öndər Heydər Əliyevin Azərbaycanının milli-mənəvi bütövlüyünə, ədəbi-bədii irsinə diqqət və qayğısı. Bütöv Azərbaycan və dünya azərbaycanlıları modeli......................................................................139

IV FƏSİL
ŞİMALİ AZƏRBAYCANDA FƏALİYYƏT GÖSTƏRƏN CƏNUBLU MÜHACİR YAZARLARIN YARADICILIĞINDA VƏTƏN HƏSRƏTİ İDEYALARI ................................................................. 167

4.1. Cənubi Azərbaycan mühacirət ədəbiyyatında vahid vətən ideyası və həsrət motivləri (XX əsrin 40-50-ci illəri) ........................................................ 167

4.2. XX əsrin 60-90-cı illərində Cənubi Azərbaycan mühacirət ədəbiyyatında milli-mənəvi bütövlük ideyalarının xüsusiyyətləri .................................................................................. 204

NƏTİCƏ ........................................................................................................ 232

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI............................................ 239

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir qloballaşma dövründə özünəməxsus yaradıcılıq ənənələrini qoruyub saxlayan Azərbaycan ədəbiyyatı zaman-zaman xalqın ruhunu formalaşdıran silaha çevrilmiş, milli-mənəvi bütövlüyə xidmət etmişdir. Ədəbi-mədəni, siyasi əlaqələr, milli-mənəvi bütövlük, dil, din birliyi, möhkəmləndiyinə görə şimalda Azərbaycan Xalq Cümhuriyyəti və cənubda Azadistan dövlətinin meydana gəlməsinin Azərbaycanın dövlətçilik və ədəbi-bədii fikir tarixində vahid vətən və azərbaycançılıq ideyalarına dair mövzuların yaranmasında əvəzsiz rolu olmuşdur.

XIX yüzildə Azərbaycanın İran və Rusiya imperiyaları tərəfindən ikiyə parçalanması, ölkədə baş verən tarixi-siyasi hadisələr (AXC-nin yaranması, bolşevik üsyanı, 1905-1911-ci illər Məşrutə inqilabı, Səttarxan, Xiyabani hərəkatı, muxtariyyətin yaradılması, üsyanlar, repressiyalar), bölgədə milli-mədəni inkişafın fərqli səviyyədə getməsi, Şimali Azərbaycanda Cənubi Azərbaycan mühacirət nəsrinin yaranması və digər səbəblər milli ədəbiyyatın məzmun və məfkurə baxımından yeniləşməsinə təkan vermişdir. Bədii ədəbiyyatla yanaşı, elmi-nəzəri fikirdə də vətən və milli-mənəvi bütövlük ideyaları xeyli dərəcədə inkişaf etmişdir.

Vahid Azərbaycanın ədəbi-estetik fikrində bölünmüş (Rusiya və İran arasında bölüşdürülmüş) vətən və milli-mənəvi bütövlük ideyalarının bədii inikasının yaranması və tarixi inkişaf mərhələlərinin nəzəri və təcrübi əsaslarına, bu mövzuda yazan ədəbi şəxsiyyətlərin fəaliyyətinə dair çoxlu sayda elmi əsərlər qələmə alınmışdır. Bu əsərlər bölünmüş vətən və milli-mənəvi bütövlük ideyaları barədə müəyyən elmi təsəvvür yaratsa da, milli nəsrdə bu mövzunun inkişaf qanunauyğunluqları və mərhələləri ilə əlaqədar xüsusi elmi tədqiqat əsəri yazılmamışdır. Halbuki belə bir tədqiqatın aparılmasına imkan verən faktik materiallar və zəngin elmi-nəzəri qaynaqlar mövcuddur. Bu vəziyyət XX əsr Azərbaycan ədəbiyyatında bölünmüş vətən və milli-mənəvi bütövlük ideyaları kontekstində sistemli tədqiqat işinin yazılması zərurətini şərtləndirir. Mövzunun aktuallığı həmçinin bu problemin araşdırılması zərurətindən qaynaqlanır.

XX yüzilin əvvəllərində Azərbaycan ədəbiyyatı özünün inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Bu mənada müxtəlif janrları əhatə edən Azərbaycan nəsrində bölünmüş vətən və milli-mənəvi bütövlük ideyalarının bədii inikasının aktuallağını şərtləndirən bir sıra amillər mövcuddur.

Ötən əsrin 20-ci illərindən başlayaraq Sovetlər Birliyində, o cümlədən Azərbaycan SSR-də ideoloji təbliğat maşını, bütün sovet ədəbiyyatı mücərrəd sosialist vətəninə məhəbbət aşılamaq məramı izləmiş, bu vətənə hədsiz sədaqətlilik, vətənpərvərlik kommunist əxlaqının əsası hesab edilmişdir. Şimali Azərbaycanda totalitar kommunist rejimi, Cənubi Azərbaycanda isə despotik şah rejimi vətənin bütövlüyü ilə bağlı mövzulara ciddi yasaqlar qoymuşdur. Bu kontekstdə şimalda SSRİ, cənubda isə İranın vahid vətən hesab olunmasına çalışılmışdır.

Rusiya ilə İran əlbir olaraq ikiyə bölünmüş Azərbaycan xalqının milli varlığını və dilini məhv etməyə çalışırdı. Əgər Şimalda rus sovet müstəmləkəçiliyi, kommunist ideologiyası, allahsızlıq, ateizm tüğyan edirdisə, Cənubda islam adı altında cəhalət, dini fanatizm həyat tərzinə çevrilmiş, fars şovinizmi, müstəbidlik özünün ən eybəcər formasını almışdı. Belə bir siyasi-kulturoloji ortamda Cənubi Azərbaycan ədiblərini vətənpərvər ruhlu əsərlər yazmağa sövq edən ən mühüm amil, şübhəsiz ki, millət sevgisi, vətənin bölünməsi ilə barışmazlıq idi.

Sovet siyasi rejimi dönəmində Şimali Azərbaycanda yeni tarixi şəraitdə, ağır şərtlər altında milli ədəbiyyat formalaşdı. Mirzə İbrahimov, Məmməd Səid Ordubadi, Ənvər Məmmədxanlı, Mir Cəlal, İlyas Əfəndiyev, Əzizə Cəfərzadə və başqaları əsərlərində bölünmüş vətən və cənub mövzusuna müraciət etdilər. Bu səbəbdən sovet siyasi rejimi dönəmində belə Azərbaycan xalqının mənəvi varlığının, ədəbiyyatının əsasını etnomədəni müəyyənlik və millilik təşkil edirdi. Azərbaycan yazıçıları ilə yanaşı, elm xadimləri də xalqın tarixi keçmişinə, bütöv vətən və milli-mənəvi vəhdət ideyasına ciddi şəkildə önəm verir, bu sahədə araşdırmalar aparırdılar.

Sovet siyasi rejiminin bütün mənfi təzahürlərinə, milli azadlıq ruhunun boğulmasına baxmayaraq, Azərbaycanın etnosiyasi və etnomədəni inkişafı sahəsində bir sıra tarixi məsələlər öz həllini tapmışdır. Belə ki, Azərbaycan millətinin etnik əsası möhkəmlənmiş, ziyalılar təbəqəsi sosial strukturda əsas yer tutan iri, çoxsaylı sosial

qrupa çevrilmiş, vahid Azərbaycan ədəbi dili bərqərar olmuş, əhali kütləvi savad əldə etmiş, həmçinin müəyyən mənada milli dövlətçilik və siyasi mədəniyyət ənənələri, milli-etnik özünüdərk şüuru formalaşmışdır. Bütün bu proseslər Azərbaycan dövlətçilik təfəkkürünün güclənməsinə, ana dilinin inkişafına, mədəniyyətin və ədəbiyyatın zənginləşməsinə səbəb olmuşdur.

Bilindiyi kimi, Azərbaycan ədəbiyyatı zaman-zaman milli birlik çağırışları ilə diqqəti cəlb etmişdir. Şimalda Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR, Azərbaycan Respublikası, cənubda İran tərkibində, Azadistan dövləti, Azərbaycan Milli Hökuməti dövlətçilik tarixində mühüm rol oynamış, bölünmüş vətən və milli-mənəvi bütövlük ideyalarının ictimai və milli şüura aşılanmasına təkan vermişdir.

Azərbaycan ədəbiyyatında bölünmüş vətən və milli-mənəvi bütövlük ideyalarının inikasına təsir edən II Dünya müharibəsi, İranda və Cənubi Azərbaycanda baş verən ictimai-siyasi proseslər, SSRİ ilə İran arasında 1922-ci ildə bağlanmış müqaviləyə əsasən 1941-ci ilin avqustunda sovet qoşunlarının bu ölkənin ərazisinə daxil olması regionda ciddi dəyişikliklərə səbəb olmuşdur.

Müstəqillik dövründə bölünmüş vətən mövzusunun tədqiqinə diqqət və qayğının artması Cənubi Azərbaycan elmi məktəbinin yaranmasına və onun yüksək inkişaf mərhələsinə qədəm qoymasına səbəb olmuşdur. Problemlə bağlı tədqiqatlarda yeni metodoloji yanaşmalar, yeni baxışlar formalaşmışdır. Azərbaycanın XIX əsrdə Rusiya və İran arasında parçalanaraq Şimali Azərbaycanın Rusiyaya ilhaqı işğal faktı kimi dəyərləndirilmışdır.

Bölünmüş vətən mövzusu ilə bağlı tədqiqatlar Şimali Azərbaycanda gedən ədəbi proseslərlə qarşılıqlı əlaqədə olan vahid ədəbi prosesin tərkib hissəsi olan bir fenomen kimi göstərilmiş, Cənubdakı vətənpərvər ədəbiyyatın demokratik, milli dəyərləri müqayisəli təhlilə cəlb olunmuşdur. Müstəqil Azərbaycanda bölünmüş vətən və milli-mənəvi bütövlük ideyası ilə bağlı azərbaycançılıq ruhunda aparılan tədqiqatlarda Cənubi Azərbaycan türkcəsinin vahid Azərbaycan dilinin ayrılmaz tərkib hissəsi kimi göstərilməsi İranda bu dillə bağlı qeyri-elmi və qərəzli konsepsiyalara ağır zərbə vurmuşdur.

Cənubi Azərbaycan ədəbiyyatı ilə bağlı müxtəlif səpkili tədqiqatlarda oradakı ədəbi prosesin fərqliliyinə kifayət qədər diqqət yetirilməlidir. Cənubda və Şimalda yaranan ədəbiyyatın vahid vətənin, bütöv milli-mənəvi dəyərlər vəhdətinin bədii inikası olduğu diqqət mərkəzinə çəkilməli, Cənubi Azərbaycan ədəbi prosesinin bütöv Azərbaycan ədəbiyyatını zənginləşdirən özünəməxsus spesifik bir proses kimi milli özünüdərkin, vətənçilik ideyalarının tərənnümçüsü olan inkişaf xüsusiyyətləri aşkarlanmalıdır. Bütün bunlar müdafiəyə təqdim olunan dissertasiya işinin aktuallığını səciyyələndirən amillərdir.

Mövzunun ayrı-ayrı aspektləri bir çox tədqiqatçılar tərəfindən araşdırılmışdır. Mirzə İbrahimov, Cəfər Xəndan, Teymur Əhmədov, Balaş Azəroğlu, Hökumə Bülluri, Cavad Heyət, Sabir Əmirov (Nəbioğlu), Cəmil Həsənli, Nazim Rizvan, Almaz Əliqızı (Məmmədova), Pərvanə Məmmədli, Esmira Fuad, Gözəl Ağayeva, Nəzakət İsmayılova, Türkiyə ədəbiyyatşünası Əli Yavuz Akpinar, Əli Qafqasiyalı, Səbahəddin Şimşir, Ənvər Uzun, Ufuk Özcan və başqalarının araşdırmalarında bütöv Azərbaycançılıq məfkurəsi, bölünmüş vətən, milli-mənəvi birlik problemi ədəbi-nəzəri və tarixi-kulturoloji müstəvidə təhlil obyektinə çevrilmişdir.

Azərbaycan mühacirət ədəbiyyatşünaslığında yaranmış ədəbi-kulturoloji və tarixi-publisistik səpkili tədqiqatlarda bölünmüş vətən və milli-mənəvi bütövlük problemi araşdırma obyektinə çevrilmişdir. Əhməd bəy Ağaoğlu [4, s.5], Məhəmməd Əmin Rəsulzadə [228; 287; 288; 289; 290], Mirzəbala Məmmədzadə [202; 283; 284], Nağı Keykurun [282], Sənan Azər [266], Kərim Odər [285] və başqa müəlliflərin araşdırmalarında İran türkləri, Çənubi Azərbaycan ədəbiyyatı, bölünmüş vətən və milli-mənəvi kimlik problemi müxtəlif səpkidə tədqiqat obyektinə çevrilmişdir.

Filologiya elmləri doktoru, professor Cəfər Xəndanın "Uğur yolu" adlı iri həcmli tədqiqatında Azərbaycanın Cənubunda yaranan ədəbiyyatın ümumi mənzərəsi yaradılmışdır [141]. Bu tədqiqatın yaranması siyasi cəhətdən ikiyə parçalanmış Azərbaycanın ədəbi-mədəni həyatında baş verən proseslərə diqqətin yönəldilməsi baxımından əhəmiyyətlidir.

Filologiya elmləri doktoru, professor Teymur Əhmədovun hazırladığı "Azərbaycan yazıçıları XX-XXI yüzilliklərdə" ensiklopedik tədqiqatında Şimali və Cənubi

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin bioqrafiyası haqqında sistemli məlumat verilmişdir [78].

Görkəmli türkoloq-ədəbiyyatşünas Cavad Heyətin əsərlərində Güney Azərbaycan, bölünmüş vətən və milli-mənəvi bütövlük problemi ədəbiyyat tarixi ilə bağlı tədqiqiatlar fonunda şərh edilmişdir [112; 113; 114; 115; 116; 117; 118; 119]. Tədqiqatçı folklor qaynaqlarından başlayaraq müasir dövrə qədər yaranıb inkişaf edən o taylı bu taylı Azərbaycan ədəbiyyatını, bu ədəbiyyatın görkəmli nümayəndələrinin yaradıcılığını təhlil obyektinə çevirmiş, mövcud ədəbi prosesi ortaq elmi-nəzəri dəyərlər kontekstində araşdırmaya cəlb etmişdir.

AMEA-nın müxbir üzvü, professor Əlyar Səfərlinin ədəbiyyatşünaslıq, ədəbi-publisistik və tarixi-kulturoloji səpkili araşdırmalarında Güney Azərbaycan, bölünmüş vətən və milli-mənəvi bütövlük məsələləri araşdırılmışdır. Müəllifinin biri-birinin ardınca nəşr etdirdiyi, məqalələr toplusundan ibarət "Bölünmüş Azərbaycan", "Yaralı Azərbaycan", "Dərdli Azərbaycan", "Həsrətli Azərbaycan" kitablarındakı yazıları bəhs olunan problemin müxtəlif yönlərdən səciyyələndirilməsi baxımından diqqəti çəkir [238; 239; 240; 241].

Professor Yavuz Axundlunun Azərbaycan bədii nəsrinə, xüsusilə tarixi roman janrına həsr olunmuş monoqrafik araşdırmalarında və məqalələr toplularından ibarət kitablarında mövcud ədəbi örnəklərin təhlili fonunda parçalanmış vətən və milli-mənəvi birlik probleminə toxunulmuş, məsələnin müxtəlif aspektləri elmi-nəzəri təhlil obyektinə çevrilmişdir [9; 10; 11; 13].

Filologiya elmləri doktoru Sabir Nəbioğlunun (Əmirov) araşdırmalarında Azərbaycanın Cənubunda yaranan ədəbiyyatın görkəmli nümayəndələrinin həyat və yaradıcılıq yolu geniş sferada tədqiq olunmuşdur. Alimin "Cənubi Azərbaycan milli-demokratik ədəbiyyatı" monoqrafiyasında 1941-1990-cı illər ədəbiyyatı sistemli şəkildə təhlilinin tapmışdır [100]. Sabir Nəbioğlunun müxtəlif müəlliflərin yaradıcılığına həsr elədiyi monoqrafiyalarda, məqalələr toplularından ibarət kitablarında Cənubi Azərbaycan ədəbiyyatı şəxsiyyətlər və problemlər işığında araşdırılmaqla yanaşı, həmçinin bölünmüş vətən, milli-mənəvi birlik problemi müxtəlif prizmalardan elmi-nəzəri şərhini tapmışdır [209; 210; 211; 212; 213].

Filologiya elmləri namizədi, əslən Azərbaycanın Güneyindən olan ədəbiyyatşünas Nazim Rizvanın "Cənubi Azərbaycan ədəbiyyatının yeni inkişaf mərhələsi" adlı monoqrafik tədqiqatında 1850-1920-ci illər ədəbiyyatının araşdırılması fonunda bölünmüş vətən və milli-mənəvi bütövlük problemi təhlil obyektinə çevrilmişdir [229].

Filologiya elmləri doktoru, professor Almaz Əliqızının tədqiqatlarında XX əsr Cənubi Azərbaycan ədəbiyyatı əhatəli təhlilini tapmış, onun ayrı-ayrı təmsilçilərinin yaradıcılığı müxtəlif rakurslardan dəyərləndirilmişdir [83; 84]. Həmçinin Almaz Əliqızının Dilbər Zamanzadə ilə birlikdə qələmə aldığı "Ədəbiyyatımızın aktual problemləri" adlı məqalələr toplusu da Cənubi Azərbaycan mövzusuna həsr olunmuşdur [85].

Filologiya üzrə elmlər doktoru Esmira Fuad (Şükürova), filologiya üzrə fəlsəfə doktorları Pərvanə Məmmədli, Gözəl Ağayeva, Nəzakət İsmayılova və başqa müəlliflərin əsərlərində əsasən Cənubi Azərbaycanda yaranan ədəbiyyat bu və ya digər müstəvidə tədqiq olunmuş, nəşr edilən əsərlərdə bölünmüş vətən mövzusuna diqqəti yönəldilməsinə çalışmışlar [7; 105; 155; 187; 188; 189; 191; 194].

Filologiya üzrə elmlər doktoru Vüqar Əhmədin Şeyx Məhəmməd Xiyabani və Seyid Cəfər Pişəvərinin həyat və yaradıcılığına həsr olunmuş tədqiqatlarında Cənubi Azərbaycan, bölünmüş vətən və milli-mənəvi bütövlük problemi müxtəlif rakurslardan təhlil obyektinə çevrilmişdir [75; 76].

Ədəbiyyatşünas Mahmizər Mehdibəyovanın (Həmidqızı) Zeynalabdin Marağalının yaradıcılığına həsr olunmuş monoqrafiyasında ədibin həyatı və "İbrahimbəyin səyahətnaməsi" romanı müstəqil tədqiqat obyektinə çevrilmişdir [125]. Müəllifin "Cənubi Azərbaycan mühacirət nəsri" tədqiqatında isə Cənubdan Şimala mühacirət etmiş görkəmli Balaş Azəroğlu, Mədinə Gülgün, Həmzə Fəthi Xoşginabi, Abbas Pənahi Makulu, Qəhrəman Qəhrəmanzadə, Əli Tudə, Söhrab Tahir və digər yazıçı və şairlərin əsərləri təhlil edilmişdir [180]. Bu tədqiqatda Cənubi Azərbaycanın mühacirət nəşri Şimali Azərbaycanda gedən ədəbi prosesin tərkib hissəsi kimi canlandırılmışdır.

Ali məktəblər üçün nəzərdə tutulmuş dərsliklərdə, həmçinin ədəbiyyat tarixinin müxtəlif problemlərindən bəhs edən tədqiqatlarda Cənubi Azərbaycan probleminə də bu və ya digər şəkildə toxunulmuşdur. Xüsusilə, Mir Cəlal və Firudin Hüseynovun ali məktəblər üçün yazdığı "XX əsr Azərbaycan ədəbiyyatı" dərsliyində Cənubi Azərbaycan ədəbiyyatının tədqiqinə müəyyən yer verilmişdir [204, 275-293].

Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövrünün ədəbi-mədəni həyatı ilə bağlı araşdırmalarda bölünmüş vətən və milli-nənəvi bütövlük məsələlərinə toxunulmuşdur [41]. Eyni zamanda, AXC liderlərinin əsərlərində problemin fərqli aspeklərini şərh olunmuşdur [287; 288; 289; 290].

Həmçinin S.C.Pişəvərinin öndərliyi ilə qurulmuş Azərbaycan Milli Hökuməti (1945-1946) haqqında yazılmış tarixi-siyasi və ədəbi-kulturolji səpkili araşdırmalarda parçalanmış vətən, milli-mənəvi bütövlük problemləri bu və ya digər kontekstdə diqqət mərkəzinə çəkilmişdir [223; 224].

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəşrə hazırladığı Cənubi Azərbaycan ədəbiyyatına həsr olunmuş məqalələr toplularında araşdırmaya cəlb olunan problemin müxtəlif aspektləri araşdırılmışdır [64; 65; 66; 67; 68]. Həmçinin müxtəlif dövrlərdə hazırlanan Cənubi Azərbaycan ədəbiyyatı ilə bağlı antologiyalar problemin müxtəlif aspektlərinin öyrənilməsinə bu və ya digər şəkildə təkan vermişdir [59; 60; 61; 62; 63; 70; 110; 295].

Görkəmli Azərbaycan yazıçısı Məmməd Səid Ordubadinin yaradıcılığına, xüsusilə "Dumanlı Təbriz" romanına həsr olunmuş müxtəlif səpkili araşdırmalarda Cənubi Azərbaycanın ictimai-siyasi həyatının müxtəlif sahələri, etnoqrafiya və adət-ənənələri, habelə məşrutə və milli azadlıq dövrünün elmi-nəzəri mənzərəsinin yaradılmasına çalışılmışdır [12; 39; 120; 134; 260].

XX əsrin görkəmli yazıçı və ədəbiyyatşünası Mirzə İbrahimovun yaradıcılığına həsr olunmuş müxtəlif səpkili tədqiqatlarda bölünmüş vətən və milli-mənəvi birlik məsələsi bu və ya digər şəkildə təhlil obyektinə çevrilmişdir [80; 111; 190; 195; 158].

Türkiyə ədəbiyyatşünası Əli Yavuz Akpinar, Əli Qafqasiyalı, Səbahəttin Şimşir, Ufuk Özcan, Ənvər Uzun və digər araşdırıcıların əsərlərində bölünmüş Azərbaycan və milli-mənəvi bütövlük problemi bu və ya digər kontekstdə araşdırma obyektinə

çevrilmişdir. Professor Əli Yavuz Akpinarın "Azəri ədəbiyyatı araşdırmaları" adlı tədqiqatında Azərbaycanın Güneyindəki ədəbi proses, parçalanmanın milli-mədəni təfəkkürdəki izləri təhlil olunmuş, ayrı-ayrı şəxsiyyətlərin yaradıcılığı incələnmişdir [305]. Türkiyənin Ərzurum Atatürk Universitetinin professoru Əli Qafqasiyalının araşdırmaları monumentallığı ilə diqqəti çəkir. O, "İran türkləri aşıq mühitləri" [279], "İran coğrafiyasında türklər" [280] və "İran türkləri" [281] monoqrafik əsərlərində Güney Azərbaycan ədəbiyyatını sistemli təhlilə çəkmiş, həmçinin altı cilddən ibarət "İran Türk ədəbiyatı antologiyası"nı hazırlayaraq nəşr etdirmişdir [273;274; 275; 276; 277; 278]. Balıkesir Universitetinin professoru Səbahəddin Şimşirin "Azərbaycan istiqlal mücadiləsi" adlı araşdırmasında, İstanbul Universitetinin dosenti Ufuk Özcanın "Əhməd Ağaoğlu və rol dəyişikliyi" monoqrafiyasında Azərbaycan türklərinin istiqlal hərəkatının tədqiqi kontekstində bölünmüş vətən və milli-mənəvi birlik məsələlərinə toxunulmuşdur [291; 286]. Dr. Ənvər Uzunun "İran türklərinin basın tarixi" [292], "İran türk folkloru" [293] və "İran izlənimlərim: tarix və etnoqrafiya" [294] əsərlərində Azərbaycanın Güneyində folklor, yazılı ədəbiyyat və milli mətbuat tarixi sistemli şəkildə araşdırılmışdır.

Əslən Azərbaycanın Güneyindən olan Hollandiya alimi, professor Turac Atabəyinin "Azərbaycan: etnik mənsubiyyəti və İranda qüdrət uğrunda mübarizəsi" adlı tədqiqatında bölünmüş vətən və milli-etnik kimlik problemi tarixi-kulturoloji prizmanadan dəyərləndirilmişdir [17].

Bundan əlavə, ABŞ tədqiqatçısı Tadeuş Svyatoxovski, Audrey Altstadt, Devid Nissman ikiyə parçalanmış Azərbaycan xalqının milli kimlik və mənəvi bütövlük problemini müxtəlif yönlərdən tədqiqat obyektinə çevirmişlər [243; 321; 322; 323; 324; 331; 332; 329].

Azərbaycan alimlərindən Şövkət Tağıyeva, Əkrəm Rəhimli, Cəmil Həsənli, Nəsib Nəsibzadə və başqaları Cənubi Azərbaycanı və xalqın milli-mənəvi bütövlük problemini tarixi kontekstdə araşdırmış, problemin siyasi-kulturoloji aspektlərini açıqlamışlar [126; 128; 214; 223; 224; 253; 301].

Lakin bütün bu tədqiqatlara baxmayaraq Azərbaycan ədəbiyyatşünaslığında bölünmüş vətən və milli-mənəvi birlik problemi indiyədək sistemli şəkildə araşdırma

obyektinə çevrilməmişdir. Müdafiəyə təqdim olunan dissertasiya işi məhz bu zərurətdən yaranmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi XX əsr Şimali Azərbaycan nəsrində və Cənubi Azərbaycan mühacirət ədəbiyyatında bölünmüş vətən və milli-mənəvi bütövlük ideyalarının inikasını filoloji aspektdən araşdırmaqdır.

Bu məqsədə nail olmaq üçün başlıca olaraq aşağıdakı vəzifələrin yerinə yetirilməsinə çalışılmışdır:

– XX əsr Azərbaycan bədii nəsrində bölünmüş vətən probleminə diqqətin yönəldilməsi;

– Milli ədəbiyyatda bölünmüş vətən və milli-mənəvi bütövlük ideyalarına dair yazan sənətkarların əsərlərinin sistemli şəkildə təhlil edilməsi;

– Sovet siyasi rejiminin Cənubi Azərbaycan problemi ilə bağlı siyasətinin həqiqi mahiyyətinin aşkarlanması;

– Repressiya şəraitində bölünmüş vətən və milli-mənəvi bütövlük ideyalarının inikasının sırf ideoloji xarakter kəsb etməsinə diqqətin yetirilməsi;

– Azərbaycan Xalq Cümhuriyyəti dövründə bədii nəsrdə milli-mənəvi bütövlük amalının güclənməsinə diqqətin yönəldilməsi;

– Azərbaycan nəsrində Cənub mövzusunun - məşrutə və milli azadlıq hərəkatının bədii təsvirini səciyyələndirilməsi;

– Cənubi Azərbaycanın mühacirət ədəbiyyatında bölünmüş vətən və milli-mənəvi bütövlük ideyalarının bədii təsvirinin araşdırılması;

– İkiyə parçalanmış Azərbaycan xalqının ədəbiyyat tarixinin bütöv mənzərəsinin yaradılması zərurətinin səciyyələndirilməsi.

**Tədqiqatın metodları.** Azərbaycan ədəbiyyatında bölünmüş vətən və milli-mənəvi bütövlük məfkurəsi haqqında mövcud elmi-nəzəri fikir və mülahizələr tədqiqatın nəzəri metodoloji əsasını təşkil edir. Problemin tədqiqi prosesində tarixi-müqayisəli metod əsas götürülmüşdür. Qarşıya qoyulan problemin həllinə kompleks şəkildə, vahid Azərbaycan ədəbiyyatı kontekstində yanaşılmış, araşdırmaya cəlb olunan materiallar elmi-nəzəri baxımdan tədqiq və təhlil edilmişdir. Tədqiq

prosesində və ümumiləşdirmələrdə dünya ədəbiyyatşünaslığının müvafiq elmi-nəzəri araşdırmaları diqqət mərkəzində saxlanılmış, müqayisəli təhlillər aparılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

– Azərbaycan nəsrində bölünmüş vətən və milli-mənəvi bütövlük ideyası ədəbi tənqid və ədəbiyyatşünaslıq kontekstində;

– AXC dövründə bölünmüş vətən ideyasının bədii ifadə özünəməxsusluğu;

– Sovet dövrü Azərbaycan nəsrində milli-mənəvi bütövlük ideyasının bədii əksi;

– Sovet dövrü Azərbaycan nəsrində Cənubda gedən milli-azadlıq hərəkatına münasibət;

– Cənub Azərbaycan mühacirət ədəbiyyatında bölünmüş vətən və milli-mənəvi bütövlük ideyasının bədii təcəssümü.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan ədəbiyyatşünaslığında bölünmüş vətən və milli-mənəvi bütövlük problemi ilə bağlı müxtəlif səpkili araşdırılmalar aparılsa da, indiyədək məsələyə konseptual şəkildə yanaşılmamışdır. Müdafiəyə təqdim olunan dissertasiyada ilk dəfə olaraq XX əsr Şimali Azərbaycan nəsrində və Cənubi Azərbaycan mühacirət ədəbiyyatında bölünmüş vətən və milli-mənəvi bütövlük ideyası sistemli şəkildə araşdırılmışdır.

Azərbaycan ədəbiyyatşünaslığında bu sahədə görülmüş faydalı işlərə baxmayaraq bölünmüş vətən və milli-mənəvi bütövlük ideyalarının təhlili dissertasiya səviyyəsində elmi tədqiqat obyektinə çevrilməmişdir.

Tədqiqat işində isə ilk dəfə olaraq bir əsrlik tarixə malik Azərbaycan nəsrində, həmçinin Cənub Azərbaycan mühacirət ədəbiyyatında bölünmüş vətən və milli-mənəvi bütövlük ideyasının filoloji elmdə mövqeyini, yerinə yetirdiyi ideya-estetik funksiyanı ayrıca, hərtərəfli, sistemli tədqiqat predmeti kimi götürülmuş, onun tipoloji xüsusiyyətləri, ədəbi mərhələ keyfiyyətləri ədəbi-tarixi, ədəbi-müqayisəli yanaşmalar şəklində müasir ədəbiyyatşünaslıq mövqeyindən diqqət mərkəzinə gətirilmişdir. Bədii nəsrdə bölünmüş vətən və milli-mənəvi bütövlük ideyası Cənubi Azərbaycan mühacirət ədəbiyyatından təcrid olunmuş şəkildə deyil, bütöv Azərbaycan ədəbiyyatı kontekstində, vahid ədəbi-tarixi prosesin tərkib hissəsi kimi təhlil obyektinə çevrilmişdir.

Tədqiqatda ilk dəfə olaraq XX əsr Şimali Azərbaycan nəsrində və mühacir Cənubi Azərbaycan ədəbiyyatında bölünmüş vətən ideyasının yaranmasının ictimai-siyasi və sosial-tarixi səbəbləri, ideya-estetik xüsusiyyətləri, inkişaf mərhələləri kompleks şəkildə araşdırılmışdır.

Dissertasiyanın elmi yeniliyini şərtləndirən əsas məqamlardan biri də təhlilə çəlb olunan ədəbi-bədii əsərlərin dövrün tarixi-siyasi hadisələri kontekstində dəyərləndirilməsidir.

Tədqiqatda işində bölünmüş vətən mövzusuna zaman-zaman müraciət etmiş yazıçıların əsərləri fonunda nəzəri təhlillər və ümumiləşdirmələr aparılmışdır. Dissertasiyada sovet dönəmində bölünmüş vətən və milli-mənəvi bütövlük ideyalarının bədii inikasının qarşısına çıxan əngəllərin və xüsusiyyətlərin aydınlaşdırılması, həm sovet dövründə, həm də müstəqillik illərində milli ədəbiyyatımızda bölünmüş vətən və milli-mənəvi bütövlük ideyalarının tədqiqinə dair tədqiqatların nəzərdən keçirilməsi, onun ideya-siyasi, sənətkarlıq xüsusiyyətləri araşdırılaraq konkret elmi qənaətlərə gəlməsi diqqət mərkəzində durmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın başlıca nəzəri əhəmiyyəti XX əsr Şimali Azərbaycan nəsrində və Cənubi Azərbaycan mühacirət ədəbiyyatında bölünmüş vətən və milli-mənəvi bütövlük ideyasının bədii inikasının yaranmasının siyasi, tarixi, ədəbi-kulturoloji səbəbləri, məzmun, mövzu istiqamətləri, ideya-estetik xüsusiyyətləri və inkişaf mərhələlərinin səciyyələndirilməsindən ibarətdir. Mövzunun öyrənilməsi müasir ədəbiyyatşünaslıq elminin ən aktual vəzifələrindən olub bölünmüş vətən mövzusu sahəsində aparılan araşdırmalar və axtarışlarla bağlı toplanmış elmi təcrübə həmin mövzu sahəsində gələcək tədqiqatlar üçün geniş imkanlar yaradacaqdır.

**Aprobasiyası və tətbiqi.** Araşdırmanın məzmunu Azərbaycanın və müxtəlif xarici ölkələrin elmi toplu və jurnallarında dərc olunmuş otuz məqalə və tezisdə, konfranslarda oxunmuş məruzələrdə əksini tapmışdır. Dissertasiyanın mövzusu ilə bağlı ayrıca monoqrafiya nəşr edilmişdir. Tədqiqatın nəticələrindən ali təhsil müəssisələrində əlavə vəsait kimi də istifadə oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında hazırlanmışdır. Dissertasiyanın mövzusu BDU-nun Filologiya fakültəsi Elmi Şurasının 30 oktyabr 2008-ci il tarixli iclasında (protokol № 01) təsdiq olunmuşdur. Mövzu Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Filologiya problemləri üzrə Elmi Şurasının 30 iyun 2016-cı il tarixli iclasında (protokol № 6) təsdiq olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş (21560), I fəsil (67300), II fəsil (152433), III fəsil (76244), IV fəsil (127378), nəticədən (13.498) ibarət olmaqla, ümumi həcmi (493321) 262 səhifədir.

# I FƏSİL

# XX ƏSR ŞİMALİ VƏ CƏNUBİ AZƏRBAYCAN NƏSRİNDƏ BÖLÜNMÜŞ VƏTƏN İDEYASININ YARANMASINI ŞƏRTLƏNDİRƏN İCTİMAİ-SİYASİ VƏ TARİXİ-KULTUROLOJİ AMİLLƏR

## 1.1. Bölünmüş vətənin bütövlüyü uğrunda Azərbaycan ziyalılarının ədəbi-mədəni və siyasi mücadiləsi

Vahid vətən və milli-mənəvi bütövlük ideyası Azərbaycanda dövlətçiliyin təşəkkülü və inkişafı ilə sıx əlaqədar olan proses kimi təzahür etmişdir.Vahid vətən ideyası XIX əsrə qədər Azərbaycan dövlətçiliyinin tərkib hissəsi kimi bütün azərbaycanlıların milli-mənəvi bütövlüyünə xidmət etmişdir.

"*Qafaziyada mütəşəkkil dövlətlərin iqtisadca ən qüvvətlisi*" [272, s.32] olan Azərbaycan dövləti vahid vətən ideyasının keşiyində durub, ali siyasi hakimiyyət orqanı kimi milli-mənəvi bütövlüyü həyata keçirmişdir. Vahid ölkə olsa da, Azərbaycanın şimal və cənub ərazilərində fərqli dövlət qurumları yaranmışdır. Ümumtürk dövlət qurumu olan "el" birgə mövcudluq forması kimi vahid vətənçilik hissini daha da gücləndirirdi. "*Türk cəmiyyəti, türk "Eli" sülh üzərində qurulmuş hərbi demokratiya*" [246, s.79] hesab edilir. Tayfa dövlətçiliyi və mərkəzləşmiş dövlətçilik ənənələri olan Azərbaycanda vahid vətənçilik və milli-mənəvi birliyi möhkəmləndirən ortaq türk abidəsi "Kitabi Dədə Qorqud" dastanıdır. Burada təsvir olunan hadisələr vahid xalq birliyi və dövlət quruluşu fonunda cərəyan edir. Həmçinin burada dövlətçiliyin bütün atributlarından, vahid vətən ideyasından, milli-mənəvi bütövlük, siyasi-hərbi güc, ailə, ağsaqqallıq, orduya və milli ənənələrə malik el kultundan bəhs olunur. Professor N.Şəmsizadənin bu barədəki fikirləri maraq doğurur: "*Tarix inkişaf etdikcə belə bir həqiqət aşkarlanır ki, xalqın böyüklüyü onun mənəvi sərvətlərinə, maddi mədəniyyətinə olan məhəbbəti, qədirşünaslığı ilə ölçülür... Xalqın milli mentaliteti onun əsrlər boyu yaratdığı abidələrin mənəvi ənənələri zəminində inkişaf edərək formalaşır. Bu mənada "Kitabi – Dədə Qorqud", "Manas", "Bilqamıs", "Alpamış" kimi abidələr təkcə türk xalqlarının deyil, bütün*

*dünya xalqlarının əqli - mənəvi qida mənbəyidir*" [246, s.88]. Müəllif xalqın gücünü onun milli-mənəvi bütövlüyündə görür.

Məlum olduğu kimi, dünyanın bir çox xalqları müəyyən tarixi hadisələrin təsiri və beynəlxalq münasibətlər kontekstində bölünmüş vətən taleyini yaşamalı olmuşlar. Bunlardan Almaniya II Dünya Müharibəsindən sonra Antihitler koalisiya ölkələri tərəfindən bölünərək kapitalist AFR-ə və sosialist ADR-ə bölünür, ÇXR-dən Tayvan ayrıldı, Vyetnam, Koreya isə ABŞ və SSRİ-nin qarşıdurması sayəsində ikiyə parçalanmışdı. Azərbaycan xalqının taleyi isə daha acınacaqlı olmuş, XIX əsrdə Rusiya və İran arasında işğala məruz qalmış və bu acı taleyi indi də yaşamaqdadır.

VII əsrin sonu, VIII əsrdən Azərbaycan dövlətçiliyinə və etnik birliyinə din birliyi də əlavə olundu, milli-mənəvi bütövlüyə dil birliyi, türk-müsəlman amili daxil oldu. Bütün Azərbaycan ərazisində müxtəlif türkdilli, irandilli, qafqazdilli etnosların birliyindən ibarət vahid xalq formalaşdı.

XVIII əsrdə quruluşu etibarı ilə İran monarxiyasının kiçik formasına bənzər Azərbaycan xanlıqları yarandı.

ABŞ-ın azərbaycanşünas alimi, professor Tadeuş Svyatoxovski qeyd edir ki, Azərbaycanın yeni dövlətçilik quruculuğunda birlik ənənəsi yox idi. Eyni zamanda xanlıqların hamısı heç də etnik cəhətdən yekcins deyildi. Ayrı-ayrı xanlıqlarda kürdlər, talışlar, ləzgilər, həm də ermənilər yaşayırdılar. Tədqiqatçı "*Şimali və Cənubi Azərbaycanın yerli hökmdarları arasında aparılan bir xanlığı digər xanlıqlar hesabına genişləndirmək yolu ilə vahid bir dövlət yaratmaq üçün müharibələr*" [243, s.6] aparıldığını da qeyd edir.

Bilindiyi kimi, Zaqafqaziya, o cümlədən bütöv Azərbaycan tarixən Rusiya, İran və Türkiyənin geosiyasi maraqları uğrunda gərgin mübarizə, hətta müharibə meydanına çevrilmişdir. XIX əsrdə Rusiya və İran arasında müharibə nəticəsində Azərbaycan Şimali (bəzi müəlliflərin yazdıqları kimi Rusiya Azərbaycanına) və Cənubi (və yaxud İran Azərbaycanına) Azərbaycana bölündü.

Bu tarixi faciədən sonra Azərbaycan ədəbiyyatında "*Cənub həsrətinin ifadəsi formalaşmağa başladı. Bu ifadə nəsllər və dövrlər arasında qırılmaz varislik yaradan mənəvi-tarixi amillərdən biridir. Azərbaycan ədəbiyyatının, Azərbaycan ictimai-*

*siyasi fikrinin neçə-neçə nəsli bu mövzuya, bu ümumxalq probleminə fəal diqqət yetirmiş, vahid bir xalqın, torpağın ədalətsizcəsinə iki yerə parçalanması faktını dərin ürək ağrısı ilə qələmə almışdılar*" [207].

1828-ci ildə Azərbaycanın Rusiya və İran arasında parçalanması təkcə ərazimizim, vətənimizin deyil, həm də mədəniyyətimizin, ədəbi-bədii prosesimizin bölünməsinə gətirib çıxartdı. "*Türkmənçay müqaviləsi nəticəsində milli-mənəvi bütövlüyə, eyni tarixi köklərə, eyni əraziyə – vahid vətənə, bir dilə, mədəniyyətə və həyat tərzinə malik bir xalq iki hissəyə ayrılmış oldu*" [69, 6]. Lakin Azərbaycan "*ərazi baxımından dilim-dilim doğransa da, milli-mənəvi bütövlüyünə görə sabitdir*" [239, 333]. Çünki parçalanma sosial-siyasi və mədəni əlaqələrin qarşısında böyük manelər yaratsa da, vahid bir "*xalqın mənəvi varlığını ehtiva edən dilinə və bədii ədəbiyyatına təsir edə bilmədi*" [172, s.3].

Parçalanmadan iyirmi üç il sonra 1841-ci ildə Abbasqulu ağa Bakıxanov vahid Azərbaycanın – Dərbəndin, Şimali və Cənubi Azərbaycanın bütöv tarixinə həsr olunmuş "Gülüstani-İrəm" tarixi əsərini yazdı. Müəllif Şirvan, Dağıstan və Cənubi Azərbaycanda baş verən tarixi hadisələri (qədim dövrdən XIX əsrədək) Səfəvilərin, Nadir şahın tarixdəki fəaliyyətlərini təsvir etmişdir. Əsərin girişində göstərilir ki, "*Tarix bizi xalqın nə dərəcədə yaranması ilə, onun mənəviyyatı ilə birgə mövcudluğunun faydaları ilə və siyasəti ilə tanış edir. Buna görə də, onu ən yüksək, ali mənəvi-ruhi elmlərdən biri hesab etmək olar*" [296, s.9]. Məhz vətənin ikiyə bölünməsinin tərcüməçi kimi canlı şahidi olan A.Bakıxanov vahid vətən hissi ifadə edən ilk əsəri – "Gülüstani-İrəm" kitabını yazdı [246, s.103]. Bu fikri professor Bədirxan Əhmədov da inkişaf etdirərək "*A.Bakıxanovun "Gülüstani-İrəm" əsərindəki vətən və onun coğrafiyasının araşdırmalarının vahid vətən ideyasının sonrakı mərhələləri üçün zəngin baza və mənbə rolu oynadığını bildirir*" [77, s.9].

Məlum olduğu kimi, "*...Türkmənçay bağlaşmasından sonra Azərbaycan xalqının tarixi taleyində olduğu kimi, mədəni-siyasi taleyində də köklü dəyişiklik əmələ gəldi; tarix Azərbaycanın Quzeyində və Güneyində iki müxtəlif məcrada – fərqli durum, artan iqtisadi təzyiqlər, təsərrüfat, dolanışıq qayğıları xalqın mənəvi dünyasına, bədii mədəniyyətinə də təsirsiz qalmadı. Dəyişən ictimai-tarixi şərait söz*

*sənətinin məzmununa da yenilik gətirdi və XIX əsrin 60-cı illərindən başlayaraq ədəbiyyatın inkişafı həm Şimalda, həm də Cənubda təzə yön alaraq bir-birindən seçilməyə başladı; Güneydə bədii fikir daha çox klassik ənənələrə söykənərək inkişaf edirdi; Quzeydə modern ədəbi düşüncə, yeni bədii-estetik idrak və inikas üsulları formalaşır, M.F.Axundzadənin timsalında orijinal yazıçı tipi, təzə ədəbi növ və janrlar meydana gəlirdi. Lakin mənəviyyatdakı və etnik psixologiyadakı bütövlük parçalanmır, əksinə, daha da möhkəmlənirdi*" [104].

Şimali Azərbaycan ədəbiyyatı Rusiya vasitəslə modern Avropa dəyərlərinə qovuşduğu halda, Cənubi Azərbaycan ədəbiyyatında hələ də divan şeiri ənənələri üstünlük təşkil edirdi. Bu dövrdə Şərq ölkəsi olan İranda din dili kimi ərəb dili, yazı dili fars dili, danışıq, ünsiyyət dili türk (Azərbaycan – A.H) dili idi. "*Türk dilində danışılır, türk dilində çıxışlar edilir, dini söyləmələr söylənilir, ancaq yazıya gəlincə bütünü farsca yazılır*" [59, s.35]. Halbuki bunun əksinə olaraq bir ovuc ermənin İranda həm qəzeti, həm məktəbi və nəhayət özünümüdafıə dəstələri də var idi. O da məlumdur ki, azərbaycanlılar ana dilində təhsil almırdılar. Bu mənada Cənubi Azərbaycanda yaşayan türklərin "*ən böyük faciəsi onun ana dilində təhsilinə imkan verilməməsidir*" [241, s.71]. Başqa sözlə, "*İran adlanan ölkədə türk dilinə qarşı təhqir və həqarət rejimin siyasətinin tərkib hissəsi, ümdə tələbidir*" [238, s.27].

Bəlli olduğu kimi, İrana Avropa mədəniyyətini, Qərb düşüncə tərzini Azərbaycan türkləri gətirmişlər [182, s.26]. Lakin "*İranda türklər uzun zaman iqtidarda olsalar da, farsları və digər etnik qrupları dışlayan və türk kimliyinə dayalı bir dövlət qurmamışlar*" [109, s.21]. Bu isə təbii olaraq sonrakı mərhələdə Azərbaycan türklərinin milli-mənəvi bütövlük məsələsində ciddi sosial-siyasi problemlərin yaranmasına gətirib çıxarmışdır. Böyük mütəfəkkir Əhməd bəy Ağaoğlunun qənaətincə, "*əgər türk sülalələrində milli şüur olsa idi ... bu suratlə türk kültürü milliləşərək bütün Şərqə hakim olacaqdı. Əlişir Nəvainin əsəri isbat edir ki, türk lisanı belə bir kültürü daşımaq və bəsləmək qabiliyyətinə malikdir. Fəqət, nə çarə ki, iştə bu şüur olmamışdır*" [4, s.29]. Yenə Ə.Ağaoğlunun fikrincə, İranda hakimiyyət türklərin əlində olsa belə sarayda "*iş başına keçmiş olan dövlət adamlarının sicilləri incələnirsə, aralarında yüzdə iyirmisinin belə türk olmadığı anlaşılır*" [6,

s.126]. Şübhəsiz ki, bu və buna bənzər amillər Azərbaycan türklərinin taleyinə təsirsiz ötüşməmişdir.

Azərbaycanın xalq yazıçısı, akademik Mirzə İbrahimov yazırdı: "*Hakim fars şovinizmi, müstəbid şah hakimiyyəti artıq neçə əsr idi ki, İranda yaşayan başqa millətlərin, xüsusən farslardan sonra böyük əksəriyyətini təşkil edən... Cənubi Azərbaycan əhalisinin milli hüquq və ixtiyaratını qəbul etmirdi. Həmin Rza şah "Azərbaycan" sözünü xəritədən tamamilə silmək üçün İranı "ostanlara" (vilayətlərə) bölmüşdü. Bütün bunlara baxmayaraq azərbaycanlılar, kürdlər və başqaları özlərinin qədim milli mədəniyyətlərini böyük çətinliklərlə də olsa qoruyub saxlayır, yaşayır, inkişaf etdirirdilər. İstibdadın təqibləri, həyata keçirdiyi cəza tədbirləri isə xalqı daha da qəzəbləndirir, gücləndirirdi... Bununla belə, xalqın taleyi və həyatı ilə bağlı olan bu böyük məsələlərə yazıçılar, şairlər heç vaxt biganə qala bilməzlər... Xalqın ruhunu, dəruni istəklərini əks etdirən əsl vətənpərvər şairlər Azərbaycan ədəbiyyatının bütün tarixi boyu varlığımızı, dilimizi, milli mədəniyyətimizi müdafiə edən mənalı, təsirli, bədii cəhətdən kamil və dolğun əsərlər yaratmışlar*" [62, c.3, s.9-10].

Fars dilinin geniş şəkildə yayılması nəticəsində İranda əsərlərini farsca yazmış Azərbaycan şairləri səhv olaraq "fars şairi" kimi tanınırdılar. "*Təəssüf ki, bu cür yanaşma sonrakı dövrlərdə tədqiqatlara yanaşmış, İranda farsca yaranan Azərbaycan ədəbiyyatı İran, yaxud fars ədəbiyyatı kimi səciyyələndirilmişdir"* [310]. "*Ancaq yazma-oxumanın bütünlüklə fars dilində olması belə, türkcə düşünən, türkcə danışan böyük bir topluluğu ulusal ədəbiyyatdan yaxşı edəməzdi, gerçəklikdə edəməmişdir də*" [69, s.35-36]. Cənubi Azərbaycanda mövcud fars ədəbiyyatı azərbaycanlı türklərin demokratik istəklərinə qarşı çıxsa da, onların bu istəyi Cənubi Azərbaycan ədəbiyyatını yaratmış ulusal şairlərin yetişməsinə səbəb olmuşdur. "*Azərbaycan türk ədəbiyyatı (Şimali Azərbaycan ədəbiyyatı – A.H) çox irəliləmiş, ulusal biçim almışdır*" [69, s.36]. Bu dövrdə farsca, türkcə şeirlər, divanlar yazan M.Ə.Dilsiz, M.Ə.Xan Ləli, M.Bağır Xalxali, H.M.Əli Sabit Təbrizi, Axund Molla Hüseyn Daxil, M.M.Tağı Qumru o dövrün məşhur şairlərindən hesab olunur.

Şimali Azərbaycan ədəbiyyatında müasirlik, avropaçılıq ideyaları gücləndiyi kimi milli – mənəvi birliyi təmin edən millət yarandı. Milli özünüdərketmə, vətənçilik gücləndi. Milliyyət, ədəbiyyat, ictimai və siyasi mübarizəyə qoşulan millət anlayışlarının fərqini müvafiq olaraq statik, etnik və fəal siyasi anlam kimi göstərərək M.Ə.Rəsulzadə milliyyət baxımından vətənə coğrafi məkan kimi baxdığı halda "*şüur ilə iradəyə malik millət baxımından vətənin siyasi məna ifadə etdiyini göstərir*" [226, s.31]. Söhbət passiv bir sevgi tələb edən, etniklərin yaşadığı coğrafi vətən və siyasi şüur və dövlət olmaq əzminə malik olan millətin aktiv bir hərəkət amili olan vətən eşqindən gedir: "*Etnik milliyyətçilik və coğrafi vətən sevgisi bir topluluğun yaşadığı yerlərə: dağlara, dərələrə, yayla və ovalıqlara, dəniz və çöllərə qarşı duyulan amildən ibarətdir. Halbuki, bir millətçi üçün vətən sadəcə maddi ünsürlərlə hüdudlanmaz. Milliyyətdə siyasi şüur güdən millətçi vətəndə mənəvi bir öz, ruh arar... Maddi vətən ünsürlərindən başqa... dil, din, ədəbiyyat, musiqi, fəlsəfə, sənət və tarix kimi mənəvi vətən ünsürləri vardır*" [226, s.31]. Şübhəsiz ki, müəllif bu ünsürlərin coğrafi vətəni "*canlı vətən ideyası"na çevirməsindən bəhs edir. Məhz bu milli vətən ideyası müstəqil dövlət qurmaq uğrunda azadlıq mübarizəsinin leytmotivini təşkil edir: "Bir millətçinin vətən anlayışı coğrafi mənadakı vətəni müstəqil bir dövlət halına gətirmək istəməsidir. Bir millətçi, hər şeydən əvvəl istiqlal davasında olan bir vətənçi – bir patriotdur*" [226, s.31-32]. Vətən, insan və cəmiyyət arasında münasibətlər modelində fərdin doğulduğu, boya başa catdığı yerlə maddi və mənəvi bağlılığı təkcə maddi varlıq-torpaq, ərazi deyil, onun mənəvi fenomenlə-milli mədəni aləmlə qovuşmasıdır. Vətənpərvər olmaq dövlətçilik, vətəndaşlıq, milliyyətçilik, vətənçilik şüurunun vəhdətinə malik olmaqdır. Vətənçi yalnız millətin, xalqın tarixi keçmişinə, milli-mənəvi dəyərlərinə vurğunluğunu ifadə etməməli, həm də onun indisini və gələcəyini də düşünməlidir. Buna görə də görkəmli dövlət və siyasi xadim və alovlu vətənpərvər olan M.Ə.Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyəti adlanan müstəqil dövlət quruculuğunda fəal iştirak etdi, doğma, müstəqil vətəninin müstəqilliyini hər şeydən uca tutdu

Hər bir millətin vətənpərvərlik hərəkatı öz müqəddəratını təyin etməsi, milli dövlətə sahib olması, işğal olunmuş vətəninin azadlığına nail olması kimi demokratik

hərəkat olub bəşəriyyətin tərəqqisinin tərkib hissəsini təşkil edir. Bu mənada Şimali Azərbaycan yazıçıları öz əsərlərilə bu mübarizədə əsas yerlərdən birini tutdular. Hələ XIX əsrdə vətənin bölünməsindən bir qədər sonra M.F.Axundzadə Azərbaycan dilində Avropa üslubunda yazdığı əsərlər ilə Şimali və Cənubi Azərbaycana modernləşmə və milli – vətənpərvərlik ideyaları yaydı, dünyəvilik təlqin etdi. "*Həmin dövrdə dünyəvilik və Azərbaycan ədəbiyyatının təşəkkülü maarifçilik hərəkatına qoşulmuş oldu*" [96, s.38]. Axundzadə və o dövrün ziyalıları dünyəviliyə şiə-sünni qarşıdurmasını zəiflədən Zaqafqaziyanın türk-müsəlman əhalisinə "*birlik duyğusu təlqin edən mütləq bir şərt kimi baxırdılar*" [243, s.38].

Şimali və Cənubi Azərbaycanın taleyi, milli – mənəvi bütövlüyü M.F.Axundzadəni daim düşündürürdü. Ona görə də o,İran şahı ilahatçı Nəsrəddin şaha İranda və Cənubi Azərbaycanda islahatlar aparacağına ümid bəsləyirdi. M.F.Axundzadənin fikrincə, bölünmüş vətənin birləşməsi həqiqi məhəbbət və vətənpərvərlik idealı demokratik idarəetmə və maarifçiliyin həyata keçməsi sayəsində mümkündür: "*Şahlıqda sabitliyin hökm sürməsinə... xalqın maariflənməsi və xurafatdan azad edilməsi təqdirdə nail olmaq mümkündür. Ancaq bu mütləq şərti yerinə yetirdikdən sonra şah... cəmiyyətlər yaratmalı, camaatla xoş rəftarda olmalı, ... özünü xalqın havadarı hesab etməlidir... O, qanunun tələblərinə uyğun hərəkət etməlidir... Şahın təqdirəlayiq hərəkətlərini öyrəndikcə xalq onu daha çox sevərək və təhlükəsizliyi, ictimai asayişi, ədaləti, firavan həyatı ümumi mənafe naminə təmin etdiyini qiymətləndirərək yeni-yeni tələblər irəli sürənlərə heç bir əhəmiyyət verməyəcəkdir. Bu yolla adamlar vətənpərvər olacaq; şah üçün, vətən yolunda canlarından və mallarından keçəcəklər*" [8, c.2, s.45-46].

M.F.Axundzadə Cənubi Azərbaycanın, ümumiyyətlə İranın və Şərqin realist ədəbiyyatının banilərindən biri hesab olunur. Bu barədə F.Adamiyyat, Həmid Əlqar, A.M.Agahi, H.Məmmədzadə geniş bəhs etmişlər. M.Mehdibəyova "*Cənubi Azərbaycan povest janrının yaranmasında M.F.Axundzadənin və onun "Aldanmiş kəvakib" əsərinin mühüm rol oynadığını göstərir*" [180, s.32]. H.Əfəndiyev isə M.F.Axundzadənin Azərbaycan klassik bədii nəsrini ənənəvi dini - əfsanəviliyin təsirindən xilas etdiyini, onu "*yeni yola çəkməyə, aktual ideyalarla, mübarizə ruhu ilə*

*zənginləşdirməyə, müasir vəzifə və tələblərin xidmətinə verməyə çalışdığı*"nı [81, s.165] qeyd edir.

M.F.Axundzadə Cənubi Azərbaycanı mənəvi vətəni, Şimali Azərbaycanı isə özünün boya-başa çatdığı doğma vətəni, Azərbaycan dilini isə doğma dili hesab edirdi. "*O, lirik şeirlərini fars dilində, ictimai mahiyyətli ideyalarla zəngin əsərlərini isə doğma dildə, özünün türki dili adlandırdığı dildə yazmışdır*" [243, s.165]. T.Svyatoxovski M.F.Axundzadə şəxsiyyətinin ikiyə bölündüyünü, özündə iki cəhəti-geniş İran kimliyi və azərbaycançılığı birləşdirdiyini iddia edir. Bizcə, M.F.Axundzadə daha çox azərbaycançı, vətənçi, vətənpərvər idi. Bunu amerikalı müəllifin sonrakı mülahizələri də sübut edir: "*Axundzadə vətən (ata ocağı) istilahını həm İrana (bəlkə də Cənubi Azərbaycana – A.H), həm də Azərbaycana aid edirdi və "Vətənlər vətəni" əqidəsi ilə o, türk (Azərbaycan – A.H) ədəbi intibahının böyük bir xadiminə çevrildi. Həmin bu proses qəribə də olsa Rusiya Azərbaycanını əsrlər boyu üstün mövqeyə malik İran mədəniyyətinin təsir dairəsindən azad etdi. Klassik fars dili əsas ədəbi dil olmaq üstünlüyünü itirmiş oldu*" [243, s.39].

XIX əsrin ikinci yarısında parçalanmış Azərbaycanda ədəbiyyatda milliləşmə prosesi getdi.Ədəbi-bədii prosesfəlsəfi-estetik və bədii cəhətdən zənginləşir, divan ədəbiyyatı ənənələrilə yanaşı, yeni keyfiyyət dəyişikliyi, modernləşmə baş verirdi. Yeni janrlar – dramaturgiya, nəsr, fəlsəfi publisistika yaranır, ədəbi əlaqələr genişlənirdi. "*M.F.Axundovun yaradıcılığı ilə "Avropa tərzi" Azərbaycan bədii fikrinə nüfuz edir və bu nüfuz milli bədii düşüncəni xeyli təkmilləşdirir. XIX əsr ədəbiyyatında milli-estetik özünüdərkin qüvvətləndiyi dövrdür... Həmin dövrün mətbuatında "Azərbaycan", "azərbaycanlı", "Qafqaz türkləri", "Azərbaycan tatarları" kimi söz və ifadələrə tez-tez təsadüf olunur*" [102, s.7].

M.F.Axundzadənin təsirilə XIX əsrin sonlarına doğru demokratik ruhlu nəsrin nümayəndələri – Mirzə Əbdürrəhim Talıbov və Zeynalabdin Marağayi kimi novator düşüncəli yazıçılar yetişdilər. Xüsusilə, Zeynalabdin Marağayinin fars dilində qələmə aldığı "*İbrahim bəyin səyahətnaməsi*" əsəri ideya istiqaməti, sosial siqləti ilə Cənubi Azərbaycanda və bütövlükdə İranda diqqətəlayiq bədii örnəklərdən biri kimi maraq doğurur [179]. Qeyd edək ki, "*qüvvətli ictimai məzmuna malik olan*" [229, s.147],

ədəbi-nəzəri fikirdə yüksək dəyərləndirilən "İbrahim bəyin səyahətnaməsi" romanı "*fars dilində olsa da, müəllif çox yerdə istər-istəməz Azərbaycan dilinə müraciət etməyə məcbur olmuşdur. Xüsusilə, həyəcanlandığı, hisslərinin tüğyan etdiyi, sakit danışa bilməyib, fəryad etdiyi yerləri müəllif ana dilində yazmışdır*" [204, s.417].

XIX əsrdə milli vətən birlik ideyaları bütün dünya müsəlmanlarını birliyə çağıran panislamizm və bütün türklərin dil, din, etnik birliyini elan edən pantürkizm və bundan daha böyük turançılıq ideyaları içərisinə qatılmış oldu. Lakin XX əsrin əvvəllərində dini şəraitdə yaranan İranda konstitusiya inqilabının təsirilə vətənin birlik ideyasını irəli sürən panazərbaycanizm cərəyanı meydana gəldi. Bu baxımdan ABŞ tədqiqatçısı T.Svyatoxovskinin mülahizələri xüsusi diqqət çəkir. Müəllif göstərir ki, "*Rusiya Azərbaycanı perspektivinə gəlincə İran istilahını iki mənada başa düşmək olardı. Birincisi İran deyəndə o taylı – bu taylı Azərbaycan xalqının dini, mədəni irsi ilə, XIX əsrə qədər isə ümumi tarixi ilə bağlı olan, müxtəlif dillərin yanaşı işləndiyi nəhəng bir səltənət anlaşılır. İkincisi, dar mənada İran dedikdə, vahiddilli və çox yaxın etnik əlaqələrin mövcud olduğu İran Azərbaycanı (Cənubi Azərbaycan – A.H) nəzərdə tutulurdu*" [243, s.60].

Böyük bir xalq bölünmüş vətəndə yaşamağa məhkum olundu, ərazi, coğrafi, dövlət müstəqilliyini itirdi. Bundan sonra hər iki Azərbaycan fərqli siyasi, iqtisadi, mədəni, ədəbi inkişaf yolu ilə getdi. Həm də eyni zamanda siyasi, ədəbi – mədəni fikirdə vahid vətən və milli-mənəvi bütövlük uğrunda mübarizə başlandı.

Azərbaycan ədəbiyyatında öz əksini tapmış vahid vətən ideyası əsrlər boyu milli ideyanın tərkib hissəsi və milli özündərkin komponenti kimi azərbaycanlıların öz tarixi köklərinə bağlılığı, mənəvi mahiyyətini, mədəni özünəməxsusluğunu dərk etməyi şərtləndirir.

"*Dünya ədəbiyyatında vətən ideyası milli olduğu qədər də ümumbəşəri fenomen kimi dərk olunmaqdadır. Vətən ideyası bir-birilə sıx qarşılıqlı əlaqədə olan üç komponenti özündə əks etdirir:*

- *Vətənə məhəbbət;*
- *Vətən qarşısında borc;*
- *Vətənin böyüklüyü, əzəmətliyilə fəxr etmək*" [316].

Dünyanın əksər xalqlarında olduğu kimi, Azərbaycan xalqının şifahi və yazılı ədəbiyyatında vətən ideyası vəhdətdə öz əksini tapıb. Vətən ideyası təkcə məkan, coğrafi, inzibati, siyasi mahiyyəti kəsb etmir. O həm də "*sosial konstruksiyanın konseptuallaşdırıldığı, fərd ilə cəmiyyəti vətəndaş və dövlət, şəxsiyyət və mərkəz-ləşdirilmiş ideoloji sistem arasında müəyyən xüsusi model*"dir [316]. Deməli, vətən təkcə coğrafi ərazi vahidləri deyil, siyasi, sosial, mədəni, mənəvi və iqtisadi məkanı özündə əks etdirir. Vətən ideyası həm də etik-estetik cəhətlərin vəhdətidir. Qərb tədqiqatçılarından Benedikt Andersonun vətən haqqındakı fikirləri ciddi maraq doğurur: "*Vətən – odur ki, onun yolunda şərəflə ölmək olar. Bu elə bir dəyərdir ki, öz həyatını təəssüflənmədən ona vermək olar. Vətənin reprezantanı - əsas ideoloji, etik və estetik simvolu – naməlum əsgərin məzarıdır*" [308, s.33]. Şübhəsiz ki, Azərbaycan-da Şəhidlər Xiyabanı məhz belə simvollardandır.

Vətən ideyası böyük və kiçik vətənlərin vəhdətindən ibarətdir. Rus ədəbiyya-tında vətənə məhəbbəti ifadə edən hekayələr vardır. Bu əsərlərin qəhrəmanları kiçik vətən məkanlarına tez-tez baş çəkirlər. Bu məkan onun doğma evi, dədə-baba yurdu, doğma kəndidir, ətrafda hamı ona doğmadır. Qəhrəman mənəvi tellərlə kiçik vətəninə bağlı olur: "*Onda mədəni yaddaş oyanır, doğma kökə bağlılıq yaranır*" [316].

Ədəbi tənqiddə kiçik vətən mövzusuna xüsusi diqqət verilir. *"Kiçik vətən" adının özü rus mədəniyyəti tarixində kifayət qədər yeni sayılır*" [316]. Hətta publi-sistikada, ədəbiyyatda "kiçik vətən" dedikdə xalqın, "həqiqətin", "düzgünlüyün", məskunlaşdığı kənd nəzərdə tutulur. Kiçik vətəndən bəhs edən əsərlər "kənd nəsri" janrına aid edilir. Vasili Şukşinin "Qırmızı qayın ağacı" əsərində modernləşmiş sivilizasiyanın mədəni nəticələri tənqid olunur. Bu tənqid patriarxal kiçik vətən həqiqəti və modernləşmiş böyük vətən sisteminin zorakı moderləşməsi arasındakı gizlin qarşıdurmaya əsaslanırdı. Kiçik vətənə qayıdış simvolik olaraq həqiqi xalq dəyərlərinə, əxlaqi dayaqlara qayıdışı əks etdirir. İtirilmiş və qayıdılmış vətən ideyası özündə Avropa ədəbiyyatının da əsas baza süjetlərini təşkil edir. "*Avropa ədəbiyyatı tarixində kiçik vətən axtarışları öz əksini Homerin "Odissey" əsərində tapmışdır. Maks Xorkxaymer və Teodor Adorno yazırlar ki, itkin və sevimli vətən ideyası Odisseyi ona düşmən qüvvələr hiyləgərliklə özlərinə tabe etməyə məcbur edirlər. O,*

*son nəticədə doğma İşakaya qayıdır və onun uğrunda mübarizə aparır”* [319, s.78]. İtaka əsir düşmüş,göz yaşları axıtdan Odisseyə düşmən kortəbii qüvvələrinə qarşıdurmalarına baxmayaraq onu güclü saxlayan layihədir. “*Öz identikliyini həsrətlə axtaran müasir dövrün insanı – qayalıqlar arasında əsir düşmüş və öz əlçatmaz İtakası üçün ağlayan Odisseydir”* [328, s.71].

Vətənin atributları milli dil, din, doğma tarix, doğma ədəbiyyat, mədəniyyət, doğma təbiət və milli dövlətdir. XIX əsrin əvvəllərinədək Azərbaycanı birləşdirən milli-mənəvi bütövlük idi. “*Bu dövrdə azərbaycanlılar bir millət kimi formalaşma prosesinə qədəm qoymuşdu. Lakin hələ də onlar arasında regional identiklik üstünlük təşkil edirdi. Çünki, azərbaycanlılar üçün ilk əhəmiyyəti “kiçik vətən” – xanlıqlar kəsb edirdi. Regional müxtəliflik, “kiçik vətən”ə hədsiz məhəbbət böyük vahid Azərbaycan vətəninin yaranmasına əngəl törədirdi. XX əsrdə bölünmüş vətən taleyini yaşayan Almaniyada da “kiçik vətən”ə vətənpərvərlik münasibəti unitar deyil. Bu isə federativ strukturlu dövlətin yaranmasına gətirib çıxarmışdı. Federalizm almanlara öz regionlarına məxsusluqlarını hiss etməyə imkan verərək dövlət birliyini regional fərqləri itirmədən saxlayır”*[315, s.98].

Azərbaycan daha çox xanlıqlara bölündüyü halda Almaniya üç makroregion qrupuna ayrılmışdı. “*Bu regionlar arasında mədəni fərqlər o qədər aydın idi ki, Antihitler koalisiyası üzrə müttəfiqlərin II Dünya müharibəsinin son mərhələsində Almaniyanın Şimala və Cənuba bölünməsi planı danışıqlarda gündəlikdə aktuallıq kəsb edirdi*” [314].

Şimali və Cənubi Azərbaycan regional, tarixi, psixoloji siyasi, ideoloji cəhətdən siyasi, ayrılmasına baxmayaraq onları ümumi dil, din, mədəniyyət, mentalitet, milli xarakter, milli tarix və yaddaş kimi milli-mənəvi bütövlük ideyası birləşdirir.

Şimali Azərbaycanda milli dövlət mövcud olduğu halda, Cənubi Azərbaycan İran İslam Respublikası dövlətində müxtəlif ostanlara – regionlara bölünmüşdür. Müxtəlif siyasi, iqtisadi və ideoloji sistemlərdə yaşamaq hər iki Azərbaycana öz təsirini göstərmiş və öz izini qoymuşdur. Birləşmiş Almaniyada mentallıq yeni əsasda vahid milli identikliyə söykənərək dəyişdiyi halda Şimali və Cənubi Azərbaycan mentallığı arasında dəyərlər get-gedə daha da dərinləşir. *“Şimali Azərbaycan milli*

*Avropa dəyərlərinə dünyəviliyə bağlı olduğu halda Cənubi Azərbaycan Şərqə bağlı olub orada dini amil daha güclüdür. Şimali Azərbaycanda unitar hüquqi dövlətçiliyə, demokratiyaya, vətəndaş cəmiyyətinə, milli-mənəvi dəyərlərə bağlılıq üstünlük təşkil edir, azərbaycanlı milli kimliyi, vətənpərvərliyilə fərqlənir. Cənubi Azərbaycan iranlı milli kimliyi İran dövlətinə bağlılığı üstün tutmağa məcbur və məhkum edilib. Birləşmiş Almaniyada almanların federalizmə, demokratiyaya, hüquqi dövlətə, dövlət təsisatlarına bağlılığa və borc hissinə əsaslanan işçi etikasına münasibətində ümumi həmrəylik mövcuddur"* [300, s.71].

Şübhəsiz ki, Şimali və Cənubi Azərbaycanın birləşməsinə mane olan siyasi, hüquqi, iqtisadi, psixoloji, ideoloji, beynəlxalq amillər çoxdur. Almaniya isə Avropada və dünyada rolu olan bir dövlətdir, Avropa İttifaqının ən nüfuzlu dövlətlərindən biridir. Almaniyanın Avropanın mərkəzində parçalanması bütün Qərb dünyası üçün arzuolunmaz idi. "*Aİ çərçivəsində Almaniya bir hissəsi federal mərkəzlərdən asılı olmayaraq Avropa inteqrasiyası prosesində iştirak edə bilən millətin vəhdəti ideyasını formal olaraq təcəssüm etdirir. Beləliklə, burada separatizm meyllərinin yaranması ehtimalı heçə enir*" [315, s.102].

Artıq ədəbiyyatımızda tarixi keçmişimizlə bağlı yeni metoda yanaşma özünü göstərir. Lakin "*humanitar təfəkkürdə marksist dünyagörüşündən zahiri ayrılma yalnız ifratlarla müşahidə olunur*" [14, s.14].

Filologiya elmləri doktoru, professor Şirindil Alışanlı düzgün olaraq göstərir ki, son illərin nəşrlərində Azərbaycanın Rusiya tərəfindən işğalı amili könüllü birləşmə konsepsiyasını əvəz etdi. Lakin pisdir ki, özlüyündə doğru olan həmin təshih fakt, sənəd və onun yeni araşdırma metodu ilə əsaslandırılması məzmunla müşayiət olunur [14, s.14].

Qədim dövrlərdən Azərbaycan türkləri öz vətənlərinin adını bu günə qədər dəyişmədilər. "*Qədim Azərbaycan dövlətçiliyi və azərbaycançılıq tarixi də elə buradan, bu zamandan başlayır*" [108, s.29].

Rusiya İmperiyası Şimali Azərbaycanı işğal etsə də, onu müstəmləkəyə çevirsə də burada milli birlik, milli özünüdərketmə, millət yarandı. *"İranda monarxiya hakimiyyəti altında olan Cənubi Azərbaycanın tarixi inkişafı tamamilə başqa şəkildə*

*cərəyan etdi. Cənubi Azərbaycan əhalisinin taleyi də İranda yaşayan digər xalqların taleyi kimi oldu"* [69, s.7]. Müəllif eyni bir millətin-azərbaycanlıların taleyindən bəhs edərkən şimalılların müstəməkəçiliyinə, imperiya ambisiyalarına baxmayaraq Rusiya vasitəslə Avropa mədəniyyətinə qovuşduqlarını, cənubluların isə despotik şah rejimi şəraitində az qala milli varlıqlarının əsas atributlarından məhrum olduqlarını, bütün İran xalqları kimi milli-mənəvi dəyərlərinin şovinist fars mədəniyyətinə qovuşduğunu, milli kimliklərinin, identiklərinin, dillərinin inkişafdan qaldığını nəzərdə tutur.

Türkmənçay müqaviləsinə əsasən Naxçıvan və İrəvan xanlıqları Rusiyaya birləşdirilməklə yanaşı, İran Rusiyaya 20 milyon gümüş rubl da ödəməliydi. Bu məbləğ ödənilmədiyi təqdirdə Bütöv Azərbaycan ərazisi Rusiya hakimiyyəti altına keçməli idi.

Böyük Britaniya hökuməti bundan təşvişə düşərək İrana subsidiya verdi. Nəticədə Azərbaycan parçalandı... Arran torpağı Azərbaycanın tarixi kökündən ayrı düşdü. "*Azərbaycanlılar yaşayan ərazi bərabər hissələrə bölündü, lakin azərbaycanca danışan əhalinin əksəriyyəti İranda qaldı... azərbaycanlılar ərazi – etnik birliyindən faydalanmadılar. Məhz elə bu fakt onların (Şimali və Cənubi Azərbaycandakı azərbaycanlıların – A.H.) bir millət kimi formalaşmasına maneə kimi görünə bilərdi. Türkmənçay müqaviləsi azərbaycanlıların (görünür ki, xanların timsalında) səslə hesablaşmayaraq bağlandı*" [243, s.11]. Göründüyü kimi, böyük dövlətlərin, Rusiya, İran və xüsusən Böyük Britaniyanın öz maraqlarını güdməsi sayəsində bütöv Azərbaycan parçalandı. Rusiya Şimali Azərbaycanda müxtəlif xalqlar arasında narazılıq və düşmənçilik vəziyyəti yaradaraq, onun Türkiyə və İranla, xüsusilə Cənubi Azərbaycanla əlaqələr yaratmasına imkan verməyərək ruslaşdırma və müstəmləkəçilik siyasəti yürütdü.

Ədəbiyyatda bölünmüş vətən və milli-mənəvi bütövlük ideyalarının yaranmasına təsir edən amillər, o cümlədən vahid Azərbaycanın parçalanması bu mövzuya müraciət etməyə zərurət yaratdı. Bir böyük millət Rusiya və İran daxilində fərqli yollarla inkişaf etdi. Şimali Azərbaycana Rusiyadakı baş verən aşağıdakı proseslər təsir etdi:

✓ 1905-1907-ci illərdə rus inqilabı təsir etdi, mətbuat inkişaf etdi, siyasi təşkilatlanma gücləndi;

✓ Öncə muxtariyyət, daha sonra müstəqil dövlətçilik uğrunda siyasi mübarizə genişləndi, Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) yarandı;

✓ Azərbaycanın sovetləşməsi, Azərbaycan dilinin, ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsi, siyasi və mədəni repressiyaların güclənməsi baş verdi,sovet respubilkası formasında dövlət intişar etdi;

✓ XX əsrin sonlarında müstəqillik əldə edildi.

Cənubi Azərbaycanda da böyük inqilabi proseslər baş verdi:

✓ Səttərxanın rəhbərliyilə məşrutə inqilabı nəticəsində İran konstitusiyası yarandı;

✓ Ş.M.Xiyabaninin başçılığı ilə Azadistan dövləti meydana gəldi;

✓ S.C.Pişəvərinin rəhbərlik etdiyi Azərbaycan Milli Hökuməti təşəkkül tapdı;

✓ İslam inqilabı qələbə çaldı.

XX əsrin əvvəllərində hər iki Azərbaycan arasında ədəbi, mənəvi əlaqələr daha da gücləndi. Bu dövrdə Tiflisdə Cəlil Məmmədquluzadənin redaktorluğu ilə yayınlanan "Molla Nəsrəddin", Bakıda Əhməd bəy Ağayev tərəfindən nəşr edilən "İrşad", Haşım bəy Vəzirovun nəşr etdirdiyi "Tazə həyat" qəzetləri vətənin bölünməsinə qarşı çıxır, vahid vətən ideyalarını təbliğ edirdilər.

Vahid Azərbaycan ideyasının ən böyük təbliğatçılarından biri, əsərlərində millət, vətən, dil vəhdətini, vahid Azərbaycan ideyasını əsas tutanlardan biri də Cəlil Məmmədquluzadə idi. "*Mirzə Cəlilin ən böyük idealları arasında milli dilin saflığı, Azərbaycan məmləkətinə məhəbbət, Bütöv Azərbaycan arzusu kimi məqamlar aparıcı xətt təşkil edir*" [192, s.25].

"*Azərbaycan milli istiqlal ədəbiyyatının sərkərdəsi*" [192, s.25] kimi dəyərləndirilən Cəlil Məmmədquluzadənin "Azərbaycan", "İranda hürriyyət" və s. əsərlərində vahid vətən, millət, milli birlik, milli-mənəvi bütövlük ideyalarını tərənnüm edilirdi. Bu mənada "*C.Məmmədquluzadə üçün vətən o taylı-bu taylı Azərbaycan idi. Lakin ədib yaşadığı dövrdə Bütöv Azərbaycanı deyil, ikiyə bölünmüş vətəni görəndə bunun səbəbini axtarırdı. "Millət" felyetonunda ədib bu səbəbi aydın tapmışdır*"

[130, s.37]. Müəllif Qərblə Şərqi müqayisə edərək yazırdı ki, "biz azadlıq binalarımızın bünövrəsini əxlaq üstündə tikdik, millət üstündə tikmədik". Bununla da dövlət quruculuğunda bütün millətin iştirakını görmək istədiyi demokratik respublikaçılıq idarəçiliyi əvəzinə despotik, avtoritar idarəetmə sisteminin mövcudluğunu ədib kəskin şəkildə pisləyirdi.

Milli ruhun, dilin, milli özünüdərkin bütövlüyünə baxmayaraq vahid Azərbaycanın ərazi bütövlüyünə qəsd edilməsi və vətənin ikiyə bölünməsi bütöv vətən ideyası milliideya ilə vəhdət təşkil edirdi. "*Azərbaycan ədəbiyyatında yeni ədəbi hadisə*" [154, s.53] kimi dəyərləndirilən Cəlil Məmmədquluzadənin yaradıcılığında bütöv vətən ideyası əsas etibarilə aşağıdakıları özündə əks etdirirdi:

"*1. vətənin tarixi əsası, bütövlüyü;*

*2. vətənə əsl vətəndaş məhəbbəti;*

*3. vətəni sivil görmək arzusu;*

*4. vətəndaş hüquqsuzluğunun aradan qaldırılması istəyi*" [130, s.37].

Göründüyü kimi, yazıçının bütöv Azərbaycan idealı, ərazi bütövlüyü onun yaradıcılığının başlıca qayəsinə, mərkəzi ideyasınat çevrilmişdir. Başqa sözlə, "*Cəlil Məmmədquluzadə üçün milli özünüdərk vətənin bütövlüyü ilə vəhdət təşkil etmişdir*" [130, s.38].

Cəlil Məmmədquluzadənin yaradıcılığında vətən və millət anlayışları konkretləşir, vətən qarşısında hər bir vətən övladının vəzifəsi və borcu ikiyə bölünmüş "*Azərbaycan matəmgahı"na şərik olmaqdan ibarət olmaq qayəsi önə çəkilir. Bu baxımdan 1909-cu ildə "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi "Necə qan ağlamasın daş bu gün" felyetonu diqqəti xüsusilə cəlb edir: "Bu gün Kərbəla meydanı Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır. Axıtmalı qanlarımız, ehsan etməli pullarımız varsa – gözümüz qabağında ürəklər parçalayan Azərbaycan matəmgahı durur*" [185, c.4, s.47]. Bu sözlər onun bütöv vətən ideyası konsepsiyasının əsas mahiyyətini açır, "*yazıçı-vətəndaş idealının, işıqlı gələcək arzularının ideya-estetik əksini şərtləndirir*" [42, s.128]. Böyük ədib əsl vətəndaş qeyrəti ilə *"bütöv Azərbaycan vətəninə xidmət etməyi, hər iki vətəni eyni dərəcədə sevməyi*

*tövsiyə edirdi. Onu Cənubi Azərbaycanda baş verən Məşrutə inqilabı və oradakı soydaşlarımızın kütləvi qırğınla üz-üzə dayanmağı ciddi düşündürürdü"* [131].

XX əsrin əvvəllərində "Molla Nəsrəddin" ədəbi məktəbini təmsil edən müəlliflərin yaradıcılığında özünü aşkar şəkildə göstərən Azərbaycan probleminin müəyyən aspektləri Abdulla Şaiqin əsərlərində də bədii təcəssümünü tapmışdır. *"Ədibin "Məktub yetişmədi" hekayəsində Azərbaycanın Güneyindən Bakıya gələrək neft mədənlərində ağır şərtlər altında çalışan insanların faciəli taleyi Qurban obrazının timsalında bədii təcəssümünü tapmışdır"* [244, c.1, s.29-33]. Bununla yazıçı dolayısı ilə vətənin parçalanmasına diqqəti yönəldə bilmişdir.

Azərbaycanın milli – mənəvi bütövlük ideyası vətən və milli ideyaları ilə vəhdət təşkil edərək XIX əsrin sonu, XX əsrin əvvəllərində ümumbəşəri, ümumdünya dəyərləri zənginləşirdi. XIX əsrə qədər bütöv Azərbaycanın milli – mənəvi dəyərləri ümumi əlamətlərin sintezindən ibarət idi. Milli – mənəvi dəyərlərin yeniləşməsi milli ideya uğrunda mübarizədə əsas, aparıcı yer tutmuşdur. XIX əsrə qədər bütöv Azərbaycanda milli ideya "*oxşar ideyalar – vahid ərazi hissi, maddi – məişət şəraitinin ümumiliyi, xarici dövlətlərə qarşı əlbir mübarizə, dil və qan qohumluğu, soy-kök eyniliyi, mənəvi mədəniyyət sahəsində oxşar cəhətlər, iqtisadi-siyasi və coğrafi birlik zəminində formalaşmış müəyyən xüsusiyyətlər olmuşdur. Lakin bütün bunlar sistemsiz xarakter kəsb edirdi. XIX əsrin sonları XX əsrin əvvəllərində belə ideyalar – ümumiran, ümumtürk, ümumislam ideyalarının tərkib hissələri kimi çıxış etmişdir*" [258, s.21].

Azərbaycan ədibləri XIX əsrin sonları XX əsrin əvvəllərində Azərbaycan dilinin, milli mənəvi bütövlük ideyalarının inkişafına, doğma vətənə bağlılığın möhkəmlənməsinə öz töhfələrini vermişlər. Akademik R.Mehdiyev göstərir ki, 1828-ci ildə parçalanmış və Rusiya imperiyasının tərkib hissəsinə çevrilmiş "*Şimali Azərbaycanda XIX əsrin ikinci yarısından etibarən dini identiklikdən Azərbaycan milli ideyasının formalaşmasının başlanğıcı olan etnik identikliyə keçid ideyası bu məkanda ideya axtarışlarının mərkəzində dayanırdı"* [181, s.17]. Bu dövrdə vətənçilik ideyasında etnik şüurun dini şüurdan ayrılması prosesi baş verirdi.

XIX əsrin sonu, XX əsrin əvvəlləri Şimali Azərbaycanın bədii ədəbi-estetik fikrində milli oyanış, azadlıq, müstəqillik ideyalarının formalaşması dövrü idi. Azərbaycan milli müstəqillik ideyası əvvəlcə ümumtürk azadlığının tərkib hissəsi kimi çıxış edirdi, sonra isə müstəqil ideya cərəyanına çevrildi. "*Azərbaycanda... milli təfəkkür əvvəlcə türkçülük və etnik millətçilik ideologiyası kimi inkişaf edirdi. Bu, həmin ideyanın transformasiyası üçün mühüm və zəruri platforma idi, çünki, çox böyük bir regionun türkdilli əhalisinin tarixi və mədəni yaddaşına əsaslanırdı. Bu ideologiya öz milli hüquqlarının müdafiəsi işində bütün türkdilli xalqların birliyini və həmrəyliyini, ayrıca türk (Azərbaycan) millətinin, perpektivdə isə dövlətinin yaranmasını təmin etməli idi*" [181, s.17]. Bu proses Azərbaycanın milli identikliyinin, azərbaycançılıq şüurunun formalaşması və inkişafında həlledici amilə çevrildi. Halbuki Cənubda milli və dini şüurun vəhdəti-azərbaycançılığın "iranlı" kimliyi içərisində əridilməsi, şiəliyin daha da gücləndirilməsi prosesilə müşaiyət olunurdu.

Azərbaycan ədəbiyyatının görkəmli xadimləri türkçülük, turançılıq ideyası irəli sürməklə hər iki Azərbaycanın milli şüurunun oyanmasına hədsiz təsir göstərirdilər. Bu dövrdə türkçülüyün azərbaycançılığa qovuşma prosesi də gedirdi. Turançılıq, türkçülük, islamçılıq hər iki Azərbaycanın etnotarixi, etnomədəni əlaqələrinin ümumi koordinatlarını, etnomilli birliyini təmin etdi. "*Lakin artıq bu mərhələdə Azərbaycan demokratik ziyalılarının liderləri İran, türk, islam mədəni irsinin ümumi kütləsindən məhz azərbaycanlı etnosu üçün xarakterik olan mənəvi həyatın müxtəlif forma və elementlərini, dili, həyat tərzini və mədəniyyətini ayırmağa cəhd etdilər*" [308, s.35]. Bununla da Şimali Azərbaycan Cənubi Azərbaycana nisbətən birliyə doğru bir addım atmış oldu: burada mədəniyyətin, dilin, fəaliyyətin vəhdətinə əsaslanan millət formalaşdı. Liberal demokratik ziyalılar isə islamçılıq mənəviyyatına, türk dilinə, modernləşməyə əsaslanan Azərbaycan milləti və dövlətçiliyi konsepsiyasını irəli sürdülər.

Bu dövrdə bölünmüş vətən ideyası milli-mənəvi bütövlüyün ayrılmaz tərkib hissəsi olan azərbaycançılıqla qovuşdu. Bu ideya nəinki təkcə Şimali Azərbaycanda, hətta bütün dünyada azərbaycanlıların dirçəlişinə, tarixi talelərinin, siyasi, sosial, mədəni-məişət həyat tərzlərinin ümumiliyinə əsaslanırdı. Azərbaycançılıq pantu-

ranizm, pantürkizm, panislamizm və hətta panazırbaycanizmdən fərqlənən müstəqil ictimai-siyasi, mədəni cərəyan kimi reallaşmağa başladı.

Azərbaycançılığı ədəbi-estetik cəhətdən araşdıran tədqiqatçılardan biri olan Sona Vəliyevanın "Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi" əsərində Azərbaycan maarifçilərinin, o cümlədən C.Məmmədquluzadənin, milli dövlətçilik hərəkatının xadimlərinin azərbaycançılıq ideyaları, həmin ideologiyanın Azərbaycan Xalq Cümhuriyyətində reallaşması xüsusiyyətləri, sovet dövründə azərbaycançılığa münasibət, nəhayət XX əsrin sonlarında milli-azadlıq hərəkatının başlanması və ikinci müstəqillik dövründə və Azərbaycanın müasir ədəbi prosesində və ictimai fikrində azərbaycançılığın təcəssümü və gerçəkləşməsi məsələləri işıqlandırılmışdır [258].

Vətən ideyası milli folklor nümunələrindən başlayaraq klassik ədəbiyyatımıza qədər özünün spesifik təzahür xüsusiyyətıərilə fərqlənmiş, sonrakı dövrlərdə sistemli inkişaf səviyyəsinə yüksəlmiş, ümumtürk vəhdətindən ayrılaraq azərbaycançılıq fenomeninə çevrilmişdir. Bu proses XIX-XX əsrləri əhatə etmişdir. Şübhəsiz ki, bu əsrlərin ən çox dəyişikliklər yaradan, yenilikləri ilə seçilən mərhələsi Azərbaycan maarifçiliyinin yüksək inkişaf səviyyəsinə qalxdığı XIX əsrin sonu XX əsrin əvvəlləri idi. Bu dövrün maarifçi mütəfəkkirləri Azərbaycan ədəbi-bədii düşüncəsinə azərbaycançılıq və azadlıq iseyaları bəxş etmişdir. Bu ideyalar nəzəriyyədən təcrübəyə keçərək XIX əsrin sonları XX əsrin əvvəllərində yaradıcı ictimai-siyasi xadimlərin formalaşmasına güclü təkan vermiş, Azərbaycan milli ideyasının inkişafını, milli, müstəqil dövlətçilik amalının həyata keçirilməsini zərurətə çevirmişdir.

XX əsrin əvvəllərində Osmanlı Türkiyəsində baş verən Gənc Türkçülər Komitəsinin etdiyi dövlət çevrilişi Şimali və Cənubi Azərbaycana və onun ədəbiyyatına da öz təsirini göstərdi. Cənubi Azərbaycan şah despotizminin zülmü altında idi. Buradakı dəyişikliklərə Şimali Azərbaycan və Türkiyə inqilablarının da köməyi oldu. Təbrizdə "*Azərbaycan milli ideyası tərəfdarları müstəqillik, ayrılmaq bəyanatları ilə çıxış etdilər*" [326, s.201].

İranda baş verən Məşrutə hərəkatında fəal iştirak edən M.Ə.Rəsulzadə Tehranda "İrani-nou" qəzetini təsis etmiş və onun baş redaktoru olmuşdur. Bu qəzetin səhifələrində böyük siyasi xadimin azadlıq, hürriyyət, istiqlal mövzusunda fikir, düşüncə və qənaətləri əksini tapmışdır. "İrani-nou" qəzeti İranda Avropa səpkisində dərc olunan ilk mətbuat orqanı idi. İngilis şərqşünası Eduard Braunun Məhəmmədəli Tərbiyətlə birgə qələmə aldığı "Məşrutə dövrü İran ədəbiyyatı və mətbuatı tarixi" əsərində Məhəmməd Əmin bəyin redaktorluğu ilə yayınlanan "İrani-nou" qəzetinin fəaliyyəti obyektiv şəkildə dəyərləndirilmişdir [336, s.249-252].

İran ədəbiyyatşünası Yəhya Ariyənpurun "Səbadan Nimayədək" adlı fundamental tədqiqatında M.Ə.Rəsulzadənin bir siyasi xadim, həmçinin redaktor kimi İran Demokrat firqəsi və "İrani-nou" qəzetindəki fəaliyyəti geniş təhlilini tapmışdır. Ədəbiyyatşünas alimin fikrincə, İran siyasi həyatında ən mürəkkəb siyasi müzakirələrdə bu qəzet mühüm rol oynamışdır [335, s.110].

Bu illərdə Tehranda M.Ə.Rəsulzadənin fars dilində *"Tənqidi-firqeyi-etidaliyyun" adlı kitabı da nəşr olunmuşdur. Həmin kitabda müəllif Etidaliyyun firqəsi ilə bağlı görüşlərini ümumiləşdirmişdir"* [339]. İran alimi Firudin Adəmiyyət bu əsəri yüksək qiymətləndirmiş, "*XX əsrin əvvəllərində İrandakı siyasi hadisələrin mənzərəsinin burada obyektiv şəkildə əks olduğunu vurğulamışdır"* [334, s.281].

M.Ə.Rəsulzadə həmçinin İran Məşrutə hərəkatının lideri "*Səttarxanla görüşmüş və görüşləri ilə bağlı düşüncələrini sonralar ayrıca məqalə şəklində dərc etdirmişdir"* [227, s.3]. Tehranda və Təbrizdə yaşadığı dövrdə M.Ə.Rəsulzadənin Cənubi Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı ilə yaxından tanış olmuşdur. Sonralar ədibin Cənubi Azərbaycanla bağlı düşüncələri Türkiyədə nəşr olunan "İran türkləri" və "İran tarixçeyi-inqilabı" adlı silsilə məqalələrində təcəssümünü tapmışdır [290].

Rusiya İrana müdaxilə edərək Məşrutə inqilabının yatırılmasında iştirak etdi, Cənubi Azərbaycanı demək olar ki, işğal etdi. Amerika alimi Morton Şaster "İran boğulur" əsərində Cənubi Azərbaycanda "*adamların edamlara, işgəncələrə, top atəşlərinə məruz qaldıqlarından yazmış, bundan sonra İran Azərbaycanının əslində Rusiya tərəfindən işğal olunmuş vəziyyətə düşdüyündən*" [330, s.200] bəhs etmişdir.

Digər Amerika alimi T.Svyatoxovski isə belə bir vəziyyətdə Azərbaycanın hər iki hissəsinin bir hakimiyyət bayrağı, Rusiya hakimiyyəti altında birləşdiyini göstərir: "*bunun nəticəsində köhnə əlaqələr, ticarət, mühacirət və səyahət yenidən vüsət aldı*" [243, s.68]. Burada şübhəsiz ki, ədəbi-bədii, mədəni, mənəvi əlaqələr də artdı. Belə bir şəraitdə ədəbiyyatda vahid vətən ideyalarının bərqərar olmasına ümid yarandı. "*İnsan Vətən ideyasını dərk edərək,... onun düşmənlərinə barışmazlıq və onun uğrunda canından keçməyə hazır olmaq... hissi keçirərək... özünü dərk edir... vətənpərvərlik tərbiyəsinin güclü və səmərəliliyi Vətən ideyasının əksəriyyət tərəfindən nə dərəcədə dərindən mənimsənilməslə... müəyyən olunur*" [242, s.221]. Müəllif vətən ideyasının aşılanmasında ədəbi və tarixi əsərlərin böyük əhəmiyyət kəsb etdiyini göstərir. "*Vətən ideyasına emosional münasibət vətəndaşın əxlaqi simasını müəyyən edir... Vətən ideyasına münasibət müqəddəs və ən qiymətli şeyə münasibət kimi, bütün insan hisslərini nəcibləşdirir, adamları yaxınlaşdırır, doğmalaşdırır, onların ləyaqətini aşağı salan hər şeydən qəlblərini təmizləyir*" [242, s.274]. Şübhəsiz ki, vətənin bölünməsi azərbaycanlıların milli ləyaqətinə toxunan bir xalqı ikiyə parçalanma taleyi yaşamağa məhkum edən faciəvi hadisədir. Əsrlər boyu iki dövlətin tərkibində fərqli yollarla getməyə məcbur olan eyni bir xalqın nümayəndələri, ziyalıları, yazıçıları, şairləri bu parçalanma prosesini həyata keçirən rus çarizminə və İran şahlığına nifrət və lənət etmişlər ki, bütün bunlar ədəbi-bədii yaradıcılıqda öz əksini tapmışdır.

XX əsrdə Şimali və Cənubi Azərbaycanda bölünmüş vətən ideyasına təsir edən tarixi hadisələri aşağıdakı dövrlərə bölürlər:

1. Məşrutə inqilabı dövrü "1905-1911-ci illər İran məşrutə inqilabı Səttərxanın başçılığı ilə müstəbid səltənətini titrətmiş və birinci İran Konstitusiyasını (məşrutəsini) yaratmışdır".

2. İranda demokratik hərəkatın ikinci yüksəliş dövrü. M.İbrahimov bu dövrdə, 1920-ci ildə Şimalda Azərbaycan SSR-in, Cənubda isə Məhəmməd Xiyabaninin başçılığı altında Azadistan Dövlətinin yaranmasını azadlıq mübarizəsinin təntənəsi hesab edir.

3. İranda, xüsusən Cənubi Azərbaycanda ictimai həyatın, demokratik azadlıq

mübarizəsinin üçüncü dövrü. Bu dövr XIX əsrin 40-cı illərini əhatə edir. Həmin dövrdə Cənubi Azərbaycanda Azərbaycan Milli Demokratik Muxtar Hökuməti yarandı (Cənubi Azərbaycan Milli Demokratik Dövləti).

4. İranda 1979-cu il İslam inqilabı dövrü. Bu inqilab nəticəsində İranda 2500 illik müstəbid Pəhləvi şahlıq rejimi darmadağın oldu. "*Bütün bu mürəkkəb... siyasi, ictimai hadisələr, xalqın qələbə vaxtı keçirdiyi nikbin duyğular, şirin arzular Cənubi Azərbaycan ədəbiyyatında əks olunmuşdur*" [62, c.3, s.10-11].

Bütöv Azərbaycanın ərazi 410 min kv.kilometr olduğu halda, parçalandıqdan sonra Şimali Azərbaycan ərazisi 130 min kv.km. oldu.

İngiltərə və Rusiya İranın sonuncu türk-Qacar şahı – imperatorunu fars etnosu ilə əvəz etdi. Bundan sonra Rusiya və İrandakı farslar Azərbaycanın birləşməməsi üçün terror assimilyasiya mədəni genosid üsullarından istifadə edərək Azərbaycanın türk-milli dəyərlərini məhv etməyə başlamış, Şimalın əhalisinin tatar, Cənubun isə farsdilli azərilərdən ibarət olması kimi düşünülmüş məkrli iddialar irəli sürdülər. Parçalanmadan sonra Şimali Azərbaycan müasirliyə əsaslanan modern türk-müsəlman mədəniyyəti, Cənubda isə İslam dəyərlərinin əsas yer tutduğu modern dünyadan təcrid əski Şərq, ərəb-fars tarixi ənənələrə əsaslanan mədəniyyət formalaşmışdır. Şimali və Cənubi Azərbaycan bir-birindən kəskin şəkildə fərqlənən ədəbii-bədii, mədəni, siyasi-iqtisadi inkişaf yolu ilə getdi. Artıq parçalandıqdan bəri son yüz ildən də artıq bir dövrdə İranda şovinist fars hakimiyyəti buranın avtoxtan türk əhalisini, qüdrətli imperiyalar yaradan bir etnosu görünməmiş şəkildə assimliyasiya etmişlər ki, Cənubi Azərbaycanda min illərdir yaşayan türklər dillərini, milli kimliklərini, ərazilərini, tarixlərini belə itirmək təhlükəsi ilə üz-üzə qalmışlar. "*Türk millətinin farslaşaraq yox olmasını sürətləndirən irançılıq zehniyyətinə söykənən bu siyasət nəticəsində Cənubi Azərbaycanda türklərin milli mənafe və haqqına biganələşmiş, onun İrandan ayrılmasının əleyhdarları olan hökumət məmurlarından ibarət böyük bir imtiyazlı türk (cənubi azərbaycanlı – A.H.) elitası formalaşmışdır*" [50]. Göründüyü kimi, indi ən təhlükəli vəziyyət Azərbaycanın İrandan ayrılıb Şimali Azərbaycanla birləşməsinin əleyhdarı olan cənubi azərbaycanlı təbəqəsinin yaranmıasıdır. Cəmiyyətin bütün təbəqələrini əhatə edən hərbi, biznes, siyasi elita

artıq fars elitası ilə qaynayıb-qarışmış milli mənafedən çox irançılıq maraqlarını müdafiə edir.

## 1.2. Azərbaycan Xalq Cümhuriyyəti və Azadistan dövrü ədəbiyyatında bölünmüş vətən ideyası

1918-ci ildə Azərbaycanın öz dövlət müstəqilliyinə nail olması nəticəsində vətən ideyası, milli-mənəvi bütövlük ədəbi-bədii və milli-mənəvi, siyasi-sosial məzmun kəsb etmiş, birləşdirici, səfərbəredici bir ideyaya çevrilmişdir. Hələ xeyli əvvəllər-XX əsrin əvvəllərində müstəqil milli dövlətin Azərbaycan Xalq Cümhuriyyəti yaranması zamanı yüksələn xətlə güclənən ümummilli şüur və özünüdərketmə kontekstində azərbaycançılıq mücərrəd şərq-müsəlmançılıq fenomenindən ayrılaraq müstəqil bir xalqın –azərbaycanlıların milli ideyası kimi çıxış etdı. "*Azərbaycanlıların müstəqil dövlət qurmaq şansı milli düşüncənin daha da güclənməsinə, etnik-milli hisslərin milli-siyasi hisslərlə tamamlanmasına səbəb olmuşdu. Milli-dövlət quruculuğunda bilavasitə iştirak edən insanların düşüncə tərzi də dəyişmiş və bu da, nəticədə, yeni qurulan milli dövlətin aparıcı ideologiyasının yaradılmasına təkan vermişdir. Həmin dövrdə milli mənlik şüuru artıq getdikcə qarşısıalınmaz determinanta çevrilmiş, onun inkişafı düzgün, yaradıcı istiqamətə yönəlmişdi*" [259, s.26]. Buradan aydın olur ki, azərbaycançılıq məfkurəsi ilk dəfə XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətində dövlət səviyyəsində həyata keçrildi. Yeni demokratik dövlət öz siyasətini azərbaycançılıqla türkçülüyün vəhdəti üzərində quraraq onu reallaşdırmağa başladı. Azərbaycan Xalq Cümhuriyyətinin ideoloqlarından olan M.B.Məmmədzadə azərbaycançılığın vətən ideyası ilə vəhdət təşkil etdiyini göstərir: "*Azərbaycançılıq ideyasını ortaya atmaqla biz heç də türkçülüyü inkar etmirik, ancaq Azərbaycan Vətən ideyasını birinci yerə keçirir, Azərbaycanın coğrafi sərhədləri daxilində millətin yekdilliyi və vəhdətini birinci dərəcəli vəzifə kimi irəli sürürük*" [196, s.135].Müəllif haqlı olaraq azərbaycançılığın türkçülüklə birlikdə bir vətəndə Azərbaycan məkanında bütün xalqların vəhdətini təmin etdiyini göstərir.

XX əsrin 20-ci illərində Cənubi Azərbaycan ədəbiyyatı da daxil olmaqla bütün İran ədəbiyyatında modernləşmə prosesi baş verdi. Ş.M.Xiyabaninin redaktor olduğu "Təcəddüd" (Yeniləşmə) qəzeti redaksiyasında çalışan Tağı Rüfət, Cəfər Xamneyi, Şəms Kəsmayi ədəbiyyatda forma və məzmunca yeniliklər yaratdılar. M.Sidqətümixom, Ə.Səfərov, S.Səlmasi, Ş.M.Xiyabani realist demokratik Azərbaycan ədəbiyyatının əsasını qoydular.

Bu dövrdə Azərbaycan folkolorunun, keçmişin tarixi-mədəni irsinin araşdırılması ilə yanaşı, milli-fəlsəfi ideyaları da tədqiqata cəlb edilirdi. Lakin orta əsr Azərbaycan filosofları ərəb-fars dillərində yazdıqlarına görə həmin əsərlər mütəxəssislər tərəfindən rus dilinə tərcümə olunurdu. Bunun sayəsində də ərəb-fars dilli mədəni irsimiz azərbyacanlıların açıq istifadəsinə verilirdi. Azərbaycan bədii fikrində əksini tapmış fəlsəfi ideyalara dair mənbələr ətraflı öyrənilir və xalqın mənəvi sərvətinə çevrilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə bəzi Azərbaycan şair və yazıçıları ikiyə bölünmüş vətən ideyası mövzusuna müraciət etmişlər. Azərbaycan Xalq Cümhuriyyəti özünün müstəqilliyi haqqında bəyannaməsini elan etdikdə İran yeni respublikanın "Azərbaycan" adlanmasına etiraz etdi. İran Cənubi Azərbaycanın ayrılmasından ehtiyat edir, Azərbaycan Xalq Cümhuriyyətinin konfederasiya halında İrana birləşməsini istəyirdi. Buna görə də ölkə "Qafqaz Azərbaycanı" adlandı. Milli ictimai şüurun qələbə çalması ilə müstəqil respublika yaradıldı. Cümhuriyyət dövründə C.Məmmədquluzadə, Ə.Haqverdiyev, A.Şaiq kimi bədii nəsrdə müəyyən inkişaf yolu keçmiş tanınmış yazıçılarla yanaşı, yaradıcılığa yenicə başlayan gənc nasirlər fəaliyyət göstərirlər.

Məlum olduğu kimi, uzun illər davam edən *"müstəmləkəçilik siyasəti milli düşüncənin sıxışdırılmasına, tədricən zəiflədilməmsinə səbəb olur*" [325, s.85]. Lakin bu, milli düşüncənin bütünlüklə məhv olması anlamında düşünülməməlidir. *"Bu mənada, Azərbaycan Xalq Cümhuriyyətinin əsaslandığı milliyyətçilik, türkçülük, azərbaycançılıq məfkurəsinin təsiri ilə cənubda Ş.M.Xiyabaninin başçılıq etdiyi Azadistan Türk Dövləti yarandı "*[142]. "*Bu, azərbaycançılıq ideologiyasının daxili*

*vəhdətinə və Vətənin hər iki tayının bir-birinə dayaq olması zərurətinə daha bir sübut idi*" [202, s.35].

Şeyx Məhəmməd Xiyabani dərin siyasi məzmunlu "Azərbaycan" məqaləsində Azərbaycanın düşmənlər, yadlar və milli satqınlar sayəsində əsrlər boyu qırğınlara, zülmlərə məruz qalmasına baxmayaraq "inqilab və təkamül yolu ilə yaşadığını", Azərbaycanın müstəqillik və azadlıq hərəkatının qarşısının alınmadığını göstərir: ""*Özgələr və "özümüzünkülər" ürəklərində saxladıqları yaramaz fikirləri həyata keçirmək məqsədilə bu torpağın yaralı sinəsi üzərində dar ağacı qurdular... Hələ də azərbaycanlının qanı axıdılmaqdadır. Bu gün Tehranın gözü Azərbaycanın parçalanmış vücuduna tikilmişdir... Tutalım ki, yaralanmış və parçalanmısan. Bununla belə o abırlı başını yüksək tut, vətənin qəlbindən gələn təsəlli səslərini dinlə, qoy bu səs sənin ürək və ruhunda dərin bir intibahın qüdrətli tufanını doğursun"* [61, c.2, s.405-406]. Bu məqalə Azərbaycanın parçalanmasına, onun birliyi ideyasına, dünyanın heç bir millətinin belə Azərbaycan qədər əzab-əziyyətlərə, işğallara, bölünmələrə, assimilyasiyalara məruz qalmadığına, şəhid qanları ilə yoğrulmadığına, yeniləşmə və təkamül yolu ilə getdiyinə, inqilab, mübarizə etməyinə, demokratiyanı bərqərar etdiyinə həsr olunmuşdur. M.Ş.Xiyabani milli hərəkatın əsas məqsədini açıq-aydın, konkret göstərir: "*İstibdad əleyhinə qiyam, əcnəbi istilasına qarşı müqavimət, pozğun daxili ünsürlərlə mübarizədə şücaət və qeyrət, kəmiyyət və istiqamət tələb olunur..."* [61, c.2, s.408]. Xiyabani İranda üç mürtəce qüvvəyə-despotik şah rejiminə,xarici işğalçılara və daxili milli satqınlara qarşı qəhrəmanlıq mübarızəsinin zərurət kəsb etdiyini göstərir.

O, Azərbaycanda elə cəmiyyət qurmaq istəyirdi ki, orada uzaqgörənlik, ağıllılıq, tədbirlilik, yaradıcılıq, icraedicilik, islahedici intizamlılıq, səbrlilik, səbatlılıq, yenilik, təşkilatçılıq, ayıqlıq, fədakarlıq hakim olsun. "*Ey Azərbaycan! Ey bu əyalətin qüdrətli, demokratik qüvvəti! Sən keçmişdə vətənin dayağı olmusan, gələcəkdə də elə olacaqsan*"[61, c.2,s.408]. Müəllif Azərbaycanın bütün keçmişi,indisi və gələcəyində milli demokratik qüvvələrin hərəkətverici qüvvə olduğunu xüsusi qeyd edir.

Ş.M.Xiyabani "vətən" deyəndə İranı və bütöv Azərbaycanı nəzərdə tuturdu: "*Ey Azərbaycan, sən bir iti gözsən ki, İran səninlə... mədəniyyətə baxır. Sən bir*

*həssas və mütəəssir olan ürəksən ki, bu vətən dünya işığını səninlə hiss edir. Ey ölməz Azərbaycan, bü umidləri doğrult, başını yuxarı tut, yaşa, həmişəlik yaşa!"* [61, c.2, s.408-409]. O, Azərbaycanı azad etməklə İranın da azad və demokratik olacağına əmin idi.

Ş.M.Xiyabaninin nitqlərində ümuminin, xalqın, Vətənin mənafeyinin hər şeydən uca tutulması və yeganə məqsədin məmləkətin azadlığını təmin edən demokratik hökümət təsis etməkdən ibarət olması əsas yer tuturdu.

Ş.M.Xiyabani bütün İran xalqının etiqad birliyi, yeniləşmə, təşkilatlanma yolu ilə azadlığa, müstəqilliyə nail olacağını alovlu nitqlərilə təlqin edir: "*İran xalqı möhkəm əlaqə olmadan, təcrübə və imtahanlardan sayıqlıqla istifadə etmədən, təşkilat və tərtibatsız şəkildə uzun müddət özbaşına və təbii yol ilə getmişdir... O, kortəbii surətdə bu günkü şəkildə yaşayıb gəlmişdir... Yeni, sağlam, düzgün və xeyirli nəzəriyyəni bu camaata təlqin etməklə bir məcəddüd – təkamül yaranmasına nail olmalıdır*" [61,c.2,s.411]. Xiyabani xalqın milli özünüdərkini oyatmaq üçün mükəmməl milll təşkilatın, faydalı nəzəriyyənin və dağıdıcı inqilabi deyil, qurucu təkamül prosesinin vacibliyini diqqətə çatdırır.

Azadxah, demokratik, cəmiyyətdə mərd, qəhrəman igidlərin yetişdirilməsi, öz ölümlərilə vətənə şərəf qazandıran şəhidlərə ehtiram göstərilməsi, xalqın intizama, mehribanlığa əsaslanması, məslək birliyinə, "vicdani əlaqəyə" nail olunması, "həqiqi məşrutiyyənin" hökm sürməsi və "həqiqi milli hakimiyyət qurulması" Xiyabaninin əsas qayəsidir: "*Müəssisələrimiz və idarələrimiz milliləşsin. Yəni milli hakimiyyət əsasına arxalansın. Biz deyirik ki: ədalət, bərabərlik və azadlıq olsun... Məslək vəhdəti məhəbbət və birlik doğurur*" [61, c.2, s.414]. Onun fikrincə, əqidə birliyi milli həmrəyliyin və vəhdətin mühüm şərtidir.

Xiyabani Azərbaycanın birliyini və xoşbəxtliyini bütün dünyanın azad xalqları arasında dostluq və qardaşlıq rabitəsinin yaradılmasında görür. O, İranda məşrutiyyə rejimini möhkəmləndirmək, əsl xalq demokratiyasını bərqərar etmək, ictimai ədalətə, ictimai fikirlə milli təşkilata arxalanan sabit hökumət təşkil etmək, fikir və əqidələr üçün şərait yaratmaq, xalqın daxili işlərə müstəqil qarışmasını təmin etmək, idarə rəisləri və vilayət hakimlərini, vəzir, flasmeddövlə, flanissəltənəni dəyişdirmək, milli

hakimiyyət qurmaq, milləti maarifləndirmək və bütün vətənpərvər qüvvələri birləşdirərək Azərbaycanı əmin-aman etmək istəyirdi. Xiyabaninin demokratik cəmiyyət quruculuğu konsensiyasında göstərilir ki, indiyə kimi xalq inqilab edib, qol-qanad açıb öz məqsədinə çatmaq istərkən bir yığın tüfeyli və yaramazlar bu qanadların üstünə minib öz arzularına çatırdılar. Bu dəfə xalqın rəhbəri onun öz tərəqqi və inkişafına xidmət etməlidir, yəni xalq öz həqiqi mülkiyyətinə çatmalı, baş nazirdən tutmuş bələdiyyə rəislərinədək hamısını özünə nökər və xidmətçi etməlidir" [61, c.2, s.429]. Xiyabani xalqın və vətənpərvər qüvvələrin fəal iştirak etdiyi, seçkili, konstitusiyalı milli demokratik hakimiyyət qurmaq tərəfdarı idi.

Xiyabani Tehranı fəsadın mərkəzi və xəyanətkarların yardımçısı hesab edir. Onun inqilabi konsepsiyasının əsasını və mahiyyətini azadlıq və müstəqilliyə nail olmaq təşkil edir: "*Azad və müstəqil olmaq istəyən bir xalq öz həyatına və ictimai məsələlərə laqeyd qala bilməz. Biz dəxi mütərəqqi xalqlar cərgəsinə çatmaq üçün öz fikir və hissiyyatımızı onların dərəcəsinə qaldırmalıyıq. Bir xalqın şərafəti üçün şərt onun müstəqil olmasıdır. Müstəqil olmayan bir xalqın əzmi və hörməti yoxdur. Xalqın istiqlaliyyətini onun əxlaqi fəziləti saxlaya bilər. Hər bir xalqın istiqlaliyyətini qoruyan onun mərdlik və şücaətidir*" [61, c.2, s.430]. Müstəqilliyi xalqın ayrılmaz atributu, suverenliyi, heç bir dövlətə tabe olmaması hesab edən Xiyabani onu xalqın şərafətitinin əsası, hörməti, şan-şöhrəti, imici və nüfuzu ilə əlaqələndirir. Xalqın müstəqilliyini, azadlığını onun milli-mənəvi dəyərlər sisteminin qoruduğunu iddia edən Xiyabani İranda bütün quruluşun yenidən təşkil edilməsini, onun ingilislərdən və kazaklardan xilas edilməsini, yeniləşdirilməsini, xəzinəsinin, siyasətinin, xarici işlər nazirliyinin, qoşunlarının iranlıların öz əlində olmasına çalışırdı. Xiyabaninin milli hökumət konsensiyasında ədalətli cəmiyyət yaratmaq, xalqın şərəfini, ləyaqətini, tarixini və milli mədəniyyətini özünə qaytarmaq, onun hüquqlarını müdafiə etmək, milli varlığını inkişaf etdirmək əsas yer tutur. "*Milli hakimiyyət xalqın ixtiyarını öz nümayəndələrinin əlinə tapşırmaqdan ibarətdir. Xalq məmurlarını özü təyin etməli və mənafeyini bunların əlinə tapşırmalıdır. Sonra isə onları nəzarət altında saxlayıb işlətməlidir... Demokratik hakimiyyət o deməkdir ki, ölkədə xalqın razılığı və xəbəri olmadan heç bir iş baş verməsin. Özbaşınalıq demokrat hakimiyyəti*

*ilə tutmayacaqdır*" [61, c.2, s.439].Xiyabaninin milli xalq hakimiyyəti konsepsiyasında seçki,nəzarət,ictimai rəy, demokratiya və qanunçuluq vəhdət təşkil edir.

Ş.M.Xiyabani qurduğu dövləti Azadistan Türk Dövləti adlandırmışdır. 1920-ci ilin may ayında Təbrizdə keçirilən mitinqdə iştirakçılar belə təklif verirlər: "*Azərbaycan bütün İran tarixi boyu həmişə azadlıq uğrunda öncül olmuşdur. Bu münasibətə görə də "Azərbaycan" əyaləti yerinə "Azadistan" (azadlıq sevən) adlanması daha düzgündür*" [75, s.13].

Ş.M.Xiyabaninin başçılıq etdiyi Azərbaycan Demokratik Partiyasının cənubla yanaşı şimalda, o cümlədən Bakıda da təşkilatları var idi.

1920-ci ilin aprelində Ş.M.Xiyabani Təbrizdə hakimiyyəti ələ keçirdi. Xarici ölkələrin hərbi yardımlarından imtina edən böyük siyasi xadimin bolşevizmə münasibəti dəyişdi. Qeyd edək ki, "*Xiyabani başda olmaqla hərəkatın əsas tələbi İranı demokratik respublikaya çevirməklə onun tərkibində Cənubi Azərbaycana muxtariyyət verilməsindən ibarət idi...*" [156]. Göründüyü kimi, Xiyabaninin əsas taktiki məqsədi əvvəlcə demokratik İran respublikası tərkibində muxtar Azərbaycan Cümhuriyyəti yaratmaq idi.

Onu da qeyd edək ki, Xiyabaninin Cənubi Azərbaycanı "Azadistan" adlandırmasına yanaşmalar müxtəlifdir.Bu yanaşmalardan biri budur ki, Xiyabani bununla sovetləşmənin İrana doğru irəlliləməsinin qarşısının alınması "*Qafqazda Azərbaycan Sovet Respublikasının təşkilinə qarşı müdafiə mövqeyi ttutması idi*" [156] 1920-ci ildə Xiyabani hərəkatı zamanı Cənubi Azərbaycana-Təbrizə gəlmiş, həmin ilin sentyabrın 8-də Xiyabani ilə görüşmüş Cəlil Məmmədquluzadə *"üsyan dövründəki Cənubi Azərbaycanı "Azərbaycan Cümhuriyyəti*" adlandırırdı [156]. Deməli, o dövrdə ölkə öz tarixi adı ilə "Azərbaycan Respublikası" da adlanirdı.

Xiyabaninin siyasi və ədəbi fəailiyyəti Şimali və Cənubi Azərbaycanın ədəbiyyat, fəlsəfi fikir, milli-azadlıq və demokratik hərəkat tarixində əsaslı dönüş yaradan böyük və təlatümlü hadisə idi.

Filologiya elmləri doktoru Vüqar Əhməd Xiyabaninin ölkəni "Azadistan" adlandırılmasını fəlsəfi yöndə izah edir. O, Xyabaninin kommunistlərə müsbət mü-

nasibət bəslədiyini Azərbaycan Xalq Cümhuriyyətinin qurucularına isə hüsn-rəğbəti olmadığını onun səhvi hesab etməklə *““Azərbaycan” adının “Azadistan”a çevrilməsinin əsas səbəblərindən biri hesab edir. Şimali Azərbaycanı XI ordu işğal edənə qədər o, AXC-lə əlaqələri kəsmşdi. Xiyabaninin Turançılıq ideyasına da münasibəti müsbət olmamışdır. Lakin bütün bunlara baxmayaraq “Xiyabani qüzeyli-güneyli Azərbaycan xalqının qəhrəman oğludur”* [75, s.50].

“Azərbaycan” adının dünyada tanınmaması xalqımızın düşmənlərinin əsas məqsədi olmuşdur. Ə.Topçubaşov İranın Türkiyədəki səfirinin Azərbaycana münasibətini əslində İranın münasibəti kimi dəyərləndirir. *“İran səfiri ilk müstəqil dövlətimizin “Azərbaycan” adlandırmasına etiraz edir, onun belə adlanmasına İrandakı “həqiqi Azərbaycana” iddia kimi baxır. O, nə Azərbaycanda, nə Qafqazda, nə də İranda Azərbaycan türklərinin olmadığını, hamısının fars olduğunu iddia edir*” [317, s.53]. Məhz bu nöqteyi-nəzərdən yanaşan İran hakim dairələri Azərbaycanı neçə illərdir ki, assimilyasiyaya məruz qoymuşlar.

Cümhuriyyət dövrü ədəbiyyatında millit həmrəylik, milli birlik, bütöv vətənçilik ideyaları əsas yer tutur. M.B.Məmmədzadə istiqlal ideyasını, millət, milli dövlətçilik ideyalarını, milli birlik, bütün dünya azərbaycanlılarının birliyi ideyalarının yaranması yollarını göstərir: “*Millətin fərdləri və zümrələri arasında fikirlərdə, duyğularda və qənaətlərdə müvazinət və sabitlik yaratmaqla yeni mənəvi birlik vücuda gətirmək üçün ictimai və iqtisadi vəziyyətlərini islah edərək oradakı dərin fərqləri və haqsızlıqları ortadan qaldırmaq lazımdır... Ortaq və kollektiv milli həmlələr bundan sonra başlayır və milli məfkurə həyatın yeganə mənasına çevrilir, bir dil şəklini alır, həqiqi milli birlik də bu zaman yaranır*” [202, s.240].

Buradan məntiqi olaraq bir fikir ortaya çıxır ki, Cənubi Azərbaycanı və bütün dünya azərbaycanlılarını birləşdirmək üçün dil, din birliyi ilə yanaşı, millətin üzvləri arasında düşüncə, fikir fərqlərini aradan qaldıran milli ideya, milli birlik və həmrəylik olduqca zəruridir.

Azərbaycan Xalq Cümhuriyyətinin liderlərindən və yaradıcılarından M.Ə.Rəsulzadə özünün ədəbiyyatşünaslığa aid yazdığı əsərlərində millətin varlığı üçün milli mədəniyyətdə üç amilin qarşılıqlı təsirini əsas hesab edirdi. O, “*coğrafi*

*amil kimi– vətəni, etnoqrafik amil olaraq – millət və mənəvi amil kimi – mədəniyyəti" göstərir*" [226, s.34]. Müəllif qeyd edir ki, Azərbaycan mədəniyyəti Şərq – İslam, Qərb – Xristian mədəniyyətlərilə qovuşmuş, dil isə ən əsas mədəni amildir və göstərdi ki,bir milləti aradan götürmək üçün siyasətçilər "*təmsil (assimilyasion) əməliyyatı icra edərkən ən birinci fikri dilə verər və ən əvvəl bir millətin dilini yaddan çıxarmağa səy edirlər*" [226, s.35]. Şimalda da, cənubda da məhz dilin məhv edilməsi, assimilyasiyası siyasətilə azərbaycanlıların milli-mənəvi bütövlüyünə ağır zərbə vuruldu.

M.Ə.Rəsulzadə milli dilin ədəbiyyat, mədəniyyət, müstəqillik və azadlıqla qarşılıqlı bağlılığını göstərir. Bir millət istiqlalını, mədəniyyətini qoruya bilmirsə, öz milli varlığının məhvinə səbəb ola bilər. Milli dövlətçilik olmasa o, xalqın nə bütövlüyünü, nə də dəyərlərini qoruya bilər. AXC-nin yaranmasını türk-müsəlman dünyasında böyük tarixi hadisə hesab edən M.Ə.Rəsulzadə yazır: "*Yüz il əvvəl Rusiya çarlığının idarəsinə ayrı-ayrı xanlıqlar şəklində keçən Azərbaycan şimdi yekparə bir kültür varlığı və millət birliyi halınıda yenidən dünyaya doğuyordu; seçdiyi hökumət şəkli ilə o, sadə Azərbaycanda deyil, bütün türk və islam dünyasında bir yenilik göstərirdi – Cümhuriyyət qururdu*" [288, s.27].

"Əsrimizin Səyavuşu" əsərində Rəsulzadə vətənin bütövlüyünün Turanla İranın barışığa gəlməsində görür, turançılığa əsaslanan türk millətlərinin «beynəlmiləl islamiyyətçilik və federasiya formullarını çıxarmış,… "*türkləşmək, islamlaşmaq, müasirləşmək" kimi üçayaqlı bir şüar ortaya atmışdı*" [225, s.36]. Bu ideya nəinki Şimalla Cənubu, bütün azərbaycanlıları, türk xalqlarını öz ağuşuna alan bir ideyadır.

Vətəndən uzaqlarda yaşayan Rəsulzadə "Çağdaş Azərbaycan ədəbiyyatı" əsərində təkcə Şimaldakı ədəbi-bədii prosesi və yazıçı və şairlərin yaradıcılığını deyil, həm də cənublu ustad Şəhriyarı və mühacirət ədəbiyyatını da azərbaycançılıq nöqteyi-nəzərdən təhlil etmişdir. "*Məmməd Əmin Rəsulzadə azadlıq idealının ədəbiyyatdakı inikas özəlliklərindən bəhs etmişdir. Beləliklə, Azərbaycanın istiqlal savaşının praktikası hesab olunan M.Ə.Rəsulzadə öz əsərlərilə qarşımızda həm də azərbaycançılıq ideologiyasının ciddi nəzəriyyəçilərindən biri kimi dayanır*" [259, s.54]. Ədəbiyyatşünas S.Vəliyeva ilə razılaşmamaq mümkün deyildir. Onun

fikirlərinə bunu da əlavə etmək olar ki, M.Ə.Rəsulzadə həm də o taylı-bu taylı ədəbiyyata vahid ümumazərbaycan ədəbi fenomeni kimi baxmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövrünün fəal qələm sahiblərindən biri də Ömər Faiq Nemanzadə idi. Hələ 1906-cı ildə “İrşad” qəzetində məşrutə uğrunda vuruşan İran mühacirlərinə müraciətən yazdığı “Alınan azadlığı nə cür saxlamalı?” məqaləsində müəllif göstərir ki, azadlıq və məşrutə idarəsinin davametmə dərəcəsi inqilabda əfkari ümumiyyənin iştirak dərəcəsindən asılıdır. Azadlıq tələb edənlər inqilabda iştirak edənlər nə qədər çox qüvvətli olarsa, alınan azadlıq nisbətən uzunmüddətli və güclü davam edə bilər. İstibdad tərəfdarlarının güclü olduğu ölkələrdə inqilabı xalq etməlidir. Müəllif İran inqilabı və məşrutəsinin fərqli və özünəməxsus olduğunu qeyd edərək onun üçün ümumi inqilab qayda-qanunlarının mövcud olduğunu göstərir. Müəllif İranda cahil və mənfəətpərəst hakimlərin, varlı ruhanilərin, müftəxor xanların inqilaba qarşı çıxdığını hər cür fəsad və hiyləyə əl ataraq min bir bəhanə ilə Cənubi Azərbaycanda – Təbrizdə Milli Məclis kimi ədalətxanaları və “Ədalət” qəzetini bağladığını, köhnə istibdad rejimini bərqərar etməyə çalışdıqlarını göstərir. “*Hərçənd İran üləmasının fədakarlığı, onların hamiliyi İran camaatının üləmayi-həqiqiyə və mücahideyi-hürriyyətə olan meyl və məhəbbətləri və tərəqqiyə olan istedadları din, haqq və vətən düşmənlərinə pək o qədər də fürsət verməyəcəkdir*” [208, s.151].

Ömər Faiq Nemanzadə 1917-ci ildə “Qardaş köməyi” məcmuəsində “Mən kiməm?” adlı məqaləsində Şimali və Cənubi Azərbaycanda milli kimlik məsələsinə toxunub. *“Hansı millətdənsən?” – sualına cənublular: “iranlı, şiə, əcəmi, qızılbaş”, Şimalda: “qafqazlı, babı, osmanlı, sünnü” - cavabı verirlər. Gürcülərdə, ruslarda isə tamam başqadır. Gürcüyə gürcülüyündən, rusa rusluğundan başqa ad vermək olmaz. “Lakin bəlaya baxınız ki, biz Qafqaz türkləri öz ayaqları ilə yanımıza gələn iranlı şiə türk qardaşlarımıza (cənublu azərbaycanlılara – A.H.) yüz çeşid ad qoşub uzaqlaşırız... Söz başlığında “az tat” – deyə də təhqir edirik.Tiflis guşələrində aclıqdan, azardan can verən iranlı türk əmələlərinə yırqatlarına“persiyan” gözü ilə baxıb keçirsiz, fəlakətlərinə soyuqqanlı tamaşa edirik.Ya Qafqazda yaşayan iranlı şiə türkləri! (cənubi azərbaycanlılar). Onlar daha qafil! Bunlar bizdən daha artıq*

*uzaqlaşmaq istəyirlər: məktəblərini, məclislərini, hətta bəzi yerlərdə məscidlərini də ayırıb özlərinə "şiə-fars" rəngi verirlər, balacalarına, yəni öz türk oğullarına türkcəni də əsirgəyirlər, oxutmurlar. Şiəliklə farslığı heç münasibəti olmyaaraq cahilanə birləşdirmək öz türklərinə balta vurmaq, öz sözlərini, öz ata-babalarını danmaq istəyirlər. Ya İranın içi ilə çölü? Oralarını daha soruşma, keç!*" [208, s.268].

Müəllif Şimali və Cənubi Azərbaycanı bir-birindən uzaqlaşdıran amilləri ürək yanğısı ilə göstərir: bu dil, məzhəb fərqləridir. Bu fərqlər hər iki Azərbaycanın milli-mənəvi bütövlüyünə xələl gətirən ən dəhşətli proseslərdir. Ö.F.Nemanzadə hər iki Azərbaycanda yaşayanların "türk" adlandırıldığını, müsəlman olduğunu göstərməklə, həm də onların ən qədim tarixə malik olduqlarını da göstərir: "*Şiəlikdən, sünnü-lükdən, babılıqdan əvvəl sən türk idin. İndi də türksən və bundan sonra da türk qalacaqsan. Sən ey türk! Nə əqidədə, nə məsləkdə olursan ol, həmişə türksən. Sən gərək biləsən ki, dünyada hələ şiə, sünni, babı, şeyxi adları yox ikən sən var idin".* [208, s.268]. İslam dini Ərəbistan səhralarında yaranqıqdan çox-çox əvvəl türklərin Altay dağları ətrafında məskunlaşdıqlarını, oradan böyük çöllüklərə doğru irəlilləyərək imperiyalar qurmağa hazırlaşdıqlarından bəhs edən vətənpərvər yazıçı hələ Qərbdə, Bağdadda mədəniyyət, idarəetmə asayiş üsulu olmadığı halda türk yurdunda onun olduğunu, türk dilini acınacaqlı hala salan ərəb əlifba və yazısından əvvəl türk əlifba yazısının mövcud olduğunu diqqətə çatdırır. Qonaqpərvər, başqalarına hörmət hissi olan türklərin indi "dilsiz, yazısız, milli nişanəsiz" qaldığını təəssüflə bildirir. O, türkləri keçmişdən ibrət almağa, elmə və milli birliyə qovuşmağa dəvət edir: "*İndinin siyasi fəlsəfəsi tərəqqiyi- millətçilikdə görüyor. Zamanın şövkət və səxavət binası millətçilik bünövrəsi və təməli üstündə qoyuluyor... Bu gün eyidən-eyiyə qanıram ki, dini əqidədən sonra insanda doğan dünyəvi əqidələrin birincisi millətpərvərlik əqidəsidir, ictimai fəlsəfənin boş, özünü tanımaq fəlsəfəsidir, millətini bilmək elmidir. İndi gələlim əsl məqsədə. Ey şiə, ey babı, sünnü türk qardaşlarım, diriliyimiz milli ittihaddır*" [208, s.270]. Beləliklə, Ö.F.Nemanzadə müxtəlif məzhəblərə parçalanan Osmanlı, İran (Cənubi Azərbaycan) Qafqaz türklərinin (Şimali Azərbaycan) xilas yolunun milli birlikdə, millətpərvərlikdə olduğunu israrla göstərirdi.

AMEA-nın müxbir üzvü Y.Qarayev Azərbaycan milli ideyasının, azərbaycançılığın qərbçiliyi, türkçülüyü, islamçılığı, millətçiliyi üstələyərək siyasi-hüquqi mahiyyət kəsb etdiyini, Azərbaycan Xalq Cümhuriyyəti nin yarandığı zamanı dövlətçilik atributuna çevrildiyini göstərir: "*Nə qərbçilik, nə türkçülük, nə islamçılıq, nə də etnik millətçilik öz namizədliyini "milli ideya" missiyasına sonralar da irəli sürə bilmədi. Xüsusən, ilk Xalq Cümhuriyyətinin təşəkkülü ərəfəsində "azərbaycançılığın" dəyəri hələ ideya halında olan bütün digər dövlətçilik dəyərlərini üstələdi. Hətta tək azərbaycançılıq tərəzinin bir gözünə, bütün digər alternativlər isə hamısı bir yerdə tərəzinin digər gözünə qoyulsaydı belə, yenə "Azərbaycan gözü" basardı, ağır gələrdi. Əgər biz "Azərbaycan" adlı çağdaş fenomeni, təkrarsız fərdi "mən"i (feno-məni) hər hansı Doğu, ya Batı – uzaq, ya yaxın super məkanda əridib-itirmək, dəfn eləmək istəmiriksə, onda etiraf etməliyik: konkret-milli imza və ünvan kimi Azərbaycan ideyasına alternativ bu gün də yoxdur. "Azərbaycan" sözü müasir siyasi-hüquqi məzmunu Azərbaycan ideologiyası formalaşandan, rəsmi dövlət adı statusunu isə Azərbaycan Xalq Cümhuriyyəti yaranandan sonra alıb*" [164, s.313]. Milli-azadlıq ictimai fikrinin yaranması və inkişafında ədəbi-bədii ideyaların mühüm rol oynadığını Azərbaycan Xalq Cümhuriyyəti ideoloqları göstərmişlər.

Bu deyilənlərdən məlum olur ki, Azərbaycan milli-azadlıq hərəkatının reallaşmasında mütəfəkkir yazıçı-şairlərlə yanaşı, maarifçi filosoflar, mətbuat orqanları, azərbaycançılıq və türkçülük ideyaları əsas amillərdən olmuşdur: *"Azərbaycan milli xartiyası"nın təşəkkülündə, istiqlal fikrinin təsisində Vaqifdən tutmuş Cavidə qədər, Mirzə Fətalidən Üzeyirə kimi, "Əkinçi"dən "Azərbaycan" və "Yeni Qafqaziya"yadək hər birinin olduqca böyük və dəyərli rolları olmuşdur. Zənnimizcə, Mirzə Fətəli və Həsən bəy Zərdabi əlli il sonra dünyaya gəlsə idilər, istiqlal fikri, Azərbaycan milli xartiyası da əlli il sonra meydana gələcəkdi. Bunların arasında çox sıx bir münasibət və rabitə vardır... Özünü, türkçülüyünü və azərbaycançılığını dərk etməyən bir xalq istiqlal bəyannaməsini verə bilməzdi"* [196, s.134]. M.B.Məmmədzadə Azərbaycanın azadlıq düşüncəsi, milli ideyasının Mirzə Fətəli və Zərdabi ilə sıx bağlılığı və əlaqəli olduğunu israrla qeyd edir, Azərbaycan

xalqının azadlıq bəyannaməsinin yaranmasında türkçülüklə azərbaycançılığın mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırır.

Azərbaycançılıq məfkurəsinin tarixi olduqca qədim dövrlərə gedib çıxır. Azərbaycançılığın qaynaqları mif, əsatir, folklor, dil, dövlətçilik, erkən və orta əsr ədəbiyyatı, maarifçilik və müasir dövrlə bağlıdır.

Azərbaycançılıq ruhu vahid ümumşərq klassik ədəbiyyatı kontekstində də qədim və orta əsrlərdə dahi sənətkarlarımız tərəfindən təbliğ və tərənnüm edilmişdir.Azərbaycançılq ideyaları XII əsrin dahi mütəfəkkiri Nizami Gəncəvinin poemalarında, Həsənoğludan başlayaraq əsası qoyulan türkdilli poeziyada, Nəvai və Füzuli, Nəsimi və Şah İsmayıl Xətai yaradcılığında,"Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanlarında, XVIII əsr ədəbiyyatında, XIX-XX əsrin əvvəllərindəki maarifçilərin, ideoloqların əsərlərində öz əksini tapmışdır. Azərbaycançılıq ədəbi-bədii prosesdə vahid millət, hər iki Azərbaycanı birləşdirən ideya kimi inikas olunmuş, hər iki tərəfin, o cümlədən mühacir ədəbiyyatının da əsas milli ideyasına çevrilmişdir. *"Azərbaycan milli ideyasının yaranmasında H.B.Zərdabinin maarifçilik, M.Ə.Rəsulzadənin millətçilik və dövlətçilik, C.Məmmədquluzadənin və ümumən "Molla Nəsrəddin"in demokratizmi və azərbaycançılığı, Demokratik Respublika tərəfindən əsası qoyulan vahid Azərbaycan vətənpərvərliyi ideyaları... mühüm rol oynamışdır"* [252, s.20].

Azərbaycançılıq məfkurə kimi Azərbaycan Xalq Cümhuriyyətində türkçülük, islamçılıq və müasirliklə qarşılıqlı əlaqə şəraitində ilk dəfə olaraq dövlət siyasəti səviyyəsində həyata keçmişdir. Bu fikri elmlər doktoru S.Vəliyeva da təsdiq edir: *"Azərbaycan-çılıq ideyası ilk dəfə dövlət siyasəti səviyyəsində 1918-ci ildə qaldırıldı və Azərbaycan Xalq Cümhuriyyətinin milli siyasətinin əsasını təşkil etdi. Xalq Cümhuriyyəti liderlərinin, hökumət rəhbərlərinin və ideoloqlarının millət və milli məsələ, milli siyasət, millət və sinif, millətçilik və beynəlmiləlçilik və s. haqqında olan nəzəri müddəaları əsasən azərbaycançılıq (türkçülük) üzərində qurulmuşdu və milli dövlət quruculuğuna yönəlmişdi"* [258, s.125]. Onu da qeyd etmək yerinə düşərdi ki, bizim əsas məqsədimiz azərbaycançılıq məfkurəsini deyil, AXC ədəbiyyatında bölünmüş Vətən ideyasını araşdırmaqdır.

Azərbaycançılıq təkcə Şimali Azərbaycandakı bütün xalqların deyil, həm də bütün dünya azərbaycanlılarının (o cümlədən Cənubi Azərbaycandakı soydaşlarımızın) vəhdəti ideyasıdır. Azərbaycançılıq türkçülük, islamçılıq və müasirliklə birləşərək vahid bölünməz Azərbaycan vətəni ideyasının əsasını təşkil etmiş, Şimali və Cənubi Azərbaycanın inteqrasiyası vasitəsi olmuşdur. Tarixi şəraitin yetişməsi nəticəsində vahid milli vətənçilik ideyası, bütöv, müstəqil Azərbaycanın birləşməsi reallığa çevriləcəkdir. Professor C.Qasımov azərbaycançılığın *"bədii-fəlsəfi düşüncədə, milli mətbuatda, təhsil və teatr hərəkatında, bütünlükdə o illərin maarifçilik təsisatlarında formalaşıb milli miqyasda bərqərar olduğunu, Şərqdə ilk milli demokratik dövlət, milli-mədəni və sosial fəlsəfi ənənə, realist və romantik-maarifçi konsepsiya ilə hazırlandığını, vülqar bolşevik doktrinası ilə məhv edildiyini"* [166, s.60] xüsusi diqqətə çatdırır.

Azərbaycançılıq AXC-nin dövlətçilik ideologiyasının əsaslarını təşkil edərək millətə, xalqa, dövlətə xidmət etmiş milli ideoloji və ədəbi-estetik fenomen kimi bu gün müstəqil Azərbaycanın milli varlığının nüvəsində mühüm amıllərdən biridir.

Azərbaycan milli dövlətçiliyinin düşmənləri, xüsusən ermənilər Bakı mətbuatında milli mədəniyyətimizi inkar edən, "Azərbaycan" adına və simvollarına rişxənd edən məqalələr yazmışlar. İran dövləti müstəqil milli respublikamızın "Azərbaycan" adının "Aran" sözü ilə əvəz olunmasını təklif etmişdir. Milli Şura bunu qəbul etməmiş, "Cənubi Qafqaz Türk Respublikası" adından da milli kimlik meyarına uyğun gəlmədiyi üçün imtina etmişdir. Belə gərgin beynəlxalq münasibətlər şəraitində Azərbaycan milli ideyasına və "Azərbaycan" adına üstünlük verilmiş və dövlət Azərbaycan Xalq Cümhuriyyəti adlandırılmışdır.

Azərbaycanda sovetləşmənin və kommunist ideologiyasının bərqərar olması siyasi mənada milli dövlətçilik prosesinin qarşısını alsa da, milli məfkurənin inkişafına əngəl ola bilmədi.

Sovetləşmə zamanı milli düşüncə və əhval-ruhiyyə daha çox bədii yaradıcılıqda öz təcəssüünü göstərdi. Lakin bədii təfəkkürdə milliliyə maneə olan amillər də güclü idi. Bu baxımdan da marksizm-leninizm ehkamı bütövlükdə azərbaycançılıq, bölünmüş vətən ideyası, milli-mənəvi bütövlük düşüncəsi üçün bir buxov idi.

# II FƏSİL

# XX ƏSRİN 20-50-Cİ İLLƏRİNDƏ O TAYLI BU TAYLI AZƏRBAYCANDA BAŞ VERƏN İCTİMAİ-SİYASİ PROSESLƏRİN NƏSRDƏ İNİKASI

## 2.1. XX əsrin 20-30-cu illərində sovet Azərbaycanı nəsrində bölünmüş vətən və milli-mənəvi bütövlük ideyasına münasibət

XX əsrin 20-30-cu illəri Azərbaycan ədəbiyyatında sovet mərhələsinin başlanğıc dövrü idi. Bu dövrdə ədəbi-estetik fikirdə marksist-leninçi metodologiya hakim idi, bütün sahələr, o cümlədən ədəbi-bədii proses də, ədəbiyyatşünaslıq da marksist-leninçi qəbilə sığışdırılırdı. Milli mövzular yasaqlanır, onlara "əks- inqilabi ideyalar", "pantürkizm" damğası vurulurdu. Belə yasaq olunmuş mövzular sırasında "ikiyə bölünmüş Azərbaycan" mövzusu əsas yer tuturdu. İlk müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin varlığının unudulması kimi, bu mövzu da hər iki tərəfdə Sovet Azərbaycanında da, İranda da qadağan olundu. "*Uzun illər (xüsusilə 1920-ci illərdən sonra) hər iki tayda – Sovetlər Birliyində bolşevik, İranda şah rejimi tərəfindən "ikiyə bölünmüş Azərbaycan məsələsi" yasaq olunmuşdu*" [189, s.19].

Artıq XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatına humanitar fikir tarixinə dair yeni yanaşmalar, yeni konsepsiyalar meydana gəlmişdi. Bu gün müstəqil Azərbaycanda hakim marksisit-leninizm nəzəri-metodoloji konsepsiyası aradan qaldırılmış, ədəbi-bədii fikrə siyasi müdaxiləyə son qoyulmuşdur. Şübhəsiz ki, bundan sonra "bölünmüş vətən ideyası"nın tədqiqi mümkün oldu. İlk dəfə olaraq XX əsrin əvvəllərində sovet dövründə yaranmaqda olan ədəbiyyatın, ədəbi-bədii prosesin özündən əvvəlki ədəbiyyatla bağlılığı, onun yekun nəticəsi olduğu diqqətə çatdırıldı. Bu baxımdan akademik İsa Həbibbəylinin fikirləri diqqəti xüsusilə cəlb edir: "*Fikrimizcə, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı anlayışı XIX əsrin axırlarından başlanan tənqidi-realist meyllərin qanunauyğun məntiqi davamı olub, keçən yüzilliyin əvvəllərində xüsusi böyük inkişaf dövrünü yaşayan və nəhayət, 1937-ci ilin repressiyaları ilə tamamlanmış konkret bir proses hesab edilir*" [121].

Akademik İsa Həbibbəyli həmin prosesin hətta XX əsrin ortalarına qədər- İosif Stalinin vəfatına qədər davam etdiyini göstərir və haqlı olaraq indiyə qədərki dövrləşdirməni həmin prosesin 1920-ci il aprel inqilabı çevrilişi ilə başa çatdığının göstərilməsini "məsələnin ideoloji cəhətdən dəyərləndirilməsi nəticəsində formalaşdırılmış süni qənaət" hesab edir. Eyni mövqeni tədqiqatçı Ş.Alışanlı da təsdiq edir: "*Əslində XX əsrin ilk onilliklərində formalaşmış milli ictimai və bədii şüur tipi 20-30-cu illərdə də yaşayırdı. Təsadüfi deyil ki, 1920-ci illərdə və 30-cu illərin birinci yarısında Azərbaycanda ədəbi-mədəni və elmi fikrin inkişafı üçün siyasi-mənəvi reallıqlar mövcud idi. Bu, ictimai-siyasi həyatda olduğu kimi, elmi-mədəni həyatda da hiss olunurdu"*[14, s.54-55]. Bir sözlə Azərbaycan ədəbiyyatındakı dövrləşdirmə sovet ideologiyası ilə əlaqədar olduğundan bütün hər şey marksist-leninçi prinsiplərdən çıxış edərək qiymətləndirilir, müasir siyasi reallıqlara üstünlük verilirdi.

Bölünmüş vətən ideyasına münasibətə gəldikdə Sovet Azərbaycanı Böyük Sovetlər Birliyi vətəninin bir hissəsi, Cənubi Azərbaycan isə İranın tərkib hissəsi kimi dəyərləndirilirdi. Eyni bir vətənin bir hissəsi kommunist ideologiyasına əsaslanan "əzəmətli Sovet Vətəni" ideyasını, digər bir hissəsi isə yad, kapitalizm və islam dəyərlərinə söykənən "İran Vətən ideyasının" tərkib hissəsi hesab edilirdi. Şimali, Sovet Azərbaycanının yazıçıları öz əsərlərində "Sovet Vətəninin qəhrəmanlıq tarixini" tərənnüm edir, "Vətənin kommunizm quruculuğu yolunda inamla irəliləməsini" təsvir edirdilər. Bütün SSRİ-də olduğu kimi, Azərbaycan sovet ədəbiyyatında da Vətən qarşısında yeni borc hissi formalaşdırılırdı*: bu "kommunizm uğrunda mübariz və qurucu sovet adamının sosialist Vətəninə şüurlu münasibəti idi". Məlum olduğu kimi, şüurluluq "sosialist cəmiyyəti insanının ən böyük fəzilətlərindən biri idi. Buna görə də, Vətəni sevmək bu mənada hər kəsə nəsib deyildi, yalnız kommunizm quruculuğu mübarizinə xas idi…*

*Beləliklə, Sovet Vətəni qarşıda duran birmənalı obraz deyildi… Sovet vətəni müasir modernləşmiş dövlət, yeni sivilizasiya idi. Onun industrial gücünü yeni cəmiyyət quruculuğu proqramı və insanların yeni birliyi – Sovet xalqı təşkil edirdi*" [316]. Şübhəsiz ki, burada tarixi vətənə, xüsusilə bölünmüş vətənə, milli-mənəvi

bütövlüyə yer qalmırdı. Burada əsasında başda "böyük rus xalqı olmaqla, Sovet Vətəni imperiya patriotizminin bütün ölkələrin zəhmətkeşlərinin beynəlxalq sinfi həmrəyliyinin durduğu proletariat dövləti – sosialist dövləti əsas yer tuturdu". İ.Stalin "Kommunist manifesti"ndəki "proletariatın vətəni yoxdur" ideyasının əvəzinə – proletariat beynəlmiləlçiliyi ideyasını irəli sürdü. O, SSRİ-ni dünya proletariatının vətəni hesab edirdi.

XX əsrin 20-ci illərdə Azərbaycan ədəbiyyatında bədii nəsr yaradıcılığı inkişaf etdi. M.S.Ordubadi, Y.V.Çəmənzəminli kimi yetkin nasirlərlə yanaşı, H.Nəzərli, Əbülhəsən, Mir Cəlal, M.Hüseyn, Ə.Vəliyev kimi gənc nasirlər nəsli həyata qədəm qoyur, ədəbi-bədii yaradıcılıqla məşğul olurdular. Onlar əsərlərində yeni sovet şüuru və kommunist əxlaqı, vətənpərvərlik və beynəlmiləlçilik ideyalarını təbliğ edirdilər.

Əsrin 20-ci illərində C.Məmmədquluzadə Cənubi Azərbaycana getdi və "Molla Nəsrəddin" jurnalını Təbrizdə nəşr etdirdi. 1922-ci ildə o, Bakıya qayıdıb nəsr yaradıcılığını davam etdirdi. Onun sovet siyasi dönəmindəki yazıları da fərqli bir üslub və formada rejimə qarşı yönəlmişdi.

C.Məmmədquluzadə Bakıya qayıdarkən ümid edirdi ki, "Molla Nəsrəddin" ənənəsinə uyğun olaraq özünün söz silahı ilə xalqına və dövlətinə xidmət edəcək. İlk dövrlərdə "Molla Nəsrəddin"in nəşri üçün şərait yaradıldı, C.Məmmədquluzadə və həmkarları sovet dövlətinin diqqət və qayğısı ilə əhatə olundu.

"Molla Nəsrəddin" jurnalı hətta sovet hakimiyyətini alqışlayan baş məqalə də çap etdi. "Şura üsul-idarəsi" adlanan məqalədə C.Məmmədquluzadə illərlə arzuladığı "məsləhət və məşvərət hakimiyyəti üsulunun", əsl xalq hakimiyyətinin yarandığına sevinirdi. Tezliklə C.Məmmədquluzadə quru tərifçilikdən əsaslı tənqidə və hətta ictimai ittihama keçərək yeni yaranmaqda olan bürokratik, rüşvətxor sovet məmurlarını kəskin tənqid etməyə başladı. ("Xan hünəri", "Bakı nefti, "İnqilab lazım", "Sovnarkom", "Dinc ol, səbrini dər" felyetonlarını buna misal göstərmək olar)

"Molla Nəsrəddin"in fəaliyyətinin XX əsrin 20-ci illərinin sonlarındakı dövrünü kəskin tənqid və sovet cəmiyyətindən uzaqlaşma dövrü hesab edirlər. Akademik İsa Həbibbəyli həmin dövrü "şübhə və təqib mərhələsi" kimi səciyyə-ləndirərək yazır:

*“Artıq bu mərhələdə C.Məmmədquluzadənin tənqidi publisist məqalələri və felyetonları çox vaxt yuxarı dairələrdə və bədxahlar arasında iqtadara sataşmaq, millətə böhtan atmaq... kimi yozulmuşdur. Göstərilən mərhələdə, yəni 1929-1931-ci illərdə “Molla Nəsrəddin” jurnalının fəaliyyətində üç cəhət özünü göstərir: Tarixi yolun davamı, cəmiyyətin açıq tənqidi dərki, özünümüdafiə”* [122, s.384].

20-ci illərin sonlarında Azərbaycan CCR Allahsızlar İttifaqının sədri İ.Dubinski ilə mollanəsrəddinçilər arasında ziddiyyət yarandı. “Molla Nəsrəddin”ə qarşı təzyiqlər artdı. Bir müddət sonra jurnal bağlandı və mollanəsrəddinçilər, xüsusilə C.Məmmədquluzadə və ailəsi təqiblərə məruz qaldı.Görkəmli tədqiqatçı, professor Cəlal Qasımov yazır ki, 20-ci illərin sonlarında sovet dövləti dinə qarşı kəskin kampaniya apardı.Bundan sonra *“1929-cu ilin yazında Azərbaycan mətbuatının milli iftixarı olan “Molla Nəsrəddin” jurnalını daha “mübariz” jurnalla əvəz etmək ideyası ortaya atıldı*” [166, s.255].

1922-ci ildə “Molla Nəsrəddin”in İrandan (Cənubi Azərbaycandan) Bakıya Azərbaycan hökumətinin özünün dəvət etdiyini bildirən C.Qasımov Mirzə Cəlilin məramının və məqsədinin xalqa xidmət olduğunu göstərir.Müəllifin qeyd etdiyi kimi tezliklə covet hakim dairələri jurnalı tənqidlə qarşıladı, onu “allahsızlar ittifaqının orqanına çevirməyə, “ətrafına proletar yazıçıları toplamağa”, “əski iş üslubundan çəkindirməyə” çalışdı.

Görkəmli yazıçı və ədəbiyyatşünas Mir Cəlal Paşayev “Molla Nəsrəddin” jurnalının Təbrizdə səkkiz nömrəsini çap etdirdikdən sonra 1921-ci ilin axırlarında Bakıya gəldiyini və “böyük bir həvəslə jurnalın nəşrini davam etdirdiyini” göstərir: *“ədib onu fəhlə-kəndli dövlətinin düşmənlərinə kəskin bir tənqid silahına çevirmişdi.... özünəməxsus mənalı bir gülüş, aydın və sadə bir ifadə ilə C.Məmmədquluzadə nəinki yalnız din və mövhumatı, hətta sovet idarələrinə soxulan bürokrat, tənbəl, yaramaz ünsürləri də qamçılayırdı”* [19, s.613].

“Molla Nəsrəddin” sovet hakimiyyəti illərində də bölünmüş vətən ideyasına diqqət yetirir, Cənubi Azərbaycanda azərbaycanlıların şah rejiminin zülmünə məruz qaldığını, onların milli-mədəni problemlərlə üzləşdiklərini, ana dillərinin qadağan olunduğunu diqqətə çatdırır.

Bakıdakı İran konsulluğunun "Molla Nəsrəddin"ə göndərdiyi cavab məktubunda İranın Cənubi Azərbaycanda azərbaycanca qəzetlərin nəşru üçün pul ayırmadığı, Tehran hökümətinin Cənubi Azərbaycanda azərbaycanlıların öz dillərində danışmalarına razı olmadığı bildirilirdi.

"Molla Nəsrəddin" xarici güclü dövlətlərin İrandakı apardıqları işləri, İran şah hökumətinin Cənubi Azərbaycandakı siyasətini ifşa edirdi. Jurnal öz səhifələrində İranda güclənən Rza xan irticasına, onun Cənubi Azərbaycanda milli mətbuatın və ədəbiyyatın tamamilə qadağan edilməsi siyasətinə qarşı çıxırdı. *"Cəlil Məmmədquluzadə... sovet hakimiyyəti illərində Bakıda çıxartdığı nömrələrdə öz mübarizəsinin yeni bir dövrünə daxil olaraq məcmuənin əksər nömrəsində Cənubi Azərbaycan və İran mövzusunda qiymətli materiallar verir"* [141, s.211].

C.Xəndanın fikrincə, Şimali Azərbaycan uğur qazandıqca *"İran hököməti Cənubi Azərbaycanla Sovet Azərbaycanının əlaqəsini daha möhkəm bəndlərlə kəsmiş, nailiyyətlərimizin Cənuba təsir etməsindən qorxuya düşmüşdü. Çünki bu əlaqə Cənubi Azərbaycanda yeni bir inqilabi hərəkatın başlanmasına səbəb ola bilərdi. Ona görə də İran hököməti oz xarici ağalarının göstərişilə Cənubi Azərbaycanda daha güclü bir irtica başlayırdı"* [141, s.211].

C.Məmmədquluzadə "Təbrizlilər", "İranda ağalıq və rəiyyətlik üsulu" adlı yazılarında şah irticasını ifşa edir, fars zülümündən qurtarmağın xilas yolunun milli-azadlıq uğrunda mübarizə olduğunu göstərirdi.

"Molla Nəsrəddin" 1925-ci ildə "Şimali İran (əslində Cənubi Azərbaycan-A.H.) nefti üçün mübarizələr" başlığı altında verdiyi karikaturada İranı maral, İngiltərə və Amerikanı əjdaha simasında, maralı xilas etməyi çalışan xalqı isə qolu bağlı şəkildə vermişdir.

Professor Nizaməddin Şəmsizadə "İtmiş nəslə uvertura" adlı məqaləsində Azərbaycan xalqının həyatında onun vahid vətənçiliyinə, dindaşlığına, gendaşlığına, ümmətçliyinə ağır zərbə vuran «tarixin günahları»ndan bəhs edərək yazır: "*Tarixin günahlarını açmaq, həqiqətləri üzə çıxartmaq bu gün ziyalının təkcə professional yox, həm də əxlaqi borcu, vətəndaşlıq vəzifəsidir. Azərbaycanda belə "tarixin günahları" arxasında milli mənşəyimiz, Xətai taleyi, Gülüstan və Türkmənçay*

*zorakılıqları, bolşevik terroru və 37-nin repressiyaları ilə bağlı yalanlar gizlənib. "Tarixin günahları" yalana tarixi bəraət qazandırmağın universal üsullarından biridir*" [247, s.21].

Sovet İttifaqı Kommunist Partiyasının ədəbiyyat sahəsində 1925-ci il tarixli qərarları bu "günahların ört-basdır edilməsinə, milliliyə, fövqəl-dövlət şovinizmə xidmət edirdi". Bu dövrdə yazıçıları Cənubi Azərbaycana, Türkiyəyə bağlılığa görə ittiham edir, onları müsavatçılıqda, pantürkizmdə, islamizimdə, idealizmdə günahlandırırdılar.

Əsrin 20-30-cu illərində sovet-kommunist ideologiyası və senzura milli məfkurəyə və milli-mənəvi bütövlük ideyasına qarşı kəskin mübarizə aparır, bu ideyanı özündə əks etdirən azərbaycançılıq ideologiyasının bütün əlamətlərini amansız tənqid edir, bu ideya daşıyıcıları hesab olunan sənətkarları məhvə məhkum edirdi.

Sovet siyasi rejimi dönəmində türkçülük (azərbaycançılıq) millətçilik kimi dəyərləndirilir edilir, ədəbiyyatda milli, tarixi mövzuların işlənilmısinə ciddi yasaqlar qolulur, proletariatın saxta beynəlmiləlçilik şüarı təbliğ olunurdu. Həmçinin dinlə bağlı yasaqların olması, ateizmin, allahsızlığın təbliği mənəvi-əxlaqi dəyərlərin tənəzzülünə gətirirb çıxarırdı. Müasirləşmək (modernləşmək) çərçivəsi altında aparılan islahatlar proletkultçuluğa söykənir, gerçək mənada dünya ilə əlaqə və rabitənin yaradılmasına imkan verilmirdi.

Bununla da Şimali Sovet Azərbaycan və Cənubi Azərbaycan arasındakı milli-mənəvi bağlılığı qırmağa, bölünmüş vətənin hissələri arasında uçurum yaratmağa, onu daha da dərinləşdirməyə cəhd edilsə də lakin "*hər iki tayda ədəbi-bədii proses, gedir, ziyalılar, yazıçılar, şairlər milli-mənəvi bütövlük uğrunda mübarizə aparır, milliliyi qoruyur, inkişaf etdirir, azərbaycanlılar özlərini vahid bir xalq kimi təsdiq etməyə çalışırdılar*" [136, s.86]. Sovet siyasi rejimi dönəmində məhz milli kimlik, mənəvi bütövlük, istiqlalçılıq zəminində Vəli Xuluflu, Bəkir Çobanzadə, Əlabbas Müznab, Əhməd Cavad, Ömər Faiq Nemanzadə, Salman Mümtaz, Mikayıl Müşfiq, Seyid Hüseyn, Hacıkərim Sanılı, Yusif Vəzir Çəmənzəminli, Tağı Şahbazi, Hüseyn Cavid kimi qələmə sahibləri repressiya olundular.

Bu dövrdə "*milli tarixi epopeyanın banisi*" [247, s.351] M.S.Ordubadinin qələminə məxsus "Dumanlı Təbriz" romanı bölünmüş vətən və milli-mənəvi bütövlük ideyasını özündə əks etdirən və Azərbaycan bədii nəsrinin böyük uğuru və roman janrında yazılmış şah əsərlərdən biri kimi dəyərləndirilir.

XIX əsrdə M.F.Axundzadənin ədəbi prosesə daxil etdiyi nəsr janrları XX əsrin əvvəllərindən C.Məmmədquluzadə, N.Nərimanov, S.S.Axundov, Ə.Haqverdiyev, A.Şaiq tərəfindən uğurla davam etdirilmişdir. Azərbaycan ədəbiyyatında yeni nəsr 20-ci illərin ortalarından başlayaraq inkişaf etməyə başladı. B.Əhmədov 20-ci illər Azərbaycan bədii nəsrində yeni təmayülün təşəkkülünü yalnız ictimai-siyasi hadisələrin dəyişməslə, yeni quruluşla bağlayaraq yazır: "*Bu dövrdə bədii nəsr təkcə mövzu və problematika baxımından yox, həm də janr, üslub zənginliyi, bədii forma müxtəlifliyi ilə fərqlənirdi. Şübhəsiz, iki dünya – kapitalizm və sosializm sistemi arasında gedən mübarizə ədəbiyyata, xüsusilə bədii nəsrə təsirsiz qalmırdı*" [77, s.222]. Şübhəsiz ki, bölünmüş vətən ideyası da sosialist və kapitalist dünyasının ideoloji mübarizə sahəsinə daxil olduğundan onun vahid vətən ideyasına çevrilməsi qeyri-mümkün olurdu.

20-ci illərdə yeni sovet proletar nəsri kommunist, milli və yeni təfəkkürün qarşılıqlı təsiri şəraitində formalaşırdı. "*Bədii nəsrin qarşısında duran vəzifələr həyatı inkişafda təsvir etmək, yeni həyatın üstün cəhətlərini göstərmək, yeni əxlaqi münasibətlər sistemini marksist-leninçi dünyagörüşü mövqeyindən qiymətləndirməklə məhdudlaşırdı; burada yeni sənət meyarlarına da üstünlük verilirdi*" [77, s.223]. Müəllif ədəbi prosesdə yeni mərhələnin təsvirində dövrün yaradıcılıq metodu tam müəyyənləşmədiyi, ictimai-siyasi münasibətlərdə mövqelər tam aydınlaşmadığına görə proletar cəbhəsinə keçidin ləngidiyini, kommunist obrazının yaradılmasında, yeni əxlaqi, ictimai-siyasi münasibətlər sistemində pərakəndəliyin hiss olunduğunu göstərir: "*Lakin ədəbi tənqidin yazıçıları proletar ədəbiyyatı yoluna dəvət etməsindən sonra bu nəsrin ilk nümunələri yaranır. Bu ədəbi nümunələrin hamısını heç də proletar nəsri adlandırmaq yerinə düşməzdi, çünki bugünkü ədəbi meyarlar baxımından onların bəziləri proletar nəsri yox, müasir dövrü əks etdirən hekayələr idi. Tağı Şahbazi Simurq, Böyükağa Talıblı, Hacıbaba Nəzərli, Əli Vəliyev,*

*Əbülhəsən Ələkbərzadə proletar (burada sırf kommunist proletar dünyagörüşü nəzərdə tutulmur, yeni bədii nəsr təfəkkürü də buraya daxildir) cəbhəsinə ilk keçənlərdən olur*" [77, s.223]. Professor Bədirxan Əhmədov 20-30-cu illər Azərbaycan ədəbiyyatında, xüsusən bədii nəsrdə sinfi yanaşmanın təzahür etdiyini də qeyd edir.

Bu dövrdə milli ruhlu əsərlər yazan yazıçılar ciddi tənqidə məruz qalırdılar. Cənubi və Şimali Azərbaycan arasındakı milli-mənəvi bütövlüyə zərbə vuran amillərdən biri də Sovet Azərbaycanında aparılan əlifba islahatı idi. Əlifba islahatı 1923-cü ildə sovet respublikalarında, o cümlədən Azərbaycan SSR-də başlayan sovet millətlərinin formalaşmasını təmin edən korenizasiya (yerliləşdirmə) siyasətinin tərkib hissəsini təşkil edirdi. Yerlliəşdirmə siyasəti bütün milli dillərin rus dililə hüquqlarını bərabərləşdirməyə, milli şüur səviyyəsini yüksəltməyə xidmət edirdi. Korenizasiyanın aspektlərindən biri olan türkləşdirmə, Azərbaycan dilinin bütün qeyri-azərbaycanlılara öyrədilməsi məsələsi də qaldırıldı. Bu isə ali məktəblərdə azərbaycanlı tələbə və müəllimlərin sayının artmasına səbəb oldu.

Əlifba islahatı "latınçılar" və "ərəbçilər" arasında ciddi mübahisəyə səbəb oldu. "Ərəbçilərin" nəzərincə, ərəb qrafikası bütün türk xalqları arasında vahid ədəbi dilin varlığına (o cümlədən farsın əlifbasından istifadə edən Cənubi Azərbaycanın) xidmət edirdi. Bununla da ərəb əlifbası Cənubi və Şimali Azərbaycanın milli-mənəvi bütövlüyünü qoruyub saxlayırdı. Moskva isə türklər və bütün müsəlman xalqları arasında milli fərqləri dərinləşdirmək siyasəti yürüdürdü.

1926-cı ildə yeni əlifbaya - latın əlifbasına Azərbaycanda keçmək barədə qərarın ardınca bu əlifbaya 1928-ci ildə Türkiyə Cümhuriyyətində də keçılməsi haqqında da qərar qəbul edildi. ABŞ-lı azərbaycanşünas alim T.Svyatoxovski yazır: "*Əlifba islahatının nəticəsində Azərbaycanın Türkiyə ilə əlaqələri qorunub saxlanıldı. Lakin İran Azərbaycanından uzaq düşmək prosesində daha iri addım atıldı ki, burada ərəb qrafikasının dəyişdirilməsi məsələsi açıq şəkildə müzakirə oluna bilməzdi*" [243, s.155]. Lakin 30-cu illərdə açıq ruslaşdırma siyasəti yürüdüldü. Rus dili bütün sovet respublikalarının, o cümlədən Sovet Azərbaycanının da "dünya əhəmiyyətli rus mədəniyyətinə qovuşması vasitəsi" hesab edildi.

Məlum olduğu kimi, 1926-cı ildə I Bakı Türkoloji qurultayı yeni əlifbaya (latın) keçilməsi barədə qətnamə verdi. Birinci Beynəlxalq Türkoloji qurultayın latın qrafikalı əlifbaya keçilməslə bağlı qəbul etdiyi qətnamədə deyilirdi:

*"Qurultay ərəb əlifbasının islah edilməsi və yeni türk əlifbasının (latın qrafikalı əlifbanın) ərəb əlifbasından texniki cəhətdən mükəmməl olmasını təsdiq edir, o cümlədən yeni əlifbanın ərəb əlifbası ilə müqayisədə mütərəqqi mahiyyətini və mədəni-tarixi nüfuzunu qəbul edir. Qurultay hesab edir ki, yeni əlifbanın həya-ta keçirilməsi hər bir türk-tatar respublikasının, vilayətinin və xalqının işidir"* [167, s.121].

Qurultayın qətnaməsi konkret olaraq yeni latın qrafikalı türk əlifbasının türk respublikaları və vilayətlərində-Azərbaycanda, Yakutiyada, Qırğıstanda, İn-quşe-tiyada, Qaraçay-Çərkəzdə, Kabardində, Balkanlarda, Osetiyada, Çeçenistanda, Başqırdstanda, Türkmənistanda, Özbəkistanda, Adıgey-Çərkəzdə həyata keçiril-məsini "geniş bir hərəkat kimi" qəbul etdi və bütün türk xalqlarının yeni islahatlar aparmaq üçün Azərbaycanın və digər respublikaların təcrübəsindən və üsulundan istifadə edilməsini məsləhət gördü.

Bununla yanaşı qurultay türk dillərinin qarşılıqlı əlaqədə öyrənilməsi, ana dilinin tədrisi metodikası, türk xalqlarının tarixinin öyrənilməsi, müasir vəziyyəti və vəzifələri, ölkəşünaslıq, türk dillərində elmi terminlər sistemi və s.barədə qətnamələr də qəbul etdi.

Qurultayda orfoqrafiya ilə bağlı türk dilləri üçün uyğun olan fonetik etimoloji, mifoloji prinsiplər məqbul hesab olunmuş, Azərbaycanda, digər respub-likalarda və vilayətlərdə qəbul olunmuş yeni latın əlifbası orfoqrafiyasını yaratmaq üçün daha əlverişli şəraitin yarandığı qərara alınmışdır.

Sovet İttifaqında yaşayan türk xalqlarının əksəriyyəti yeni latın əlifbasına keçilməsi haqqında qərarı qəbul etdi. Bu qərar türk xalqları arasında qarşılıqlı əlaqəyə təkan versə də ərəb əlifbası ilə əsrlərlə yaranmış milli- mədəni sərvətlərdən uzaqlaşmağa, eyni zamanda bizim mövzumuzla bağlı olaraq onu deyə bilərik ki, indi də ərəb əlifbasından istifadə edən Cənubi Azərbaycandakı soy-daşlarımız arasında mədəni-mənəvi əlaqənin kəslməsinə səbəb oldu.

Sonralar Birinci Türkoloji qurultayın qərarlarının yerinə yetirilməsinə əngəllər yaradıldı, türk xalqlarının mədəni inteqrasiyasının qarşısı alındı, qurultay iştirakçılarının əksəriyyəti repressiyalara məruz qaldı. 1939-ci ildə isə kiril əlifba-sına məcburi keçmək haqqında qərar verildi ki, bu da Şimali və Cənubi Azərbaycanda yaşayan azərbaycanlıların mədəni inteqrasiyasına daha sarsıdıcı zərbə vurdu.

30-cu illərdə türk respublikalarının Azərbaycan və Orta Asiya respublikalarında latın əlifbası kiril əlifbası ilə əvəz olundu. Bununla da Azərbaycanın Türkiyə ilə də əlaqəsi kəsldi, Cənubi Azərbaycandan uzaqlaşma, onunla yadlaşma daha da gücləndi.

XX əsrin 20-30-cu illərində sovet kommunist rejimi bütün postsovet məkanında olduğu kimi Azərbaycanda da milliliyə son qoymaq, onu "beynəlmiləlçiliklə əvəz etmək üçün bütün vasitələrdən, hətta repressiv metodlardan da istifadə edirdi. "*Məhz bunun nəticəsində vətənin və millətin dərdini çəkən, milli düşüncəli insanlar ya məhv edilmiş, ya da qorxu gücünə susdurulmuşlar. Azərbaycanda Güneydəki ilə birlikdə işlədilən əsgi əlifba dəyişmə "oyunu" 1939-cu ildə rus-kiril əlifbasının qəbul etdirilməsi ilə başa çatmışdı*" [222, s.15]. Əslində "əlifba dəyişmə oyunu"nun məqsədləri daha məkrli və təhlükəli idi. Burada sovet hakimiyyəti həm yeni nəsllər arasında varislik əlaqəsini kəsmək, həm onları qiymətli mədəni irsdən məhrum etmək, həm də bütöv bir xalqın bir-biriilə mənəvi bağlılığını qırmaq kimi çoxtərəfli məkrli planlar qurdu.

Azərbaycanı ikiyə bölmüş müdhiş güclər bu parçalanmanı gələcək nəsllərin şüurlarından silmək üçün bütün ideoloji vasitələrə əl atmışlar. Şimali Azərbaycanın Rusiyaya birləşməsini mütərəqqi tarixi əhəmiyyətli hadisə kimi təqdim edir, Cənubda Azərbaycan yenidən əyalətlərə parçalanırdı, onların sayı və ərazisi qəsdən azaldılırdı. Şərqi, Qərbi Azərbaycan, Zəncan ostanlarından ibarət Cənubi Azərbaycanın mil-yonlarla əhalisindən başqa, bir-neçə milyonu ondan kənarda, o cümlədən Tehranda yaşayır. "*Məqsəd parçalanmış xalqı, onun yeni nəslini öz milli kimliyinə, tarixi keçmişinə və Arazın o sahilindəki bacı-qardaşlarına yadlaşdırmaq və unutqanlıq hisslərini onlara aşılamaq idi. Adlarımızda, soy adlarımızda, toponimlərimizdə ruslaşdırmaya geniş meydan verilmişdi. Quzeydə yaşayan soydaşlarımızın sayını azaltmaq, qonşularına nisbətən onu "cırtdan respublika"ya çevirmək üçün 30-cu*

*illərdə türklərin öz vətənlərindən kütləvi köçürülmə əməliyyatı həyata keçirilmişdi*" [222, s.15].

1938-ci ildə çapdan çıxmış "Böyük sovet xalqı" kitabçası həm milli identikliyə, milliliyə ağır zərbə vuraraq, yeni sovet ədəbiyyatının formalaşmasında, proletar, socialist dövlətçiliyinin inkişafında bir dönüş mərhələsi oldu: "*SSRİ xalqları öz böyük qardaşları ilə fəxr edirlər", "SSRİ vətəndaşları – başda rus xalqı olmaqla bütün SSRİ xalqları, son damcı qanlarınadək bütün dünyada kommunizmin təntənəsi uğrunda həyatlarını verməyə hazır olmalıdırlar", "rus dili – beynəlxalq sosialist mədəniyyəti dili, Lenin və Stalinin dilidir*" [312, s.367]. Bu kitabçada rus xalqına, dilin və ədəbiyyatına xüsusi status verilərək, ruslaşdırmanın bütün postsovet məkanında hakim olması zərurətindən bəhs edilir. Burada stalinçi ruhda "socialist vətəni", "sovet vətənpərvərliyi" anlayışları bütün cəmiyyətdə reallığa çevrildiyi diqqətə çatdırılır.

Maraqlıdır ki, ruslaşdırmanın əsas atributu olan rus dilinin məcburi sovet xalqlarının millətlərarası ünsiyyət vasitəsinə çevrilməsi qeyri-rus mədəniyyətinin zorla rus milli dəyərlərinə qovuşdurulması yolunda yeni mərhələ olan daha ciddi repressiv proses baş verdi. Zaqafqaziya – Azərbaycanın, eləcə də Orta Asiya xalqlarının əlifbası kiril əlifbasına keçirilmədi. "*Bu milli azlıqlarının yazısının inkişafında partiya – dövlət dil planlaşdırılmasının ikinci ən böyük müdaxiləsi idi. 20-ci illərdə Şərq xalqlarının yazısı latın qrafikasına keçirilmişdi. Bu addım onunla izah edilmişdi ki, latın əlifbası özündə sözlərin səslənməsinin xüsusiyyətlərinin rasional ötürülməsi üsulunu əks etdirir*" [316].

Y.D.Polivanov hələ 1931-ci ildə yazdığı "Marksist dilçiliyi uğrunda" əsərində göstərirdi ki*," latınlaşdırma dillərin demokratikləşmə meyarı kimi "beynəlmiləlçilik" mülahizəsindən deyil, "rassionallaşma" nöqteyi-nəzərindən istifadə edilmişdir"* [313, s.17]. Buradan aydın olur ki, məcburi latınlaşdırma-rasional modernləşmə aktı sovet-partiya dil siyasətində yeni bir məqsəd güdürdü.

Formal olaraq latınlaşdırma vasitəslə sovet hökuməti müsəlman-türk amilinin Şərq xalqlarına və digərlərinə təsirinin və milli-mənəvi ənənələrin inkişafının qarşısını almaq istəyirdi. Bu məcburi – xüsusilə latınlaşma modernləşmə aktı guya

həmin xalqları müasir Avropa mədəniyyətinə qovuşdurmaq niyyətilə icra olunurdu. Lakin bu zaman Zaqafqaziyada ermənilərin və gürcülərin əlifbaları heç bir dəyişikliyə məruz qalmadı. 20-ci illərdə rassionallıq konteksti beynəlmiləlçilik və inqilabın sinonimi idi. Ənənəvi tarixi əlifba sisteminin sürətlə dəyişdirilməsi "feodal qalıqları" və "geriliyin" aradan qaldırılması yollarından ibarət tədbirlərin və mədəni inqilabın bir hissəsi idi.

Rus ədəbiyyatşünası, professor İrina Sandomirskaya haqlı olaraq bu müdaxilənin ritorikasının dilin demokratikləşməsi şüarları pərdəsi ilə örtüldüyünü qeyd edir: "*Ənənəvi əlifba sistemi guya yeni mədəniyyət subyektləri üçün olduqca mürəkkəb idi... Bu isə yalnız milli-mədəni ənənələrin deyil, mədəni elitanın da (mədəniyyətin Lenin sinfi nəzəriyyəsinə əsasən bolşeviklər mədəni elita və "sinfi istismarçılar arasında bərabərlik işarəsi qoymuşdular") məhv edilməsinə yönəlmişdi. Mədəniyyətin partiya-dövlət tənzimlənməsinin dil və mədəni quruculuğun, savadsızlığın ləğvi kompaniyasının vəzifəsi mədəni ənənəni məhv etmək idi. Bunlar dövlətin marağına idi. Qərbə ideoloji ekspensiyasını istiqamətləndirən dövlət beynəlmiləlçiliyə meyli ifadə edirdi. Proletariat diktaturası dövləti avropasentrizmin hədsiz millitaristləşmiş formalarını ifadə edən mədəni siyasət həyata keçirirdi*" [316].

Stalin dövrünün sovet dövləti, Qərb ideyalarına müəyyən dərəcədə, "dünya inqilabının yeni qələbələri" naminə açıqlıq göstərirdi. Kirilə keçməklə inqilaba qədərki bütün ədəbi-mədəni abidələr, latın əlifbası, "ziyalı" ənənələri də aradan qaldırıldı.

Şimali, sovet Azərbaycanı ilə Cənubi Azərbaycanın milli-mənəvi bütövlüyünü sarsıdan amillərdən biri də 20-30-cu illərdə "dünyəvilikdən sovet ateizminə" keçilməsi, islam dininin qadağan olunması, məscidlərin dağıdılması oldu. Azərbaycan maarifçi ədəbiyyatının dini xurafat əleyhinə təbliğ etdiyi yerli dünyəvilik sovet ədəbiyyatında ateizmin – allahsızlığın möhkəm yer tutması ilə əvəzləndi. Bu isə Cənubda və uzun müddət Şimalda da həyat tərzinə, dünyagörüşünə, etiqada çevrilmiş islama zərbə vurdu, dini vəhdətin pozulmasına gətirib çıxartdı. "*Bir din kimi, islam açıq-aşkar repressiyaya və terror atmosferinə məruz qalmışdı. Bu vaxt... gənc nəslə islamın prinsip və qaydaları haqqında məlumat vermək çox təhlükəli iş sayılırdı*"

[243, s.159].

Azərbaycan sovet yazıçıları antiislam təbliğ edən bədii əsərlər yazdığı kimi, sovet ədəbi tənqidi də klassik Azərbaycan mütəfəkkirlərinin ədəbi irslərində antiislam və ateist motivləri və elementləri "axtarırdı".

20-30-cu illərdə Cənubi Azərbaycanda sovet üsul-idarəsinin təsiri altında olan "Birləşmiş, mərkəzləşmiş İran daxilində öz müqəddəratını təyin etmiş Gilan Sovet Sosialist Respublikası yaradıldı. Respublika dağıdıldı, Ə.Lahutinin başçılıq etdiyi Təbriz qiyamı yatırıldı. Etnik müxtəliflik, xüsusən Azərbaycan İran birliyi üçün təhlükə hesab olunduğundan Azərbaycan dili, ədəbiyyatı tarixi saxtalaşdırılır, farslaşdırma və Türkiyənin təsirindən yaxa qurtarmaq üçün əhalinin farsdilli vilayətlərdə yerləşdirilməsi təklif olunur, "*Azərbaycanın qeyd-şərtsiz İran təbiətinə malik olduğunu sübut etməyə çalışır və yaxın tarixi nəzərə almağa meyl edirdilər... Azərbaycan... İranın milli marağının diqqət mərkəzində durmalıdır. Müxtəlif siyasi əqidəli qələm sahibləri... ümumilikdə etnik, dil, dini azlıqların, xüsusi olaraq azərbaycanlıların assimilyasiya olunmaları üçün gerçək yollar kimi irəli sürürdülər*" [243, s.164].

Bu dövrdə geniş yayılmış Kəsrəvilik cərəyanı Cənubda Azərbaycan dilinin assimilyasiyasını, fars dilinin azəri dilinin Azərbaycanın milli dili olmasını "əsaslandırmağa" cəhd edirdi. 20-30-cu illərdə Rza Pəhləvi Azərbaycan dilinin tədris müəssisələrində, teatr tamaşalarında, dini mərasimlərdə, kitabların nəşrində işlədilməsini qadağan etdi. Azərbaycan dili məişət, danışıq dili oldu. "*Bunun ardınca daha təcavüzkar xarakterli rəsmi əməli tədbirlər, məsələn, açıq-aşkar türkcə səslənən coğrafi adların dəyişdirilməsi və uşaqlara yalnız fars adlarının verilməsi işinə müdaxilə edilməsi kimi tədbirlər həyata keçirildi*" [243, s.166].

1920-1930-cu illərdə Şimali və Cənubi Azərbaycan arasında ədəbi əlaqələr hələ kəslməmişdi. Publisist Q.Məmmədlinin qeyd etdiyi kimi: "*Cənubi Azərbaycanda Şimali Azərbaycan, Sovet Azərbaycanında cənublu müəlliflərin əsərləri tamaşaya qoyulurdu.*" [186, s.288].

1930-cu ildə İrandakı Sovet diplomatik korpusunun casusluq qalmaqalı, eləcə də 30-cu illərin ortalarında İranın faşist Almaniyası ilə yaxınlaşması SSRİ-İran, Sovet

Azərbaycanı-İran münasibətlərinin gərginləşdirdi. Cənubi və Şimali Azərbaycan arasında mədəni-maarif, ədəbi-bədii əlaqələr kəsldi. Sovet hökuməti İranda bir çox əməkdaşları cəsusluğa cəlb etmiş və azərbaycanlıların İrandan ayrılmasına cəhd etmişdi.

Bundan sonra İranda türkdilli əhalinin İrana iqtisadi, demoqrafik, sosial, siyasi-ideoloji inteqrasiyası güclənmişdir. Professor N.Nəsibzadə doğru olaraq göstərir: "*İranda Azərbaycan məsələsi... həm də parçalanmış millətlər problemi qəbilindədir... İrandakı azərbaycanlılar dünya azərbaycanlılarının böyük hissəsini (təxminən 70 faizini) təşkil edir. Şimali Azərbaycanın varlığı Türkiyənin mədəni təsiri İrandakı azərbaycanlıların milli konsolidasiya prosesində müsbət amil olmuş və onları siyasi-dövlət təşkilinə ruhlandırmışdır. Əks cəbhə – Tehran bu müsbət təsiri azaltmağa cəhd etmiş, onları Şimali Azərbaycan, qismən Türkiyədən təcrid etmək marağında olmuşdur. Sovet Azərbaycanının Cənuba münasibətindəki etinasızlığı da şah siyasətinin ayaq açmasına səbəb olmuşdur. Belə ki, Şimalda etnonimlə əlifbanın dəyişdirilməsi, sərhəddin bağlanması ilə yanaşı, Cənub mövzusundan siyasi-ideoloji məqsədlərlə istifadə mədəni əlaqələrin ölgünlüyü və s. vahid Azərbaycan idyeasına zərbə vurmuş, o taylı-bu taylı Vətənin bir-birindən yadlaşmasına gətirib çıxartmışdır*" [214, s.221]. Müəllif paniranizmdən sonra fars şovinizminə əsaslanan vahid ölkə, vahid millət, vahid dil siyasəti yürüdən İran şahının əslində azərbaycanlı varlığını məhv etməyə çalışdığını göstərir.

Sovet dövründə yaradıcılığını davam etdirən Ə.Haqverdiyev hekayə və müxtəlif publisistik yazılarında (həmçinin "Ağa Məhəmməd şah Qacar" əsərində) ikiyə bölünmüş vətən ideyasını ifadə etmişdir. Müəllif öz qəhrəmanları timsalında vətənin taleyi ilə bağlı narahatlığını dilə gətirmişdir. Ədəbiyyatşünas S.Vəliyeva qeyd edir ki, *"Ə.Haqverdiyevin mövzusunu İran tarixindən aldığı əhvalatlar fonunda Azərbaycanın milli birliyi ideyasını məsələsini diqqət mərkəzinə çəkir"*[259, s.98].

Abdulla Şaiq də hələ 1917-ci ildə qələmə aldığı və Azərbaycan Xalq Cümhuriyyəti və Sovet dövründə davam etdirdiyi "Əsrimizin qəhrəmanları" əsərində dövrün ictimai-siyasi hadisələrinin təsviri fonunda bölünmüş vətən və milli-mənəvi bütövlük ideyasını əks etdirmiş, azadlıq, milli və inqilab ideyalarını şair Zəki

surətində cəmləşdirmişdir. "*Hələ Moskvada tələbə olarkən sosial-demokrat məfkurəsinə rəğbət bəsləyən Azərbaycanın milli dirçəlişi üçün müstəqilliyə qovuşmasını zəruri sayan Şaiqin bu obrazı ictimai şüur tərbiyəsinin vacibliyi qayəsini təcəssüm etdirir. Doğrudur, roman Sovet hakimiyyəti illərində yenidən işlənib işıq üzü gördüyü üçün Zəki burada ilk baxışda bir sosialist-bolşevik, "mətin inqilabçı", bir sözlə, "sinfi ideyalar" carçısı kimi nəzərə çarpır. Lakin bu qəhrəmanın Vətənə, millətə sevgisi, doğma torpağa bağlılığı, azadxah bir insan olması onun bolşevizmini də kölgədə qoymuşdur. Təsadüfi deyildir ki, Zəki Güney Azərbaycanında müstəqillik yolunda ölüm-dirim mücadiləsi aparan həmvətənlərinə köməyə gedir və bu yolda canını qurban verir. Romanda Məhərrəm əmi surəti də Zəkinin ideya qardaşı kimi yadda qalan obrazlardandır*" [259, s.104]. Maraqlıdır ki, A.Şaiq romanda bütöv, vahid Azərbaycanın İrandan, Türkiyədən, Rusiyadan ayrıca müstəqilliyi və intibahı məsələsini qaldırır.

Sovet dövlətinin həyata keçirdiyi terrorçu repressiyaların bir məqsədi də Şimali və Cənubi Azərbaycanı, türk-müsəlman dünyasını parçalanmasını, bölünməsini daha da dərinləşdirmək idi. Repressiya aparatının Azərbaycan ziyalılarına qarşı ittihamlarından biri "*Vahid türk-tatar dövlətinin yaradılması, (Şübhəsiz ki, Cənub da daxil olmaqla – A.H.), yaxud Azərbaycanın SSRİ-dən ayrılmasına təşəbbüs (halbuki SSRİ-nin yaradılması zamanı bağlanmış müqavilədə buna formal olaraq icazə verilmişdir) ilə bağlı iddialar*" [77, s.318] da vardı.

Professor B.Əhmədov göstərir ki, "*Ümumiyyətlə, Azərbaycanın SSRİ-dən ayrılmaq, silahlı üsyana hazırlaşmaq, təxribat və terror hazırlamaq və s. onlarla ittihamların heç biri başqa mənbələrdə yazılı sənədlərlə təsdiq olunmur və yalnız kiminsə şifahi, ya yazılı "xəbərçiliynə" (bu isə təşkil edilirdi) əsaslanırdı*" [77, s.318-319]. Göründüyü kimi, Sovet repressiya aparatının ən çox cəza verdiyi vətənpərvərlər və qorxduğu təhlükə türk dövlətlərinin birliyi və Azərbaycanın birliyi ideyası idi.

Bir sözlə, XX əsrin 30-cu illərində sovet cəza-represiya aparatı öz xalqını, vətənini sevənlərə "xalq düşməni" damğası vurur, işğalçılara, imperiya siyasətinə qarşı çıxan milli əhval-ruhiyyəli ziyalıları "terrorçu" "imperializm agenti", "millətçi", "müsavatçı", "pantürkist", "panislamist adı ilə onları ya fiziki cəhətdən məhv edir,

sağ qalanları sürgün edir, həbsxanalarda çürüdür, mənəvi terrora məruz qoyurdu. "*Bütün bunlar 30-cu illər repressiyasının dövlət səviyyəsinidə keçirilən analoqu olmayan son dərəcə mürəkkəb siyasi aksiya olduğunu deməyə əsas verir...Analoqu olmayan repressiya kabusu təkcə istedadlı, vətənpərvər adamları tragik şəkildə həyatdan, sevdiyi sənətdən ayırmadı, həm də on minlərlə oxuma və yazma savadı olmayan adamları belə ağuşuna alaraq xalqın şüurunu dəyişdi, onu tərəqqidən saxladı, mənəviyyata, tarixi-etnik düşüncəyə ağır zərbə vurdu... Neçə-neçə bədii düşüncə, mənəvi-əxlaqi dəyərlər məhv oldu, nəticədə ən böyük ziyanı xalq çəkdi. O xalq ki, onun adı ilə də təmizləmə "alqışlandı", "satqınların", "xalq düşmənləri"nin mühakiməsi tələb edildi*" [77, s.327-328]. Göründüyü kimi, Azərbaycan yazıçı və şairlərindən bir qrupu güllələndi, bir qədər "bəxti gətirənlər" dogma vətəndən SSRİ-nin şaxtalı-boranlı bölgələrinə sürgün olundular. Bəzi şairləri əsərlərinin qəhrəmanlarının turançlığa və panislamçılığa meyl etdiklərinə görə təqsirləndirildilər.

Tarixə Böyük Terror kimi daxil olan 1937-1938-ci illərdə SSRİ-də təkcə yerli milli qüvvələr deyil, sinfi və siyasi motivlərə görə deyil bu və ya digər etnik qrupa məxsusluğa görə də insanlar terrora məruz qaldılar. SSRİ Xalq Kommisarları Sovetinin "Azərbaycandan və SSRİ-nin ayrı-ayrı rayonlarından əksinqilabçı ünsürlərin İrana sürgün edilməsi" haqqında 1936-cı il 17 dekabr tarixli qərarından sonra "milli əməliyyatlar"a start verildi. İrandan olan türklər, farslar, kürdlər repressiyaya məruz qaldılar. SSRİ XDİN-in 202 saylı direktivinə əsasən 1938-ci ilin fevralın 5-də "casusluq, ziyankarlıq, diversiya, millətçilik və digər antisovet fəailiyyətə görə şübhəli bilinən iranlılar (Cənubi Azərbaycandan olan azərbaycanlılar) həbs olundular. NKVD bu həbsləri ingilis, alman, yapon kəşfiyyatının SSRİ-yə qarşı işlərində iranlılardan, onların milli koloniyalarından, sektant cəmiyyətlərindən, Orta Asiya və Zaqafkaziyada məskunlaşmış reemiqrant qruplarından istifadə etdikləri ilə "əsaslandırırdı".

1938-ci il yanvarın 31-də ÜİK (b) P MK Siyasi Bürosunun qərarı ilə həmin ilin aprelin 15-dən İran təbəələrinin kütləvi həbsinə və SSRİ-dən İrana sürgün edilməsinə, "milli əməliyyatlara" başladı. İrana sürgün edilməklə yanaşı minlərlə iranlı

cinayətkar kimi mühakimə edildi, güllələndi, bir neçə min nəfər "İran casusu" kimi cəzalandırıldı.

Həmin dövrdə İranda da Cənubi Azərbaycandakı milli qüvvələrə qarşı amansız repressiya tədbirləri görülürdü.

Despotik şah rejimi insan hüquqularını amansızlıqla pozur, kütləvi həbslər həyata keçirir, vətənpərvərlər güllələnir, dar ağaclarından asılırdı.1930-cu ildə Cənubi Azərbaycanda vətənpərvər şeir, publisistika, nəsr, ümumiyyətlə ədəbiyyat yüksək inkişaf səviyyəsinə qədəm qoymuşdu. Məşhur "53-lər" məhkəməsində ittiham olunaraq filosof Tağı Əraninin məhkəmədə söylədiyi "Müdafiə nitqi" publisistikanın ən parlaq nümunələrindən biri sayılır. O "Dünya" jurnalının baş redaktoru idi.

Bu dövrdə Cənubi Azərbaycanda Şəms Kəsmai, Şuri Bəxşayişi, Mahmud Qənizadə, Siqqətülislam kimi şairlər xalq, vətən məhəbbəti, ikiyə bölünmüş vətən ideyasını öz şeirlərində sənətkarlıqla əks etdirmiş, qədim Şərqin ağsaçlı dövlətlərindən olan Azərbaycanın yadlar tərəfindən idarə olunmasından xilas olmanın yollarını araşdırmışlar. Xalq yazıçısı, akademik Mirzə İbrahimov yazır: "*Azad gələcəyə inam, əvvəl-axır zalimlərin məhv ediləcəyinə, qaranlığın çəkilib səhər açılacağına sarsılmaz inam şairlərin ürəyinə xalq və vətən məhəbbətilə dolmuşdur və bu məhəbbətlə də nəsldən-nəslə keçmişdir. Bəli, vətən eşqi, xalqa məhəbbət insanın fikrini hərəkətə gətirərək, iradəsini möhkəmlədən ecazkar qüvvədir və bu işıq saçan qüvvə həmişə Cənub şairlərini ilhamlandırmışdır*" [61, c.2, s.30].

Cənubda da şah rejimi tərəfindən milli ideyalar, vahid vətən ideyaları qadağan edildi, Şimali Azərbaycana qarşı, onun varlığına qarşı məkrli siyasət yürüdüldü, Cənubda azərbaycanlıların dili yasaqlandı, kökündən ayrılması siyasəti yeridildi.

Repressiya ilə müşayiət olunan 30-cu illəri Amerikanın azərbaycanşünas alimi professor T.Svyatoxovski "*böyük siyasi təmizləmələr və azərbaycançılıq" kimi səciyyələndirirdi. "Sovet xalqının tərkib hissəi olan Azərbaycanda ölkənin dilinə və vətəndaşlarına xas olan "türkdili", "Azərbaycan türkü" əvəzinə "Azərbaycan", "azərbaycanlılar" ifadəsi işləndi. "Əsas məqsəd açıq-aşkar şəkildə türk dilli dünyaya oxşarlığın üstündən bir xətt çəkmək idi*" [243, s.171]. Cənubda da oxşar

proseslər gedirdi. Azərbaycanın türklərlə heç bir əlaqəsi olmadığı, farslarla bağlı olduğu iddia edilirdi.

Siyasi təmizləmələrə məruz qalan Sovet Azərbaycanının Yazıçılar İttifaqı özünün ən güclü vətənpərvər üzvlərini, görkəmli ədəbiyyat xadimlərini itirdi. Otuz minə yaxın ziyalısını itirən Azərbaycandakı "qırmızı terrorun" misli-bərabəri yox idi. Siyasi təmizləmələrin Azərbaycanın ədəbi-mədəni həyatına vurduğu zərbənin əsl mahiyyəti haqqında T.Svyatoxovski belə yazır: "*Baş verən siyasi təmizləmələr qanlı siyasi və bürokratik sarsıntı olmaqdan daha artıq mahiyyət kəsb etdi. Bu təmizləmələr həm də başqa yöndə mədəni istiqamətləndirmə demək idi ki, bunun da mahiyyəti türkçülüyə bənzər, çox dərinlərə gedən görüşlərə düşmən münasibət bəsləyən və Azərbaycan birliyi arzusuna laqeyd olan yerli, etnik və dünyəvi milliyyətçiliyin gücləndirilməsindən ibarət idi. Həmin milliyyətçilik dilçi azəriçiliyin və 1918-1920-ci illər dövründəki azərbaycançılığın oxşar, lakin təhrif olunmuş elementlərindən ibarət idi*" [243, s.174]. Müəllif repressiya rejiminin Azərbaycanın birliyinə qarşı yerli azərbaycançılıq və ruslaşdırma siyasəti yürütdüyünü göstərir.

1939-cu ildə latın əlifbasından Kiril əlifbasına keçid zamanı Azərbaycan SSR Maarif komissarı M.Məmmədov yazırdı: "*Rus əlifbası latın əlifbası ilə müqayisədə çox üstünlüklərə malikdir. Bu əlifba bəşəriyyət tarixində yeni dövr açmış, Oktyabr sosialist inqilabının bayrağını qaldıran böyük rus xalqının əlifbasıdır. Rus əlifbası bəşəri dahilər – Lenin və Stalinin əlifbasıdır*" [193, s.14]. Buradan aydın olur ki, rus xalqı bütün SSRİ xalqlarının "böyük qardaşı" olduğu kimi onun dili və əlifbası SSRİ-də əsas və həlledici amilə çevrildi.

Beləliklə, XX əsrin 20-30-cu illəri Azərbaycan sovet ədəbiyyatına "partiya rəhbərliyinin" güclənməsi, "ideoloji mübarizə adı altında bədii yaradıcılığın milli ideyalardan "təmizlənməsi" prosesinin həyata keçrilməsi dövrü idi.

"Dünyanın ən qabaqcıl, inqilabi ruhlu, humanist, ümumbəşəri, beynəlmiləlçi, xalqa bağlı sənət" kimi səviyyələndirilən sovet ədəbiyyatı yaradılarkən milliliklə beynəlmiləlçilik arasında mübarizə baş verdi. Sovet partiya rəhbərlərinin qərarları və diktəslə yazan kommunist yazıçı və şairlərlə, milli-mənəvi dəyərləri tərənnüm edən azad yaradıcı söz sənətkarları, ideya mübarizəsi şəraitində yazıb yaradırdılar.

Sovet hökuməti Şimali və Cənubi Azərbaycanın milli-mənəvi bütövlüyünə zərbə vuran, onları bir-birindən ayıran, bir-birlərinə yadlaşdıran tədbirlər gördülər. Bunlardan Kiril əlifbasının qəbul edilməsi, türkçülükdən uzaqlaşma, yerli azərbaycançılıq elementləri, ruslaşdırma, ateistləşmə və s. tədbirlərin həyata keçirilməsini göstərmək olar.

Lakin hər iki tərəfdə ədəbiyyat öz milli vəzifəsini şərəflə yerinə yetirərək xalqa, vətənə məhəbbət, vahid Azərbaycan, həsrət motivli əsərləri ilə xalqın milli-mənəvi bütövlüyünün möhkəmlənməsinə, milli özünüdərkin dirçəlməsinə xidmət etdi və indi də etməkdə davam edir.

## 2.2. XX əsrin 40-cı illərində Cənubi Azərbaycanda milli-azadlıq hərəkatına münasibətin bədii ifadəsi

Azərbaycan müxtəlif imperiyalar tərkibində mövcud olsa da, xalqın ziyalıları, yazıçıları, fikir sahibləri onları ayırmır, Azərbaycan xalqının ümumi taleyi, inkişafı, xoşbəxt gələcəyini düşünüb qələmə alırdılar. M.F.Axundzadə "Təmsilat"ında əhvalatların ayrı-ayrı Azərbaycan şəhərlərində, o cümlədən "Mürafiə vəkillərinin hekayəti"nin Təbrizdə baş verdiyini təsvir etmiş, tarixi mövzuda yazdığı "Aldanmış kəvakib" povestində hadisələr Şah Abbas dövründə, Qəzvində cərayan edirdi, "Kəmalüdövlə məktubları" nda isə milli problemlər, gerilik və qeyri-tərəqqi İran həyatı fonunda göstərilirdi. C.Məmmədquluzadənin, Ə.Haqverdiyevin hekayələrində, M. Ə. Sabirin, Ə.Nəzminin, M.Hadinin şeirlərində Cənub həyatından alınmış motiv və süjetlər ümumi Azərbaycan həyatına dair mövzulardan ayrılmırdı. "Molla Nəsrəddin" jurnalının bütün fəaliyyəti dövründə diqqətdə saxladığı əsas məsələlərdən biri ikiyə bölünmüş Azərbaycan mövzusu idi.

1920-1930-cu illər ədəbiyatında ikiyə bölünmüş vətən mövzusu hələ ümumi beynəlxalq aləmə həsr olunmuş mövzulardan seçilmirdi. Bu təbiidir. Çünki dünyada ilk sosialist dövləti qurmağa başlayan ölkə tutduğu yolu bütün dünyada örnək olaraq göstərməyə çalışır, hər hansı digər bir ölkədə yaşanan həyata sosialisr dünyagörüşü və sosializm quruculuğu nöqteyi-nəzərindən yanaşırdı. *"1920-ci və 1930-cu illərin*

*ədəbiyyatında ümumi beynəlxalq mövzuya həsr olunmuş əsərlər içərisində İran həyatından, Cənubi Azərbaycandan bəhs edən şeirlər, hekayələr, felyetonlar az deyildi. Amma 30-cu illərin sonları 40-cı illərin əvvəllərində ilk irihəcmli əsər olaraq M.S.Ordubadinin "Dumanlı Təbriz" romanı meydana çıxdı. Bolşevik yazıçının beynəlxalq mövzuda belə bir əsər yazması təsadüfi deyildi "*[39, s.54].

Digər tərəfdən, roman janrı yazıçıdan həm xalqın həyat tərzini, tarixini mədəniyyətini dərindən bilməyi, onu hərtərəfli təsvir etməyi tələb edir, həm də bütün bu mündəricəni dövrün tələbləri baxımından dərk etməyi şərt olaraq irəli sürürdü. Bölünmüş Azərbaycan mövzusuna münasibətdə hər iki cəhət M.S.Ordubadinin yaradıcılığında müşahidə olunurdu. Bir bolşevik yazıçı olaraq o vaxt başa düşürdü ki, bu mövzunu yalnız inqilab mövzusu ilə vəhdətdə, milli-azadlıq hərəkatının tarixi nöqteyi-nəzərdən qiymətləndirib meydana qoymaq olar. Odur ki, bütövlükdə XX əsrin əvvəllərində Cənubi Azərbaycan həyatının güzgüsü olan "*Dumanlı Təbriz" ilk növbədə inqilabi bir roman, Səttarxan hərəkatını əks etdirən əsər kimi diqqəti cəlb etmişdir. Başqa sözlə, romanda "Şərqin dünya siyasətində mövqeyi Təbriz inqilabının qəhrəmanı Səttarxan hərəkatı fonunda əksini tapmışdır*" [79; 206]. Bu mövzunun romanda aparıcı olması ilə bağlı təhlillərə biz sonrakı fəsldə qayıdacağıq. Burada icə M.S.Ordubadinin inqilabi mövzunu təsvir etməklə heç də bütünlükdə Bütöv Azərbaycan xalqının həyatını kölgədə qoymadığını, əksinə bu məsələyə az qala əsas xətt qədər diqqət yetirdiyini göstərmək istəyirik.

İstər fəal " Molla Nəsrəddin"çi olaraq jurnalda, istərsə də digər orqanlarda dərs etdirdiyi felyetonlar İranda, Cənubi Azərbaycanda cərəyan edən hadisələrin M.S.Ordubadinin daim diqqət mərkəzində olduğunu ilk romanları təsdiq edirdi. *"İki çocuğun Avropaya səyahəti" və "Bədbəxt milyonçu, yaxud Rzaqulu xan firəngiməab"da qaldırdığı ümumi maarifçilik ideyaları, nadanlıq və geriliyə qarşı mübarizə vətənin bu bölgəsinin problemlərinə onun əbədi bağlılığını təsdiq edirdi"* [134, s.53-54].

Şimali Azərbaycanın bolşevik işğalından sonra beynəlxalq aləmdə Sovet dövləti ilə İranın sinfi, ictimai-siyasi baxımdan ayrı-ayrı quruluşlara malik olması, bu ölkələrdə yaşayan xalqların həyatına da təsir etməyə bilməzdi.İranda yaşayan

azərbaycanlılarla "yeni həyat" quruculuğuna cəlb olunmuş azərbaycanlılar arasında fərqli kəskin həyat tərzi, bir-birindən seçilən tarixi talelərin yaşanması o taylı bu taylı azərbaycanlıların ictimai səviyyəsi və dünyagörüşlərində də fərqlər yaradırdı. Əslində "o taylı" və "bu taylı" anlayışları da kəskinliyi ilə sovet dövründə seçilməyə başladı. Sərhəd dirəklərinin hər iki tərəfində yaşayan bir xalq olsa da, bu xalqın gələcək taleyinə yanaşma tərzi fərqlənirdi. Məhz buna görə müasir Azərbaycan ədəbiyyatında Cənub həyatından bəhs edən əsərlər ayrıca bölünmüş vətən mövzulu əsərlər kimi görünməyə və qiymətləndirilməyə başlandı.

XX əsrin 40–cı illəri istər dünya miqyasında, istərsə də Şimali və Cənubi Azərbaycanın həyatında təlatümlü ictimai-siyasi, mədəni, ədəbi hadisələrin baş verdiyi bir dövr idi. Bəşəriyyəti böyük dağıntılara, tələfatlara sürükləyən II Dünya müharibəsi dövründə Şimali və Cənubi Azərbaycanın birləşməsi, bütöv**,** vahid vətən ideyasının gercəklşməsi üçün yeni tarixi şans yarandı. "*1939–cu ildə Qərbi Ukraynanın və Qərbi Belarusiyanın SSRİ-yə birləşdirilməsi Sovetlərin Cənubi Azərbaycana marağının daha da artmasını stimullaşdırdı. 40-cı ilin əvvəllərində Cənubi Azərbaycan Moskvanın hərbi-strateji planlarına daxil edildi. Bunun bir neçə səbəbi var idi. Birincisi, İranın bu hissəsini Azərbaycan SSR-ə, elə həm də SSRİ- yə birləşdirilməsi yolu ilə, Orta Şərq regionunun dərinliklərinə daxil olmaq, eləcə də dünyanın bu hissəsində hadisələrin inkişaf xarakterinə həlledici təsir etmək imkanlarını təmin edə bilərdi. İkincisi, İmperiyanın Cənubi Qafqaz hissəsinin təhlükəsizliyini təmin etmək arzusu yerinə yetə bilərdi. Sovet rəhbərliyi yaxşı xatırlayırdı ki, Cənubi Azərbaycana Birinci Dünya müharibəsi zamanı alman-türk qoşunlarının daxil olması Rusiyanın cənub sərhədlərinə real təhlükə yaratdı. Həhayət, Sovet İttifaqı ehtiyat edirdi ki, Almaniya İranın iqtisadiyyatını öz nəzarəti altına alar, onun neft sərvətlərinə yiyələnər*" [301, s.9].

SSRİ-nin Cənubi Azərbaycana qoşun yeritməsinin digər bir səbəbi də İranın Şimali Azərbaycanı nə müstəqil, nə də SSRİ respublikalarından biri kimi tanımaması idi. Azərbaycan KP MK- nin birinci katibi M.C.Bağırov İrana göndərilən yoldaşlarla söhbəti zamanı bildirirdi ki, "*biz hələ Cənubi Azərbaycan ilə Sovet Azərbaycanının birləşməsi məsələsini qoymamışıq. Bu məsələ görək necə olur. Ancaq heç şübhə*

*yoxdur ki, bu məsələ öz-özünə həll olacaqdır. Hər halda bu bu günün və sabahın məsələsi deyildir. Biz oradakı hökumətin daxili işlərinə, qanunlarına qarışmamaışıq. Ancaq əlimizdən gələni etməliyik. Orada yaşayan Azərbaycan xalqı bilsin və inansın ki, onlar tək deyillər"* [24, s.17].

SSRİ rəhbərliyi Azərbaycan KP MK- nin birinci katibi M.C.Bağırova Cənubi Azərbaycanla bağlı sovet siyasətini gercəkləşdirməyi tapşırmışdı. Azərbaycan SSR-də Cənubi Azərbaycana göndərmək üçün "Əziz Əliyevin qrupunu" hazırlamşdı. Cənubi Azərbaycana gizli səfərdən qayıdan M.C.Bağırov Mərkəzi Komitədə keçrilən müşavirələrin birində demişdir: "*Cənubi Azərbaycan torpaqları bizim həqiqi vətənimizdir... Sonra o, divardan asılmış xəritəyə baxaraq demişdir: "İran hökuməti ölkəni vilayətlərə böləndə Azərbaycanı belə göstərmişlər (xəritədə göstərir). Bu yalandır, Azərbaycan buradan buraya qədərdir (xəritədə göstərir). Əgər düzünü desək Tehran da Azərbaycan torpaqlarına daxildir*" [25, s.6].

M.C.Bağırov İrana daxil olan Qızıl Ordunun qısa müddətdə Şimali İranın böyük ərszisini tutduğunu qeyd edərək deyirdi: "*Bu ərazilər əsasən Cənubi Azərbaycan torpaqlarıdır. Tarixən bura Azərbaycan torpaqları olub. İranın iri şəhərləri Qəzvin, Urmiya, Miyanə, Marağa, Təbriz, Ərdəbil, Salmas, Xoy, Ənzəli və digərləri bizim əcdadlarımızın vətənləri olmuşdur. Əgər həqiqəti bilmək istəyirsinizsə, Tehran da qədim Azərbaycan şəhəridir*" [28, s.1].

İrana, Cənubi Azərbaycana göndərilənlərlə söhbəti zamanı M.C.Bağırov zorla bölünmüş vətən ideyasını yada salır və parçalanmış xalqın birləşməsi zəruriliyini göstərir: "*Əgər bizdə bir damla da olsun azərbaycanlı qanı qalıbsa gərək nə vaxtsa zorla bölünmüş xalqın birləşməsinə nail olaq...Bunun üçün bizdə qüvvə də, qabiliyyət də var... Biz gərək nə qədər çətin də olsa Cənubi Azərbaycan zəhmətkeşlərinə kömək edək. Buna bizim borcumuz, vicdanımız, şərəfimiz, sədaqətimiz çağırır... Buna görə də biz öz rəhbərlərimizə,yoldaş Stalinə məktubla müraciət etdik,ondan xahiş etdik ki, Cənubi Azərbaycan zəhmətkeşlərinə kömək etsin...Məni Moskvaya çağırdılar və soruşdular ki,mən nə istəyirəm. Mən cavab verdim ki, biz Cənubi Azərbaycandakı qardaşlarımıza kömək etmək istəyirik. Siz buna icazə verməlisiniz.Moskvalı yoldaşlar bizə buna icazə verdilər*" [29, s.14-18].

Lakin Moskvanın direktivlərinə riayət edərək M.C.Bağırov deyirdi ki, *"Cənubi Azərbaycana kömək elə həyata keçrilməlidir ki, nə şah hökuməti, nə də ingilislər bizi İranın daxili işlərinə müdaxilə etməkdə günahlandırmasınlar. Sizin vəzifəniz olduqca məsuliyyətli və şərəflidir.Siz çox böyük işlər görəcəksiniz. Əgər siz bu işləri görə bilsəniz Azərbaycan xalqı qarşısında çox böyük xidmət etmiş olacaqsınız. Bu vəzifəni yerinə yetirməklə parçalanmış xalqın əsrlik arzusunu həyata keçirəcəksiniz. Siz bölünmüş, parçalanmış ürəkləri, məhəbbəti, hissləri birləşdirin. Bu, şərəf,sədaqət və sevgi məsələsidir"* [30, s.19].

1941-ci il sentyabrın 24-də Cənubi Azərbaycandan Bakıya qayıdarkənTürk-mənçay kəndindən keçəndə M.C.Bağırovun replikası əsl vətənpərvərlik nümunəsi idi: "*Bu kənddə böyük Azərbaycan xalqı iki hissəyə bölünmüşdür*" [32, s.14].

Lakin M.C.Bağırovun bütün səylərinə, hədsiz cəhdlərinə baxmayaraq,Mos-kvadakı ermənipərəst qüvvələr və sovet rəhbərliyi Böyük Azərbaycanın yaranmasına mane olur, Cənubi Azərbaycana münasibət məsələsində tərəddüd edirdilər. Hətta sovet xüsusi xidmət orqanları İrana təzyiq vasitəsi kimi kürd separatizmi amilindən istifadə etmək təklifini də irəli sürmüşdüər. Lakin İranı çox yaxşı tanıyan SSRİ-nin İrandakı o vaxtkı səfiri Andrey Smirnov bu təklifə qarşı çıxaraq demişdir: "*İranda kürd separatizmi həmişə xarici dövlətlərin əlində oyuncaq olmuşdur. Lakin bu o demək deyildir ki,biz onlarla bütün əlaqələri kəsək və onlardan öz məqsədlərimiz üçün istifadə etməkdən imtina edək.Lakin İranın şimalında bizim siyasi işlərimiz azərbaycanlılara əsaslanmalıdır*" [31, s.55].

Bundan sonra "Bütöv Azərbaycan" yaradılması üçün əməli fəaliyyət başlandı. Buraya hərbi korpuslar göndərildi, milli-mənəvi vəhdəti və birləşmiş vətən ideyasını reallaşdırmaq üçün tədbirlər görüldü. Məhz bu zəmində *""beynəlxalq zərurətdən doğan ədəbi-mədəni əlaqə"lərin genişlənməsi prosesi sürətləndirildi* "[52, s.57].

*"İran ərazisində türk milliyətçilik şüurunu inkişaf etdirmək üçün Bağırov Cənubi Azərbaycan ərazisinə Şimali Azərbaycanın tanınmış ziyalılarını göndərib. Onların arasında Süleyman Rüstəm, Seyfəddin Dağli, Hacı Xanməmmədov və Cahangir Cahangirov kimi tanınmışlar da olub... Azərbaycanın bütövlüyü uğrunda Bağırovun xidmətləri və canfəşanlığı bununla bitmir. Belə ki, o, həmin ağır*

*dönəmlərdə Şimali Azərbaycanda olan türkdilli müəllimlərdən bir qismini işləmək üçün Cənubi Azərbaycana göndərib"* [49].

Bu müəllimlər Cənubu Azərbaycanda müəyyən bir müddətə də olsa, həm müəllimlik etməli, həm də Cənubi Azərbaycan türkləri arasında türk dilinə olan sevgini artırmalı, həm də onların fars dilində danışmalarının qarşısını almalı idilər. Azərbaycanın bütövlüyü uğrunda Mircəfər Bağırovun ən böyük xidmətlərindən biri də Şimali Azərbaycandan olan dilşünas alimlərə verdiyi tapşırıqdır. Belə ki, Bağırov həmin zamanda məmləkətimizdə olan dilşünaslara qısa bir zaman ərzində Cənubi Azərbaycanda olan orta məktəblər üçün dərsliklər hazırlamaq əmri vermişdir. Dərsliklərin hazırlanması üçün isə Bağırov dilşünaslara üç ay vaxt vermişdi. Bütün çətinliklərə baxmayaraq, Bağırov İrandan qayıdandan sonra Azərbaycanın birləşməsindən sonra bütöv Azərbaycan hökümətinə rəhbərlik edəcək insanların siyahısını da hazırlayıbmış. Siyahıda hər iki Azərbaycandan olan və hökümətə daxil olacaq insanların adları olub. Bundan sonra Bağırov siyahı ilə diktatoru tanış etmək üşün Moskvaya yollanıb. Yeni qurulacaq Azərbaycan hökumətinin siyahısını Stalinə təqdim edən Bağırov Stalindən belə bir cavab alıb: "*Hələ bunun zamanı deyil". Siyahını isə elə oradaca Stalin qaytarıb Bağırovun cibinə qoyub. O anda Bağırov başa düşüb ki, Azərbaycan ən azından Stalinin dövründə birləşməyəcək və onun bundan sonra Stalinə olan bütün inamı itib*" [49].

Ziya Səccad Babayev yazır ki, həmin dövrdə Cənubi Azərbaycan müstəqillik əldə etməsə də, bütöv,vahid Azərbaycan ideyası həyata keçməsə də," *Bağırovun bu birliyin baş tutması üçün həyata keçirdiyi fəaliyyətləri türk millətinin yaddaşında əbədi olaraq qalacaq.Bu səbəbdən isə onun bütün yaxşı əməlləri araşdırılmalı... onun vətənə xeyirli əməlləri gələcək nəsldən gizlədilməməlidir*" [49].

Şübhəsiz M.C.Bağırova münasibətdə ziddiyyətli məqamlar hələ də davam etməkdədir. Lakin M.C.Bağırovu Sovet hökumətinin rəsmi sənədlərində Azərbaycanın bölünmsinə münasibətinə M.C.Bağırovun əks mövqe tutması diqqəti cəlb edir. Rəsmi sənədlərdə Şimali Azərbaycanın "Rusiyaya könüllü birləşməsi" fikrinin əleyhinə olaraq M.C.Bağırov " vahid, bütöv bir xalqın zorla parçalanması" sözlərini işlədirdi.

ABŞ –ın azərbaycanşünas alimi T.Svyatoxovski göstərir ki*,"1939 –cu ildə Polşa almanlar tərəfindən işğal edildikdən sonra SSRİ –nin Ukrayna və Belarusiyanı yenidən birləşdirdiyi kimi Azərbaycanın da yenidən birləşməsi planına ümid bəsləyirdilər. Müharbənin sonuna doğru həssas xarici müşahidəçilər danışıq və söhbətlərdə "Böyük Azərbaycan" ifadəsinin işlənməyə başlandığını müşahidə etdilər"* [243, s.187].

Belə bir təlatümlü dövrdə Şimali Azərbaycan ədəbiyyatı vətənpərvərlik və xalq qəhrəmanlığı mövzusunda yazılan əsirlərlə ön və arxa cəbhəyə mənəvi yardım edirdi.

XX əsrin 40–cı illərində bölünmüş vətən və milli-mənəvi birlik ideyaları aktuallıq kəsb etməyə başladı. "*Ədəbiyyatın bütün janrlarında (poeziya, nəsr, dramaturgiya) publisistikaçılıq, plakatçılıq, çağırış və səfərbərlik ruhu onun mövzu və problemlərinin əsasını təşkil edir*" [100, s.330], 40 -cı illərdə bədii nəsr janrı poeziya və dramaturgiyanı arxada qoyur." *Üstəlik bu illərdə nəsr mövzu, problematika, süjet, kompoziasiya, xarakter, dil, üslub, bədii təsvir zənginliyi baxımından xeyli dəyişir və təkmilləşir "*[77, s.360].

40-cı illərdə ədəbiyyatın bütün janrlarında bölünmüş vətən, milli - mənəvi birlik ideyaları öz əksini tapmışdır. Məsələn, Süleyman Rüstəm, Səməd Vurğun, Məmməd Rahim, Rəsul Rza yaradıcılıqlarında bölünmüş vətən, həsrət motivləri yüksək kuliminasiya nöqtəsinə çatmışdı. Bu müəlliflərin əsərlərində bölünmüş, parçalanmış vətənin birliyi, vahid Azərbaycanın gerçəkləşməsi ədalətin qələbəsi anlamında dərk olunurdu.

Lakin bölünmüş vətən və milli-mənəvi birlik ideyası daha geniş səpkidə Azərbaycan bədii nəsrində öz bədii təcəssümünü tapmışdır. Bu baxımdan M.S. Ordubadinin roman yaradıcılığı xüsusi əhəmiyyət kəsb edir. Şeyx Məhəmməd Xiyabani və Səttarxan hərəkatında birləşmiş vətən ideyası irəli sürülməsə də, bu hərəkatlar İran tərkibində muxtariyyat uğrunda mübarizəni əks etdirsə də vətənimizin milli-mənəvi birliyində, xalqımızın milli şüurunun inkişafında müstəsna rol oynamışdır.Bu baxımdan M.S.Ordubadi həmin cahanşümül hadisələrin dərinliyinə enərək, inqilabın baş verme səbəblərini, tarixi şəxsiyyətlərin bu hərəkatda rolunu, siyasi, dini cərəyanların münasibətini, xarici və daxili irticanın inqilaba amansız zərbələrini, xalqın qələ-

bə və məğlubiyyətini, qazandıqlarını və itirdiklərini bədii sənətkarlıqla təsvir, təqdir və təsdiq etmişdir. Bununla da M.S.Ordubadi ədəbiyyatımızda bu gün də aktuallığını saxlayan bölünmüş vətən mövzusunun möhkəmlənməsinə və inkişafına öz töhfəsini vermişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan ədəbiyyaıntda bölünmüş vətən mövzusu M.S.Ordubadidən əvvəl də mövcud olmuşdur. Xalqımızın o taydakı qisminin etnoqrafiyası, milli psixologiyasl, ictimai həyatı, dünyagörüşü, bədii yaradıcılıq qüdrəti və bunun ifadə formaları müxtəlif növ və janrlı əsərlərdə öz əksini tapmışdır. M.S.Ordubadi yaradıcılığı bu baxımdan bir sıra cəhətlərinə görə fərqlənir, seçilir.Belə ki, o, bölünmüş vətən mövzusuna bütün yaradıcılığı boyu müraciət etmiş, xatirələrində və məqalələrində, dövri mətbuatda ardıcıl çap etdirdiyi şeir və felyetonlarında, tarixi poman və dram əsərlərində həmin mövzuya dönə-dönə qayıtmışdır. Bununla belə, o, məhz bədii nəsrində bölünmüş Azərbaycanln həyatını bütün dolğunluğu və genişliyi ilə əks etdirə bilmişdir. *"Heç təsadüfi deyil ki, M.S.Ordubadinin romanları bu gün də o dövrün ictimai, iqtisadi durumu, xalqının milli xüsusiyyətləri, o cümlədən adət-ənənəsi, psixologiyası, etnoqrafiyası, bir sözlə, küll halında bütöv Azərbaycana xas olan mənəvi varlığı haqqında qiymətli məlumat və biliklər verən məxəzdir. Bütün bu tarixi-mədəni, etik-etnoqrafik dəyərlərin konkret süjet ətrafında, xalqın azadlıq mübarizəsi və birlik amalı fonunda bədii-estetik üslubda verilməsi həmin pomanların ictimai-bədii dəyərini ikiqat artırır "*[134, s.5].

Məhz buna görədir ki, M.S.Ordubadinin yaradıcılığında bölünmüş vətən mövzusu tədqiqatçıların diqqətini cəlb etmişdir. Fəridə Vəzirova, Nuridə Bağırova, Yavuz Axundlu monoqrafiyalarında, habelə M.Rəfili, C.Xəndan, Ə.Sultanlı, M.Arif, M.İbrahimov, M.Cəlal, A.Zamanov, M.Əlioğlu, D.Hacıyev, C.Abdullayev, Q.Xəlilov, Z.Əkbərov, Ə.Bədəlbəyli və başqa müəlliflər məqalələrində bu məsələ ilə bağlı nüəyyən fikirlər söyləmiş, problemi, bir qayda olaraq, təbii ki, "Cənub mövzusu "nu "inqilabi mövzu" zəminində şərh etmişlər.

1828-ci ildə Azərbaycanın parçalanması, zaman-zaman həm İran, həm də Rusiyanin siyasi basqılarına məruz qalması sovet dövründə ədəbiyyatda ikiyə bölünmüş Azərbaycan mövzususunu müstəqil elmi-tədqiqata cəlb edilməsini

çətinləşdirirdi.Bu məsələyə toxunmaq bir növ yasaqlanmışdı. Ötən əsrin 70-ci illərinin ortalarında İranda islam inqlabından sonra ara-sıra yada düşən bu mövzu SSRİ –nin dağılmasından sonra aktuallaşdı. Dövri mətbuata yol tapan bölünmüş Azərbaycan mövzusu genişləndirildi. Eləcə də, tarix və ədəbiyyatşünaslıqda ikiyə bölünmüş vətən mövzusu yeni tərzdə qoyuldu.Bu baxımdan M.S.Ordubadinin Cənubi Azərbaycan həyatının bədii ensiklopediyasını xatırladan bədii nəsri, xüsusən də *““Dumanlı Təbriz” epopeyası xüsusi maraq kəsb edir. Görkəmli ədibin felyeton və romanlarında bölünmüş Azərbaycan mövzusunun ayrıca tədqiqata cəlb olunması bir bütöv olan Azərbaycan xalqının mürəkkəb və keşməkeşli şərəfli tarixini, milli-mənəvi birliyini öyrənmək baxımından böyük dəyərə malikdir* “[134, s.6].

M.S.Ordubadinin bədii nəsrində bölünmüş Azərbaycan probleminin səciyyələndirilməsi yalnız milli çərçivədə deyil, ümumbəşəri konteksdə də əhəmiyyətlidir. Arazın o tayındakı həmvətənlərimizin tarixini, iqtisadi, ictimai durumunu, etnoqrafik-psixoloji vəziyyətini tarixilik-bədiilik baxımından öyrənmək, tarixi inkişafın dialektikasını araşdırmaq baxımından M.S.Ordubadi romanlarının tədqiqi mədəni-tarixi və siyasi-ictimai əhəmiyyət kəsb edir. Qərinələr boyu tarixi danılmış, dili qadağan olunmuş, mənəvi-əxlaqi dəyərləri yasaqlanmış, ikiyə bölünmüş bir xalqın öz keçmişinə dönüb baxması, Təbrizin hansı ağır sınaqlardan çıxdığının öyrənilməsi aktual və vacibdir.*”Bu baxımdan yaranan zərurətin nəticəsi olaraq Səid Münirinin fars dilinə tərcümə etdiyi “Dumanlı Təbriz” əsəri 1985-ci ildə Tehranın “Dünya” nəşriyyatı tərəfindən üç cilddə buraxıldı və geniş əks-səda doğurdu”* [338].Tərcüməçi əsərin birinci cildinə yazdığı müqəddimə və şərhlərdə romanın bütün İran xalqları üçün aktuallığını və tarixi qiymətini danılmaz faktlarla göstərmişdir.

M.S.Ordubadinin bədii nəsrində - felyetonlarında, “Bədbəxt milyonçu, yaxud Rzaqulu xan firəngiməab” və “Dumalı Təbriz” romanlarında Cənubi Azərbaycan həyatının təsviri, Məşrutə hərəkatı və inqilabi mübarizənin təcəssümünü, hadisələr, obrazlar sisteminin araşdırlıması, tarixi roman janrı, tarixilik prinsipi, milli mədəniyyət və etnoqrafiya, bunların bədii inikası məsələlərinə aydınlıq gətirilməsi, yazıçının siyasi-ictimai hadisələrə fəlsəfi baxışları, dünyagörüşü və sənətkarlıq xüsusiyyətlərinin öyrənilməsi ədəbiyyat tariximizin müasirlik baxımından tədqiqi

üçün gərəkdir.

M.S.Ordubadinin ağır və çətinliklərlə dolu həyat yolu, zəngin poetikası və rəngarəng janrlı ədəbi irsi sovet dövründə qadağanlarla öyrənilmişdir. Onun Azərbayan xalqının mübarizə tarixi ilə bağlı həyat və fəaliyyətinin müəyyən məqamlarına qloballaşma əsrinin tələbləri baxımından işıq salmaq tarixi zərurətdən doğdu.

M.S.Ordubadinin romanları haqqında müəyyən fikirlər deyilmiş, ədəbiyyatşünaslığımızda Ordubadişünaslıq bölümü formalaşmışdır.Təbii ki, bu fikirlər sovet dönəmində deyildiyi və formalaşdığı üçün orada qeyri-dəqiqlik, subyektivlik, qeyri-milli münasibəti əks etdirən motivlər vardır. *"Odur ki, mövcud ədəbiyyatın təhlili zamanı həmin mənbələrə tarixilik və obyektivlik yönümündən yanaşıb qiymətləndirmiş, fakt, hadisə və fikirlərlə yeni rakursdan dəyər verməyə çalışmışıq"* [134, s.8].

Yaxın və Orta Şərqdə həyatın, mədəniyyətin ədəbiyyat və incəsənətin, sənaye və kənd təsərrüfatının, hərbçiliyin, azadlıq mübarizəsinin ən qədim beşiklərindən olan Cənubi Azərbaycanın XX əsrin əvvələrində yaşadığı durumun M.S.Ordubadi romanlarında geniş bədii təsviri çağdaş həyatımızda rolu və mövqeyi dəyərləndirilmişdir. M.S.Ordubadi hər şeydən öncə "*yaradıcı və qüvvətli təxəyyülə malik sənətkar olduğundan tarixi faktları tarixin dili ilə deyil, yazıçı səsi, yazıçı dili ilə deyirdi*" [139, s.147].

M.S.Ordubadi "Dumanlı Təbriz" əsərinin "Araz kənarında" hissəsində oxuculara Vətənin bölündüyünü bir daha xatırladaraq yazır: "*Araz çayı böyük Culfa düzünü iki hissəyə ayırır. Çayın cənubunda İran Culfası, şimalında isə Rusiya Culfasıdır*" [218, s.5].

Yazıçı Cənubda,Vətənin o biri hissəsində baş verən üsyanın Rusiya inqlabının təsiri ilə meydana çıxdığını göstərirdi. Burada oxunan mahnı da insanları üsyana çağırırdı: "*Vətən övladının tökülən qanlarından lalələr göyərmişdir*" [218, s.6].

Lakin elə romanın əvvəlindən inqilaba, azadlıq və istiqlal mübarizəsinə münasibətin müxtəlif olduğunun şahidi oluruq. "*Bura həm də Rusiyanın müstəmləkəsidir*", "*Bunlar ən adi bir rusdan böyük Allahdan qorxduqları kimi qorxurlar*"

[218, s.7].

Əbülhəsənin Ninaya dediyi sözlər Şərqin, onun ayrılmaz bir hissəsi olan Azərbaycanın özündə ənənəviliklə yeniliyi, əsrarəngizliklə üsyankarlığı birləşdir-diyini göstərir. Rusiya Cənubi Azərbaycanda xalqı yaxından tanımaq və inqilab başçılarının simasını müəyyənləşdirmək üçün xəfiyyə və əxlaqsız qadınlardan istifadə edirdi.

Əbülhəsən Cənubi Azərbaycanda başlanan xalq hərəkatına qarşı üç qüvvənin birləşərək (şah, ruhanilər və mülkədarlar) durduqlarını göstərir.

M.S.Ordubadi tarixə ikiyə bölünmüş vətənin taleyindən dərs almaq, vətəni sevmək, gələcəkdə onun birləşməsi yollarını düşünmək üçün müraciət etmişdir. Buna görə də ”Dumanlı Təbriz”də Azərbaycan xalqının milli-azadlıq tarixi mərhələsini öz yazıçı təxəyyülü vasitəslə nəql etmişdir. M.S.Ordubadi yazıçılara müraciət edərək yazırdı: “*Vətəni sevmək kifayət deyil, onu layiqincə tanımaq lazımdır.Xalqı sevmək azdır. Onun əxlaq və adətlərini layiqincə öyrənməlisən...və əsərində tərənnüm etdirməlisən... Biz isə...xalqı layiqi ilə tanıya bilməmiş, əsərlərimizdə onun qəhrəmanlıq tarixini əks etdirə bilməmişik*” [94].

M.S.Ordubadinin bədii nəsrində xüsusi yeri olan ikiyə bölünmüş Azərbaycan mövzusu təkcə ədəbiyyatşünaslığımız baxımından deyil, etnoqrafiyamız, tariximiz, milli psixologiyamız, dini, fəlsəfi görüşlərimiz yönümündən də təhlil və tədqiq edilmişdir.

M.S.Ordubadi ikiyə bölünmüş Azərbaycanla bağlı məqalə və felyetonlarını yazmışdı.Lakin Azərbaycan xalqının taleyinə dair bütün həyatı boyu apardığı müşahidə və qeydləri, gəldiyi fikir və qənaətləri bir araya gətirib, geniş məzmunlu bir əsər yaratmaq niyyəti ilə 1933-1942-ci illər arasında “Dumanlı Təbriz” romanını qələmə aldı. Əlbəttə, bu romanı yazarkən yazıçı müasir ədəbiyyatımızda davamı olacaq yeni bir mövzunun əsasını qoyduğunu düşünmürdü. Əlbəttə, tarixi mövzudu ilk romanlardan olduğu üçün burada macəraçılığın müəyyən qədər yer tutduğunu düşünmək olar. *”Ancaq M.S.Ordubadinin “Dumanlı Təbriz” əsərində macəraçılığa meyli o zamankı İran həyatından, tarixi roman janrına xas xüsusiyyətlərdən, həmçinin yazıçının fərdi üslubundan qaynaqlanmaqdadır”* [101, s.548].

Bir məsələni də nəzərə çatdırmaq istərdik ki, M.S.Ordubadi yaradıcılığında ikiyə bölünmüş vətən mövzusunun müasir Azərbaycan ədəbiyyatında ayrıca şəkil alması ən çox İkinci Dünya müharibəsindən sonrakı dövrə aiddir.Müharibə illərində Azərbaycan sovet yazıçılarının İranda, Cənubi Azərbaycanda olmaları, burada "Vətən yolunda" dərgisini buraxmaları, Cənub həyatı ilə qaynayıb-qarışmaları həm həmin illərdə, həm də müharibədən sonra mövzunun ədəbiyyatımızda inkişafına səbəb olur.*" Digər tərəfdən, M.C.Pişəvəri hərəkatının məğlub olması, Cənubi Azərbaycanda növbəti dəfə milli-azadlıq hərəkatının boğulması inqilabçı demokratlarla yanaşı, bir sıra cənublu qələm sahiblərinin sovet qoşunları ilə Şimali Azərbaycana keçmələrinə səbəb olur. Əksəriyyəti gənclərdən ibarət olan bu yazıçılar yaşlı sovet yazıçıları ilə birlikdə ədəbiyyatımızda bölünmüş vətən mövzusunun uğurlu davam etdirilməsində iştirak edirlər. Bu, M.S.Ordubadinin "Dumanlı Təbriz" romanında necə aktual bir mövzuya toxunduğunu bir daha göstərdi"*[39, s.55].

Bölünmüş vətən mövzusunun Azərbaycan ədəbiyyatında inkişafında S.Rüstəm, R.Rza, B.Vahabzadə, Məmməd Araz, Xəlil Rza, S.Rüstəmxanlı və b. şairlərlə yanaşı, B.Azəroğlu, Əli Tudə, M.Gülgün, S.Tahir, H.Bülluri və b. Cənubi Azərbaycandan gəlmiş şairlərin də rolu olmuşdur. Azərbaycan nəsrində bölünmüş vətən mövzusu isə əsas etibarilə M.S.Ordubadinin qoyduğu ənənələr üzərində davam edir. Azərbaycan sovet yazıçılarından Süleyman Rəhimov, Ənvər Məmmədxanlı, İlyas Əfəndiyev, Mirzə İbrahimov "Gələcək gün", cənublu yazıçılar Həmzə Fəthi Xoşginabinin "Ata", Pənahi Makulunun "Səttarxan", "Xiyabani" kimi romanlarında M.S.Ordubadi ənənələri bu və ya digər şəkildə davam etdirilir. Onu da qeyd etməyi lazım bilirik ki, bölünmüş vətən mövzusunun bu və digər aspektləri-inqilabi və milli-demokratik hərəkatın təsviri, cənublu soydaşlarımızın vətənpərvərliyi və qəhrəmanlığı, ağır güzaranı, ictimai-siyasi mühitə qarşı etiraz və üsyanları, cənubi azərbaycanlıların adət və ənənələri, məişət və əxlaqi bu əsərlərdə konkret şəkildə əksini tapsa da, bütün bu cəhətlər bir yerdə, məhz ensiklopedik səviyyədə klassik bir əsər olan "Dumanlı Təbriz" romanında cəmlənmişdir. Bu baxımdan M.S.Ordubadinin "Dumanlı Təbriz" romanı nəsrimizdə orijinal ədəbi ənənənin əsasını qoymaqla yanaşı, eyni zamanda təkrarsız bir bədii sənət nümunəsidir.

Məmməd Səid Ordubadinin bədii nəsri haqqında elmi tədqiqatlarda yazıçının toxunduğu müxtəlif, rəngarəng mövzuların adı çəkilsə, də bütövlükdə Azərbaycan Ordubaduçünaslığı əsas diqqəti yazıçının yaradıcılığında inqilabi mövzu üzərində cəmləşdirmişdir. Bu, daha çox mühitin, dövrün qarşıya qoyduğu tələblərlə bağlı idi. Halbuki böyük yazıçı aktual tarixi inqilabi mövzunun arxasında olan əbədi fəlsəfi məsələlərə toxunur, milli varlığın bədii-estetik inikasını daha vacib bilirdi.Həqiqətən, müəyyən dövr keçdikdən sonra M.S.Ordubadinin tarixi romanlarında inqilab mövzusunun ikinci plana keçdiyini, ümumi tarixi həqiqətlər içərisində dərk olunduğunu görürük.Yazıçının romanlarında xalqın milli varlığını, mentalitetini, psixologiyasını və dünyagörüşünü əks edən xüsusiyyətlər bütöv Azərbaycan üçün əhəmiyyət kəsb edir; özü də bu cəhətlər heç zaman tarixi-mədəni qiymətini itirmir, zaman keçdikcə orijinallığına və təkrarsızlığına görə daha böyük bədii sosial dəyər qazanır. Ədibin ”Dumanlı Təbriz”ində ikiyə bölünmüş vətən mövzusunda olan digər nəsr əsərlərində Cənubi Azərbaycan həyatının, xalqının milli varlığının, adət-ənələrinin, bayram və dini mərasimlərinin, məişətinin, bütünlükdə etnoqrafiyasının, xüsusən Təbriz şəhəri əhalisinin, o cümlədən qadınların, ayrı-ayrı sosial zümrələr arasında fərqlərin dəqiq, obrazlı və fəlsəfi tarixi kontekstdə təsviri, geniş detal və təfərrüatlarla əks olunması bu əsərlərin mövzu aktuallığını, məzmun orijinallığını, ideya-bədii zənginliyini təmin etmişdir.Xalqı tanımaq üçün onun milli mentaliteti və etnoqrafik xüsusiyyətlərini bilmək əsas şərtlərdəndir.Bunun üçün tarixi, fəlsəfi, iqtisadi mənbələrdən daha əsas olaraq xalqın yaradıcı ziyalılarının bədii əsərləri ilə tanış olmaq lazımdır. *” Bokkaçio pyesində İtaliyanın, V.Şekspir pyeslərində İngiltərə və İtaliyanın, A.S.Puşkin, L.N.Tolstoy, Nekrasov və A.N.Çexov əsərlərində Rusiyanın, T.Drayzer, C.London nəsrində Amerikanın, V.Hüqo, O.G.Balzak və E.Zolya romanlarında Fransanın, R.Taqor yaradıcılığında Hindistanın, Rəşid Nuri Güntəkin və Əziz Nesin əsərlərində Türkiyənin varlığı əks olunduğu kimi, böyük ədib Məmməd Səid Ordubadinin bədii nəsrində də Azərbaycan, o cümlədən Arazdan cənubdakı vətənimizin varlığını, maddi-mənavi dəyərlərindən başlamış ictimai-siyasi düşüncə tərzini müfəssəl öyrənmək mümkündür”* [134, s.57].

M.S.Ordubadinin ”Dumanlı Təbriz”ində və başqa əsərlərində yeri gəldikcə

işlətdiyi kənd, şəhər, dağ, göl, çay, düzənlik, məhəllə, küçə, meydan, bulaq, dərə, meşə, qala, yaylaq adlarına və başqa sözlərə, toponimlərə, hidronumlərə, oykonimlərə, oronimlərə sıx-sıx təsadüf etdikcə oxucu ayağı dəymədiyi yerləri xəyalən gəzib dolaşır, doğma, bütöv vətəninin nəinki torpaqlarının, yerlərinin adlarını, neçə-neçə milli sərvəti olan tarixinin xeyli hissəsini itirmişdir. Belə ki, qədim Azərbaycan torpaqlarının rus imperializmi tərəfindən parçalanıb müxtəlif dövlətlərə paylanması nəticəsində Rusiyada da, Gürcüstanda da, Ermənistanda da, İranda da, hətta Azərbaycan Respublikasının özündə də nə qədər adlar dəyişdirilib yadlaşdırılmışdır. *“Ermənistan SSR-də yüzlərlə yer adının dəyişdirlib erməniləşdirilməsi; İran dövlətində toponimlərin farscaya tərcümə edilməsi, Gürcüstanda qədim adların unutdurulması dediklərimizə sübütdur. Bu baxımdan “Dumanlı Təbriz” romanı Cənubi Azərbaycan torpaqlarının ədəbi-tarixi xəritəsini əks etdirir”* [218, s.59].

“Dumanlı Təbriz” romanında XX yüzilliyin əvvəllərini yaşayan, *“dünyanın Peterburq, Paris, London, Qahirə, İskəndəriyyə, Brüssel kimi şəhərləri ilə yanaşı dayana biləcək Təbriz şəhəri öz məşhur məhəllələri, meydanları, bazarları, mədrəsələri, məscidləri, çayları, körpüləri ilə göz önündə canlanır “*[298, s.60-61]. Yazıçının kompozisiyası, hadisələr, mündəricə baxımından ən zəngin əsəri olan ”Dumanlı Təbriz”i oxucuya Viktor Hüqonun ”Səfilləri”ini, Emil Zolyanın “Ruqonların mənsəbə çatması”, ”Qənimət” əsərlərini, L.N.Tolstoyun ”Hərb və sülh”ünü, Maksim Qorkinin ”İtaliya haqqında nağıllar”ini, Artur Konan Doylun Şerlok Holmsa həsr olunmuş əsərlərini və oradakı Parisin, Moskvanın, Neapolun, Genuyanın, Turinin, Londonun təsvirini xatırladır.Cəsarətlə deyə bilərik ki, M.S. Ordubadi bu sahədə əsl uğur qazanmış, tarixçilərin, coğrafiyaşünasların bacarmadıqlarını bədii əsər vasitəslə həyata keçirmişdir.

Azərbaycan tarixi romanının ilk nümunələrindən biri hesab olunan “Dumanlı Təbriz“ romanı “*ideya və yazı məzmununa, strukturuna, yazı üslubuna, hadisə və süjet əsərlərinin çoxşaxəliliyinə görə də maraq doğurur*” [77, s.296].

Şifahi və yazılı tarixi faktlara əsaslanan romanında M.S.Ordubadi bütöv Azərbaycan xalqının Cənub hissəsində baş verən 1905-1911-ci illər Təbrizdəki Səttarxan hərəkatının vətənin bölümməsinə qarşı çevrildiyini öz yazıçı təxəyyülü ilə

vətənpərvərlik duyğusu ilə qələmə almışdır. "*Hərəkatın yüksəlməsində tarixi zərurətin rolu, Səttarxan fenomeninin hadisələrin gedişinə təsiri, ruhani zehniyyətinin hərəkata vurduğu zərbə, şahlıq üsul-idarəsinin münasibəti, nəhayət silaha sarılan xalq- bütün bunlar romanda cərəyan edən hadislər fonunda açılır*" [77, s.296] .

Səttarxanın başçılıq etdiyi xalq hərəkatı daxili amillər və xarici amillərin təsiri ilə baş vermişdir. Bu hərəkatın daxili ictimai-siyasi, iqtisadi səbəbləri olduğu kimi, Rusiya İngiltərə və Almaniyanın yeritdikləri müstəmləkçilik siyasəti də xarici səbəblərdən biri idi. Romanda Cənubi Azərbaycanda xalqımızın istiqlaliyyət uğrunda milli-azadlıq hərəkatının baş verməsi, inkişafı və məğlubiyyəti də real, inandırıcı faktlarla göstərilmişdir.

M.S.Ordubadi başqa qüdrətli yazıçılar kimi, mövzuya bir daha yetkin yaradıcılıq dövründə qayıtmış, *"inqilabın gedişini, nəticələrini və davamını işıqlandıran iri həcmli "Dumanlı Təbriz " romanı yazmışdır.1908-1917-ci illəri əhatə edən bu roman Cənubi Azərbaycan həyatının bədii ensiklopediyası kimi alimlərin, eləcə də minlərlə oxucunun diqqətini yetmiş ildən bəri cəlb etməkdədir"* [39, s.17].

Yazıçı romanda hadisələrin təsvirini Məşrutə hərəkatının başlanğıcından deyil, Təbriz üsyanının ortasından yəni, 1908-ci ilin dekabrından başlayır. *"Bu, artıq Səttarxanın rəhbərliyi altında milli- azadlıq hərəkatı üzvlərinin, əhalinin dəfələrlə sınaqdan çıxdığı, bütün İran xalqlarının Cənubi Azərbaycana göz dikdiyi,Tehran rejimi və ingilis-rus müstəmləkəçiləri tərəfindən mücahidələr üzərinə yeni hücumlar gözləndiyi dövrə təsadüf edirdi; Qanuni-əsasının qəbulu, parlamentli monarxiyanın hökmranlığı tələbi ilə meydana atılanların indi Təbrizdə milli və demokratik azadlıqlar uğrunda silahlı mübarizə aparmaları şah hökumətini də, daxili irticanı da, xarici imperializmi də qorxudur, onları tədbirlər görməyə vadar edirdi. Qaradağlı Rəhim xanın oğlu Böyük xanın, şah qoşunlarının, mərəndli Şücanizamin məğlubiyyətindən nəticə çıxaran düşmən zərbəni içəridən vurmaqla daha asan, daha hiyləgər mübarizə üsuluna əl atırdı"* [134, s.107]. Uzun müddət Cənubi Azərbaycanı qarış-qarış, səngər-səngər gəzib inqilab hadisələrini incəliklərinə qədər öyrənmiş, əncümənlərin tərkibinə, mücahid-lərin və onların rəhbərlərinin xüsisiyyətlərinə bələd olmuş Məmməd Səid hadisələrin mahiyyətinə enməyi bacarmışdır.

Həmin dövrdə tarixi-siyasi və ictimai vəziyyəti tədqiq edən tarixçi alim N.Həsənov bir çox məsələlərə aydınlıq gətirərək yazırdı: "*Təbrizdə mücahidlər iki qrup idi.Birinci qrupda əslən iranlı olub, Məşrutə hərəkatı başlanana qədər Qafqazda, Orta Asiyada və s.yaşayan və işləyənlər idilər. Onlar İranda inqilab başlandıqdan sonra öz vətənlərinə –Təbrizə qayıdıb məşrutə uğrunda mübarizəyə qoşulmuşdular və Qafqaz forması geyindikərinə görə qafqazlı adlanırdılar. Eyni zamanda* əslən *qafqazlı olub,Təbriz hərəkatınaköməyə gələn beynəlmiləlçi mücahidlər də bu qrupda fəaliyyət göstərir, inqilabi hərəkatda iştirak edirdilər. İkinci qrupa daxil olan mücahidlər isə yerli Təbriz şəraitində böyüyüb hərəkata qoşulmuşdular. Qafqazlı mücahidlər özlərini "İctimaiyyun-e amiyun" təşkilatının Bakı Komitəsi ilə bağlı saydıqlarından "Mərkəzi Qeybi"yə tabe olmaq istəmirdilər. Əli Müsyönü və onun silahdaşlarını kənar etmək və hərəkata rəhbərliyi öz əllərinə almağa çalışırdılar, buna görə də bu iki qrup arasında daim çəkişmə gedirdi*" [129, s.62-63].

Lakin daxili çəkişmələrlə, daxili irticanın fəallaşmasına, Məmmədəli şahla himayəsinə girdiyi imperialist dövlətlərin parçalanma siyasətinə baxmayaraq, Səttarxanın rəhbərliyi altında mübarizə son dərəcə qızğın idi."*Səttarxanın, Əli Dəvafüruşun, Əli Müsyönün, Bağırxanın,Əbülhəsən bəyin, Ninanın və başqalarının nəzəri, əməli səyləri nətincəsində düşmən hər dəfə məğlub olurdu.Məmmədəli şahın kazak briqadasının əli ilə Tehranda keçirdiyi 23 iyun 1908 -ci il tarixli çevrilişindən sonra Təbrizin rəhbər rolu göz qabağında idi"* [134, s.108].

M.S.Ordubadi diqqəti deyilənlərə cəlb edərək, xalqın arzularını,azadlıq eşqini, mübarizə qabiliyyətini, mücahidlərəin dönməz iradəsini bədii detallarla romanda əks etdirmişdir. Maraqlıdır ki, "Dumanlı Təbriz"in baş qəhrəmanı inqilab rəhbəri Səttarxan deyil, Əbülhəsən bəydir.İlk baxışda bu qeyri-adi görünsə də, hadisələrin 1917–ci ilə qədər davam etdiyi şəraitdə təbii olduğu aydınlaşır. Bəllidir ki,1910-cu ildə Tehranda yaralanıb dörd il xəstə yatan Səttarxan surətin ifaçısı ola bilməzdi. Əbülhəsən bəysə ləl-cəvahirət taciri kimi sərbəst bir adla,siyasətdən kənar bir şəxs surətində Təbrizin istənilən təbəqəsi ilə görüşüb-danışmaq ixtiyarına, imkanına malik idi. Ona görə də Əbülhəsən bəy Səttarxan başda olmaqla əncümən üzvlərindən,səngərlərdə mücahidlərdən tutmuş, Rusiya, İngiltərə, Almaniya, ABŞ konsul-

larına, konsulxana işçilərinə, Azərbaycan valiləri Səməd xana, Sərdar Rəşidə vəliəhdə, rus qoşunu komandirlərinə, onların ailələrinə, Azərbaycan mülkədarlarına, ziyallılarına qədər hamı ilə görüşür, dil tapır, azadlıq mübarizəsinin gedişinə və inkişafına təsir göstərirdi.

Cənubdakı inqilab əslində İrandaxili hərəkat olsa da, M.S.Ordubadi onu irançılıq əleyhinə yönəlmiş vahid Azərbaycan uğrunda mübarizə kimi qələmə verir. Şimali Azərbaycan inqilabçıları, milli qüvvələri, burjuaziyası Cənuba maddi, mənəvi, silah və döyüşçülərlə dəstək verirdi.

M.S.Ordubadi "Dumanlı Təbriz" romanının XX əsrin 30-cu illərin sonları 40-cı illərində təkmillşdirildiyi variantlarında milli-azadlıq hərəkatının məhz Azərbaycanın azadlığı, istiqlaliyyəti uğrunda mübarizədən ibarət olduğunu göstərmişdir. "*Mən..İran azadlığı məsələsinin Azərbaycanda həll ediləcəyinə inanırdım. Çünki Azərbaycan yalnız indi deyil, tarixən İranın siyasi və ictimai həyatında qəti rol oynamışdır.Buna görə də mən Səttarxanın ümumi İran azadlığı məsələsini qoyduğu zaman, Azərbaycan məsələsini nə şəkildə qoyması ilə maraqlandım*" [96, s.15].

Şübhəsiz ki, M.S.Ordubadi burada Azərbaycanın azadlığının əsas şərtləri kimi Səttarxanın torpaq məsələsini irəli sürməsini, İran məşrutəsi ilə razılaşmadığını, Rusiyanın 1905-ci il inqilabi xətti ilə getdiyini göstərir. Lakin burada önəmli olan Şimali və Cənubi Azərbaycanın bağlılığıdır. Belə ki, romanın yeni *variantında "Şimali Azərbaycanın işçi mərkəzi olması, Səttarxanın Şimal və Cənubun sıx əlaqədə olması uğrunda çalışması"* [96, s.15] bunu sübut edən mühüm dəlillərdir.Burada M.S.Ordubadi kommunist kimi torpağın kəndlilərə verilməsi, məşrutəçilik ideyalarından "bolşeviksayağı" inqilaba keçidi önə çəkir. Bu isə həmin dövrün kommunist ab-havasından irəli gəlirdi.

"Dumanlı Təbriz" əsərinin baş qəhrəmanlarından, həm də tarixi şəxsiyyət və hərəkatın rəhbərlərindən biri olan Səttarxan öz məramnaməsini belə bəyan etmişdir: "*Mən öz adımdan yox, dörd milyonluq Azərbaycan xalqının adından danışıram. İran xalqının azadlığı məsələsini Azərbaycanda həll etmək üçün qılıncımı qınından çıxarmışam*" [12, s.307].

Əbülhəsən Səttarxan haqqında deyir: "*Azərbaycan, əski Midiyanın qəhrəman*

*Fərhadını, Bağdad xilafətini sarsıdan Babəkini əvəz etmək üçün yenə də bir oğul doğdu*" [97, s.27].

M.S.Ordubadi əsərdə göstərir ki, Azərbaycan xalqı öz qəhrəmanlarını tərənnüm edən folklor nümunələri yaradır. "*Artıq Azərbaycan qəhrəmanı yaradılan ədəbiyyat vasitəslə xalqın ruhuna və şüuruna girməyə müvəffəq olmuşdur. Bu qələbə silahla qazanılan qələbədən daha qiymətli idi. Çünki tarixdə özünü xalqa tanıtdıra bilməyən qəhrəmanların heç birisi özündən sonra öz adını yaşatmağa müvəffəq olmamışdır. Tarixdə böyük hadisələr yaradan bir çox şəxsiyyətlət var ki,onlar bütün xalqın yox, müəyyən bir təbəqənin mənafeyinin müdafiəsi uğrunda təsəvvürə sığışmaz fədakarlıqlar yaratmışlar. Lakin onlar geniş təbəqənin içərisindən çıxmadığı üçün xalq onları tanımamışdır*" [96, s.15]. Bu baxımdan Səttarxan bütöv Azərbaycanın milli qəhrəmanı səviyyəsinə yüksəlmişdir.

M.S.Ordubadi romanında Cənubi Azərbaycanı və bütün İranı əhatə edən inqilabi hərəkatın əsas mahiyyətini ifadə edən bir şüar gəzir: "Yaşasın azad Azərbaycan". Əsərdə təsadüf olunan mükalimədə Azərbaycanın ikiyə bölündüyü, İran və Rusiya arasında müstəmləkəyə çevrildiyi xatırlanır:

"*-Siz iranlısınızmı?*

*-Xeyr,mən azərbaycanlıyam.*

*-Siz İranamı gedirsiniz?*

*-Xeyr,mən Şimali Azərbaycandan gəlib Cənub Azərbaycana gedirəm.*

*-Təbrizəmi gedirsiniz?*

*-Bəli,Təbrizə gedirəm,*

*-Təbriz İran deyilmi?*

*-Xeyr, burası Azərbaycandır, İran deyil, İran müstəmləkəsidir*" [98, s.21].

Daha sonra İranla Azərbaycan hüdudları və münasibətləri aydınlaşdırılır:

"*İran buradan çox uzaqdır. Hazırda siz Cənubi Azərbaycan sərhəddindəsiniz. Bu yerlər heç vaxt iranlı vətəni olmamışdır. Mən zənn edirəm ki, siz tarix dərsləri keçdiyiniz zaman bizim vətənimizin nə qədər şərəfli bir məmləkət olduğunu oxumuşsunuz. Bizim babalarımız böyük və mədəni bir quruluşda dünyanın ən məş-hur imperatorluğunu qurduğu zaman hələ dünyada İran adlı bir dövlət yox idi.Bizim*

*babalarımızın qurduğu dövlət Midiya dövləti idi. Hazırda siz kiçik Midiyadan keçərək, böyük Midiyanın sərhədinə qədəm qoyursunuz.*

*İran padşahları bir xəyanətin nəticəsində Midiya xalqını əsrliyə aldı, onun nəvələri isə qəti bir üsyan etməklə öz varlığını və öz istiqbalını bərpa edə biləcəkdir. İranlılar bizim hər bir şeyimizi əlimizdən almışdır. Lakin xalqımızı qəhrəmanlığına toxuna bilməmişdir. Biz daima İranın siyasi və ictimai həyatında həlledici rol oynamışıq. Lakin onlar da mübarizəni davam etdirirlər. Hazırda bizim dilimizi əlimizdən almaq uğrunda mübarizə gedir. Lakin gecdir,onlar buna nail ola bilməyəcəklər*" [99, s.33-34].

Romanda inqilabın gedişi,inkişaf mərhələləri planlı şəkildə verilir. 1908-ci ilin dekabrından 1909-cu ilin 29 aprelinədək, yəni çar qoşunlarının Təbrizə girməsinədək olan dövr Səttarxanın birbaşa üsyana rəhbərlik dövrüdür. Bundan sonra Məmməd Səidin məqsədi Səttarxanın fəaliyyətini əks etdirən roman deyil,ümumilikdə Cənubi Azərbaycan xalqının mübarizəsini işıqlandıran bədii epik əsər yaratmaq imiş. Heç təsadüfi deyil ki, romanda Səttarxandan fərqli olaraq Əbülhəsən bəy daha arqıq fəal görünür. Əsərin ilk səhifəsindən sonuncusuna qədər bütün hadisələrin mərkəzində dayanan bu şəxs Təbrizin işğalından sonra təhkiyədən də, surətlərin danışıqlarından da,hadisələrin gedişindən də üstün mövqedə təqdim olunur.Yazıçı seçdiyi qəhrəmanın üstünlüyünü, permanent inqilabın əlaqələndiricisi olduğunu sübut üçün onun Səttarxana məktubundan bədii fakt kimi istifadə edir.Təbriz üsyanına yekun vurur. Həyati və yaradıclığı mübarizələrdə yoğrulmuş M.S.Ordubadinin əsərlərinin bu gün də sevilməsinin əsas səbəbi buradakı dərin vətənpərvərlik duyğularıdır.

M.S.Ordubadinin bədii nəsrində, xüsusən də "Dumanlı Təbriz" romanında tarixilik prinsiplərinin nə dərəcədə qorunması haqqında ədəbiyyatşünaslıqda geniş müzakirələr aparılmışdır. Alimlərdən bəziləri yazıçının tarixilikdən həddsiz uzaqlaşdığını,bir hissəsi tarixi həqiqətlərlə paralel getdiyi,başqaları isə Cənubi Azərbaycan varlığının, o cümlədən 1905-1911-ci illər Məşrutə hərəkatı və milli azadlıq mübarizəsinin gerçək inikasını verdiyini söyləmişlər. Akademik İsa Həbibbəyli M.Ordubadini Azərbaycan tarixi roman janrının banisi kimi dəyərləndirərək onun romanlarınındünya tarixi romanlarının da qiymətli nümunələri sayılmağa layiq olduğunu

göstərərək yazır: "*Məmməd Səid tarixi tomanları ilə milli tarixi romançılıq ənənəsinin prinsipləri də formalaşmışdır.Böyük tarixi romançı M.S.Ordubadinin romanlarından hər biri epoxanın güzgüsüdür*" [12, s.9].

Bu baxımdan yanaşdıqda görkəmli ədibin " Dumanl Təbriz " romanında böyük bir epoxanı-Azərbaycanın vahid vətən ideyasına təsir edən böyük, təlatümlü ictimai-siyasi, milli azadlıq hərəkatını, istiqlal uğrunda mübarizəni əks etdirən dəyərli bir əsərdir. Akademik İsa Həbibbəylinin adı çəkilən roman haqqında mülahizələri də diqqəti cəlb edir və ciddi maraq doğurur: "*"Dumanlı Təbriz" tarixi romanı da Azərbaycanda milli-azadlıq hərəkatının tarixini və ideyalarını yaşadan böyük ədəbi hadisədir.* [12, s.9].

Məmməd Səid Ordubadi sadəcə Səttarxan hərəkatına rəğbət bəsləməklə qalmamış, həmin hərəkatın fəal iştirakçısı, bir çox hallarda görkəmli sərkərdənin silahdaşı olmuşdur. "*"Dumanlı Təbriz" həyati fərqli ideoloji hədəflərə malik olan mübarizələrin içərisində keçən Məmməd Səid Ordubadinin özünün də keşməkeşli taleyinin romanıdır.Məmməd Səid Ordubadinin təsvirində Səttarxan hərəkatının açılmamış mərmilərinin də səsi eşidilməkdədir"* [12, s.9].

Əlbəttə, bədii ədəbiyyat tarix əsəri deyildir və heç zaman tarixi xronologiya yaratmaq missiyasını da öhdəsinə götürməmişdir. "Dumanlı Təbriz"ə gəldikdə isə birmənalı şəkildə onu Cənubi Azərbaycanın on illik (1908-1917–ci illər) həyatını, xüsusən də konstitusiya,demokratik islahatlar,milli azadlıq uğrunda mübarizəsinin bədii salnaməsi adlandırmaq olar. Tarixi gerçəkləri bədiilik güzgüsündə əks etdirən bu əsər tarixi sənədlərdən kənarda qalmış hadisələri, söhbətləri, şəxsi və intim münasibətlər bir məşəl kimi işıq selinə qərq edərək ən incə nöqtələri belə üzə çıxarmışdır. Cənubi Azərbaycanda inqilabi hadisələr tarixçilərdən Əhəd Kəşrəvi, İsmayıi Əmirxizi, Veyçuyi, Behzad, Abbas İsgəndəri, İsmayıi Rai, N.Belova, M.İvanov, Ə.Dadaşlı, Əli Şəmidə, Tağı Şahi, Şövkət Tağıyeva, Məmmədrza Afiyət, Nəriman Həsənov və başqalarının əsərlərində ətraflı araşdırılmışdır. Məmməd Səid Ordubadinin bədii obrazını yaratdığı inqilabi hadisələr bütünlükdə bu tarixi həqiqətləri təsdiqləməklə,Təbriz inqilabı barəsində tamamilə özünəməxsus orijinal roman,hadisələrin nə dərəcədə həqiqətə uyğun və ya təhrif olunması baxımından

müəyyən tədqiqatçılar yazıçıya sırf tənqidi yanaşaraq vaxtilə onu məhdudluqda, gerçəkliyi uğurlarla əvəz etməkdə günahlandırmışlar. Müəllif bunlara cavab vermişsə də, zənnimizcə, həmin məqamlara bu günün mövqyindən münasibət bildirmək zərurudur.

"Dumanlı Təbriz" epopeyasında XX yüzilliyin başlanğıcında oyanmış Şərqin ən güclü etiraz dalğası olan Məşrutə hərəkatı və Təbriz üsyanının (1908-1909) gedişi, inqilabın aparıcı şəxsiyyətləri, əsas hadisələri, Səttarxan və Bağırxan surətləri, üz-üzə duran cəbhələri və xalqın mübarizədəki rolunu özünəməxsus təfərrüatlarla işıqlandırmaqla ədib Cənubi Azərbaycan həyatının bədii salnaməsini yaratmışdır. Əlamətdardır ki, əsərdə başda Məhəmmədəli şah və Rusiya, İngiltərə imperializmi olmaqla İran xalqlarına, xüsusən də Cənubi Azərbaycan xalqına –azərbaycanlılara zülm edən irtica cəbhəsi ilə yanaşı, xalqa söykənən azadlıq cəbhəsi də tam qüdrəti, əzəməti ilə canlandırılmışdır. "*Azərbaycan xalqının demokratik və milli azadlıq hərəkatına məhəbbəti zəmnində aparılan döyüşlər, Səttarxanın, Bağırxanın, Əli Müşyönün, Əbülhəsən bəyin rəhbərliyi ilə mücahidlərin qazandığı uğurları,nəhəng əks-inqilab maşınının qarşısında Təbriz İnqilab Komitəsinin, üsyançıların nəinki davam gətirməsi, hətta şəhərdəki üsyanın şahı taxtdan salacaq dərəcədə geniş ümumiran hərəkatına qədər yüksəlməsi romanda əsl realist sənətkarın qələminə layiq işlənmişdir"* [134, s.144].

M.S.Ordubadi öz epopeyasında xalqın mübarizəsini yalnız silahlı mücahidlərin şəxsində deyil, mənəvi döyüşlərin timsalında da verir. Əsərin qəhrəmanı Əbülhəsən bəy, inqilabi fəaliyyətdə ona yardımçı olan Nina, Mahru xanım, Zeynəb, Nabat xanım kimi surətlər bir tərəfdə, Səməd xan, Sərdar Rəşid, konsul Miller, xəfiyyə polkovniki Berezovski, vəliəhd Məhəmməd Həsən Mirzə kimi irtica nümayəndələri digər tərəfdə olmaqla, hadisələrin dramatizmi, qəhrəmanın Təbrizi "Sahibəzzaman"ın zühuru ilə aldatmağa çalışanları ifşası, bəhaliliyin missionerini elmi dəlillərlə məğlub etməsi buna sübutdur.Heç şübhə yoxdur ki, böyük ədib mənəvi mübarizəni qabarıq verməklə, həm bütöv Azərbaycan xalqının zəngin mədəniyyətini , dinə, fəlsəfəyə bələdliyini, həm də Əbülhəsən bəyin bir ziyalı kimi istedadını nəzərə çarpdırmışdır.

Bütöv Azərbaycan xalqının çoxəsrlik mübarizəsinin tərkib hissəsi olan qadın

azadlığına yer vermiş yazıçının mütərəqqi ideyalarına da toxunmağa çalışdıq.Mövhumi qanunların alçaltdığı qadınların Təbrizdə milli demokratik azadlıqlar uğrunda kişilərlə çiyin-çiyinə vuruşması, aclığa,yoxsulluğa dözərək ərlərinə, qardaşlarına, oğullarına dayaq durmaları romanın tarixi məziyyətlərini artırır. *"Cənubi Azərbaycana və İrana "1001 gecə" gözü ilə baxanların romanın mətnində həqiqətləri şəxsən görüb heyrətlənmələri avropalıların, amerikalıların, rusların müsəlman Şərqi haqqında baxışlarını puç edir, türklərin mədəniliklə yanaşı, mübarizlik xüsusiyyətlərini də aşkara çıxarır"*[134, s.144].

Professor Bədirxan Əhmədov "Dumanlı Təbriz" romanında milli-azadlıq hərəkatının yatırılmasının obyektiv və subyektiv amillərindən bəhs edərək göstərir ki, "*bu amillər içərisində xalqın milli şüur etibarı ilə inkişaf etməməsi, azadlıq istəyənin istənilən səviyyədə olmaması, cəmiyyətin bütün təbəqələrinin bu hərəkatda eyni dərəcədə iştirak etməməsi olmuşdur. Hərəkatda iştirak edən molla,seyid,bazar əsnafı,tacirlərin arasında isə yekdilliyin olmamasıdır. Müəllif Təbriz inqilabının ictimai məzmunu və mahiyyətini açmağa çalışır,müəyyən mənada buna nail olur. Lakun əsərdə yazıçının bolşeviklərin rolunu həddən artıq şişirtməsi romanın ideya və məzmunun zəifldən amillərdəndir*" [77, s.297]. Ancaq bir şeyi unutmaq olmaz ki, M.S.Ordubadi sovet rejimində ciddi senzura şəraitində yaşayıb yaratmışdır. Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının məğlubiyyətinin səbəbini Yavuz Axundlu aşağıdakı amillərlə səciyyələndirir: "*İranda mütəşəkkil fəhlə sinfinin olmaması, kəndlilərin hərəkatda zəif iştirakı, kütlələrin azadlıq ruhunda tərbiyə edilməməsi, siyasi şüurun aşağı olması, xalqın avamlılığı,imperialist dövlətlərin açıq müdaxiləsi inqilabın qələbə çalmasına imkan vermədi. Lakin bu hərəkat İran xalqlarının azadlıq uğrunda mübarizə tarixində böyük rol oynadı*" [301, s.255]. Müəllif bu hərəkatı "burjua-demokratik inqilabı" kimi səciyyələndirərək Təbrizdə isə onun "xalq inqilabı" səviyyəsinə yüksəldiyini göstərir.

M.S.Ordubadi "Dumanlı Təbriz" əsərində hər iki Azərbaycanın milli-mənəvi birliyinin, o cümlədən tarix, mədəniyyət, etnoqrafiya, adət-ənənə və milli psixologiyasının vəhdət təşkil etdiyini göstərmişdir.

Azərbaycan xalq şairi Səməd Vurğun bu vəhdətin təcəssümü haqqında

qənaətlərini ümumiləşdirək *"Məmməd Səid Ordubadinin romanlarının xalqımızın qəhrəman keçmişinin, mübarizə və müsibətlər tarixinin canlı təcəssümü olduğuna diqqəti yönəltmiş, "Dumanlı Təbriz"in dram əsərlərindən az şöhrət qazanmadığını qeyd etmişdir"* [261, c.5, s.93].

M.S.Ordubadinin təsvir etdiyi toy-nişan, gəlin gətirdi, yas inanclar böyük-kiçiyin yeri və s. hər iki tay üçün ümumi və səciyyəvidir. Burada təsvir olunan ictimai əxlaq və davranışlarda oxşar və fərqli cəhətlər də mövcuddur.

Cənubi Azərbaycan, xüsusən də Təbrizin adətləri icərisində böyük-kiçiyin, vəzifə sahibinin,qonağın yerini bilmək, hörmətinin saxlamaq xüsusiyyəti də Məmməd Səidin bədii nəşrində öz ədəbi-estetik ifadəsini tapmışdır. Hələ ilk insan kollektivlərinin formalaşdığı zamanlardan dövrümüzə yadigar qalmış ulu sözünə baxmaq, hörmətini saxlamaq, başçının, ağsaqqalın məsləhətlərinin qanun bilmək adətini ədib yerli-yerində milli mentalitet dəyərləri kimi qələmə almışdır. Doğrudur, bunu müxtəlif məqamlarda yaltaqlığa çevrilməsi də yazıçının gözündən qaçmır.Lakin hər nöqtə öz yerind verildiyindən xalqın ümumu səviyyəsi, əxlaqı haqqında əsərdə bütöv və aydın təsəvvür yaranır.Burada Hacı Mehdi Kuzəkonaninin Səttar qarşısında susub cavab verməməsini o,icazə vermədən ayağa qalxmamasını,mürəxxəs sözünü ədib belə aydınlaşdırır: "*Böyük adamların fikri qarşısında heç bir fikir ola bilməz. Zatən bu söz (mürəxxəssiniz) İran kübarları arasında adətdi. Böyük adamlar icazə verməmiş, onun məclisində oturanlar durub getməzlər"* [218, s.55-56]. Yaxud Azərbaycan valisi Hacı Səməd xanın məclisində söhbət getdiyiy zaman Məmməd Səid cənubluların başqa bir adətinə toxunur: "*Şərqdə kübar məclislərində belə bir adət vardır ki, hörmətli və sərsüfrə adlanan zat başını məcmiədən qaldırdıqda bütün süfrədə oturanlar əlini xörəkdən çəkməli və belini düzəltməlidir.Buna görə də sərsüfrələr başqalarını yeməkdən məhrum etməmək üçün özünün doyduğuna baxmayaraq belini düzəltməz*" [219, s.361].

M.S.Ordubadi adət-ənənələri təsvir etdikcə, təkcə kişi məclislərini, qayda-qanunlarını deyil, qadınları da yaddan çıxarmır. Çünki vətənpərvər ədib bilirdi ki, hətta "ingilislər... *Təbriz qadınlarının Səttarxan inqilabında iştirak etdiyini unutmamışdılar və altmış nəfərə qədər qadının əlində silah səngərlərdə "Azadlıq və*

*istiqlaliyyət" – deyə can verdikləini qeyd etmişdilər* "[219, s.377]. İnqilab rəhbəri Sərdari-millinin kiçik qadınının döşək üstündə oturmuş böyük qadın *"qarşısında ayaq üstə durması, ağzından yaşmağını çıxartmaması, təbrizli qızların səngərdə ordulara qarşı vuruşduğu kimi özündə böyüklərin ayaq üstə durmaq qabiliyyəti də sübut edilir"* [219, s.89]. Bunlar bütöv Azərbaycan xalqının öz adətinə südlə, qanla bağlılığını, son dərəcə hörmətini göstərir.Bununla Ordubadi ikiyə bölünmüş Azərbaycanın milli-mənəvi birliyini təsdiq edir.

Beləliklə, böyük ədib M.S.Ordubadinin bədii nəsrində ikiyə bölünmüş Azərbaycan mövzusu çağdaş ədəbiyyatımızda aktual olmaqla yanaşı, həm də vətənimizin bütövlüyünə, milli mənəvi birliyinə yönəlmiş demokratik hərəkata,milli-azadlıq ideyalarının təbliğinə xidmət edən bəşəri hisslərlə aşılanmış vətənpərvər ruhlu ədəbi bir çağırışdır. Bununla biz həyat və ictimai-bədii fəaliyyəti doğma xalqının tarixi, Şimali Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizə, Cənubi Azərbaycanda böyük miqyasda əks-səda doğurmuş Məşrutə hərəkatı, milli azadlıq mübarizəslə əlaqəli olan ədibin Cənubi Azərbaycanla tarixi-ənənəvi bağlılığının köklərini ətraflı iqıqlandırmaq məqsədini izləmişik. Bununla yanaşı, yazıçının Cənubi Azərbaycandan bəhs edən romanlarının Azərbaycan və dünya nəsri kontekstində yerini və tarixi-mədəni, ədəbi-ictimai dəyərini aşkara çıxarmağa, fikir söyləməyə çalışmışıq.

Məmməd Səid Ordubadinin ikiyə bölünmüş Azərbaycan mövzulu romanlarının ideya-bədii zənginliyinə diqqəti cəlb etmək, bədii nəsrin imkanları daxilində ifadə olunmuş tarixi-ictimai, etnoqrafik və milli-psixoloji məzmununu təhlil etmək, indiyə qədər nəzərdən yayınmış bu və ya digər məqamlarına, o cümlədən milli varlığın və birliyin inikası məsələlərinə diqqət yetirmişik.Bu isə bölünmüş vətən mövzusunun araşdırılmasının çağdaş ədəbiyyatımız kimi, ədəbiyyatşünaslığımız üçün də böyük əhəmiyyət kəsb etdiyini göstərir.

Qeyd edək ki, 40-cı illər Azərbaycan nəsrində bölünmüş vətən və vahid Azərbaycan ideyasının gerçəkləşməsi uğrunda mübarizə aparan və öz əsərlərində bu milli birliyi təbliğ edən görkəmli yazarlardan biri ədəbi şəxsiyyəti "*XX əsrin nadir hadisəsi*" [105, s.12] kimi dəyərləndirilən Mirzə İbrahimov idi.

Bədii ədəbiyyatda ikiyə bölünmüş vətən ideyasını təcəssüm etdirənlərdən biri

olan Mirzə İbrahimov *"ilk dəfə olaraq məhz "İran qızı" adlı hekayəsini - Ulduz adlı cənublu qızın faciəli həyat hekayətini yazmaqla bədii yaradıcılığına Cənubi Azərbaycan mövzusunu gətirir (1930). Güney Azərbaycanda zəhmətkeş təbəqənin, kəndlilərin ağır vəziyyətini, yoxsulluq üzündən varlı bir ailəyə satılan və məhz bu səbəbdən sevgilisinə qovuşa bilməyən, lakin sevmədiyi bir insanla ömrü boyu yaşamaqdansa, ölümü üstün tutan və sonda intihar edən Ulduzun faciəsini real lövhələrlə canlandıran yazıçının bu hekayəsi güclü əks-səda doğurur*" [158].

Ədib 40-cı illərin sonlarında nəşr etdirdiyi "Cənub hekayələri"ndə, eləcə də 1948-ci ildə yazdığı "Gələcək gün" romanında, "Güləbətin" və "Xosrov Rüzbeh" kimi əsərlərində vahid vətən ideyasını və milli mənəvi birliyimizi tərənnüm etmişdir. "*Məhz, özü cənublu olduğuna və vahid Azərbaycan ideyası uğrunda, ana dilinin dövlət dili elan edilməsi, bir sözlə azərbaycançılıq uğrunda apardığı mübarizəyə görə Sovet dövlət təhlükəsizlik orqanlarının diqqətini cəlb etmişdir. Filologiya elmləri doktoru,əməkdar incəsənət xadimi, AYB-nin üzvü 1973-1987–ci illərdə DTK-da çalışan, hazırda Azərbaycan Dünya Beynəlxalq Əlaqələndirmə Mərkəzinin prezidenti vəzifəsini icra edən, 20-yə qədər kitabın müəllifi Yasif Nəsirli Mirzə İbrahimovla bağlı DTK arxivindən çox maraqlı məlumatlar əldə etmişdir"*[157]. O arxiv materialları içərisində "Mirzə İbrahimov" işinə ( iş № 556 ) rast gələndə heyrətlənir: "*Məlum oldu ki, Mirzə müəllimi həbs etmək üçün ona iki dəfə iş açılmışdı. Bir dəfə cənublu olduğu, Cənubdakı fəaliyyətinə görə, bir dəfə də "Böyük demokrat" əsərini yazdığına görə. Mirzə İbrahimovla bağlı gizli məlumatları DTK-ya yazanlar azərbaycanlılar idi. "İş"i ilk mərhələdə müstəntiq Petrosyan, sonra isə bir azərbaycanlı müstəntiq aparmışdı. Petrosyanın çıxardığı "Həbs edilsin!" qərarının üstündə DTK-nın o vaxtkı sədri, sonralar M.C.Bağırovla birlikdə həbs edilmiş Yemelyanovun belə bir dərkənarı vardı*: "*Vətəndaş Mirzə İbrahimovun həbs edilməsi üçün toplanan materiallar kifayət deyildir. Yazıçı ilə MK səviyyəsində profilaktika keçirilsin. Yoxlama işləri dayandırılsın və iş arxivə verilsin. Gələcək fəaliyyəti nəzarətdə saxlanılsın. Yemelyanov*" [157].

M.İbrahimovun "Cənub hekayələri"inə daxil olan *""Azad", "Tonqal başında", "On iki dekabr", "İztirabın sonu" hekayələrində Cənubi Azərbaycanda vətənin*

*bölünməsi əleyhinə xalqın qəhrəmanlıq mübarizəsi, vətənpərvər qüvvələrin dağıdıcı, mürtəce qüvvələrə qarşı durması, demokratik hökumətin yaranması real detallarla öz bədii təcəssümünü tapmışdır"* [149, c.1, s.15-65]. Yazıçının bəhs olunan hekayələrdə yaratmış olduğu Azad, Kərim dayı, Məlusə, Qəhrəman, Süsən və digər obrazlar mübarizliyi, əzmkarlığı, fədakarlığı, vətənsevərliyi ilə diqqəti çəkirlər. "*Xalqın mübarizə əzmini, inqilabi-azadlıq ideyasının ölməzliyini həyacanlı real lövhələrlə gənc qəhrəmanların canlı surətində təsirli verməklə, yazıçı Cənubi Azərbaycan zəhmətkeşlərinin gələcəyə nikbin baxışını, inamını, istək və arzularını vermişdir*" [80, s.9].

"Cənub hekayələri" silsiləsindən yazdığı əsərlərdə Mirzə İbrahimovun bədii forma axtarışları, orijinal üslubu, tipikləşdirmə bacarığı və fərdi sənətkarlıq imkanı daha aydın, qabarıq nəzərə carpır [80, s.9]. Burada M.İbrahimov xalqın gələcək idealının birləşmiş bütöv Azərbaycan olduğunu mükəmməl təsvir edir. Bu hekayələrdə Cənubi Azərbaycanda demokratik muxtar respublikanın və milli hökumətin bütün dünya azərbaycanlılarının ruh yüksəkliyi ilə qarşıladığı, yeni yaranmış milli xalq hökuməti uğrunda şimaldakı azərbaycanlalıların və yerli fədailərin fədakarlıqla vuruşduqlarını göstərir. Professor İfrat Əliyeva haqlı olaraq yazır: "*Cənub hekayələri"ndə fəaliyyətsiz, artıq və yersiz görünən surət yoxdur. Buradakı obrazların çoxu böyük inamlı, bəşəri ideallı insanlardır. Mövqelərindən asılı olmayaraq, onlar ehtirasla milli-azadlıq hərəkatına qoşulur, azadlığı mənəvi-siyasi ehtiyaca çevirdiklərindən ölümdən belə qorxmurlar. Bu keyfiyyət hekayələrdə hərəkəti, dinamikanı gücləndirir, süjet xətlərini enən-qalxan, get-gedə gərginləşən yolla inkişaf etdirir, oxucunu ideya və surətlər aləmində fəal şəxsə çevirir*" [93, s.26]. Tədqiqatçı yeni şəraitdə Cənubi Azərbaycan zəhmətkeşlərinin inqilabi şüurunun yüksəlməsinin "Cənub hekayələri"ndə əsas yer tutduğunu, müəllifin gənc inqilabçı nəslin mənəviyyatını və azadlıq uğrunda mübarizəsini əks etdirməyə xüsusi fikir verdiyini, Azad, Fərda, Rəhim, Qəhrəman, Azər, Reyhan, Rüxsarə, Məlusə kimi gənc oğlanlarla qızları "Cənub hekayələri"nin əsas qəhrəmanlarına çevirdiyini göstərir: "*Yaşlarına məxsus coşqun romantik bir əhval-ruhiyyə, azadfikirlilik və vətənpərvərlik onların başlıca sifətləridir. Bu surətlər vasitəslə müəllif Cənubi Azərbaycanda yetişən və*

*əvvəlki inqilabi nəsllərə görə özlərini daha yüksək şüur və mədəniyyətləri ilə fərqlənən tamamilə yeni, gənc inqilabçı nəsllə oxucunu tanış edir. "Cənub hekayələri"ndə ziyalı, gənc azərbaycanlı qızların inqilabi fəaliyyəti də təsvir edilmişdir. Bu qızlar ana laylası ilə tərbiyələnmiş, ana vətənin dərdini, ehtiyaclarını düşünə-düşünə kamala çatmışlar. Oğlanlarda olan coşqun romantiklik, inqilabi əhval-ruhiyyə qızlarda daha güclüdür. Bu yeniyetmə qızlar tarixi qadın qəhrəmanlarından olan Qürrətül-Eyn və Janna Dark kimi öz həyatlarını vətənin və xalqın istiqlaliyyəti uğrunda qurban verməyə hazırdırlar*" [93, s.27-28].

Bütün bunları təsvir etməklə M.İbrahimov vətənpərvər qüvvələrdə vətənçilik əxlaqının milli şüur və yeni kimliyin formalaşmasını, milliklə ümumbəşəriliyin vəhdəti olan dəyərlərin yarandığını özünün də yaradıcılıq diapazonunun genişləndiyini nümayiş etdirir.

"*Yaddaşını heç zaman Cənubi Azərbaycan mövzusu tərk etməmiş*" [36] Mirzə İbrahimovun ikiyə bölünmüş vətən mövzusunda yazdığı ən güclü əsərlərindən biri xalqın oyanışında "*təkanverici rol oynayan*" [307, s.179] "Gələcək gün" romanıdır. Əsərin geniş oxucu kütlələri arasında yaratdığı böyük əks-sədanı Azərbaycanın xalq şairi Sabir Rüstəmxanlı belə səciyyələndirir: "*Bizim nəslin ruhuna "Gələcək gün" qədər təsir göstərən ikinci bir əsər tanımaq çox çətindir*" [230, s. 227]. Zənnimizcə, bu qənaət yazıçının ədəbi uğurunu dəqiq müəyyənləşdirir və müəlliflə razılaşmamaq mümkün deyildir.

Mirzə İbrahimov sanki öz varlığı ilə bölünmüş böyük vətənin hər ikisini özündə birləşdirmişdir. O, Cənubi Azərbaycanda anadan olsa da, Şimali Azərbaycanda yaşayıb yaratmışdır. Onun milli-mənəvi birlik nümunəsi olan əsərləri, o cümlədən "Gələcək gün" romanı parçalanmış vətənə məhəbbət hissləri aşılayaraq hər iki hissəni bir-birinə bağlamışdır. Milli koloriti, zəngin, xəlqi dili, mükəmməl surətləri, güclü vətənpərvərlik və həmrəylik, birlik ideya istiqamətinə görə bütün bölünmüş vətən mövzusunda yazılmış əsərlərdən fərqlənən "Gələcək gün" romanında Pəhləvi rejiminin paniranist, panfarsizm siyasətinin acı nəticələrinin Cənubi Azərbaycanda yaratdığı dəhşətli vəziyyətə qarşı xalqın mübarizə əzmi öz təcəssümünü tapmışdır. Müəllif "Azərbaycan" deyəndə yalnız bütöv Azərbaycanı, "Azərbaycan xalqı"

deyəndə bütöv azərbaycanlıları nəzərdə tuturdu. "Gələcək gün" romanının əsas qəhrəmanı milli-demokratik hökumətdə prokuror vəzifəsi tutmuş Firudin İbrahimi doğulduğu, boya-başa çatdığı doğma yurdu belə xatırlayır: "*Azərbaycanın ağaclı, sulu kəndləri, yazda yaşıl xalı döşənmiş kimi, səfalı çəmənlər və dağları həqiqi bir cənnət kimi görünürdü*" [189, s.5].

Qeyd edək ki, M.İbrahimovun "Gələcək gün" romanı məşhur ingilis yazıçısı Ceyms Oldricin "Diplomat" romanı ilə [207] müəyyən mənada səsləşməkdədir. Hər iki əsərin eyni dövrdə yaranması, eyni problemə həsr olunması, eyni tarixi-siyasi hadisələrdən qaynaqlanması bu amili şərtləndirir.

"*Ədəbiyyatımızda yeni və müvəffəqiyyətli bir addım*" [15, s.145] olan "Gələcək gün" romanının süjet xəttindən aydın göründüyü kimi, milli vətənpərvər qüvvələr şah rejiminin farslaşdırma siyasətinə, vahid İran milləti yaratmaq üçün bütün qeyri-millətlərin hüquq və azadlıqlarının məhv edilməsinə, yerli feodalların satqınlığına qarşı, ölkənin, o cümlədən Cənubi Azərbaycanın imperialist dövlətlərin oyuncağına çevrilməsinə qarşı silahlı mübarizə aparırlar. Onların qarşısını nə sürgünlər, nə dar ağacları, nə də qırğınlar kəsə bilir. Mirzə İbrahimov İranda yaşayan bütün xalqların azadlıq hərəkatını zəngin real tarixi faktlala təsvir etmişdir.

Yazıçı heç vaxt Azərbaycanı "Şimali" və "Cənubi" hissəsini bir-birindən ayırmamış, yazılarında, xüsusən *""Gələcək gün"də ancaq Azərbaycandan bəhs etmişdir. İranda bütün qeyri-farsların əzildiyi, onların assimliyasiyaya məruz qaldığı, xüsusən azərbaycanlıları rişxəndlə "türkə xərə" adlandıran şərəfsiz, ləyaqətsiz Sofu İranpərəstlərə, "bizim hamımızın bircə heysiyyət-millimiz vardır, İran, iranlılıq. Əlahəzrət Hümayuşun ( Rza şah Pəhləvi-A.H.) təbəələri üçün özgə bir milliyət, özgə bir heysiyyət və özgə bir dil olmasın gərək!"* [150, s.54] - deyən Hüseyn Məhbəslərə cavab verən Sərtib Səlimi onları "siyasətin ehkamlarını əzbərləyən, hər yerdə ürək və vicdandan mərhum həşarat kimi" səciyyələndirərək deyir: "*Siz namuslu bir vətəndaş və insan olmağa çalışln. Qoy sizin öz fikriniz olsun. Qoy fikir həqiqət və vicdanın hökümündən doğsun*" [150, s.55]. M. İbrahimov əslində Hüseyn Məhbəsi kimi şovinist fars gənclərinin ümumiləşdirilmiş, "məsləksiz", "əqidəsiz", "dünyaya bir qumarxana, bütün insanlara bir oyunbaz nəzərilə baxan" şərəfsiz, satqın obrazı

vasitəslə paniranizmin, tarixi getçəkliyin əsl mahiyyətini açıb göstərir. Rza şah Pəhləvinin dediklərinin fars şovinist gəncləri üçün həqiqət və vicdanın hökmü olduğünü, “əlahəzrət- Humayun şahın “Azərbaycan” adının,“Azərbaycan” dilinin xəritədən, yer üzündən silinməsini“ istədiyini diqqətə çatdırır.Yazıçı mütərəqqi görüşlü, tolerant fars gənci (Yavər Əzim) obrazı vasitəslə bütün millətlərə dözümlü münasibət bəsləməyi də tövsiyə edir: “*Mən azərbaycanlı deyiləm. Mən də sizin kimi farsam, lakin mən yaxşı bilirəm ki, tiryək kimi beyinləri dumanlandıran zəhərli bir fikir, alçaq və qeyri-əməli bir əqidə əvvəl-axır bizim bədbəxtliyimizə səbəb olacaqdır. Azərbaycan yağlı bir tikədir.Azərbayvan dadlı və ağız şirələndirən bir meyvədir. Onu udmaq, bəlkə də asandır, lakin onu həzm etmək müşküldür. O, bizim mədəmizi və bağırsaqlarımızı doğrayıb çölə tökə bilər.İranın azadlıq və səadəti qeyri-millətləri əzməklə başa gələn deyil. Bu, intihar və bədbəxtlik yoludur.Yeddi-səkkiz milyonluq bir milləti azərbaycanlılar, kürdlər və sairələrdən ibarət eyni nüfuza malik millətləri udub, həzm etdiyini güman etməkdən də əblahanə bir fikir ola bilməz*” [150, s.56]. Bununla İranın assimliyasiya, iranlılaşdırma siyaəstinin ağır nəticələrə gətirib çıxaracağı göstərilir. Təsadüfi deyil ki, 1926-cı ildə doktor Əfşar İranda Azərbaycanla əlaqədar aşağıdakı siyasətin həyata keçrilməsini təklif etdi: “*Türk dili qadağan olunsun, türkdilli əhalinin bir hissəsi ölkənini başqa bir regionlarına köçrülsün, Azərbaycanın sərhədləri dəyişdirilsin, Azərbaycan adı başqa adla əvəzlənsin*” [50]. Pəhləvi şah rejimi “Azərbaycan” adının silinməsinə müşaiət olunan ostanlara bölmə siyasəti yeritmişdir.

“Gələcək gün” romanının baş qəhrəmanı Fridunu İran cəmiyyətində Azərbaycana münasibətdə baş verən ədalətsiziklər, Tehrandakı inqilabi təşkilatlar, doğma vətəni Azərbaycana, xalqına və dilinə olan məhəbbəti Şimali Azərbaycanda baş verən yeniliklər, Xiyabanini nitqləri, Qərbin və Rusiyanın üsyankarlığa çağıran əsərləri formalaşdırır. Mirzə İbrahimov sovet dövrünün ideoloji çərçivəsinə uyğun olaraq bolşevizmi və onun rəhbəri Lenini yüksək dəyişdirici, inqilabi gücə malik bir hərəkatının rəhbəri kimi dəyərləndirir*: “Bolşeviklər...dünyaya ağır bir vahimə yayırlar”* [150, s.79].

Əsərdə Kərimxan Azadi, Kürd Əhməd, Fridun, azadfikirli doktor, Rza

Qəhrəmanlı kimi obrazlar istibdada qarşı yeni bir şüar irəli sürülməsini təklif edirlər.Onlar İranda kargər (işçi, fəhlə) kəndli və ziyalıların azadlıq uğrunda mübatizə yollarını göstərirlər.Onları hiddətləndirən İranın almanlara və Qərbə satılmağa hazır olmasıdır. İran bircə şərtlə buna hazır idi ki, onlar SSRİ –yə qarşı çıxsınlar, vəssalam. "Buna görə də kargərin də, kəndlinin də indiki şəraitdə bir şüarı olmalıdır: "*İstibdad əleyhinə! İmperializm əleyhinə! Vətənin istiqlaliyyəti yolunda. Bu yolda biz xalqın gözünü açmalıyıq. Ona həqiqəti deməliyik*" [150, s.134].

Doğma xalqının vətənpərvər övladları İrandakı bütün millətlərin azadlığı uğrunda mübarizə aparırlar: "*Biz hamımız xalqımızın övladıyıq. Hamımız onun dərdlərini, yaralarını duyur, halına ürəkdən ağlayırıq.Hamımız İranın əsarətdən xilas olmasını, istiqlaliyyətin, azadlığın dadlı meyvələrini dadmasını istəyirik. Lakin nə göz yaşı, nə də xəyali arzularla azadlıq alınmır. İranın əsrimizdəki bədbəxtliyi ondaddır ki, Pəhləvi xənadanı onun cənub qapılarını taybatay imperialist dövlətlərin üzünə açmış, şimalında isə dəmirdən hasar tikmişdir.İran bu hasarları yıxmayınca, özünü xarici sərmayədarların əlindən qurtarmayınca istiqlaliyyət və azadlıq görməyəcəkdir. Hazırda vəzifəmiz ən sadiq adamlarla birləşmək, xalqı başa salmaq, onun əlamətləri görünən ağır döyüşlərə hazırlamaqdan ibarətdir.Bu işdə kargər də,kəndli də ziyalı da,hətta istəsəniz baqqal da bir cəbhədə olmalıdır. Çörək, iş, azadlıq istəyən xalqa biz sözümüzü çatdırmalıyıq*" [150, s.134-135].

M.İbrahimov əsərdə İranın ABŞ, İngiltərə və Almaniya kimi güclü Qərb dövlətlərilə SSRİ əleyhinə gizli və açıq əlaqə yaradığını, şimal sərhədlərini, Cənubi Azərbaycanı "inqilabi və milli təsirlərdən" qorumaq, milli birliyə mane olmaq üçün möhkəmləndirdiyini göstərir. Çünki, "*İranda Azərbaycan məsələsi kürd, türkmən, bəluc, ərəb və s.məsələsi kimi həm də parçalanmış millətlər problemi bu qəbildəndir. Özü də bu azlıqlar sərhəddin o tayındakı həmvətənlərinə nisbətən milli inkişaf baxımından xeyli geridə qalmışlar. Lakin Azərbaycana münasibətdə bunun özü də xüsusi cəhətə malikdir: əgər həmin xalqların sayca az hissəsi İranda yaşayırsa, İrandakı azərbaycanlılar dünya azərbaycanlılarının böyük hissəsini (təxminən 70 faizini) təşkil edir*" [214, s.220].

Mirzə İbrahimov Vahid Azərbaycan ideyasına mane olan ən təhlükəli bir

amildən, Cənubi Azərbaycanda yaranmış "iranpərəst" elitadan da bəhs edir. Yazıçı belə bir elitanın nümayəndələri kimi Hikmət İsfahani, sərhəng Səfai və Sofi İranpərəst kimi obrazları yaratmışdır. Xüsusilə "İranın siyasət aləmində görkəmli rol oynamış...bir neçə dəfə məclis vəkili olmuş və baş vəzir kürsüsünü tutmuş, son əsrdə İran taxt-tacı ətrafında gedən bütün oyunların fəal iştirakçısı olmuş, Məmmədəli şahın taxtdan salınmasında, Əhməd şahın hakimiyyət başına gətirilməsində və qovulmasında iştirak etmiş, İran siyasətini növbə ilə gah ingilis, gah amerikan, gah alman və bəzən də hər üç dövlətin mənafeyinə tabe edən simaların içərisində görkəmli yer tutmuş, öz fəaliyyəti ilə özünü "mötədil siyasət" tərəfdarı və "müvazinət sevən" bir adam kimi tanıtmış Hikmət İsfahani obrazının daxili aləmi və psixologiyası siyasi hadisələr, xüsüsən bölünmüş vətən ideyası kontekstində daha dərindən açılmışdır.

Müəllif "Gələcək gün" romanında onun iliyinə qədər "farslaşmış" qudurğanlıq, ikiüzlülük, acgözlülük, yalançılıq mücəssəməsi olan, öz millətinin hüquqlarını tapdayan, haqqını yeyən, ədalətsiz, məkrli surətinin oxucuda nifrət və ikrah oyatmaq üçün belə təsvirini vermişdir: "*Bu məfhumlar İran mürtəce siyasət adamlarının təsəvvüründə aydın bir mənanı ifadə edirdi, "mötədil siyasət" və "müvazinət" – İranda rəqabət aparan dövlətləri hazırkı zamandakı qüdrət və təzyiqinə görə təmin etmək, razı salmaq siyasətidir. İranın tərəqqi və yüksəlişi.. ziddinə olan bu siyasət, Hikmət İsfahanilərə həmişə geniş ticarət etmək, gəlirini artırmaq imkanı verməklə, daha xeyirli müştəri toplamağa kömək edirdi.Hikmət İsfahani bir də "Patriot", "İranpərəst", "İran dost" adını qazana bilmişdi. Bu ad ona siyasətin ağır, dolaşıq zamanında məmləkətdə, daxili həyat və ziddiyyətlərin gərginləşdiyi dövrlərdə lazım olurdu. Belə zamanlarda "mötədil siyasət" tərəfdarı və böyük ərbab Hikmət İsfahani meydana çıxırdı, ictimai hərəkata rəxnə salır, onu içərisindən dağıdır, ya da vaxtı çatana kimi heyrətamiz bir xəyanətlə və imansızlıqla onu silah gücünə məhv edirdi*" [150, s.66].

Hikmət İsfahani İranın daxilində və xaricdə dayağı olan, Avropa ölkələri ilə sıx ticarət əlaqələri yaradan iri torpaq sahibi və kapitalist, məkrli bir siyasətçi idi. "*İran daxilində Rza xandan sonra o, birinci böyük mülkədar və sahibkar idi.Təbriz, Rəşt və*

*Mazandaranda onun xalça və başqa toxuculuq fabrikləri işləyirdi. Bütün bunlar ona siyasət aləmində müstəsna bir mövqe yaratmışdı. Məclisdən hökumətə qədər dövlət maşınında onun əl apara bilməyəcəyi bir vint təsəvvür etmək çətindi. Hətta Rza xan Pəhləvi kimi xudbin və müstəbid təbiətli bir hökmdar belə bu adamın varlığına dözməyə məcbur qalmışdır*" [150, s.66].

Kütləvi informasiya vasitələri ilə bütün dünya siyasətini izləyən bu sahibkar bolşeviklərə nifrət edir, öz vətənində – Azərbaycanda öz soydaşlarını təhqir edir, mənafeyinə ziyan olan hər hansı bir əməli ona yardım edən hərbi mənəvi güc, hərbiçilər, əminiyyətçilər və din adamlarının vasitəslə yatırdır: "*Yox, cahanın övzai dumanlıdır. Elə buna görə də indi bizim məmləkətimizə əmin-amanlıq lazımdır. Hər cür macəraçılar və başında zərərli fikirlər daşıyanlar susdurulmalıdır!*" [150, s.67].

Buna görə də milli hərəkata rəhbərlik edə biləcək azərbaycanlı burjuaziyasının mənafeyi ilə milli-ərazi prinsipinə uyğun gəlmədiyini göstərən professor Nəsib Nəsibzadə yerli burjuaziyanın fəaliyyətinin tədricən İranın Tehran və digər ənənəvi fars şəhərlərinə yönəldiyini göstərərək yazır: "*Bu azərbaycanlı burjuaziyanın və onunla bağlı təbəqələrin ümumiran miqyasında çıxış etməsini şərtləndirir. Digər tərəfdən, Azərbaycan elementi tarixən İranın dövlət hakimiyyətində geniş təmsil olunmuşdur. Uzun əsrlər boyu İranın mütləq hakimləri azərbaycanlıların nümayəndələri olmuş, Pəhləvilər dövründə belə ali hakimiyyətdəki çəkisini əldən verməmişdir*" [214, s.230].

M.İbrahimovun "Gələcək gün" romanında təsvir etdiyi əslən azərbaycanlı olan hərbi, iqtisadi, dini, siyasi, mədəni elita daha çox ümumiran mənafeyindən çıxış etdiklərindən Şimali və Cənubi Azərbaycanın birləşməsində maraqlı deyillər.

Azərbaycanlılar siyasi-ideoioji, iqtisadi, demoqrafiq, sosial cəhətdən İrana assimliyasiya olunmuş, İran dövləti mədəni və ideoloji cəhətdən onlara paniranizm təlqin etmişdir. Çox təəssüf ki, paniranizm və fars şovinizminin yaranmasında farslarla yanaşı azərbaycanlılardan ibarət müxtəlif elita nümayəndələri də iştirak edirdilər, fars şovinizminə qarşı türkçülük ideyaları yaransa da, o milli ideologiya kimi formalaşmadı. Azərbaycanlılardan ibarət ziyalı elitası fars mədəniyyətinə yiyələndiyindən dövlətin fars şovinizmi ideyalarının gerçəkləşdirməsi siyasəti

azərbaycanlı elitasının müqaviməti ilə qarşılaşmadı. Lakin orta və aşağı təbəqə bu ideyalara qarşı çıxdı. M.İbrahimovun "Gələcək gün" romanında kommunist ideologiyasına uyğun beynəlmiləlçilik, xalqlar dostluğu ideyası öz əksini taparaq İrandakı kürdlərin və azərbaycanlıların şovinizmə və şah rejiminə qarşı birgə mübarizəsinə çevrilmişdir. Yazıçı orta və aşağı təbəqələrin nümayəndələri vəkil Kürd Əhməd, sərtib Səlimi, Fridun və başqa surətlərin Rza xan siyasətinə qarşı mərdanə durduqlarını göstərmişdir. Bunlardan Urmiya gölünün ətrafındakı kəndlərin birində anadan olmuş, Cənubi Azərbaycanın mühüm strateji əhəmiyyətli şəhərlərindən biri olan Urmiyada azərbay-canlılarla, aysoru və kürdlərin arasında milli münaqişə yaradan Qərb dövlətlərinin məkrli, alçaq siyasətinin və fitnələrinin şahidi olan Kürd Əhməd Şeyx Xiyabani hərəkatının iştirakçısı olan maarifpərvər atasının təsiri altında azadlıq mübarizi kimi formalaşmışdır. Atasının dediyinə görə, hələ o zamanlar İranda həqiqi demokratlar üçün "Rusiyada inqilab bir günəş, Lenin bir peyğəmbər idi". İnqilaba, Sovet dövləti-nə belə inamlı münasibət bəsləyən atası qəbilə, tayfa münasibətlərinin hökm sürdüyü kürd əşirətləri arasında təbliğat apardığına görə qəbilə başçısı ingilislərlə əlaqə saxlayan Ziro tərəfindən fiziki işgəncələrə məruz qalmış, bundan sonra Kürd Əhməd xalqın qurtuluşu uğrunda mübarizəyə qoşulmuş, demokrat təşkilatına üzv olmuşdur. "*O, İranda demokratiya və respublika hərəkatının facianə aqibətini, Rza xan istibdadının yaranmasını səhifə-səhifə izləmiş...həqiqi vətənpərvər və azadixah adamların və sürgünlər tarixini unutmadığı kimi, azadlıq yolunda mübarizədə ehtikar edən, çiyninə möminlik əbası salan hiyləgər, riyakar vətən xainlərini də yaxşı tanıyırdı*" [150, s.39].

Həmid Həmidi, sərtib Səlimi də aşağı təbəqənin nümayəndələri olub, köhnə məşrutəçi və namuslu adamlardan, şəhərin mötəbər adamlarından imza toplayıb kəndli və ərbablar arasındakı münasibətləri tənzimləyən qanunların dəyişdirilməsini tələb edir, vətəndaşların ictimai təşəbbüskarlığına imkan verməyin, fikir, söz azadlığının bərqərar olmasının vətənin abad və inkişaf etməsinə təsir etdiyini göstərirlər. Azərbaycanı İranın "ərzaq anbarı" hesab edən, əhalisinin, xalqının ac-yalavac, hüquqsuz yaşamasını,"qızışanda hər şeyi dağıdacaq bir qüvvəyə çevrildiyini, belə camaatın boynundan gecə-gündüz düşməməyi" istəyən milli xainlərin, fars hakim

dairələrinin əksinə olaraq milli qüvvələr-mövhumat, cəhalətin kökünü kəsməyi, bu dəhşətli canavarı, qorxulu kabusu elm, maarif və tərəqqi, yeniləşmə ilə aradan qaldırmağı, adəti, ənənəsi, dili, kökü, bir olan hər iki Azərbaycanın birliyini istəyirlər. Çünki "*İyirmi ildə dünya fırtınalardan keçmiş, hər şey alt-üst olmuş, Arazın o tayında bizdən yüzcə addım o yanda insanlar yüzillik, minillik yolu iyirmi ilə keçmişlər.Amma biz elə hamanıq ki, haman*" [150, s.47].

Romanda "*müəllif Cənubi Azərbaycan və İran həyatını həqiqətə tam uyğun bir şəkildə təsvir etməsi ilə oxucunun diqqətini cəlb edir. Musa kişinin ailəsinin sürgün olunması, evinin talan edilməsi, Gülnarın, Səriyyə xalanın, onun körpələrinin və fars qızı Xavərin fəlakəti, Südabə və onun analarının qəmli taleyi, həbsxanalar, zindanlar, Sərtib Səlimi və Musa kişinin vəhşicəsinə öldürülməsi və daha bir çox real hadisələrinin təsviri əsərin düşündürücü səhifələri olub, İran və xüsusən Tehran mühitindəki ağılasığmaz rəzalətlər haqqında oxucuya çox geniş, həqiqi məlumat verir*" [137, s.21].

Beləliklə, "Gələcək gün" romanında Mirzə İbrahimovun "gözlədiyi, arzuladığı bəzi proseslər baş verdi. Şimalda kommunist, Cənubda müstəbid şah rejimi devrildi. Lakin Şimali və Cənubi Azərbaycan birləşə bilmədi, azərbaycanlıların idealı olan birləşmiş "Böyük Azərbaycan" idealı reallaşmadı. M.İbrahimov İranda bütün xalqların, o cümlədən azərbaycanlıların azadlığını, milli-mədəni hüquqlarının həyata keçməsini, ana dilinin tam hüquqla işlənməsini, mədəniyyətinin inkişafını istəyirdi. Professor Abbas Hacıyev romanı yazıçının yaradıcılıq uğuru kimi dəyərləndirərək yazır: "*Gələcək gün" canlı xarakterlər, zəngin problemlər romanıdır. Burada İran və Cənubi Azərbaycanın həyatı, taleyi ilə səsləşməyən hadisə, əhvalat yoxdur. Realizm və müasirlik Mirzə İbrahimovu bir sənətkar kimi həmişə dərindən düşündürmüşdür*" [111, s.128].

M.İbrahimovun görmək istədiyi və bütün dünya azərbaycanlılarının milli idealı olan Bütöv Azərbaycan məfkurəsinin gerçəkləşdirilməsi istiqamətində aparılan milli-siyasi mübarizənin heç bir başqa dövlətə, ölkəyə və xalqa qarşı yönəlmədiyi göstərilir.

Ümumiyyətlə, "*Mirzə İbrahimovun cənub mövzusunda olan bütün*

*yaradıcılığı ilə biz ikiyə bölünmüş bir Azərbaycanın cənubunun tarixini öyrənirik*" [138, s.61].

Cənubi Azərbaycan xalqının ağır və dözülməz həyatı yazıçı Mir Cəlalın hekayələrində də bu və ya digər səpkidə bədii əksini tapmışdır. " Bu baxımdan müəllifin *"Badam ağacları" və "Məşriq" hekayələri diqqəti çəkir. Yazıçının "Badam ağacları" hekayəsində"* [203, s.100-112]. Amerikanın müstəmləkəsinə çevrilmiş İranda xalqın başına gətirilən faciə və fəlakətlərin canlı mənzərəsi yaradılmışdır. Müəllif hekayənin baş qəhrəmanı olan Ağarzanın timsalında müstəmləkəçilik həyatının kədərli səhifələrini açıqlayır.

"Badam ağacları" hekayəsi belə bir epiqrafla başlayır: "*Ədalət! Yaşıdlarınla gəlin-gəlin oynamalı vaxtında səni çöllərə salanları, vətənini, xanimanını, şərəfini tapdayanları tanıyırsanmı, qızım?*" [203, s.100]. Hekayənin qəhrəmanı Ağarzanın altı yaşlı qızı Ədalətə müraciətlə verilmiş bu epiqraf yazının ideya istiqamətini müəyyənləşdirir.

Ailənin yeganə gəlir və ruzi mənbəyi olan badam bağının itirilməsi ilə barışa bilməyən qəhrəmanın şikayətləri heç bir səmərə vermir. Məhkəmədə müşavirin vəkilinin haqısızlığına dözə bilməyən Ağarza onun üstünə hücum çəkməklə hirsini soyutmaq istəyir. "*Ağarza irəli cumanda, vəkil də, adamları da cəld çəkildi, izdiham parçalanıb qolu çirməkli, saçı dağınıq kəndliyə yol verdi. O, bir neçə addım atandan sonra dönüb vəkilə baxdı. Sanki baxışı süngü idi və bununla da özünə yol açdı. Vəkilin ətrafındakılar dağılışdılar. Vəkil yolun ortasında qanqal kolu kimi tənha göründü. İzdiham Ağarzanı bir qəhrəman kimi qucağına alıb, gözdən itənəcən müşayiət etdi*" [203, s.109].

Mir Cəlalın "Seçilmiş əsərləri"nə ön söz yazan filologiya elmləri doktoru Yaqub İsmayılov bəhs olunan hekayə ilə bağlı qənaətlərini belə ümumiləşdirir: "*Bu əsərlər içərisində "Badam ağacları" xüsusi seçilir və nəsrimizin qiymətli nümunəsi kimi diqqəti cəlb edir. Real fakt, mənalı təfərrüat və canlı xarakter vasitəslə, möhkəm süjetdə təbii əks olunmuş hadisə və vəziyyət əsasında müstəmləkə siyasətinin mahiyyəti açılır. Ədibin realist üslubunu, təsvir-təcəssüm üsulunu əlvanlaşdıran bir keyfiyyət burada da gözlənilir. Həyat faktının, ictimai hadisənin, mənəvi-psixoloji ovqatın inikası,*

*ideyabədii məzmunun tələbi ilə əlaqədar hekayədə incə lirika da, kəskin satira da var; bəzən ayrılıqda, bəzən də qovuşuq halında*" [203, s.8].

Şübhəsiz ki, "Badam bağları" hekayəsində müəyyən qədər sosialist realizmi yaradıcılıq metodundan qaynaqlanan siyasi konyukturaçılıq duyulmaqdadır. Lakin bununla belə müəllif doğma xalqının müstəmləkə altında inləməsini və azadlıq həsrətini özünəməxsus bədii sənətkarlıqla canlandıra bilmişdir.

Mir Cəlalın 1940-cı ildə qələmə aldığı "Məşriq" hekayəsinin də mövzusu Cənubi Azərbaycan xalqının azadlıq uğrunda mübarizə tarixindən alınmışdır. Hekayədə xalça fabrikində çalışan Ləbbeyk və onun atası Məşriqin qarşılaşdığı problemlər, müstəmləkə həyatının ağrı və əzabları özünəməxsus şəkildə bədii təcəssümünü tapmışdır. Lakin "Badam ağacları"nda olduğu kimi "Məşriq" hekayəsində də sovet siyasi rejiminin ideoloji təzahürləri duyulmaqdadır.

Özünəməxsus fərdi yaradıcılıq üslubuna malik olan görkəmli nasir Ənvər Məmmədxanlı "Cənub hekayələri" silsiləsində milli birlik və bütövlük problemini müxtəlif prizmalardan işıqlandırmağa çalışmışdır. Onun nəsr əsərləri ilə yanaşı dramaturji yaradıcılığında da bölünmüş vətən ideyası qabarıq bədii ifadəsini tapmışdır. İkinci dünya müharibəsi dövründə sovet qoşunlarının tərkibində Cənubi Azərbaycanda olması ədibin yaradıcılığına ciddi təsir göstərmiş və təsir onun əsərlərində dərin izlərini qoymuşdur.

Ənvər Məmmədxanlının "*Karvan dayandı", "Məğrur heykəl", "Qızıl qönçələr", "Baş xiyabanda" hekayələrinin mövzusu bilavasitə Cənub həyatından alınmışdır"* [184, s.99-128]. Yazıçı bu hekayələrində Azərbaycanın Cənubunda xalqın ağır sosial həyatını romantik bir üslubda əks etdirməyə çalışmışdır. Adı çəkilən hekayələrdə real, gerçək hadisələr canlandırılmasa da, təsvir olunan əhvalatlar mahiyyətcə dərin istimai problemlər üzərində qurulmuşdur. Ənvər Məmmədxanlı "*xalqımızın Arazın o tayında yaşayan böyük hissəsinin həyatından bəzi dramatik-tragik lövhələr seçdi, ümumxalq səfalət və müsibətindən yalnız kiçik bir damlanı sənətə gətirdi. Həmin "damla" bədii təfəkkür işığında daxili tərkibi ilə analiz edilərək ideya-estetik tutumda əks olundu*" [153, s.80].

“*Milli kökə, ədəbi-tarixi zəminə möhkəm bağlı olan*” [154, s.4] İlyas Əfəndiyevin əsərlərində də Güney Azərbaycan və xalqın milli-mənəvi bütövlük problemi müxtəlif səpkilərdə bədii təcəssümünü tapmışdır. Şünhəsiz ki, bu problem ədibin daha çox dram yaradıcılığında özünü büruzə verməkdədir. Lakin müəllin *““Xəncər” hekayəsinin də mövzusu Cənubi Azərbaycan həyatından alınmışdır”*[82, c.1, s.274-286].

“Xəncər” hekayəsinin baş qəhrəmanı kimi təqdim olunan Südabə xanım vətənpərvər, milliyyətçi ruhlu bir qadındır. Doğma vətəninə, millətinə, dilinə ruhən, qəlbən bağlı olan bu qadın xalqının düçar olduğu problemlərin mahiyyətini dərindən anladığı üçün sarsıntı keçirir.

Südabə xanım İran fars rejiminin Azərbaycan türklərinə həqarətlə baxmasını heç cür qəbul edə bilmir və elə bu münasibət də onda milli duyğuların güclənməsinə təkan verir. Dərs dediyi məktəbdə şagirdlərini də vətənsevərlik ruhunda tərbiyə etməyə çalışması gənc qadın bir gün öz xalqının azadlığa qovuşacağına dərin inam bəsləyir.

Hekayəni təhlil obyektinə çevirən ədəbiyyatşünas Elmira Babayeva yazır: “*İlyas Əfəndiyevin böyük sənətkarlıqla qələmə aldığı “Xəncər” hekayəsi hər birimizin qəlbində dərin vətənpərvərlik hissi oyadır. Əsərin sonunda gələcəyə böyük, nikbin bir inam hissi var. Hekayəni oxuyan hər kəs azadlığın xalq üçün əvəzolunmaz nemət olduğunu, insanlara xoşbəxtlik gətirdiyini bütün məsuliyyəti ilə dərk edir*” [38]

2012- ci il sentyabrın 22-də “The New York Times” qəzetində müəlliflər Frank Cacobs və Parag Khanna qeyd edirlər ki, XXI əsrin əvvəllərində adama elə gəlirdi ki, sanki dünyanın siyasi xəritəsi “dondurulmuş” vəziyyətdə idi. Çünki keçmiş SSRİ-nin dağılmasından artıq 30 ilə yaxındır ki, dağılmış dünyada bir çox yeni müstəqil dövlətlər meydana gəlmişdi. Maraqlı budur ki, müəlliflər dünyada yeni Böyük Azərbaycan dövlətinin yaranacağını diqqətə çatdırırlar: “*İranın regionda dominantlıq etmək potensialı olsa da, onun daxildən partlama riski də yüksəkdir. İndiki rejim zorakılıqla süquta uğrasa, İranın şimalında 20 milyonluq azərbaycanlı əhalisi ilə mərkəzi Təbriz olan yeni dövlət yarana bilər. Bu da artıq müstəqil olan Azərbaycan Respublikası ilə birləşərək, hətta indiki Türkiyədən də təsirli yeni regional gücün*

*meydana çıxması deməkdir.Bu dövlətin yaranması eyni zamanda, Ermənistanın Dağlıq Qarabağ ərazilərinə iddialarını çətin vəziyyətə sala bilər. Konqresmen Dana Rohrabacherin də 2012-ci il sentyabrın 12-də ABŞ-ın Nümayəndələr Palatasına İranda yaşayan azərbaycanlıların öz müqəddəratlarını təyinetmə hüquqlarının tanınması barədə qətnamə layihəsi təqdim edib. Amma İran rəsmiləri hələlik bu mövzuda hər hansı şərh verməyib*" [263]. Onların bu ehtimalını İrandakı azərbaycanlıların tez-tez nümayiş və kütləvi çıxışlarında "Müstəqil Azərbaycan dövləti" ideyasını irəli sürmələri də təsdiq edir. Lakin rəsmi Tehran ölkənin parçalanmasının qarşısını amansızlıqla alınacağını bildirir. Qərb mətbuatı təkcə İranda deyil, dünyanın bir çox bölgələrində yeni dövlətlərin yaranacağı fikrini tez-tez səsləndirirlər. Göründüyü kimi, mütəfəkkirlərimizin, yazıçılarımızın, o cümlədən gorkəmli ədibimiz M.İbrahimovun və bütün xalqımızın arzuladığı Böyük Azərbaycan ideyası utopik bir xəyal deyil, supergüclərin də diqqətini cəlb edən siyasi reallıqdır.

## 2.3. Şimali Azərbaycan ədiblərinin Cənubi Azərbaycanda bədii-publisistik fəaliyyətlərində vətən həsrəti motivləri

XX əsrin 40-cı illərində yaranmış tarixi şərait Şimali Azərbyacan yazıçılarının bir qrupunun Cənubi Azərbaycanda fəaliyyət göstərməsini zərurətə çevirdi. Bu dövrdə İranın daxili siyasi həyatında və beynəlxalq münasibətlərində gərginlik yaranmışdı. *"1943-cü ildə Seid Ziyaeddinin rəhbərliyi altında yaradılmış "Vətən" partiyası kommunist yönümlü "Tudə" partiyası ilə mübarizəyə başlayaraq Təbrizdə öz filialını yaratmağa və orada fəaliyyət göstərməyə cəhd etdi. Lakin sovet xüsusi xidmət orqanları öz hesabatlarında bu filialın yaradılmasına yol verməmək üçün ciddi tədbirlər gördülər"* [333,s.4].

İrandakı dəyişmiş şəraiti nəzərə alan sovet rəhbərliyi yenidən Azərbaycan probleminə qayıdaraq 1944-cü il martın 6-da hökumət iclasında "Cənubi Azərbaycan əhalisinə mədəni və iqtisadi yardımın gücləndirilməsinə dair tədbirlər haqqında" aşağıdakı məsələləri müzakirə etdi:

*"- Cənubi Azərbaycanda hərbi hissələrdə həftədə üç dəfə çıxan Azərbaycan dilində ordu qəzetlərinin nəşr olunması;*

*- Əhali arasında yayılması üçün müxtəlif siyasi və bədii ədəbiyyatın nəşri, həmçinin Cənubi Azərbaycanın görkəmli yazıçı və şairlərin əsərlərinin çap olunması məqsədilə Təbrizdə "Təbriz" adlı yaxşı təchiz olunmuş xüsusi nəşriyyatın yaradılması;*

*- Təbrizdə tədrisin Azərbaycan dilində aparıldığı onillik məktəbin təşkil edilməsi, orada İran (fars-A.H.) dili və ədəbiyyatının da bir predmet kimi keçirilməsi. Pulsuz təhsilin həyata keçirilməsi və pedaqoji kollektivin Azərbaycan sovet müəllimlərindən kompleksləşdirilməsi"* [301, s.39].

1944-cü ildə yazıçılardan və mətbuat işçilərindən bir qrupu Əlihəsən Şahgəldiyev, Cəfər Xəndan Hacıyev, İsrafil Nəzərov, Qulam Məmmədli, Qılman Musayev, Ənvər Məmmədxanlı, Məmməd Rahim, Kazım Kazımzadə, Məlik Məlikzadə Təbrizə gəldilər.

1944-cü il "Vətən yolunda" qəzetinin ilk nüsxəsi 4 min tirajla nəşr olundu ki, bu qəzet görünməmiş sürətlə yayıldı. ABŞ alimi T.Svyatoxovski bu qəzetin nəşrilə bağlı yazır: "*Qızıl Ordunun Siyasi Təbliğat Baş İdarəsinin yerli qolu (QUPP) həm Azərbaycan, həm Ərəb qrafikası ilə "Vətən yolunda" qəzetini nəşr etmək üçün Bakı ziyalıları daxil olmaqla, SSRİ-dən olan azəriləri (azərbaycanlıları-A.H.) işə götürürdü. Bu qəzetin ilk baş redaktoru Azərbaycan sovet ədəbiyyatının gənc nümayəndəsi, sonralar panazərbaycan hisslərinin carçısı kimi ad qazanmış Mirzə İbrahimov idi*" [243, s.187].

"Vətən yolunda" qəzeti müntəzəm olaraq nəşr olunurdu. Onun yeni redaktoru Əli Şahgəldiyev, ondan sonra isə Rza Quliyev olmuşdur.

Sovet Azərbaycanının Cənubi Azərbaycana təsirini gücləndirmək üçün yazıçı şair və publisistlərin bir qrupu Təbrizə göndərildi.

1944-cü il Seid Ziyaeddin də öz tərəfdarları ilə Cənubi Azərbaycanda öz təsirini yaymaq istəyirdi. Sovet hərbi kəşfiyyatının məlumatına görə S.Ziyaeddin yüksək rütbəli ordu zabitlərilə şaha sui-qəsd edib hakimiyyəti ələ almaq istəyirdi. Lakin onun tərəfdarları Tehranda həbs olundular. Sovet Azərbaycanından Təbrizə ezam

olunanlar Seid tərəfdarlarına qarşı dururdular. Mahiyyət etibarı ilə Seid Ziyaeddin İranda şöhrət qazansa da Təbrizdə özünə baza yarada bilməmişdi. Təbrizdən göndərilən informasiyanı arxifdən əldə edən professor C.Həsənli öz kitabında yazır: "*Çoxsaylı faktlar təsdiq edir ki, İran Azərbaycanının əhalisi öz çoxəsrlik arzusuna çatmağa-farsların zülmündən azad olmağa cəhd edirlər. Şimali İrandan olan azərbaycanlılar öz qan qardaşları üçün çox darıxırlar. Milli vəhdət hiss azadfikirliliklə qovuşaraq ana dilində təhsil almağa, uşaqlarını öz Vətəninə və xalqına məhəbbət ənənələri ruhunda tərbiyə etməyə cəhd edirlər. Ərdəbil antifaşistlərinin başında gənc vətənpərvər, istedadlı şair Balaş Azəroğlu durur. Yaxınlarda onun "Bütün tarix boyu" poemasından bir parça nəşr olunmuşdu. Ziyalıların qabaqcıl hissəsi öz düşüncələrini fars dilində deyil, xalqın başa büşdüyü Azərbaycan dilində ifadə edirdilər. Əhali Sovet Azərbaycanında yaşayan öz qardaşlarını sevir*" [301, s.45].

"Vətən yolunda" qəzeti müntəzəm nəşr olunurdu. Onun yeni redaktoru Ə.Şahgəldiyev M.C.Bağırova göndərdiyi məlumatda göstərirdi ki, Təbrizdən başqa qəzet Urmiyada, Xoyda, Mərənddə, Miyanədə, Zəncanda, Qəzvində, Sərabda və digər şəhərlərdə də geniş yayılırdı. Qəzet həmin şəhərlərə Cəfər Xəndan və Qulam Məmmədlini ezam edirdi. Qəzetə yerli jurnalistlərin cəlb olunmasından bəhs edən Ə.Şahgəldiyev Məhəmməd Biriyanın onunla sıx əlaqə saxladığını da göstərirdi. Biriya "Ədəbi səhifəcik" və "Yumruq" vərəqləri üzərində gecə-gündüz çalışırdı.

Şimali və Cənubi Azərbaycanın mühacir yazarları sovet rejiminə qarşı gizli fəaliyyət göstərirdilər. Professor Cəlal Qasımov o dövrlərdə baş verən ədəbi-bədii və siyasi proseslərə aydınlıq gətirərək yazır:*...mühacir həyatı yaşayanlardan fərqli olaraq ... daxildə mübarizə aparan yazarların və sənət adamlarının, demək olar ki, heç biri nümayişkaranə şəkildə rejimə qarşı çıxmir, bir problem kimi Azərbaycanın müstəqilliyi ideyasını* (o cümlədən vətənin birliyi ideyasını-A.H.) *qaldırmır, bolşeviklərin ruslaşdırmaya və erməni təəssübkeşliyinə etiraz edə bilmirdi. Lakin bu o demək deyildi ki, Azərbaycan ziyalıları Sovet imperyiyasının yeritdiyi siyasəti dəstəkləyirdi. Əlbəttə onlar arasında da etiraz edən, müqavimət göstərən, hətta gizli partiyalar yaradaraq siyasi mübarizə aparanlar az deyildi. Totalitar rejimin yasaq və qadağalarından yaxa qurtarmaq istəyən yazarlar özlərinin milli düşüncələrini, bir*

*qayda olaraq, bədii və ya elmi əsərlərin alt qatında gizlədirdilər. Minlərlə ziyalımızın repressiyalara məruz qalması faktı da dediklərimizi sübut edir"* [166, s.35].

O da məlumdur ki, Pişəvərinin silahdaşları, o cümlədən Məhəmməd Bağırzadə Biriya sovet rejiminə qarşı mübarizə aparmışlar.

Təbrizdə anadan olmuş Məhəmməd Bağırzadə Biriyanın ailəsi 1920-ci ildə Bakıya köçmüş, sonra isə Xorasana qayıtmışlar. 1923-1933-cü illərdə Bakıda olmuş 1933-cü ildə isə Təbrizə dönübdür.

İkinci Dünya müharibəsi zamanı Sovet qoşunları Cənubi Azərbaycana yeridilibdir. Şah rejimi fars dilini dövlət dili elan etmiş, azərbaycanlıların ana dilini isə qadağan etmişdi (hətta ictimai yerlərdə də ana dilində danışmaq qadağan idi).

Şimali Azərbaycanda 20-ci illərdə latın əlifbasından edilirdi. 1939-cu ildə isə latın əlifbası kiril əlifbası ilə əvəz olundu. İranda isə həmin dövrdə ərəb əlifbası işlənirdi, bu gün də işlənir. Cənubi Azərbaycanda Sovetlər çap olunmuş jurnalları qəzetləri, kitabları və afişaları ərəb əlifbasında Azərbaycan dilində nəşr edirdi. M.B.Biriya "Vətən yolunda" qəzetində parçalanmış vətən mövzusunda şeirlər yazmışdır. Biriya eyni zamanda məqalələr, kiçik həcmli pyeslər çap etdirirdi. *"O, 1941-ci ildən İran Azərbaycanında başlanan demokratik hərəkata qoşulmuş, 1943-cü ildə isə Təbrizdə "Tudə" partiyasına daxil olmuş və Biriya ("Biriya" fars dilindən tərcümədə "səmimi" deməkdir) təxəllüsü ilə yazdığı azadlıq ruhlu şeirlərini "Azərbaycan" və "Vətən yolu" qəzetlərində çap etdirmişdir"* [166, s.234].

1943-cü ildə Təbrizə dönən Biriya "Qələbə" adlı qəzetə redaktorluq edir, kiçik həcmli pyeslər yazır. Bakıda Azərnəşrdə şairin "Ürək sözü" kitabı rus dilində çap olunur. Onun Təbrizdə və Bakıda 13 kitabı çapdan çıxmışdır.

Sovet İttifaqı Cənubi Azərbaycanda İranın Hizbi Tudə partiyasından ayırdığı Azərbaycan Demokrat Firqəsini yaratdı. Biriya ADF partiyasının MK bürosuna üzv və yeni yaranan Milli hökumətin maarif naziri oldu.Biriya sözün həqiqi mənasında mədəni inqilab etməyə cəhd edirdi.Bu inqilab Pəhləvi rejiminin assimilyasiya-farslaşdırma siyasətinə qarşı çıxmaq, *"azərbaycanlı milli kimliyini təsdiq etmək məqsədi daşıyırdı...Azərbaycan dilinin yüksək tutulmasına əsaslanan mədəni dəyişikliklər prosesi hətta 1945-ci ilin noyabrından qabaq başlamışdı...İnsanı riqqətə*

*gətirəcək bu nailiyyətlərin arxasında duran və ona ilham verən 1941-ci ildə Sovet Azərbaycanından qayıdanlardan biri olan, təhsil naziri Məhəmməd Biriya idi.Bu istedadlı şairin tərcümeyi-halında əmək təşkilatçısı olması haqqında qısaca bir qed vardı. Əslində, Biriya həm də Bakı ilə sıx əlaqələrin əsl carçısı kimi tanınmışdı"*[243, s.204]. Deməli, Biriya azərbaycançılığı, vətənin birliyini özünün real ədəbi-mədəni və siyasi fəaliyyətilə gerçəkləşdirməyə çalışan ictimai,dövlət xadimi və görkəmli şair idı.

M.Biriyanın yaradıcılığında müraciət etdiyi ana mövzu bütöv Azərbaycan , onun istiqlalı və milli intibahıdır. Biriya Cənubi Azərbaycan Milli hökumətinin naziri, şairi və ideoloqu kimi doğma vətəninıə məhəbbətini öz şeirlərində belə ifadə etmişdir:

*And içirəm namusuma, məsləkimə, vicdanıma,*
*Gün kimi dünyada müqəddəs tanınan imanıma,*
*Ya səni azad eləyim, ya boyanım al qanıma,*
*Haqqın üzü dönməz inan, Azərbaycan, Azərbaycan,*
*Ey torpağı ləlü mərcan  Azərbaycan, Azərbaycan![48,  s.29]*

M.Biriyanın 1945-ci ildə  4 kitabı nəşr olunmuşdur. Onlardan biri Bakıda, üçü isə Təbrizdə çap olunmuşdur. Təbrizdə çap olunanlar "Vətənim Azərbaycan", "Üsyan" və  "Hücum" kitablarıdir..

Biriya heç vaxt Azərbaycanı bölünmüş görmür. O, bütün yaradıcılığında Azərbaycanı bütöv, vahid vətən kimi təqdim edir:

*Süd vermişdir bizə ana işığında ülkərin,*
*Bəslənmişik qucağında al günəşin, səhərin,*
*Hər yerini bürümüşük Qaflankuhun (Qafqaz dağları),  Xəzərin,*
*Alır bizdən bütün sorağını zəfərin,*
*Biz dünyqanın qorxu bilməz bir qəhrəman eliyik,*
*Alovlardan yaranılmış Azərbaycan eliyik. [48,  s.30]*

1945-ci ildə Təbrizdə çap olunmuş "Üsyan" adlı şeirlər kitabında Cənubi Azərbaycanda  şah zülmünə qarşı etirazlar və zülmə son qoymaq üçün xalqı üsyana çağırış motivləri öz əksini tapmışdır:

*Hər kimdə haqqa qarşı əgər olsa ehtiram,*

*Haqsızların əleyhinə etsin gərək qiyam.*
*İllər boyu əsarətə məhkum olan bəşər,*
*Üsyanla çatdı haqqa, tarixə qıl nəzər.*
*Üsyanla odlanıb evi hakim dövlətin,*
*Üsyanla şad olub üzü gülmüş həqiqətin.*
*Üsyanla zülmkardan alınmışdır intiqam,*
*Üsyanla paydar olub aləmdə hər məram. [48,s.48]*

Azərbaycanın ikiyə bölünməsindən kədərlənən vətənpərvər şair öz doğma Azərbaycanını,dərindən sevir, üsyanla birləşməyin mümkün olduğunu göstərir.

Dünya dövlətləri Cənubi Azərbaycanın muxtariyyət qazanmasında razılığa gəlmədilər. Cənubi Azərbaycandakı Milli hökuməti məhv etmək üşün ABŞ, Böyük Britaniya İran qoşunlarına hərbi yardım etdi, SSRİ rəhbərləri də Azərbaycanın haqq işinə xəyanət etdirlər. Buna görə beynəlxalq miqyasda sui-qəsd nəticəsində Milli hökumət devrildi.Pişəvəri Bakıya getdikdən sonra Biriya Azərbaycan Demokratik Firqəsinin baş katibi seçildi. 1947-ci ildə Azərbaycan SSR-ə gələn Biriya 1948-ci ildə Bakıda DTK tərəfindən həbs olunur, 1955-ci ildə bəraət qazandı.

M.Bağırzadə nəinki Cənubla Şimalın, o cümlədən bütün türkdilli xalqların birliyini istəyirdi. Bunun üçün o, bütün türkdilli xalqların ərəb əlifbasına qayıtmasını istəyirdi: "*M.Baırzadə yaxşı anlayırdı ki, türkdilli millətlərin bir-birindən ayırmaq vasitələrindən biri sərhədlərin bağlanması idisə, digəri də əlifbanın dəyişdirilməsi idi. Şairin fikrincə əlifbanın dəyişdirilməsi eyni millət arasındakı min illik tarixi əlaqənin qırılmasına, millətin soyundan, kökündən, yaddaşından uzaqlaşdırılmasına xidmət edirdi. Buna görə də M.Bağırzadə kiril əlifbasına qarşı çıxır və yenidən əski əlifbaya keçilməsini tələb edirdi. Bağırzadənin fikrincə, "gözəl, pak olan" əlifba əski əlifbadır.*

*Hanı bizim o gözəl pak əlifbamız*
*Bu "ь" di, "u"di və ya "ц" dı anlayan deyiləm.*

*M.Bağırzadənin məhz ərəb əlifbasına keçməsi fikrini təkidlə irəli sürməsi onun "şəxsi istək və arzularından doğurdu"* [166, s.240].

Biriya vətəninə- doğulduğu Cənubi Azərbaycana qayıtmağı qarşısına məqsəd qoyub islam dinini təbliğ etməklə yanaşı, sovet həyat tərzini də tənqid edirdi. 1957-ci ildə Azərbaycan CCR rəhbərlərinə- İmam Mustafayevə, Sadıq Rəhimzadəyə və Mirzə İbrahimova ünvanladığı 18 yanvar 1957-ci il tarixli məşhur 16 maddəlik məktubuna görə yenidən həsb olunan Biriya özünün cəsarətli bəyanatında məscidlərin abadlaşdırılmasını, marksizm-leninizm məktəblərinin bağlanmasını K.Marks, F.Engels, V.Lenin və İ.Stalinin heykəllərinin götürül-məsini, əlifbanı dəyişdirib “islam aləminin iftixarı olan” ərəb əlifbasını qəbul etməyi, Moskvada Azərbaycan nümayəndəsinin göndərilməsini, islam dünyasının düşməni olan ermənilərin Azərbaycandan qovulmasını, sərhədlərin açılmasını, cümə günlərinin istirahət günü elan edilməsini, Tatarıstana müstəqillik verilməsini, Krımın Ukraynadan ayrılmasını, sürgündəki Qafqaz xalqlarının, xüsusilə çeçenlərin vətənlərinə qaytarılmasını, ruslardan başqa bütün qeyri-azərbaycanlı-ların idarələrdən, Azərbaycan ordusundan kənarlaşdırılmasını, İranla dostluğu möhkəmləndirməyi, dini azadlığa şərait yaradılmasını, meyidlərin yarılmasının qadağan olunmasını istəyirdi.

1997-ci ildə Bakıda Biriyanın “Hər addımda məzarım var” və 2010-cu ildə “Əsərləri” çap olunmuşdur.

1944-cü il mayın 17-də “Vətən yolunda” qəzeti və Tehranın “Ajir” qəzetinin redaktoru Mir Cəfər Pişəvəri İranda müttəfiqlərin, o cümlədən ingilispərəst Seid Ziyaeddinin pozucu fəaliyyətindən bəhs etmişdir.

Şimali Azərbaycanın sovet rəhbərliyi “Vətən yolunda” qəzetinin İran Azərbaycanı ziyalıları ilə işi sahəsində uğurlu fəaliyyətini yüksək dəyərləndirdi. Hətta Şahgəldiyevin məktubu Azərbaycan KP (b) MK-da müzakirə olundu. MK redaksiyaya ehtiyatlı hərəkət etməyi, İran hakimiyyəti orqanlarına qəzeti bağlamaq üçün bəhanə verməməyi tövsiyə etdi. Xüsusilə qəzetdə gedən “Fətəli xan” məqaləsi və “Mən nə gətirdim” şeirinin Təbrizdə general-qubernatorda mənfi reaksiya yaratdığı diqqətə çatdırıldı. Yerli ziyalılarla, xüsusilə, Məhəmməd Biriya ilə əlaqə saxlayarkən da ehtiyatlı hərəkət etmək məsləhət görüldü.

Azərbaycan sovet rəhbərliyi Zaqafqaziya hərbi dairəsinin siyasi idarəsinin rəisilə görüşüb "Vətən yolunda" qəzetinə texniki, məişət və sosial problemlərini həll etməyi xahiş etdi.İran Azərbaycanında sovet-partiya rəhbərlərindən biri olan Həsən Həsənov bölgədəki çətinliklər barədə Şimali Azərbaycan sovet rəhbərliyini vaxtlı-vaxtında məlumatlandırırdı.

XX əsrin əvvəllərində C.Məmmədquluzadənin Təbrizdə ana dilli "Molla Nəsrəddin" jurnalından sonra Mirzə İbrahimovun "Vətən yolu"nda qəzeti ikinci Azərbaycan dilli mətbuat orqanı oldu. Məhz bölünmüş vətən mövzusuna bağlılığı onu bütün ədiblərdən fərqləndirdi. Filologiya üzrə fəlsəfə doktoru Pərvanə Məmmədli M.İbrahimovun Cənubi Azərbaycandakı ədəbi-publisistik fəaliyyəti barədə yazırdı: "*Mirzə İbrahimov o taya ana dilini aparmaqla yanaşı, Təbrizdə ana dilində nəşr olunan "Vətən yolunda" adlı qəzetinin də bünövrəsini qoydu. Cənubi Azərbaycan mövzusu M. İbrahimovun yaradıcılığında mühüm yer tutur. Bu mövzuya müraciəti sözsüz ki, daxili tələbdən, zərurətdən doğmuşdu. Qəlbində daim böyük bir Cənub nisgili gəzdirən Mirzə İbrahimovun "Gələcək gün", "Cənub hekayələri", "Azad" operasının ssenarisi, onlarla publisistik, ədəbi-tənqidi yazıları vardır... ölkəmiz II Dünya savaşında ölüm-dirim mübarizəsi apardığı illərdə o,əsgər* şinelində Cənubi *Azərbaycana getməli oldu. O illərdə orada baş verən hadisələri gözləri ilə görmüşdu. Dili, milli kimliyi, azadlığı əlindən alınan xalqın halına yanmış, dərd-səri ilə yaxından ilgilənmişdi. Səttar xanın, Xiyabaninin övladlarını yenə də azadlıq və istiqlal uğrunda çarpışan görmüşdü. 1941-ci ildə Təbrizdə Azərbaycan dilində çıxan "Vətən yolunda" adlanan ordu qəzetinin redaktorluğu Mirzə İbrahimova tapşırılmışdı. "Vətən yolunda" qəzetinin ilk sayı 1941-ci ilin oktyabr ayının 11-də çapdan çıxır. Qəzet Azərbaycan dilində günaşırı nəşr olunurdu. Qeyd etmək lazımdır ki, "Vətən yolunda" qəzeti 1920-ci ildə Xiyabani hərəkatı yatırıldıqdan sonra Azərbaycan dilində çıxan ilk qəzetlərdən olur (1941-1946). Qəzetin baş redaktorları Mirzə İbrahimov, Həsən Şahgəldiyev və Rza Quliyev olmuşlar. Qəzetin redaksiyasında yazarlardan Süleyman Rüstəm, Osman Sarıvəlli, Məmməd Rahim, Əvəz Sadıq, Qılman Musayev (İlkin), Seyfəddin Dağlı, İsrafil Nəzərov (məsul katib), Qulam Məmmədli, Cəfər Xəndan (baş redaktor müavini) və bir çox başqaları işləmişlər*"

[206]. Buradan aydın olur ki, Azərbaycanın görkəmli yazıçısı, dövlət və ictimai xadimi özünü təşkilati, ictimai fəailiyyəti, publisistik və bədii yaradıcılığı ilə Cənubi Azərbaycanda mühüm tarixi rol oynamış, bölünmüş vətən mövzusunda yazdığı möhtəşəm əsərlərilə, ensiklopedik istedadı ilə təkcə hər iki Azərbaycanda deyil, bütün SSRİ-də və Asiyada geniş şöhrət qazanmışdı.

Təbrizdə "Vətən yolunda" qəzetində Mirzə İbrahimovla işləyən yazıçı Qılman İlkin xatirələrində yazırdı ki, Mirzədə fövqaladə bir müşahidəçilik və dərk etmək istedadı vardı. O, Təbrizdə qəzet redaktə etməklə yanaşı, Cənubi Azərbaycanı qarış-qarış gəzir, ən ucqar kəndlərdə belə olur, əhali ilə görüşür, onların dərd və istəklərini öyrənirdi. Digər tərəfdən o, gələcək əsərləri üçün materiallar toplayır, gələcək nəsr və publisistik əsərləri üzərində düşünürdü. Yazılarını çox zaman "Əjdəroğlu", bəzi hallarda İ. Mirzə adı ilə imzalayırdı. "Vətən yolunda" qəzetində Mirzə İbrahimovun yazılarının az bir qismində imza olurdu. Qəzetdəki baş məqalə və redaksiya məqalələrinin onun qələminə məxsus olduğunu ehtimal etmək olar. "Vətən yolunda" qəzetinin ilk sayi oktyabrın 11-də, 4000 tirajla nəşr olunmuşdu. O dövr üçün bu tiraj yüksək göstərici idi, lakin qəzetin ilk sayı qısa müddətdə satılıb qurtarmışdı. Qəzetin səhifələri çeşidli rubrikalar altında publisistik yazılar və kəskin felyetonlar, incəsənətlə bağlı icmallar, nəsr və poeziya nümunələri ilə zəngin idi. Bütün bunlar söz yox ki, qəzetin redaktoru Mirzə İbrahimovun gərgin zəhməti bahasına başa gəlirdi. Qəzetdə nəşr olunan bədii nümunələrin əsas hissəsini poeziya təşkil edirdi. İlk saylarda S. Vurğunun, S. Rüstəmin, O. Sarıvəllinin bir çox şeirləri dərc olunmuşdu. O illərdə "Vətən yolunda" və "Azərbaycan" kimi qəzetlərdə folklorun toplanıb öyrənilməsi, yayılması işi geniş yayılmışdı. Görkəmli tədqiqatçı Cəfər Xəndan bu qəzetdə çalışmaqla bərabər, onun fəaliyyətini geniş şəkildə işıqlandırmışdır. O yazırdı ki, qəzetin Cənubi Azərbaycanın bütün şəhər və kəndlərində, Tehranda, Qəzvində və s. yerlərdəki azərbaycanlılar arasında oxucuları var idi. İran şəraitində əksər qəzetlərin 300-dən 3000-ə qədər oxucusu olduğu halda, "Vətən yolunda"nın oxucuları 15000-dən artıq idi. Oxucular günaşırı çıxan bu qəzetin hər nömrəsini səbirsizliklə gözləyir və yığıb saxlayırdılar. Qəzet özünə geniş oxucu auditoriyası toplaya bilmişdi. O illərdə "Vətən yolunda" qəzetinin həm də fəal əməkdaşı olan

Qılman İlkin yazırdı ki, “yerli azərbaycanlılar bu qəzeti özlərinin doğma mətbuatı bilib oxuyur, ondan öyrənir və onda iştirak edirdilər”. Getdikcə yerli ziyalılardan çoxları redaksiyamıza ayaq açdılar. Qəzetlə bağlı ən xoş arzu və minnətdarlıqlarını bizə bildirirdilər. Qəzetin birinci mərhələdə cəmi 6 ay fəaliyyət göstərib qapadılması Güney Azərbaycanda olan siyasi işçilərin Bakıya geri çağırılması ilə əlaqədar idi. Onu da qeyd etmək lazımdır ki, Təbrizdə fəaliyyət göstərən işçi qrupu ilə Sovet hərbi diplomatik nümayəndələri arasında münasibətlər ziddiyyətli idi. O dövrdə baş verən hadisələri araşdırmağa cəhd edən professor Cəmil Həsənli yazır: “*Güney Azərbaycandakı proseslərin getdikcə milli müstəviyə keçməsi sovetləri o qədər də təmin etmirdi... Hətta A. Smirnov ilk olaraq türk dilində çıxan və Güney Azərbaycanda əl-əl gəzən “Vətən yolunda” qəzetinin bağlanması haqqında SSRİ Xarici İşlər Komissarlığına müraciət də etmiş, lakin M.C.Bağırov da öz növbəsində “Vətən yolunda” qəzetinin bağlanmasına etirazını bildirib vaxtında bunun qarşısını ala bilmiş, məsələnin müsbət həllinə nail olmuşdu*” [126, s.64-65].

Göründüyü kimi, “Vətən yolunda” qəzetində təkcə Azərbaycanın klassik irsi, görkəmli klassikləri deyil, müasir söz sənətkarlarının həyat və yaradıcıları haqqında məlumat verilir, onların ideyaları xalqın şüuruna aşılanır, beyinlərinə həmin yaradıcı şəxsiyyətlərin obrazları həkk olunurdu. Cənubi Azərbaycanda yaranan demokratik hökumətin Əsas Qanunun, Konstitusiyanın, hakim Azərbaycan Demokratik Firqəsinin proqram sənədlərinin, partiyanın protoklollarının, ADR hökumətinin Baş naziri S.C. Pişəvərinin müxtəlif çıxış və məruzələrinin, publistik əsərlərinin hazırlanmasında M.İbrahimovun böyük köməyi olmuşdur. Bütün bunlar 1946-cı ildə məcmuə şəklində “Qızıl səhifələr”adı ilə kitab halında nəşr olundu. Şimali sovet Azərbaycanının maarif naziri vəzifəsində çalışan M.İbrahimov Cənubi Azərbaycanın mədəniyyətinin inkişafında da rol oynamışdır. “Vətən yolunda” qəzetinin Cənubi Azərbaycanda ədəbi qüvvələrin və publisistlərinin yetişməsində müstəsna xidmətləri olmuşdur. “*Şimaldan gələn yaradıcı ziyalılara Mirmehdi Etimad, Əli Fitrət, Balaş Azəroğlu, Çavuşi, Əli Tudə, Mədinə Gülgün, Mirrəhim Vilayi, Məhəmməd Abbasi, Hilal Nasiri, Məhəmməd Biriya və bu kimi yerli həmkarları da qoşulmuşdu. O illərdə qoyulan bünövrəni sonrakı illərdə cənublu ziyalılar layiqincə davamlı inkişaf*

*etdirirdilər. Göründüyü kimi, Azərbaycan ədəbiyyatında, publisistikasında yeni qələm ordusunun meydana çıxmasında "Vətən yolunda" qəzetinin və onun ilk redaktoru Mirzə İbrahimovun rolu danılmazdır. 1945-ci ildə "Vətən yolunda" qəzetinin nəzdində "Şairlər məclisi" təşkil olundu. Bütün Cənubi Azərbaycan və İranda şöhrət tapan "Vətən yolunda" qəzeti həm də az zaman içərisində Cənubi Azərbaycan şairlərinin ədəbi mərkəzinə çevrildi*" [206]. Buradan aydın olur ki, "Vətən yolunda" qəzeti ikiyə bölünmüş vətənin o tayında Azərbaycan dilinin statusunu qaldırdı, azərbaycanlıları ictimai-siyasi proseslərə cəlb etdi, onların milli şüurunu və özünüdərkini formalaşdırdı. Tədqiqatçı Sədaqət Məmmədova "Mirzə İbrahimov "Vətən yolunda" qəzetinin baş redaktoru kimi" məqaləsində Mirzə İbrahimovun ikiyə bölünmüş vətənə həsr olunmuş əsərlərini qəzetdə çap etdirməsi ilə yanaşı, orada aktual mövzuya həsr olunmuş müxtəlif janrlı məqalə və hekayələrin nəşr olunduğunu da göstərir: "*Mirzə İbrahimov iti müşahidə qabiliyyəti ilə ətrafda baş verən hadisələri izləmiş və bu müşahidələr onun gələcək əsərləri üçün zəmin yaratmışdır. Yeri gəldikcə, "Vətən yolunda" qəzetində də bu yazıları çap etdirmişdir. Onun vahid Azərbaycan mövzusunda yazdığı əsərləri bu gün də öz aktuallığını saxlayır, zülm və istibdada qarşı fədakarlıqla vuruşan xalqları mübarizəyə ruhlandırır. Mirzə İbrahimovla birlikdə Qızıl Ordunun tərkibində oraya getmiş şair və yazıçılardan Süleyman Rüstəm, Məmməd Rahim, Səməd Vurğun, Rəsul Rza, Qılman Musayev, Ənvər Məmmədxanlı, Cəfər Xəndan, jurnalist Qulam Məmmədli və başqaları "Vətən yolunda" qəzetində fəaliyyət göstərirdi. Bu qəzet yazarlarımız üçün həm də yeni bir ədəbi məktəb oldu. Onlar İran həyatı ilə daha yaxından tanış oldular və sonralar ədəbiyyatımızı yeni mövzularla zənginləşdirdilər. Cəfər Xəndan elmi-tədqiqi məqalələr və şeirlərlə, Ənvər Məmmədxanlı, Qılman Musayev maraqlı hekayələrlə, Süleyman Rüstəm, Məmməd Rahim, Səməd Vurğun inqilab ruhlu şeirlərilə, Qulam Məmmədli klassiklərimiz haqqında elmi məlumatları ilə qəzet səhifələrinə çıxaraq vətənə xidmət edirdilər*" [195, s.429-430]. Müəllif qəzetdə Təbriz ədəbi məktəbinin nümayndələrinə də yer verildiyini, onların müntəzəm olaraq rəngarəng mövzularda çıxış etdiklərini, onlardan Azəroğlu, Əli Tudə, İbrahim Zakir, Hökumə Billuri,

Mədinə Gülgünün sonralar o taylı-bu taylı Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafında mühüm rol oynadıqlarını da qeyd edir.

"Vətən yolunda" qəzetində çap olunmuş əsərləri mövzularına görə tədqiqatçılar müxtəlif istiqamətlərə ayırırlar. Pərvanə Məmmədli qəzetdə nəşr olunan əsərlərin mövzularını aşağıdakı kimi qruplaşdırmışdır: "Vətən yolunda" qəzetində çap olunan əsərlərin mövzulara gəldikdə isə onlar iki istiqamətdə idi: 1. sovet sosialist ideologiyasının təbliği, 2. yerli əhalinin maariflǝndirilməsi. Birinci sıraya daxil olan yazılarda sovet döyüşçülərinin cəbhədəki qəhrəmanlıqları, antifaşist təbliğatı, sovet cəmiyyətinin və sovet həyat tərzinin gözəl boyalarla təsviri, sosializmin kapitalizm–dən üstün olduğunu "ciddi-cəhdlə" göstərməklə sovet cəmiyyətinin gələcəkdəki xoşbəxt proqnozu verilirdi. "Böyük Vətən müharibəsi cəbhələrində" , "Böyük Vətən müharibəsi qəhrəmanları", "Sovet İttifaqında" və s. rubrikalar altında gedən bu yazılar o illərdə sovet mətbuatında dərc edilən materialların bir növ eyni idi. Təbii ki, sovetlər ölkəsinin hər sahədə uğurlarından danışan qəzet İranda kommunist təb-liğatına xidmət edirdi.İkinci qismə isə Azərbaycan mədəniyyətini, Azərbaycanın klassik və çağdaş dövründəki ədəbi simaları, dil və ədəbiyyat tarixini, dünya ədəbiyyatı nümunələrini, məktəb və maarif sahələrini özündə əks etdirən yazılar daxil idi. Jurnal belə yazıları verməklə yüksək amala xidmət edirdi. Cənubda milli şüurun və milli iftixar hissinin oyanmasına çalışırdı.

Qəzet öz səhifələrində Azərbaycan ədəbiyyatının N.Gəncəvi, X.Şirvani, M.Füzuli, M.P.Vaqif, M.F.Axundzadə kimi klassiklərinin, eləcə də Mirzə Cəlil, M.Ə.Sabir, M.S.Ordubadi və S.Vurğun kimi çağdaş şairləri və digər söz sənətkar-larını tanıdırdı.

"Vətən yolunda" qəzeti yerli ədəbi qüvvələrin yetişməsində böyük rol oynadı. Qəzet tez-tez öz səhifələrini gənc şairlərin ixtiyarına verirdi. Beləliklə, *" "Vətən yolunda" qəzeti Güney Azərbaycanda ana dilində ədəbiyyatın inkişafı üçün geniş imkanlar yaradırdı.Qəzetdəki ədəbi-bədii əsərlər əsasən Güney Azərbaycandakı ictimai-siyasi prosesləri, ölkədə yaranan demokratik əhval-ruhiyyəni, yeni qurulmuş Milli Hökumətin fəaliyyətini işıqlandırırdı"* [190, s.6].

Digər tədqiqatçı G.Ağayeva "Təbriz ədəbi mühiti" əsərində mövzuların daha çox ictimai-siyasi xarakter daşıdığını göstərir: " *"Vətən yolunda" qəzetində çap edilən bədii əsərlərin mövzuları yeni idi. Cənubi Azərbaycandakı ictimai-siyasi proseslər, ölkədə yaranan demokratik əhval-ruhiyyə, xalqın milli-azadlıq hərəkatlarının əhalinin bütün təbəqələrini əhatə etməsi və yüksələn xətt üzrə inkişaf edərək Milli Hökumətin qurulması ilə nəticələnməsi həm şimallı, həm də cənublu müəlliflərin bəhrələndiyi əsas mənbələrdən idi"* [7, s.115]. Müəllif bölünmüş vətən ziyalılarının eyni məqsədə xidmət etdiklərini-milli-azadlıq uğrunda vətənin rus-sovet və fars rejimindən xilas edib birlik ideyasının reallaşması uğrunda mübarizə etdiklərini diqqətə çatdırır.

1941-1946-cı illərdə Cənubi Azərbaycanda nəşr olunan "Vətən yolunda" qəzetinin fəaliyyəti 2 mərhələyə ayrılır: 1941-ci ilin 11 oktyabrından 1942-ci ilin 13 aprelinə qədər və 1944-cü ilin 10 aprelindən 1946-cı ilin 1 mayına qədər olan dövrlər.

Qəzetin nəşrinin 1942-ci ildə dayandırılması siyasi-ideoloji xarakter daşıyırdı. Belə ki,"*şimaldan gəlmiş işçi qrupunun məqsədyönlü fəaliyyəti həm Cənubda yaşayan azərbaycanlıların, həm də Azərbaycan dilinin rolunun artması ilə nəticələnmişdi. Bu isə nə kommunist, nə də İranın şah rejimini qane edirdi"* [127, s.64-65].

Mirzə İbrahimov "Vətən yolunda" qəzetində Şimali və Cənubi Azərbaycanın milli-mənəvi bütövlük simvolu olan ana dilinin tarixinə və inkişafına həsr etdiyi "Azərbaycan dili" məqaləsi xüsusi maraq doğurur.

M.İbrahimov Azərbaycan dilinin bütöv bir xalqın-azərbaycanlıların dili kimi yarandığını tarixi hadisələrin təsirilə dəyişikliklərə məruz qaldığını göstərir. Azərbaycan dilində yaranan sənət incilərindən, "Kitabi-Dədə Qorqud"dan bəhs edən müəllif hələ orta əsrlərdə Mahmud Qəznəvinin başçılığı altında İran dövlətinin Azərbaycanı zəbt etməsini, fars dilini elm və ədəbiyyat dili elan etməsindən bəhs edir. Öz doğma ana dilində əsər yazmaq yasaq edildiyindən Azərbaycan şairləri fars dilində yazmağa məcbur olur.

Azərbaycan xalqını öz doğma dilini inkişaf etdirərərək XIII-XV əsrlərdə Həsənoğlu və Nəsimi kimi azərbaycandilli sənətkarların yetişməsinə gətirib çıxarır. M.İbrahimov Azərbaycan dilinin inkişafında şifahi xalq yaradıcılığının təsirini, Şah

İsmayıl Xətai dövründə onun dövlət və saray dili səviyyəsinə yüksəldiyini vurğulayır. Azərbaycan dilinin inkişafı uğrunda klassiklərdən Saib Təbrizinin, Molla Pənah Vaqifin, XIX əsrdə maarifçi yazıçıların – A.Bakıxanov, M.F.Axundov və H.Zərdabinin, dilimizin saflığı uğrunda başda C.Məmmədquluzadə olmaqla mollanəsrəddinçilərin apardıqları mübarizəni, onların doğma dili ərəb-fars tərkiblərindən təmizləmələrini xüsusi qeyd edir.

M.İbrahimov XX əsrin əvvəllərində Azərbaycan xalqının istiqlaliyyəti və Azərbaycan dilinin tərəqqisi yolunda mübarizə xeyli kəskinləşir. Milli dil uğrunda mübarizə siyasi məzmun kəsb etməyə başlayır. Ədib ürək ağrısı ilə İran və Türkiyədə təhsil almış bir ovuc ziyalıların pantürkist və panislamist ideyaları təbliğ etməsini, öz ana dillərini unutmalarını qeyd edir. Elə bu dövrdə C.Məmmədquluzadənin "Anamın kitabı" əsəri beləl追inə yaxşı cavab idi. Bu əsər güzgü kimi onların simasını aydın göstərirdi.

C.Məmmədquluzadə ilə yanaşı M.S.Ordubadi, M.Möcüz, Ü.Hacıbəyov, M.Ə.Sabir kimi böyük yazıçılar, xalq xadimləri açıq-aydın Azərbaycan dilində yazıb yaradırlar.*"Dünyanın görkəmli yazıçı və şairlərinin əsərləri Azərbaycan dilinə tərcümə edilib, xalqın ixtiyarına verilmişdir* "[195, s.433-434].

M.İbrahimovun "Nakam məhəbbət" əsərində bütöv Azərbaycan milli kimlik, mənəvi vəhdət ideyası öz əksini tapmışdır. Doğma Azərbaycan dilində bayatı oxuduğu üçün İranda Qəsri-Qacar zindanına atılan Azəroğlu qardaşına yazdığı məktubda milli kimliyinin dərk olunmasının, ümumi əraziyə, ümumi siyasi-iqtisadi həyata malik olmasa da assimliyasiya olunmamağı və vahid Azərbaycan üçün lazım olsa fədakarlıqla candan keçməyi tövsiyə edir: "*Axırıncı damcı qanınına qədər bu yoldan dönməyəcəyimə and icdim!...Qardaşım Cavanmərd! Səndən soruşan olsa kimsən, haralısan, yaxşı düşün, ananın o pak südünü, Azərbaycanın müqəddəs torpağını yadına sal!... Bil ki, sənin dünyalara dəyəcək bir vətənin var, bu vətənin adı Azərbaycandır!... Sən onun üçün yaşamalı, onun üçün ölməlisən!..*" [151, c.7, s. 22].

Mirzə İbrahimov öz qəhrəmanı vasitəslə xalqın tarixi qan yaddaşı, milli özünüdərkinin təcəssümü olan Vətən torpağına bağlılığını ifadə edir: "*Bu torpaq mənim üçün yaddaş olmalıdır*" [151, c.7, s.29].

Mirzə İbrahimov dəfələrlə Şimali Azərbaycandan Cənubi Azərbaycana gəlmiş Tehran, Rəşt və Təbriz şəhərlərində olmuşdur. İkiyə bölünmüş vətənlə bağlı təəssüratlarını "Səhər açılacaq" yol xatirələrində ifadə etmişdir, sonralar o, "Gələcək gün" romanında bu hadisələri daha geniş təsvir etmişdir. M.İbrahimovun vahid vətən ideyası hər iki tərəfin milli şüuruna təsir edərək mənəvi tərbiyəvi rol oynamışdır: "*Azərbaycan gəncliyinin neçə-neçə nəsli onun əsərləri ilə tərbiyələnmiş, həyatda, ictimai işlərdə onun müsbət ədəbi qəhrəmanlarına bənzəməyə çalışmışlar. Onun bütün əsərləri-roman, povest və hekayələri həmişə insanlara, onların həyatı ilə sıx bağlı olmuşdur. Məhz bu xüsusiyyət ona həm qüzeyli-güneyli Azərbaycanımızda, həm də əsərlərinin çap olunduğu xarici ölkələrdə rəğbət qazandırır*" [195, s.437].

"Vətən yolunda"qəzetində əksini tapan ideyalar milli şüurun inkişafına təsir etməklə yanaşı, Cənubi Azərbaycanda ana dilinin, yeni ədəbiyyatın və ədəbi məktəbin formalaşmasına da səbəb olmuşdur.

Rusiya tədqiqatçıları rus mühacir ədəbiyyatından bəhs edərkən onu rus mədəni ənənələrinin və milli-mənəvi dəyərlərinin qoruyucusu kimi səciyələndirirlər. M.V.Lomonosov adına MDU-nun professoru M.S.Kosorukova yazır: "*Rus mühacirlərinin mədəniyyət xadimlərinin müxtəlif yönümlü fəaliyyətlərinə baxmayaraq onların yaradıcılığında "mədəniyyət" kimi ifadə olunan bütün ədəbiyyat və incəsənət əsərlərini birləşdirən ümumi bir əsas vardır. Bu ümumi əsas milli özündərkdir*" [311]. Müəllif rus mühacirət ədəbiyyatının mənəvi irsində yazıçı və şairlərin əsərlərinin əsas yer tutduğunu göstərir.

Rus və milli ədəbi ənənələri davam etdirmək onları yeni nəsllərə ötürmək Rusiya haqqında yaddaşı və milli özündərki qoruyub saxlamaq, xaricdə kiçik Rusiya olmaq rus xarici ədəbiyyatının mühacir yazıçıların əsas vəzifəsi hesab olunur: "*Rusiyanın dünənki və sabahkı günü arasında canlı bağlılıq yaradaraq Vətən mövzusu üzərində işləməyə cəhd edən mühacir yazıçılar "Vətən" anlayışını coğrafi deyil, mənəvi mənada başa düşürlər"* [318, s.450]. Bu mənada Şimali Azərbaycan ədibləri Cənubi Azərbaycanda fəaliyyət göstərən rus mühacir ədəbiyyatından fərqli olaraq müxtəlif rejimlərdə yaşayan doğma vətənə parçalanmış, ikiyə bölünmüş ərazi kimi

baxır, vahid Azərbaycan ideyası irəli sürür, doğma ana dilində yazır və ümummilli Azərbaycan mədəniyyətinə bağlılıqlarını təsdiq edirdilər.

Vahid Vətən ideyası həm Cənubi Azərbaycana ezam olunmuş Şimali Azərbaycan yazıçı və şairlərinin, həm də yerli yaradıcı qüvvələrin əsərlərində ümummilli ədəbiyyat kontekstində nəzərdən keçirməyə imkan verirdi. Vahid Azərbaycan mövzusu onun tarixi taleyilə əlaqədar verilirdi. Cənubi Azərbaycanda fəaliyyət göstərən bütün Şimali Azərbaycan ədibləri öz vətənlərinin və xalqlarının tarixinə müraciət edərək milli həyatın bütöv konsepsiyasını yaratmağa, Azərbaycanı bütöv bir ölkə kimi dərk etməyə cəhd etdilər. Azərbaycanın ədib və şairləri hər iki Azərbaycanı siyasi cəhətdən olmasa da mədəni cəhətdən birləşdirmək, onun milli-mənəvi vəhdətinə nail olmaq uğrunda mübarizə aparır, əsərlərində də bu ideyanın reallaşmasına xidmət edirdilər.

Bölünmüş vətənin dərdlərini əks etdirən digər mətbuat orqanı Rəsul Rzanın redaktorluğu ilə nəşr olunan "Azərbaycan" jurnalı idi. Jurnalın əsas məqsədi Cənubi Azərbaycanda xalqın milli şüurunun, milli kimlik və özündərkinin oyanmasına, milli intibah və milli iftixar hissinin formalaşmasına xidmət etmək idi. Rusiyanın mütəfəkkir filosoflarından olan Nikolay Berdyayev 1917-ci ildə "Rus fikri" jurnalında çap etdirdiyi "Xalq şüuru və milli şüur" məqaləsində Rusiyada "xalq şüuru" və "milli şüur" arasında tarix boyu toqquşma baş verdiyini, rus xalqçılığının uzun müddət ziyalı şüurunda hökm sürdüyünü, ali mədəni təbəqə və aşağı xalq həyatı arasında uçurumu ifadə etdiyini göstərir. O, milli şüuru millətin təkrarolunmaz özünəməxsus keyfiyyəti hesab edir, milli şüurun daşıyıcısı və ifadəçisinin ölkənin ali ziyalılarının yüksək keyfiyyət səviyyəsinə malik şəxsiyyətlərdən ibarət mənəvi-ruhi aristokratiyanın olduğunu qeyd edərək yazır: "*Milli şüur kəmiyyət deyil, keyfiyyət şüurudur... Ali milli şüur xalqın yaratdığı sərvətləri hifz etməli və onun böyük tarixi vəhdət kimi yeni dəyərlərini yaratmalıdır: o, uzaq keçmişi uzaq gələcəklə bağlayır*" [298, s.95]. Müəllif milli şüurun dəyərinin xalqın uzun və əzablı tarixi ərzində dövlət əldə etməsində görürdü. Bu fikirdən çıxış edərək qeyd etmək olar ki, Şimali Azərbaycanın yaratdığı qüvvələrin də parçalanmış xalqın Cənubda milli dövlətçiliyə, milli şüura malik olmasını, onun Şimalla birləşməsini, vahid vətən ideyasının

reallaşmasını istəyirdilər. R.Rza milli şüuru inkişaf etməmiş xalqın həm xarici, həm də daxili mürtəce qüvvələrin təsirinə məruz qaldığını qeyd edərək yazır: "*Şübhəsizdir ki, milli intibah, milli şüurun oyanması bir günün, bir ilin işi olmayıb əsrlərin kəskin və amansız formaları içərisində döğur. Bu millətin içərisindən çıxan ayrı-ayrı proqressiv nümayəndələr, alim və yazıçılar hələ də xalqın bir küll olaraq intibah yoluna düşdüyünü isbat etmir. Azadlıq dərk edilmiş zərurətdirsə, bu azadlığı duymaq, onun zərurui olduğunu hiss etmək üçün xalqın bütün nemətlərini yaradan geniş kütlələrin milli şüurunun artması, xalqın özünəməxsus ənənə, sənət və məişət gözəlliklərinin, həqiqətən sevilib inkişaf etməsi şərtdir... İran Azərbaycanında yaşayan Azərbaycan xalqının yetirdiyi alim, yazıçı və inqilabçılar bu xalqın milli şüurunun artmasında, onun azadlıq və istiqlaliyyət yolunda apardığı mübarizədə çox* böyük xidmət göst*ərmişlər... Bu xalqın azadlıq yolundakı mübarizəsində öz canını qurban vermiş yüzlər və minlərlə həqiqi vətənpərvər və millətpərvər mücahidlər vardır ki, onların hər damla qanı milli şüurun inkişafının yolunda tökülüb, bu yolu təmizləməyə xidmət etmişdir*" [232, s.8]. Odur ki, Azərbaycan xalqı özünün istedadlı söz sənətkarları,onların şərəfli həyatları, mənalı yaradıcılıqları və məzmunlu əsərlərilə fəxr edir. R.Rza milli özündərki, yaradıcılıq potensialı güclü olan xalqın milli iftixar hissinin məzmunlu olduğunu, azərbaycanlıların öz milli mənsubiyyətlərinə görə fəxr etdiklərini, Azərbaycan xalqının millətlər arasında öz imzası ilə şərəf yer tutduqlarını göstərir.

R.Rza bundan sonra Şimali Sovet Azərbaycanının "siyasi mədəni, iqtisadi uğurları"nı sadalayır və bununla da Cənubun Şimala birləşməsinin zəruriliyini qeyd edir. Milli şüurun "hər bir xalqın öz istedad və bacarığını dərk etmək, millətin ümimi mənafeyi və ziyanını görmək ümummillətin rifah və səadəti üçün çalışmaq yolunda hər cür fədakarlığın zəruriliyini dərk etmək demək" olduğunu diqqətə çatdıran R.Rza hələ 40-cı illərdə azərbaycançılığın vahid vətən, milli mənəvi vəhdət ideyasının gerçəkləşməsindəki rolunu görürdü: "*Biz azərbaycanlı olduğumuz üçün fəxr edirik, çünki Azərbaycan xalqı dünyanın ən hürriyyətsevən, ən ünsiyyətli, ən qəhrəman və alicənab xalqlarındandır. Bizim qəlbimizi dolduran iftixar hissi Azərbaycan xalqının böyük yaradıcı qüdrətinə əsaslanır, onun azadlıq üçün hər şeyi fəda etməyə hazır*

*olan iradə və mətanətinə əsaslanır*" [232, s.8]. Müəllifin bu fikirləri rus filosofu N.Berdyayevin fikirlərilə üst-üstə düşür: "*milli şüur hər cür şovinizmdən, özünə-məftunluqdan, özünməmnunluqdan uzaq olmalıdır... Yeni yaradıcı milli şüur bizdə əzab və sınaqlar içərisində, bölünmə və ayrılıq vasitəslə doğur. Yalnız indi az bir hissə, azlıq Rusiyanın vəhdətini, rus xalqının vəhdətini görür, yalnız azlıq böyük vəhdətin dəyərlərinə müraciət etmişdir*" [298, s.97]. Bütün bu fikirlər məhz "böyük milli vəhdət" uğrunda çarpışan və azadlığı dərk edən ziyalıları bizə xatırladır. Pərvanə Məmmədova yazır: "*Uzun illər (xüsusilə 1920 –ci illərdən sonra) hər iki tayda – Sovetlər birliyində bolşevik, İranda şah rejimi tərəfindən "ikiyiə bölünmüş Azərbaycan məsələsi" mövzusu yasaq olunmuşdu. "Azərbaycan" jurnalında dərc olunan materiallarda ikiyə parçalanmış xalqın mənəviyyatı, tarixi, ədəbiyyatı küll halında verilirdi. O illərdə "Vətən yolunda" və "Azərbaycan" kimi mətbuat orqan-larının səhifələrində ikiyə bölünmüş xalqın faciəsini, dərdini, hiss və duyğularını əks etdirən "parçalanmış vətən həsrəti", "ayrılıq" və vahid Azərbaycan mövzusu yaranırdı*" [191, s.18]. Buradan aydın olur ki, Cənubi Azərbaycanda XX əsrin birinci yarısında baş verən milli-azadlıq hərəkatında Cənubda və Şimalda nəşr olunan mətbuat orqanları ("Vətən yolunda", "Azərbaycan") əhəmiyyətli rol oynadı. Bu mətbuat orqanları həmin dövrdən indiyədək hər iki Azərbaycandakı ədəbi hərəkatın başlanğıcını qoymuş, onlar "həsrət" motivli əsərləri öz səhifələrində nəşr etmişlər.

İkiyə bölünmüş millətin və vətənin dərdləri və faciələri hər iki tərəfin yaradıcı şəxsiyyətlərinin əsərlərində öz əksini tapmış , bu milli ədəbi-bədii proses kommunist və şah rejimlərini sarsıtmışdır. "*Bu gün ədəbi proses artıq kiçik nəhrləri özündə birləşdirən təlatümlü bir dəryaya çevrilib*"[191, s.19] .

"Azərbaycan" jurnalında hər iki tayın milli problmlərini, tarixini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, incəsənətini və sənətkarlarının yaradıcılığını əks etdirən mövzulara həsr olunmuş bədii-publisistik yazılar çap olunurdu. Jurnalda həm şimalın, həm də cənubun elmi, mədəni, ədəbi potensialı-alimlərin, mədəniyyət xadimlərinin, yazıçı və şairlərinin əsərləri çap olunurdu. R.Rza və M.S.Ordubadi, İ.Qasımov, M.Arif, İ.Hüseynov, M.İbrahimov, N.Bağırov, Y.Şirvan, M.Vəkilov, M.Cəfər, A.Şaiq, C.Cəbrayılbəyli, H.Zeynalzadə, M.Qılman, Q.Məmmədli, Q.Əlizadə,

M.Hüseyn, C.Hacızadə, Ə.Sadıq, Salamzadə və başqaları xalqın qəhrəmanlıq tarixi, xalq qəhrəmanları, mədəniyyəti, incəsənəti, kinosu, rəssamlığı, memarlığı, müasir sənətkarları, generalları, sərkərdələri, maarif xadimləri, görkəmli şairləri və yazıçıları haqqında yazıları ilə, cənublu görkəmli ictimai və dövlət xadimi M.İbrahimovun "Gələcək gün" romanının qəhrəmanı Firudin İbrahimi, Məhəmmədzadə, Məhəmmədəli Abbas, Məhəmməd Baqir Əcbilani, Abbas Sabiri, Şəşkilani Əli Tudə və başqaları vətən sevgisi, xalq məhəbbəti ruhlu əsərlərilə Azərbaycan xalqına vahidlik, birlik duyğuları aşılayırdılar. P.Məmmədlinin tərtib etdiyi "Hər iki tayın gerçək aynası "Azərbaycan dərgisi"nə ön sözündə professor C.Həsənli yazır: "*Qeyd edilən illərdə (1945-1946-cı illərdə A.H.) cəmisi 17 sayı çıxmış "Azərbaycan" jurnalı milli taleyimizdə və milli tariximizdə mühüm rol oynamış, Cənubi Azərbaycan əhalisinin milli kimlik şüurunun formalaşmasına böyük təkan vermişdi. Bu jurnalın hər sayı Azərbaycan ədəbiyyatı və mədəniyyətilə bağlı yeniliklərilə zəngin idi, onun səhifələrində dərc olunan yazıların vətənpərvərlik qayəsi, siyasi məzmunu bütövlükdə milli ideallar üzərində qurulmuşdur... Əslində, bu maraqlı nəşrdə toplanmış yazıların məzmunu ilə tanış olduqda, onların müəlliflərinin keçdikləri yolu izlədikdə tədqiqatçının böyük zəhmətinin ictimai qayəsi, milli məzmunu nəşr etdiyi kitabın səhifələrindən açıq-aydın görünür. 1945-1946-cı illərdə nəşr olunmuş "Azərbaycan" jurnalı ikiyə bölünmüş xalqın ədəbi, milli və mənəvi həyatının ilk bütövlük məqamı idi və onun elmi cəhətdən zəngin, ədəbi cəhətdən rəngarəng, mədəni cəhətdən təkrarsız yazılarının yenidən nəşr edilməsi milli yaddaşımızın təzələnməsi baxımdan əhəmiyyətli bir hadisə olacaqdır*" [127, s.4].

"Azərbaycan" jurnalı Bakıda ərəb əlifbası ilə nəşr olunub Cənubi Azərbaycanda yayımlanırdı. R.Rza ümum Azərbaycan milli şüuruna təsir edən baş məqalələri ilə, 1945-1946-cı illərin təlatümlü hadisələrini lentləşdirən "Arazın o tayında" sənədli filmi ilə, qəhrəmanlıq tarixinin yadigarı və şahidi milli ideyanın dayağı olan Ərk qalasını vəsf erməslə həmişə müasir və aktual olan vahid vətən və milli-mənəvi bütövlük ideyasına xidmət etmişdir. R.Rza bununla da təkcə istedadlı şair deyil, vətənpərvər, öz xalqını sevən, qüdrətli qələmi olan bir alovlu publisist də olduğunu təsdiq etmişdir. "Azərbaycan" jurnalını sovet hakimiyyətinin mövcud olduğu bütün

dövrdə ən maraqlı və milli mənafe baxımından ən əhəmiyyətli mətbu orqanı hesab edən Cəmil Həsənli yazırdı ki, *"əvvəla, bu jurnal hər sayında Güney və Quzey Azərbaycanının ictimai-siyasi, mədəni, ədəbi həyatı, tarixi birlikdə əhatə olunurdu. İkincisi, jurnal Güney Azərbaycan üçün buraxıldığından Sovet Azərbaycanında hökm sürən bolşevik ideologiyasının tələblərindən bir qədər yayınır, Azərbyacan xalqının köklü mənafeyi, taleyi və tarixi ilə bağlı əsas məsələlərə toxuna bilirdi. Bütöv Vətən, eyni xalq, vahid millət mərami demək olar ki, "Azərbaycan"ın hər sayında duyulurdu. Azərbaycan tarixinin, mədəniyyətinin, ədəbiyyatının, sənətinin əsrlər boyu vəhdət şəklində inkişaf etməsini əyani şəkildə sübuta yetirirdi"* [191, s.20].

D.Nissman "Vətən yolunda" qəzetindən başqa sovet rəsmilərinin nəzarəti altında olan "Azərbaycan" qəzetinin də ( əslində jurnal idi-A.H.) Cənubi azərbaycanlı yazıçıları və jurnalistlərinin əməkdaşlığı ilə nəşr olunduğunu diqqətə çatdıraraq ikiyə bölünmüş xalqın "həsrət ədəbiyyatı"nın da sovetlər tərəfindən təbliğat məqsədilə istifadə edildiyini iddia edir: bu qəzetlərdə yazılan məqalələr əlli il sonra "Sovet İttifaqının etnik zəminindəki təfriqə faktlarına çevrildi. Əsl həqiqətdə bu qəzetlərdə yazılanlar, müharibədən sonra İran Azərbaycanını Sovet Azərbaycanına birləşdirmək üçün istifadə olunan "həsrət ədəbiyyatına" çevrildi. Əsl həqiqətdə bu proseslər qızıl ordunun nəzarəti altında fəaliyyət göstərən Sovet Azərbaycanı şərqşünaslarının Cənubi Azərbaycan (İran Azərbaycanı) üçün etnik millətçiliyə əsaslanan ədəbiyyat yaratması ilə başlamışdı. "Vətən yolunda" qəzetinin ilk məqalələrindən biri bu hiyləni belə bəyan edib: "*Vətənpərvərlik hissi günbəgün artır. Əvvəlcə əhəmiyyətsiz şeirlər yazan şairlər sonradan ata yurdu, Təbriz və Səttarxan barədə yazmağa başladılar. Onlar qəti iradə ilə ata yurdunun xoşbəxtliyi üçün mübarizəyə qoşuldular*" [329]. Müəllif milli vətənpərvərlik ruhunda yazan şairlərin və yazıçıların çoxunun Sovet İttifaqına qaçaraq orada yaradıcılıqlarını davam etdirdiklərini, Türkmənçay müqaviləsi ilə Rusiya tərkibinə keçmiş "şimalli həmvətənlərindən, "Azərbaycan xalqının ayrılığı və birliyi"ndən yazdıqlarını qeyd edir.

D.Nissman "Vətən yolunda" qəzetini "siyasi təbliğat mərkəzi" kimi səciyyələndirərək, şair S.Rüstəmin ("İki sahil", "Təbrizdə qış" əsərlərilə) kinodramaturq Ənvər Məmədxanlının ("Od içində" pyesilə) qəzetlə sıx bağlı

olduqlarını, qəzetin redaktor müavini Cəfər Xəndanın sonralar "*Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı" mövzusunda elmi-tədqiqat əsəri yazdığını diqqətə çatdırır. "Vətən yolunda" qəzetinin redaksiya əməkdaşları İran azərbaycanlıları haqqında bilavasitə mütaliə etmək imkanına malik idilər. Bu təcrübəyə əsasən İran Azəriləri arasında yeni meydana gəlmiş millətçi hərəkatlarını qızışdırmaq üçün ədəbi proqram hazırlayırdılar*" [329]. Müəllif vahid vətən ideyasına da səhv olaraq sovetlər tərəfindən "həsrət ədəbiyyatı" adı verildiyini qeyd edir: "*Bu fəaliyyətləri nəticəsində Sovet Azərbaycanı ilə İran Azərbaycanının birliyini təbliğ edən və 1970-ci illərdə məşhurlaşan və Sovet qoşunlarının İranı işğalı zamanı formalaşmış, həm də Sovet İttifaqı tərəfindən ad verilmiş ("həsrət ədəbiyyatı") Sovet Azərbaycanında nüfuz qazandı. Onlardan 1980-ci illərdə Bakının radio proqramlarında İran Azəriləri üçün hazırlanan proqramlarda geniş istifadə olunurdu*" [329]. Şübhəsiz ki, Azərbaycan ziyalılarının qəlbən bağlandıqları bütün xalqın varlığından doğan milli ideyanın-vahid vətən ideyasının və milli birliyin zəruriliyini irəli sürmələrinə Qərb tədqiqatçısı D.Nissmanın səhv yanaşması təəssüf doğurur və onun bu yanaşması ikiyə bölünmüş xalqın birliyi məsələsinə ikili standartların bariz ifadəsi olduğunu sübut edir.

Cənubi Azərbaycandakı milli-azadlıq hərəkatına Şimali Azərbaycan yazıçılarının təlqin etdikləri azərbaycançılıq ideyaları xüsusən doğma dilin statusunun yüksəldilməsinə güclü təsir etdi. Cənubda milli şüura və dil şüuruna təsiri nəticəsində əvvəllər İran tərkibində muxtariyyat tələbləri tədricən müstəqil Azərbaycan Respublikası tələblərilə əvəzlənmişdi. Türkiyə tədqiqatçısı Sonel Bosnalın diqqətə çatdırdığı kimi: "*İlk dəfə 1944-cü ildə kommunistlərin təşkil etdiyi nümayişdə açıqca "Azərbaycan milləti", onun muxtariyyat haqqı və özünəməxsus dilindən bəhs edilmişdir"* [267, s.82].

Sovet rəsmiləri Cənubi Azərbaycanda müstəqillik uğrunda təbliğatda türkçülük ideyalarından istifadə etmirdilər. 1936-cı ildə qəbul edilən Stalin Konstitusiyasında ölkənin dili "türk dili" əvəzinə "Azərbaycan dili" etnonimi ilə, "türk xalqı" əvəzinə "azərbaycanlı" sözü ilə adlanmış türkçülük pantürkizm kimi qiymətləndirilərək

qadağan olunmuş, bununla da Azərbaycanın türk dünyasından uzaqlaşdırılması prosesinə başlanmışdı.

Rus tədqiqatçısı D.V.Zerkalov "Siyasi təhlükəsizlik" monoqrafiyasında Böyük Azərbaycan ideyasının gerçəkləşməsini azərbaycanlıların gələcəkləri üçün təhlükə hesab edir: "*Azərbaycanlılar yaxşı anlamalıdırlar ki, İran hesabına Böyük Azərbaycanın yaradılması və bir sıra ölkələr hesabına Kürdüstanın yaradılması eyni bir hərbi strategiyanın nəticələridir. Azərbaycan millətinin gələcəyi üçün təhlükədir*" [309, s.159]. Müəllif ikili standartdan çıxış edərək bir millətin birləşməsini həmin millət üçün təhlükə hesab edir. Eyni zamanda daha təhlükəli, daha məkrli planlardan xəbər verir: "*Kürdüstanla yanaşı Azərbaycan Respublikası və Şimali Azərbaycan (hazırda İİR-ın şimalında yerləşən əslində Cənubi Azərbaycan -A.H.) arasında birbaşa quru əlaqəni kəsmək və Naxçıvanın Azərbaycan Respublikasından ayrılmasını təmin etmək üçün müstəqil Talış Respublikasının yaradılmasına da yol verilə bilər*" [309, s.159]. Əslində müəllif xəyanətkar rus strateqlərının məkrli niyyətlərini ifadə edərək Azərbaycanın daha da parçalanması, Şimali və Cənubi Azərbaycan arasında əlaqənin kəslməsini istəyir.

Bununla yanaşı, yeni dünya xəritəsində Böyük Azərbaycan dövləti kimi gücün meydana gəlməsindən də bəhs edilir. 2012-ci il sentyabrın 22-də "Nyu-York Tayms" (The New-York Times) qəzeti "*İrana hərbi müdaxilə ilə regionda hətta indiki Türkiyədən də güclü bir yeni Azərbaycan dövlətinin yarana biləcəyindən*" yazır [263].

Beləliklə, Şimali Azərbaycan yazıçı və şairlərinin vahid vətən və milli-mənəvi bütövlük ideyası ilə bağlı ədəbi-publisit fəaliyyətləri nəticəsində Cənubi Azərbaycanda milli şüur inkişaf etdi, milli intibah baş verdi, böyük azərbaycançılıq ideyası milli birlik ideyasına çevrildi. Bütün bunlar Bütöv Azərbaycan milli ideologiyasının və milli-azadlıq hərəkatının daha da inkişafına səbəb oldu. Müasir dövrdə artıq Cənubi Azərbaycanın müstəqilliyi tələbləri önə çıxmışdır.

# III FƏSİL

# XX ƏSRİN İKİNCİ YARISINDA ŞİMALİ AZƏRBAYCAN NƏSRİNDƏ BÖLÜNMÜŞ VƏTƏN, AZƏRBAYCANÇILIQ VƏ MİLLİ-MƏNƏVİ BÜTÖVLÜK İDEYALARI.

## 3.1. XX əsrin II yarısında Şimali Azərbaycan nəsrində bölünmüş vətən mövzusu

XX əsrin II yarısında bölünmüş vətən və milli-mənəvi bütövlük mövzusu Azərbaycan ədəbiyatının bütün janrlarında öz təcəssümünü tapmışdır. Ənvər Məmmədxanlı, Seyfəddin Dağlı, İsa Muğanna, Fərman Kərimzadə, Əzizə Cəfərzadə, Çingiz Hüseynov, İlyas Əfəndiyev, Əlisa Nicat və digər müəlliflər bu mövzuda dəyərli bədii örnəklər ərsəyə gətirmişlər.

Ənvər Məmmədxanlının tarixi mövzuda qələmə alınmış *“Babək” romanı Azərbaycan bədii nəsrində milli-mənəvi bütövlük probleminə həsr olunmuş kamil bədii örnəklərdən biridir. Başqa sözlə, yazıçı xürrəmilər hərəkatının başçısı Babəkin ərəb işğalçılarına qarşı apardığı mübarizə fonunda milli-mənəvi bütövlük probleminə də toxunmuş, Azərbaycan xalqının azadlıq, hürriyyət, müstəqil yaşamaq arzularını əks etdirmişdir”* [183].

“Babək” romanı zəngin tarixi faktlar və sənədlər əsasında qələmə alınmışdır. Müəllif təsvir etdiyi dövrü dini-fəlsəfi, sosial-siyasi, mənəvi-əxlaqi tərəfləri ilə canlandırmağa çalışmış və bu istəyinə nail olmuşdur. Romanda Babək obrazı yazıçının qələmində bütün möhtəşəmliyi ilə canlandırılmışdır.

Onu da qeyd edək ki, Ənvər Məmmədxanlı “Babək” romanını fərqli bir üslubda yazmış, daha doğrusu orta əsr ədəbi dilinin xüsusiyyətlərini qorumağa çalışmışdır. Bu isə dövrün tarixi-etnoqrafik məqamlarının gerçək cizgilərlə canlandırılmasına imkan vermişdir. Lakin yazıçı sadəcə tarixi hadisələri təsvir etməklə kifayətlənməmiş, özünün keçmişə yönəlik mövqeyini ortaya qoymuşdur. *“Babək” romanına ön söz*

*yazan yazıçı Anarın fikrincə, bu əsərin oxunuşu xüsusi hazırlıq tələb edir* “ [183, s.11].

“Babək” romanında təsvir olunan hadisə və əhvalatlar fonunda müəllifin cızdığı coğrafiya bütöv (və böyük) Azərbaycan məfkurəsinin canlandırılması məramına söykənir.

Bəlli olduğu kimi, Ənvər Məmmədxanlı ömrünün sonlarına qədər bu roman üzərində işləsə də əsəri tamamlaya bilməmişdir. Yazıçının bu mövzuda yazdığı ssenari əsasında iki hissəli tarixi film çəkilmişdir. Həmin ssenari sonralar yazıçı Anar tərəfindən romanın tamamlanması məqsədilə mətnə əlavə edilmişdir. Lakin bununla belə “Babək” romanı XX yüzil Azərbaycan tarixi nəsrinin ən dəyərli nümunələrindən biridir.

Seyfəddin Dağlının 1956-1958-ci illərdə qələmə aldığı “Kəcil qapısı” romanı Cənubi Azərbaycanla bağlı zəngin təəssürat yekunu kimi ərsəyə gəlmişdir.*” Roman ilk dəfə “Azərbaycan” dərgisinin 1965-ci il fevral və aprel tarixli saylarında dərc edilmişdir. Əsər daha sonra ayrıca kitab şəklində nəşr olunaraq oxuculara təqdim edilmişdir”* [73].

“Kəcil qapısı” romanında İran imperializminin şovinist, irqçi müstəmləkəçilik siyasəti və bu idarəçilik sistemindən qaynaqlanan mənəvi-əxlaqi eybəcərliklər bədii təsvir obyektinə çevirmişdir. Yazıçı, xüsusilə qadınların ağır sosial-mənəvi şərtlər altında yaşamasına diqqəti çəkmiş və bunun başlıca səbəbinin tarixi ədalətsizlikdən qaynaqlandığını vurğulamışdır.

Şübhəsiz ki, “Gəcil qapısı” romanında sosialist realizminin ənənəvi stereotiplərindən qaynaqlanan bir çox məqamların olduğu, qəhrəmanların müsbət-mənfi prizmasından canlandırılması, sovet ideoloji sisteminin tərənnümü və s. məqamların olduğu sirr deyildir. Lakin sovet dövründə yazılmasına baxmayaraq roman Azərbaycanın parçalanması, ikiyə bölünmüş vətən anlayışlarına diqqətin yönəldilməsi baxımından maraq doğurur.

Bəhs olunan dönəmin bədii nəsrində bölünmüş vətən və milli-mənəvi bütövlük problemi İsa Muğannanın “İdeal” romanında orijinal bədii səpkidə təcəssümünü tapmışdır. “*Zaman o zamandı ki, bir hissəsi Cənubi Azərbaycan, ikinci hissəsi Şimali*

*Azərbaycan və sair adlandırılan olkənin bir qismi "super dovlət" SSRİ-nin tərkibində, muharibədən təzəcə çıxıb, yoxsulluq, aclıq pəncəsində sıxılırdı*" [205, s.6]. Azərbaycan nəsrinin dəyərli bədii örnəklərindən biri olan "İdeal" romanının bu sətirlərlə başlaması təsadüfi deyildir. Bununla müəllif elə ilk cümlədən oxucunu böyük vətənin taleyi – bu günü və gələcəyi ilə düşüncələrə çəkir.

Yazıçının "Yanar ürək" əsərinin yenidən işlənilmiş variantı olan "İdeal" romanının sonunda verilən "Qapalı dünya" bölümü ikiyə parçalanmış, yad güclərin əsirinə çevrilmiş, tarixi, keçmişi, mənəviyyatı talan olunmuş Azərbaycan türklərinin faciələrinə işıq tutulmuşdur. Romanda müəllifin rəmzi mənada yaratdığı Azərbaycan kitabı obrazı məhz bu missiyaya xidmət etməkdədir.

İsa Muğannanın Nəsiminin həyatından bəhs edən "Məhşər" romanında da milli-mənəvi bütövlük problemi tarixi hadisələrin kontekstində bədii təcəssümünü tapmışdır. Yazıçı XIV əsrin ikinci yarısı, XV əsrin əvvəllərində cərəyan edən tarixi hadisələr fonunda tarixi yaddaş, mənəvi-əxlaqi kamillik problemlərinə yönəlib bədii düşüncələrini əks etdirmişdir. Romanın fəlsəvi mövzuda qələmə alınması müəllifə tarixin bilinməzliklərinə enmə, humanist düşüncələrini qlobal kontekstdə ümumiləşdirmə imkanları vermişdir.

Bəlli olduğu kimi, 40-50-ci illərdən fərqli olaraq bu dövrdə ədəbiyyatda başqa cür meyllər özünü göstərirdi. B.Əhmədov bu dövrün ədəbiyyatını səciyyələndirərkən yazır: "*60-80-ci illər Azərbaycan bədii nəsrinin əsas inkişaf istiqamətlərindən biri tarixi mövzunun işlədilməsi və tarixi şəxsiyyətlərin bədii obrazlarının yaradılmasından ibarətdir*" [77, s.468].

Şübhəsiz ki, tarixi mövzu arasında bölünmüş vətən ideyası da öz əksini tapmışdır. Bu dövrün səciyyəvi cəhətindən bəhs edən professor Bədirxan Əhmədov daha sonra qeyd edir: "*Bu mərhələ həm də onunla şərtlənir ki, yazıçılar yazdıqları dövr və və şəxsiyyətlə bağlı müəyyən bir konsepsiyaya malikdirlər və tarixi romanda tarixiliklə müasirlik arasında yaradılan mənəvi körpü oxucu marağı ilə qarşılaşır. Düşündürücü cəhət isə bundan ibarət idi ki, yazılan tarixi romanların əksəriyyəti ədəbi şəxsiyyətlər üzərində qurulmuşdu. Bu isə yazıçıların ya şüurlu, ya da sos-realizmin mahiyyətindən irəli gələn səbəblərlə ictimai-siyasi mövzulardan qaçma-*

*sının, tarixdə böyük situasiyalarla müşahidə olunmuş tarixi hadisələrin mahiyyətindən bilərəkdən yan keçməsini şərtləndirmiş olurdu*" [77, s.469-470].

Dövrün ədəbiyyatında xüsusi yer tutan Fərman Kərimzadənin "Xudafərin körpüsü", "Çaldıran döyüşü", Əlisa Nicatın "Qızılbaşlar", Əzizə Cəfərzadənin "Bakı -1501" romanlarında vahid Azərbaycan və milli-mənəvi vəhdət ideyasını təbliğ edən Şah İsmayıl Xətainin ictimai-siyasi, ədəbi fəaliyyətinə həsr olunmuşdur. "*Hər üç müəllifi bu mövzuya aparan yol Şah İsmayılın həyatında, fəaliyyətində müasirlik duyğusunun güclü olması və ibrətamiz hadisələrlə zəngin olmasıdır*" [77, s.470]. Eyni zamanda, burada Şah İsmayıl Xətainin vahid vətən uğrunda mübarizə aparması da önəmli səbəblərdəndir. Lakin çox təəssüf ki, indiyədək Şah İsmayıla həsr olunmuş bu romanlar Azərbaycan ədəbiyyatşünaslığında sistemli şəkildə təhlilə çəkilməmiş, sadəcə ötəri müqayisələrlə kifayətlənilmişdir. Bu isə bəhs olunan romanların yaranma səbələrini aşkarlamağa imkan verməmişdir.

Azərbaycan ədəbiyyatında tarixi mövzuda orijinal, bənzərsiz əsərləri ilə tanınan Fərman Kərimzadənin "*Xudafərin körpüsü*" [159] və "*Çaldıran döyüşü*" [160] romanları Şah İsmayıl Xətainin həyat və mübarizə yolunu xronoloji səpkidə işıqlandıran əsərlər kimi dəyərləndirilməkdədir.

Yazıçı "Xudafərin körpüsü" romanının proloqunda balaca İsmayılın bütöv vətən arzusu ilə yaşadığına diqqəti çəkməklə dolayısı ilə əsərin qayəsini açıqlamış olur. Yazıçı Vətənimizin Cənubunda əzəmətli Savalan dağının təsvirini verir və Şah İsmayıl Xətainin anası Aləmşahbəyimlə dialoqunu təqdim edir:

"*Düz baxanda meşəli təpələr, dağlar görünürdü. Bu meşələrin üstündə isə bir zirvə ucalırdı. Başı kəllə qəndə bənzəyirdi, aşağı getdikcə qarlı şırımlar açılırdı. Nəhəng , ağsaqqallı bu zirvə Savalan dağı idi.*

*- Ana, Savalanın zirvəsinə çıxsan hara görünər?*

*- Sən ora çıxa bilməzsən, oğlum. Çox ucadı.*

*- De görüm hara görünər?*

*- Haranı görmək istəyirsən, oğlum?*

*- Bu yanda Təbrizi, o yanda Dəmir qapı Dərbəndi*" [159, s.7-8].

Anası sanki oğlunun zirvələri fəth edəcəyini, vahid Vətənini gücləndirəcəyini duyduğundan onunla  fəxr edir.

Romanda təsvir olunan hadisələrdən bəlli olduğu kimi, Şah İsmayıl Xətainin babası Uzun Həsənin başçılıq etdiyi Ağqoyunlu Azərbaycan dövləti düşmən qarşısında qəhrəmanlıqla dayanır. “*Əsas qorxulu düşmən Uzun Həsən, onun Bayandur tayfası, bir sözlə Ağqoyunlular idi. Əgər o aradan götürülsə Azərbaycan, Arran, İran, İraqi-Ərəb, İraqi-Əcəm Əbu Səidin əlinə keçəcəkdi*” [159, s.22].

Ən maraqlı cəhət odur ki, Uzun Həsən üçün Arazın hər iki tərəfi bütöv vətəndir. Bacısı oğlu Şeyx Heydər (Şah İsmayıl Xətainin atası-A.H.) ona məsləhət görür ki, Əbu Səiddən yaxa qurtarmaq üçün Azərbaycanın Şimalından Cənubuna keçmək lazımdır: “*Arazın o tayına keçsək Ərdəbil də bizim olacaq. Qoşunu elə Darül İrşaddan gələn ehsanla saxlayarıq. Hər gün yüzlərlə mürid gəlir. Onları silahlandırıb qoşunun sayını artırarıq. Xorasandan gələn yolları kəsib qoşunun bütün ərzaq yolunu bağlayarıq*” [159, s.23].

Romanın baş qəhrəmanı Şah İsmayıl üçün vətənin hər bir guşəsi əziz və müqəddəsdir. O, vətənə yalnız bu günün gözü ilə deyil, gələcəyin nəzərləri ilə baxır, yurdun taleyinin təsadüfi əllərə təslim olmaması düşüncəsi ilə yaşayır.

Professor Bədrixan Əhmədov doğru olaraq yazır ki, Xudafərin körpüsü iki yerə bölünmüş Azərbaycan xalqının həyati rəmzi hesab olunur: “*Uzun müddət bir xalqın həyat birləşdiricisi olan bu körpü Rusiyanın Qafqaza gəlişi ilə birləşdiricilik funksiyasını ayrıcılıq əvəz etdi*” [77, s.470].

Fərman Kərimzadənin “Xudafərin körpüsü” əsərində bir xalqı, bir ümməti parçalayan təriqətçiliyin ən böyük bəla kimi aradan qaldırılması ideyası da əsas yer tutur: “*Dilimiz də birdir, qanımız da, bircə dini əqidəmiz ayrıdı. Elə bu bəla üzündən Şirvan bir tərəfə çəkir, Qarabağ ayrı tərəfə, Qaradağ, Gilan, nə bilim fars, İraqi-Əcəm, İran-Ərəbi ayrıdır. Neçə əsrlərdir ki, onlar bir səltənətə tabe olsalar da hamısı əlbir deyildir. Onları ayrı salan bu dini təriqətlərdir*” [77, s.108-109].

Yazıçı Fərman Kərimzadə əslində Şah İsmayılın həyat və fəaliyyətinin bir dövrünə  müraciət etməklə bütöv Azərbaycan ideyasını tərənnüm etmiş, xalqımızın milli-mənəvi vəhdətini, azərbaycançılıq, milli kimlik məsələlərini müasirlik

baxımından dəyərləndirmişdir. Müəllif Xətainin dililə doğulduğu, dilində danışdığı, şeir söylədiyi millətinin taleyini düşünür: "*O birdirmi? Hələ ki, tayfalardı. Ustaclıdı, qacardı, əfşardı, bəydillidi, nə bilim, nə qədər dili var, qanı bir tayfa var. Hələ ki, bir adımız da yoxdur. Onların hamısı birləşib bir olmalıdır. Düzdür bu tayfabazlıq hələ çox çəkəcək... Amma o birliyin başlanğıcını bu gün qoyuram. Mən başlayıram... Bu Xudafərin körpüsündən, bu Araz çayından*" [159, s.356].

Bununla da əslində Şah İsmayıl tayfabazlığa son qoyub vahid, bütöv Azərbaycan ideyasını-adı, dili, mədəniyyəti, siyasi, iqtisadi varlığı, sərhədi bir olan vahid Vətənin əsaslarını qoymağı düşünür, milli şah, vətəndaş hökmdar olduğunu sübut edir. Azərbaycan dilini Səfəvilər imperiyasının dövlət dilinə çevirir. "*Əsərin ən böyük əhəmiyyəti ondan ibarət idi ki, yazıçı Şah İsmayılın tarixi şəxsiyyətinin görünməyən tərəfini də verməyə nail olmuşdur. Şah İsmayılın xalq taleyini, onun birliyini, dilinin qorunmasını düşünməsi və bunu fəaliyyətinin əsas istiqaməti olaraq müəyyənləşdirməsi müasirliklə səsləşirdi*" [77, s.471]. Əsərin sonunda Şah İsmayıl Xətainin əsas ideyası ifadə olunur: "*Azərbaycan bir olmalıdır!"* [159, s.189].

Fərman Kərimzadənin "Xudafərin körpüsü"nün davamı kimi qələmə aldığı "Çaldıran döyüşü" romanında Şah İsmayılla Osmanlı hökmdarı Sultan Səlim arasında gedən məlum döyüşün bədii təsvirindən bəhs olunur. Yazıçı tarixdə baş verən iki türk hökmdarı arasındakı bu faciəvi münaqişəni yalnız tarixi aspektdə canlandırmaqla yanaşı, həmçinin problemin fəlsəfi aspektlərinə diqqəti yönəltməyə çalışır.

Fərman Kərimzadənin "Çaldıran döyüşü" romanı sözün həqiqi mənasında "*...əsl hökmdar xarakteri ilə bağlı yazıçı konsepsiyasının bədii ifadəsidir. Romanın ideya-estetik yükü hökmdar və xalq, hökmdar və dövlət probleminin bədii şərhi ilə müəyyənləşir. Əsərin bütün obrazlar sistemi, təsvirin mərkəzinə çəkilən hadisələrin xarakteri, süjetin hərəkətində təyinedici amil bu problemlə bağlıdır. Romanın mərkəzi siması – Şah İsmayılın hərəkət, düşüncə və xarakteri müəllifin bədii niyyətindən güc alır*" [237, s.257].

Tarixi faktların müəyyən dərəcədə təhrif olunmasına baxmayaraq Fərman Kərimzadənin "Xudafərin körpüsü", "Çaldıran döyüşü", Əlisa Nicatın "Qızılbaşlar", Əzizə Cəfərzadənin "Bakı -1501" tarixi romanlarını Yaxın Şərqdə dini-siyasi

hərəkata başçılıq etmiş, bütöv Azərbaycan ideyası uğrunda çarpışan xalqımızın şair-hökmdar oğlu Şah İsmayıl Xətainin obrazını yaratması, onun ümummilli vəzifələri yerinə yetirməsi, vahid xalq, bir etnonim, milli kimlik axtarışlarının reallaşdırılması nöqteyi-nəzərdən yanaşıldığına görə onları yüksək milli ideyalı əsərlər hesab etmək olar.

Əlisa Nicatın "*Qızılbaşlar"* romanı [215] dövlətçiliklə milli-mənəvi vəhdət ideyasının qovuşması, hökmdar-xalq birliyi, şəxsiyyət-vətəndaş-cəmiyyətin bir amal uğrunda mübarizəsi baxımından diqqəti cəlb edirsə, Əzizə Cəfərzadənin romanı tarixi faktların daha çox milli ruhun gerçək ifadəsinə görə mühüm əhəmiyyət kəsb edir. "Qızılbaşlar" romanında yazıçının tarixi hadisələrə münasibəti xronoloji səciyyə daşımır. Müəllif daha çox şəxsiyyətinə böyük heyranlıq bəslədiyi şah İsmayılın real, inandırıcı portretini yaratmağa çalışır. Romanda tarixi hadisələrin təfərrüatına da təsadüf olunmur.

Azərbaycan tədqiqatçıları bütöv vahid vətən ideyasının milli dövlətçilik təfəkküründə, vahid türk-müsəlman dövlətçilik mədəniyyətində Şah İsmayıl Xətainin yaradıcılığının, Səfəvilər dövlətinin mühüm rol oynadığını göstərirlər. Səfəvişünas Oqtay Əfəndiyev Qaraqoyunlu, Ağqoyunlu Qızılbaş-Səfəvi dövlətlərini azərbaycanlıların yaratdıqlarını, onların milli amal uğrunda mübarizə apardıqlarını qeyd edir.

Akademik Nizami Cəfərov çox haqlı olaraq yazır: "*Səfəvilərin İran dövləti deyil, məhz Azərbaycan dövləti olmasını sübut edən bir sıra dəlillər vardır ki, bunların içərisində dövlətin (xüsusilə onun banisi I Şah İsmayılın) dil, mədəniyyət siyasəti daha çox maraq doğurur. Belə ki, Qaraqoyunlular, Ağqoyunlular kimi Səfəvilərin sarayında, ordusnda geniş yayılmış ünsiyyət vasitəsi məhz Azərbaycan türkcəsi idi. Və türk-oğuz mədəniyyətindən Azərbaycan mədəniyyətinə keçid də Səfəvilər dövründən başlanır. Bu elə bir mürəkkəb etnokulturoloji prosesdir ki, qeyri-milli ictimai-siyasi, ideoloji şəraitdə gedə bilməzdi. Artıq qeyd edildiyi kimi Səfəvilər dövründə sarayda xalq ədəbiyyatının, incəsənətinin nümayəndələri xüsusi nüfuza malik idilər*" [51, s.97]. N.Cəfərov təəssüf ki, Şah İsmayıl Xətainin böyük Vətən, vahid Azərbaycan ideyası sahəsində qoyulmuş yolun, etnomədəni birliyin vahid siyasi-ideoloji hərəkatın onun övladları tərəfindən davam etdirilmədiyini bildirir.

Əzizə Cəfərzadənin "*Bakı-1501*" romanında [57] Şah İsmayıl Xətainin obrazı büsbütün fərqli rakursdan çanlandırılmaqdadır. Yazıçının dəqiq faktlar və sənədlər əsasında yazıb ərsəyə gətirdiyi bu romanda Azərbaycanın birliyi, bütövlüyü ideyası orijinal səpkidə bədii təcəssümünü tapmışdır.

Romanın "Epiloq" bölümü Şah İsmayılın son monoloqu kimi təqdim olunmuşdur. Bu səhnədə o, Çaldıran döyüşü ilə bağlı səhvlərini dilə gətirir: "*Sizə üç əmanət qoyulub, ərən babalar: dilimiz, qeyrətimiz, Vətənimiz – can sizin, can onlar əmanəti*" [57, s.263].

Tənqidçi Akif Hüseynov Əzizə Cəfərzadənin bəhs olunan romanı ilə bağlı elmi-nəzəri düşüncələrini ümumiləşdirərk yazır: "*O, Şah İsmayılın mürəkkəb xarakterini canlandırarkən nəinki bitərəflikdən, aludəçilikdən uzaqlaşa bilmiş, obrazın məziyyətləri, fəaliyyətinin pozitiv cəhətləri ilə yanaşı, qüsurlarını da göstərmişdir, həm də qəhrəmanın milli şüurunun, vətənpərvərlik duyğularının inikasına ciddi diqqət yetirmişdir. Romanda Şah İsmayıl Azərbaycan hökmdarı, Azərbaycan dövlətinin yaradıcısı kimi səciyyələndirilir*" [132, s.221].

Əzizə Cəfərzadənin "*Bəla*" povestində [53] Şah İsmayıl Xətai şəcərəsindən olan Məhəmməd Xudabəndənin hökmranlığı illərində İranda müxtəlif türk tayfaları və birlikləri arasında baş verən ədavətdən, şahın xanımı Məhdi-ülyanın ölkəni fars səltənətinə dönüşdürmə cəhdlərindən bəhs olunur. Müəllifin əsərə "Bəla" adını verməsi povestin epiloqunda belə izah olunur:

"*Dayan! Qapama kitabı, mənim dərdli bacım, dərdli qardaşım. Əli ətəyindən uzun, bir parça çörəksiz evə, balalar yanına, külfət yanına gələn atalar, qardaşlar, ərlər, oğullar! Sənə son sözüm qalıb. Bəs bayaqdan bəri oxuduğun bu kitabdan sən və mən nə nəticə çıxardıq? Təriqətbazlara qarşı çıxışlar, qurbanlar olmadımı? Kimlərdi onlar? Axı, o vaxtdan bəri bu bəlalar millətin üzərindən götürülmədi; başının üstündə qara buludlar indi də durur. Çəkilməyəcək də. Həmzə Mirzədən əvvəl onun əmisi II Şah İsmayıl bu Bəlanın badına getdi. Ondan sonra Səfəvi sülaləsinə, Səfəvi xanədanına son qoymuş Nadir şah Əfşar kimi qüdrətli hökmdar belə bu təriqət ayrı-seçkiliyini aradan qaldıranda qurban getdi.*

*XIX yüzilliyin möhtəşəm şairi Seyid Əzim Şirvani bu əməlləri məhv etməkçün*

*balalarının aqibətini qurban verdi. Birinin adını Ayişə, birininkini Osman, o birininkini Ömər qoydu. Nifrin qazandı. Özü dünyasını dəyişəndən sonra bu adlar da götürüldü.*

*... Ayıq ol, oxucum, ayıq ol!"* [53, s.138-139].

Əzizə Cəfərzadənin povestin sonunda öz oxucusunu ayıq olmağa səsləməsi düşündürücüdür və müəllifin vətəndaşlıq qayəsinin ciddi təzahürü kimi şərtlənir. Ədib süjet boyu cərəyan edən hadisə və əhvalatların təsviri fonunda bu gün yaşanılan faciələrin köklərini tarixin dərinliklərində arayır, keçmişlə bu günün oxşar məqamlarını üzə çıxarır.

Azərbaycan tarixi nəsrinin ciddi araşdırıcılarından olan filologiya elmləri doktoru, professor Yavuz Axundlu məqalələr toplusunda ibarət "Ədəbi yaddaşdan səhifələr" adlı kitabında bəhs olunan əsəri təhlil obyektinə çevirərək yazır: *"Povest həcmcə kiçik olsa da, qaldırdığı problem böyükdür. Xalqın, xüsusən ziyalıların ölkənin taleyinə biganə münasibəti, özünün şəxsi marağını ümummilli mənafedən üstün tutması, baş verən hadisələrə susmaqla "cavab" verməsi faciədir, bəladır. Əsərin süjetində məhz bu faciənin səbəb olduğu dəhşətlər əsas yer tutur. Elə bu məziyyətinə görə də tarixi mövzuda qələmə alınmış povest olduqca aktualdır və müasir dövrümüzlə səsləşir*" [11, s.36].

Əzizə Cəfərzadənin "Bəla" povesti haqqında yazıçı-publisist Məmməd Orucun mülahizələri də əsərin ideya-estetik mahiyyətinin obyektiv yöndə dərc olunması baxımından maraq doğurur: "*Əzizə xanımı dövlətçilik tariximizin nisbətən erkən çağlarına bu uzaq səyahətə nə aparıb? Dərd... Yazıçını onaltıncı, onyeddinci əsrin tarixi şəxsiyyətlərini yaşadığımız günlərin "qəhrəmanları" kimi danışdırmağa nə vadar eləyib? Yenə də dərd... Dərdi də gərək bölüşəsən, paylaşasan. Elə Əzizə xanım da "Bəla"sını bu dərdi bölüşə-bölüşə, paylaşa-paylaşa yaradıb.*

*Məkan həmin məkandı – Azərbaycan. Xalq həmin xalqdı – azərbaycanlılar. Amma üstündən dörd yüz il keçib... Dörd yüz il keçib, amma heç nə dəyişməyib.*

*Hakimiyyətdəki böhran da tanışdı, bu böhranı meydana gətirən səbəblər də.*

*Bu coğrafi məkanda mövcud olan otuz yeddi tayfanı birləşdirən nədi? Ortaq dil. Əqidə, məfkurə birliyinə can atanlar da var, amma mövcud hakimiyyət bu birlikdən*

*qorxur, mövcud hakimiyyət öz sabahını bu tayfaları, daha doğrusu bu tayfaların başçılarını biri-birinə salışdırmaqda görür"* [220, s.3].

Əzizə Cəfərzadənin "Eldən-elə" [55], "Gülüstan"dan öncə" [56], "Zərrintac-Tahirə" [58], "Xəzərin göz yaşları" [54] və digər romanlarında da bölünmüş vətən və bütöv Azərbaycan ideyası ön plana çəkilmişdir. Əlbəttə, bu əsərlərin hər birini ayrıca, əhatəli şəkildə təhlil etmək imkan xaricindədir. Ona görə də ən ümumi mülahizələrlə dəyərləndirməklə kifayətlənilmişdir.

"Gülüstan"dan öncə" romanında yazıçı Rusiyanın Azərbaycanı işğal etməsi fonunda yaşanan tarixi hadisələrin bədii mənzərəsini yaratmışdır. *"Müəllif yüksək bədii sənətkarlıqla, fərdi boyalarla, daxili-mənəvi keyfiyyətlərinin bütün cizgilərilə əks etdirdiyi Mustafa xanın timsalında Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə meydanına atılan, bu yolda böyük fədakarlıq göstərən qəhrəman obrazı yaratmışdır"* [56].

"Mustafa xanın xarakterini bir çox məqamlarda düzgün yaratmağa nail olan" [92, s.76] Əzizə Cəfərzadənin "Gülüstan"dan öncə" romanında baş vermiş tarixi –siyasi hadisələr, xüsusilə Kürəkçay bağlaşması, Azərbaycanın Çar Rusiyası tərəfindən işğal edilməsinin bəzi gizli məqamları, Şamaxı şəhərinin qəhrəmancasına müdafiə olunması və s. kimi əhvalatlar özünəməxsus, bənzərsiz bədii səpkidə təsvir olunmuşdur.

Əzizə Cəfərzadənin "Xəzərin göz yaşları" romanında 1938-ci ildə İ.V.Stalinin fərmanı ilə Güney əslli soydaşlarımızın iki-üç gün ərzində Azərbaycanın Quzeyindən İran adlanan ölkəyə sürgün edilməsi bədii əksini tapmışdır. Qeyd edək ki, yazıçının canlı müşahidəsindən qaynaqlanan romanın baş qəhrəmanı yoxdur. Həmçinin roman konkret olaraq bir fərdin taleyinin bədii əksi niyyətilə yazılmamışdır. Müəllif ikiyə parçalanmış xalqın başına gətirilən bitməz-tükənməz faciə və müsibətlərin kədərli mənzərəsini yaratmışdır. "*Həyatını Bakıda keçirən, lakin ömrünün ixtiyar çağlarında gəmidə həlak olaraq dənizə atılan Məşədi Gülsüm qarının, doğma yurdundan ayrı düşməmək üçün tramvay altına atılaraq özünə qəsd edən Hafizənin, doğmalarından ayrı düşməyin çəkilməz ağrılarını yaşayan Səfərin, ailəsindən xəbərsiz sürgün edilən Baxış kişinin taleyi romanın ən kədərli səhifələrini təşkil etməkdir*" [92, s.85].

Əzizə Cəfərzadənin “Xəzərin göz yaşları” romanında yazıçının real hadisələrə söykənən təsvirləri son dərəcə təsirli bir dillə qələmə alınmışdır və bu səbəbdən əsəri həyəcansız oxumaq mümkün deyildir. Ədibin digər yazılarına xas olan dil-üslub bənzərsizliyi bu romanda da bütün çılpaqlığı ilə ifadəsini tapmışdır.

“*Gəmidəkilər gəlib qarını götürdülər. Heç kəsdə etiraz eləmək, heç kəsdə səsini ucaltmaq iqtidarı yox idi. Aclıqdan, kimsəsizlikdən, dərddən, öz taleyini bilməmək qorxusu…1937-ci il uzaqda deyildi. 37-ci il insanların qanında idi, hüceyrələrində idi, bütün varlığında idi. Kimin etiraz eləmək cürəti çatardı? Gəmi xidmətçiləri kapitanın razılığı ilə qarını bir palaza və özünün götürdüyü düyünçəsinə bürüdülər, əşyaları ilə birlikdə gəminin göyərtəsindən birbaşa dənizə endirdilər. «Tulladılar» deməyə dilim gəlmir. Dəfn elədilər Xəzərin sularında, dəfn elədilər Məşədi Gülsüm nənəni. Nə burda vətəndaş idi, nə orda vətəndaş olacaqdı. Doğma torpağında, doğma yurdunda dəfn olunmaq üçün bircə qəbir qədər torpağı belə yox idi, bircə qəbir üçün də yeri yox idi heç yerdə. Adamların üstünə elə bil su çilənmişdi. Sakitcə dayanıb gəmi ənənələrinə, matrosların qarını dəfn etmək mərasiminə baxırdılar*” [54, s.86].

Şübhəsiz ki, Əzizə Cəfərzadənin “Xəzərin göz yaşları” romanında qaldırılan ən mühüm problem milli-mənəvi birlik, tarixi yaddaş və parçalanmış xalqın bütövlüyü məsələsidir. Bu problem əsərdə təsvir olunan hadisə və əhvalatların ideya-estetik yükünü və mahiyyətini təşkil edir. Romanda süjet hörüyünün görünən və görünmə-yən ilmələri məhz bu ideyanın aşkarlanmasına xidmət edir. Mövzuya həssas vətəndaş münasibəti yazıçını öz düşüncələrini bəzən publisistik səpkidə ifadə etməyə sövq etmişdir. Bu cəhət romanın bədii üslubuna müəyyən qədər xələl gətirsə də, bütöv-lükdə təsvir olunan hadisələrin ideya-estetik xəttinin çılpaq şəkildə təqdimini şərtlən-dirir.

Azərbaycanın ikiyə parçalanması, uzun illər yaşanmaqda olan tarixi talesizlik və milli-mənəvi bütövlük problemi görkəmli yazıçı Çingiz Hüseynovu da daim dü-şündürmüşdür. Yazıçının “Fətəli fəthi”, “Doktor N” romanlarında bu problemin fərqli aspektləri ilə təzahürünə çalışılmışdır. Doğma ana dili ilə yanaşı rusca yazı vərdişinə sahib olması yazıçının əsərlərinin daha geniş coğrafiyada yayılmasına imkan ver-mişdir.

Çingiz Hüseynovun tarixi fantaziya janrında qələmə aldığı "*Fətəli fəthi*" [133]. romanında Mirzə Fətəli Axundzadənin taleyi fonunda Azərbaycan tarixinin mürəkkəb mənzərəsi canlandırılmışdır. *"Yazıçı təkrarsız bir forma və üslubda yad güclərin əlilə ikiyə parçalanmış Azərbaycanın keçdiyi yolu ümumiləşdirmiş, xalqın arzu, ideal və mübarizə əzmini əks etdirmişdir. Şübhəsiz ki, bu məzmunlu bir əsərin Moskvada rus dilində yayınlanması böyük cəsarət tələb edirdi*" [306]. Hətta senzuranın diqqətindən yayınmaq üçün müəllif əsəri əvvəlcə "*Labüdlük*" [305] adı ilə yığcam şəkildə oxuculara təqdim etmiş, daha sonra bütöv halda nəşr etdirməyi məqsədəuyğun bilmişdir.

Çingiz Hüseynov "Fətəli fəthi"nin başlanğıcında romanla bağlı düşüncələrini müəllif qeydində belə ifadə edir: "*Əsərin qəhrəmanı, Şərqi və Qərbi fəth edən, adı dünyaya yayılmış Fətəlidir; O Mirzə Fətəli ki, ziddiyyətli ömür yolu keçmiş, yüksək rütbələrədək ucalmışdır... Onun düşüncələri ilə düşünüb, onun gözüylə aləmə nəzər saldım, keçən əsri başdan-başa dolanıb hətta uzaq keçmişlərəcən çatıb, bu zəmanəyə gəlib çıxdım ki, geriyə boylanıb (geriyə baxmamaq olarmı?!) gələcəyi görəm*" [133, s.5]. Göründüyü kimi, yazıçı orijinal bədii üsuldan istifadə etməklə *"Azərbaycanın tarixi keçmişinə ekskurs etmiş, xalqımızın qan yaddaşını vərəqləməklə milli-mənəvi bütövlüyün zərurətini şərtləndirmişdir. Bu mənada "Fətəli fəthi" əsərinin "tarixi vətəndaşlıq romanı"* [237, s.192] kimi dəyərləndirilməsi təsadüfi səciyyə daşımır.

"Fətəli fəthi" romanı nəşr olunandan dərhal sonra geniş oxucu auditoriyasının diqqət və marağını çəkmiş, ədəbi-nəzəri fikir tərəfindən təkrarsız bədii örnək kimi qiymətləndirilmişdir.

Çingiz Hüseynovun "Doktor N" [303; 290] romanı da bölünmüş vətən və bütöv Azərbaycan ideyası ilə zəngin bədii örnəklərdən biridir. Azərbaycan Xalq Cümhuriyyəti tarixini bədii təsvir obyektinə çevirən yazıçı M.Ə.Rəsulzadə və N.Nərimanovun taleyini qarşılaşdırmış, dövrün siyasi mənzərəsinə aydınlıq gətirməyə çalışmışdır. Romanda siyasi hadisələrin mərkəzində M.Ə.Rəsulzadənin deyil, N.Nərimanovun canlandırılması məqsədli səciyyə daşıyır, dövrün faciələrinə diqqətin yönəldilməsi niyyətindən irəli gəlir.

Şübhəsiz ki, Çingiz Hüseynovun “Doktor N” romanında sovet siyasi rejimi dönəmində ciddi yasaqlar qoyulan Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə güzgü tutulması birbaşa bütöv Azərbaycan məfkurəsi ilə bağlı düşüncələrin aktiv şəkildə təzahürü demək idi və yazıçı bu niyyətini məharətlə sərgiləyə bilmişdir. Əsərin ədəbi tənqid tərəfindən yüksək qiymətləndirilməsi də burdan qaynaqlanır.

Təhlillərdən aydın göründüyü kimi, 60-80-ci illərdə yaranmış Azərbaycan bədii nəsri bütövlük, birlik ideyasının, milli kimlik probleminin təbliğinə xüsusi yer vermişdir.

Beləliklə, bölünmüş vətən mövzusu 60-80-ci illər bədii ədəbiyyatında geniş təcəssümünü tapmışdır. Bunun əsas səbəbi həmin dövrdə bölünmüş vətən mövzusuna ədəbiyyatın bütün janrlarının müraciət etməsi üçün əlverişli ictimai-siyasi şəraitin yaranmsıdır.

### 3.2. Ulu Öndər Heydər Əliyevin Azərbaycanının milli-mənəvi bütövlüyünə, ədəbi-bədii irsinə diqqət və qayğısı. Bütöv Azərbaycan və dünya azərbaycanlıları modeli

Bilindiyi kimi, Ulu Öndər Heydər Əliyev təkcə Azərbaycan Respublikasının deyil, bütün dünya azərbaycanlılarının, o cümlədən Cənubi Azərbaycanın problemlərini və ədəbi-bədii irsini diqqət mərkəzində saxlayırdı.

AMEA-nın müxbir üzvü Musa Qasımlı arxiv materialları əsasında yazır ki*, ” hələ sovet dövründə (bizim fikrimizcə, bütün dövrlərdə -A.H.) kommunist və qeyri-kommunist olmasından asılı olmayaraq bütün azərbaycanlıların qəlbində İran Azərbaycanını Şimalı Azərbaycana birləşdirmək istəyi həmişə olub”* [165, s.444].

Hələ XX əsrin 40-cı illərində xüsusi xidmət orqanı işçisi kimi fəaliyyətə başlayan Heydər Əliyev Cənubi Azərbaycanda xalqın “*müstəqillik, birlik ideyalarının formalaşmasında, Şimali Azərbaycana birləşmə istəklərinin gücləndirilməsində mühüm rol oynamışdır. Heydər Əliyev lap gənc yaşlarından Cənubi azərbaycanlıların hüquqları, istiqlalı uğrunda mübarizə aparmış bir şəxs idi*” [165, s.444].

Elə hakimiyyətinin birinci, sovet dövründə Heydər Əliyev Cənubi Azərbaycana diqqət və qayğı göstərməyə başladı:

1. Şimali Azərbaycanda mühacirət ədəbiyyatını inkişaf etdirdi;

2. Cənubi Azərbaycan yazıçı və şairlərinə maddi və mənəvi yardım etdirdi;

3. Bölünmüş vətən ideyasının elmi araşdırılmasını təşkil etdi;

4. Vahid vətən və milli-mənəvi vəhdət ideyalarının yayılmasına kömək etmək məqsədilə bütün yaradıcı qüvvələri bu mövzuda yazmağa çağırdı;

5. İranı və Cənubi Azərbaycanı bədii-elmi, tarixi kitablarla təmin etdirdi;

6.Şimali Azərbaycandan Cənuba minlərlə kitab göndərilməsini təmin etdi.

XX əsrin 70-ci illərində Cənubda azərbaycanlılar say etibarı ilə farslardan sonra ikinci yerdə dursa da onlar dövlət qulluğunda, şirkətlərdə, sənaye-ticarət burjuaziyası, din xadimləri arasında çox sayda olsalar da, dil hüquqları kobud şəkildə pozulur, ana-dilli ədəbiyyatın inkişafının qarşısı alınırdı. Bu dövrdə Cənubi Azərbaycandakı əhali Şimali Azərbaycana rəğbət bəsləyir, onları özlərinin doğmaları hesab edir, Azərbaycan dilində səslənən radio proqramlarını dinləyir, Azərbaycan milli musiqisini, milli mədəniyyətini əxz edir, klassik ədəbiyyatı və müasir yazıçıları həvəslə mütaliə edirdilər. Bir sözlə, Şimali və Cənubi Azərbaycan arasında mədəni, ədəbi-bədii bağlılıq bütün səylərə baxmayaraq qırılmamışdı.

İranın şövinist dairələri İrandakı azərbaycanlıların nəinki siyasi müstəqilliklərinə icazə vermir, hətta mədəni muxtariyyətinin qarşısını amansızlıqla alırdılar:

1. İbtidai məktəbdə belə Azərbaycan dilində dərs keçrilməsinə icazə verilmirdi;

2. Şairlər və yazıçılar öz əsərlərini fars dilində yazırdılar;

3. KİV-də Azərbaycan dilinə ya olduqca az yer verilir, ya da tamamilə yer verilmirdi;

4. Azərbaycan dilində heç bir nəşrə icazə verilmirdi.

Heydər Əliyev Cənub məsələsini, bölünmüş vətən problemini incəliyinə qədər bildiyindən çoxcəhətli, müxtəlif istiqamətləri əhatə edən fəaliyyətə başladı. *"Azərbaycan SSR-də yaşayan mühacirlərə onun təşəbbüsü ilə 1973-cü ildə 142-500 rubl maddi yardım edildi"* [26, s.6-36].

Heydər Əliyevin siyasi mühacirləri diqqət mərkəzində saxlaması onları İranda demokratik rejim yaratmaq və vahid Azərbaycan uğrunda mübarizəyə ruhlandırdı. Azərbaycan Demokrat Partiyası MK-nın sədri Y.Q.Danişian 1975-ci il noyabrın 3-də Heydər Əliyevə göndərdiyi məktubunda yazrdı: "*Azərbaycan Respublikasının keçdiyi şanlı qələbələr yolu və əldə etdiyi əzəmətli nailiyyətlər bütün Şərq, xüsusilə İran və İran Azərbaycanı üçün cazibəli örnək və nümunə olub*" [27, s.82-83].

Heydər Əliyev Cənubi Azərbaycanda baş verən bütün siyasi hadisələrin cənublu alimlərin, yazıçıların, şairlərin, siyasi xadimlərin yubileylərinin keçirilməsi üçün sərəncam verirdi. AMEA-nın müxbir üzvü Musa Qasımlı Heydər Əliyevin Cənubi Azərbaycanın ədəbi-bədii irsinə yüksək qiymət, diqqət və qayğı göstərdiyini qeyd edərək yazır: "*Onun hakimiyyəti illərində Bakıda Cənubi Azərbaycan Yazıçılar Cəmiyyəti fəaliyyət göstərirdi. Cəmiyyət üçün normal iş şəraiti yaradılmışdı. Azərbaycan rəhbəri bu təşkilatın müraciətlərinə diqqətlə yanaşaraq istəklərini yerinə yetirirdi"* [165, s.459].

Azərbaycan Yazıçılarının 1971-ci ilin iyun ayında keçirilən V qurultayında Cənubi Azərbaycan yazıçı və şairlərinə xüsusi diqqət ayrıldı. Qurultayda geniş nitq ilə çıxış edən Heydər Əliyev bütün azərbaycanlı yazarları vəhdətə çağırdı.

1979-cu ildə İranda İslam inqlabının qələbəsi Heydər Əliyevin fəaliyyətində bölünmüş vətənə məsələsi ilə bağlı yeni mərhələnin başlanmasına səbəb oldu... Lakin İrandakı yeni hakimiyyət də şovinizmdən uzaq deyildi, ölkədəki bütün millətlərin, o cümlədən cənubi azərbaycanlıların milli mənsubiyyətini inkar edən İran İslam Respublikası ancaq dini mənsubiyyəti əsas götürür, şah rejiminin assimliyasiya siyasətini davam etdirirdi.

İran İslam Respublikasının xarici siyasətdə ABŞ, SSRİ və İsrailə düşmən münasibəti bəsləməsi Mərkəzi Kəşfiyyat İdarəsi, DTK və "Mossadın" səhvlərindən idi. SSRİ-İran münasibətlərinin pisləşməsi Cənubi Azərbaycan və parçalanmış vətən məsələsini yenidən önə gətirdi. Bu zaman Cənubi Azərbaycanda azərbaycanlılar mədəni muxtariyyət uğrunda mübarizəni genişləndirir ana dilində müxtəlif ədəbi-bədii jurnallar nəşr etdirirdilər. Onlardan biri Cavad Heyətin redaktor olduğu azərbaycanlıların var olmaq arzularını ifadə edən "Varlıq" jurnalı idi. "*Yaranmış belə*

*vəziyyətdən məharətlə istifadə edən Heydər Əliyev Azərbaycan xalqının mənafeyi naminə onu uzun illər boyu düşündürən problemin həlli uğrunda fəaliyyətini genişləndirdi. O vaxtadək bədii ədəbiyyatda əks olunan Cənubi Azərbaycan mövzusu artıq ictimai-siyasi həyatda geniş yer tutmağa başladı. Çünki bu zaman Cənubi Azərbaycanda yaşayan xalqın hüquqlarının müntəzəm olaraq pozulması, bundan törənən narazılıq gücləndi. Beləliklə, müharibədən sonrakı (İkinci Dünya müharibəsi-A.H.) dövrdə ilk dəfə olaraq Heydər Əliyevin hakimiyyəti illərində Bütöv Azərbaycan şüarı təkcə ədəbi, ictimai mühitdə deyil, eyni zamanda siyasi dairələrdə geniş müzakirə obyektinə çevrildi*" [165, s.460].

Sovet Azərbaycanında Heydər Əliyevin göstərişi ilə cənublu yazarlara qayğı gücləndirildi, onların əsərləri böyük tirajlarla nəşr olundu, hər iki tərəf arasında ədəbi-mədəni əlaqələr möhkəmlndirildi. 1979-cu ildə Azərbaycan Yazıçılar İttifaqı nəzdində Cənubi Azərbaycan ədəbiyyatı şöbəsi yaradıldı və onun katibi vəzifəsi təsis edildi.

1981-ci ildə Azərbaycan Yazıçılarının VII qurultayında Heydər Əliyev çıxışında Azərbaycan Yazıçılar İttifaqı tərkibində Cənubi Azərbaycan yazarlarının məhsuldar işlədiklərini, onlara daim diqqət yetirməyin, əsərlərinin respublikada və ölkə hüdudlarından kənarda geniş təbliğ olunmasının zərurətini diqqətə çatdıraraq demişdir: "*Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələri möhkəmlətmək, mədəniyyətin, mənəvi yaradıcılığın bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barədə düşünmək lazımdır*" [88]. Göründüyü kimi, Heydər Əliyev artıq vahid vətəni, bütöv Azərbaycanı vəhdətdə görürdü, milli-mənəvi birlikdən danışırdı. Şimaldakı milli proseslərin Cənuba təsir etməsini, xüsusilə dövlət dilinin-Azərbaycan dilinin Cənubi Azərbaycnda da eyni cür adlanmasını təşviq edirdi: *"...bütün Cənubi Azərbaycanda yaşayan şairlərə təsir göstərib başa salın ki, türk dili deməsinlər, Azərbaycan dili desinlər və buna nail olmaq lazımdır. Bu, birinci sizin borcunuzdur. Çünki onlar özlərini azərbaycanlı sanır, dilləri də Azərbaycan dilidir. Biz Azərbaycan dilini qəbul etmişik... Necə ki, burda vardır, eləcə də Cənubi Azərbaycanda olsun*" [88]. Burada açıq-aşkar söhbət

Bütöv Azərbaycandan, onun dil, mədəniyyət, ədəbi-bədii, düşüncə vəhdətindən söhbət gedir.

Heydər Əliyevin bölünmüş vətən probleminə belə ciddi diqqət yetirməsi istər Şimali Azərbaycandakı mühacir yazarları, istərsə də Cənubi Azərbaycandakı yaradıcı qüvvələri hərəkətə gətirdi. Onlar:

1. Azərbaycan ədəbiyyatını vəhdətdə götürərək qarşılıqlı əlaqəni və təsiri gücləndirdilər;

2. Ana dilində ciddi məhdudiyyətlərə baxmayaraq doğma dildə əsərlər yazdılar;

3. Millətin azadlığını, milli-mənəvi varlığını bədii əsərlərdə təcəssüm etdirdilər;

4. Bölünmüş vətən mövzusuna xalqın, millətin, vətənin taleyi ilə bağlı olan milli-mədəni hərəkat mövzusuna ana mövzu kimi yanaşdılar;

5. Əsərlərində xalqın mübarizəsini, dərdlərini, birlik arzularını, ideallarını əks etdirməyə çalışdılar;

6. Azərbaycan sovet yazarları da cənubi azərbaycanlıların azadlığını və müstəqilliyini həmin xalqın mənliyi və milli varlığı kimi dəyərləndirdilər.

Heydər Əliyev cənublu yazarlara fəxri adlar verdi, onların yubleylərini keçirdi, mühacir ədəbiyyata Vahid Azərbaycan ədəbi prosesinin tərkib hissəsi kimi baxdı, onun hər iki Azərbaycanda ədəbiyyatın səmərəli inkişafına təsir göstərməsini yüksək qiymətləndirdi.

Mühacirət ədəbiyyatının nümayəndələri Heydər Əliyevin bu atalıq qayğısını "*imperializmə və şahlıq diktaturasına qarşı ardıcıl mübarizə aparmış demokratik ədəbiyyatımıza (Cənubi Azərbaycan ədəbiyyatına-A.H.) və onun yaradıcılarına olan qayğı və verilən qiymət kimi qəbul*" etdilər [165, s.466].

Heydər Əliyevin tövsiyəsindən sonra Şimali Azərbaycan mətbuatında bölünmüş vətən mövzusunda yazıların sayı artdı. Bölünmüş vətən mövzusu teatr səhnələrinə, KİV-nə gətirilirdi. XX əsrin 60-cı illərində bölünmüş vətən mövzusunda yazanları Heydər Əliyev himayə edirdi.

Həm SSRİ-də, həm də İranda bölünmüş Azərbaycan mövzusunda yazmaq qadağan edilmişdi. *”Belə bir şəraitdə şair Bəxtiyar Vahabzadə vətənimizin bölündüyü kəndin adı ilə “Gülüstan” poemasını yazdı”* [257, s.415-421]. O vaxtlar Azərbaycan DTK-nin şöbə müdiri işləyən Heydər Əliyev B.Vahabzadəni sovet hücumlarından xilas etdi, sonralar isə onu mükafatlandırdı. Onu da qeyd etmək lazımdır ki, B.Vahabzadənin “Gülüstan” poeması sovet siyasi rejimi dövründə Azərbaycanın Rusiya və İran imperiyaları arasında parçalanmasının açıq şəkildə ortaya qoyulduğu mükəmməl bir əsər idi. Ona görə də bu poema milli ədəbiyyatda Cənub mövzusunun aktuallaşmasına təkan verdi. “Gülüstan” poeması yasaq edilsə də, əsərin surəti çıxarılaraq xalq arasında geniş şəkildə yayıldı.

Dünyanın müxtəlif mətbuat orqanları və kütləvi informasiya vasitələri H.Əliyevin xarici diplomatlarla görüşündə hər iki Azərbaycanın birləşəcəyi ümidini bildirdiyindən yazırdılar.

H.Əliyevin bölünmüş vətənə qayğısının bir bariz nümunəsi də mühacir ailələrindən olan gəncləri ali məktəblərdə müsabiqədənkənar qəbul etdirməklə onları qabaqcıl demokratik, dünyəvi təhsilə qovuşdurması idi. Bununla da mühacirlər arasında milli birlik arzusunda olan ali savadlı kadrlar hazırlanırdı.

1980-ci ildə SSRİ hökuməti İranda antisovet təbliğata qarşı tədbirlər görülməsi üçün iyulun 8-də Sov.İKP MK “İranda informasiya-təbliğat işinin gücləndirilməsi haqqında” qərar qəbul etdi. Qərarda deyilirdi: “İranda imperialist təbliğatının fəallaşması ilə, ölkəyə amerikan və digər Qərb radostansiyalarının Sovet İttifaqının xarici və daxili siyasətini təhrif edən radioverilişlərinin həcminin əsaslı surətdə artması ilə əlaqədar, habelə İran mürtəce dairələrinin, hakim dairələri və ruhanilərinin də fəal iştirak etdiyi Sovet İttifaqına düşmən münasibətinin artması ilə əlaqədar Sov.İKP MK İrana aşağıdakı informasiya təbliğat işləri üzrə əlavə tədbirlər görülməsini zəruri hesab edir:

*“- İran mürtəce qüvvələri və ABŞ imperialist dairələrinin siyasətinin ifşa edilməsi;*

*- İranda ümumi demokratik meylin inkişaf etdirilməsi, ölkənin antiimperialist mövqeyinin və bloklara qoşulmamaq siyasətinin möhkəmləndirilməsi;*

*- İran xalqına, onun suverenliyinə və milli birliyinə kömək edən Sovet İttifaqının siyasəti haqqında İran ictimaiyyətinin geniş məlumatlandırılması"* [165, s.469].

Qərarda Bakıdan fars dilində verilişlərin artırılması, İranda yayılmaq üçün Azərbaycanda milli musiqimizin yazıldığı 1000 nüsxə qrammplastika və maqnitofon kasetinin hazırlanması, "Müsəlmanlar SSRİ-də" jurnalının fars dilində üç min nüsxədə hazırlanıb İranda paylanması, Şimali Azərbaycan radio və televiziya verlişlərinin Cənubi Azərbaycanda yayılması nəzərdə tutulurdu.

H.Əliyev Sov.İKP MK –nin qərarına uyğun olaraq 1980-ci il iyulun 15-də Azərbaycan KP MK bürosunun iclasında "İrana informasiya təbliğat işinin gücləndirilməsi haqqında qərar" qəbul etdi.

Heydər Əliyevin qəbul etdiyi qərarda aşağıdakı fəaliyyət istiqamətləri göstərilirdi:

- Bakıdan Azərbaycan və fars dillərində radio və televiziya verlişlərinin Cənubi Azərbaycan ərazisində gücünün artırılması;

*"- SSRİ-də islamın və müsəlmanların vəziyyətinə dair radio və televiziya verilişlərinin çoxaldılması;*

*- İranda yayılmaqdan ötrü Azərbaycan və fars dillərində ictimai-siyasi ədəbiyyat, Azərbaycanca-farsca, farsca-Azərbaycanca lüğətlər, Azərbaycan dilində kitablar;*

*- "Azərbaycanfilm"in ən yaxşı filmlərini İrana və Cənubi Azərbaycana göndərilməsi, orada Azərbaycan kinosu festifallarının keçirilməsi;*

*- İranla sərhəddə yerləşən Cəbrayıl, İmişli, Lerik, Ordubad rayonlarında otürücü stansiyaların tikilməsi;*

*- Respublika Yazıçılar İttifaqı ilə birlikdə İrana göndərmək üçün ərəb əlifbası ilə Azərbaycan dilində Azərbaycan şair və yazıçılarının kiçik formatlı kitablarının nəşrinin həyata keçirilməsi"* [165, s.475-476].

Heydər Əliyev qərarda nəzərdə tutulanların reallaşması üçün ciddi tədbirlər gördü:

- Cənubi Azərbaycana və İrana aid elmi-tədqiqat işləri genişləndirildi;

- Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda "Cənubi Azərbaycan şöbəsi" yaradıldı;

- İrana, Cənubi Azərbaycana ictimai-siyasi, bədii ədəbiyyat və məlumat kitablarının göndərilməsi artırıldı.

Heydər Əliyev təkcə Şimali Azərbaycandakı mühacir ailələrdən olan gənclərin ali təhsil almalarını təşkil etməklə kifayətlənmədi.

Cənubi Azərbaycanda yaşayan gənclərin də Bakıda təhsil almalarına kömək etdi. 1981-ci il iyunun 2-də Azərbaycan KP MK Bürosunda Azərbaycan millətindən olan iranlıların Bakı şəhərində ali məktəblərə təhsil almaq üçün qəbul edilmələri barədə məsələ müzakirə olundu. Qəbul olunmuş qərarda 10 nəfər Azərbaycan millətindən olan iranlının qəbul olunması, onlara təqaüd verilməsi və oxumaları üçün şərait yaradılması göstərilirdi. AMEA-nın müxbir üzvü M.Qasımlı bu hadisənin bilavasitə Vahid Azərbaycan ideyası ilə bağlı olduğunu göstərir: "*Cənubi azərbaycanlıların Azərbaycanda təhsil almaları, qayıtdıqdan sonra vətənlərində işləmələri antisovet təbliğatın zəflədilməsinə kömək edərdi... Bu qərar sovet dövlətinin ümumi məqsədlərinə xidmət etsə də cənubi azərbaycanlıların maraqlarına tamamilə uyğun idi... həmin gənclərin Azərbaycanda təhsil almaları, sosial-iqtisadi və mədəni sahədə qazandıqları uğurları əyani görmələri milli şüurun, müstəqillik, Vahid Azərbaycan ideyasının güclənməsinə kömək edirdi*" [165, s.482].

H.Əliyev İranda Azərbaycan və fars dillərində çıxan, azərbaycançılıq ideyaları təbliğ edən mətbuat orqanları ilə sıx əlaqə yaratmışdı.

Artıq Cənubi Azərbaycanda H.Əliyev bütün azərbaycanlıların vahid lideri, ümummilli lider kimi qəbul edilirdi.

H.Əliyevin Şimalın Cənubi Azərbaycanla ədəbi əlaqələri gücləndirmək səyləri xarici tədqiqatçıların diqqətini cəlb edirdi. ABŞ-lı alim T.Svyatoxovski İranda islam inqlabında cənubi azərbaycanlıların da fəal iştirak etdiyini, Təbrizi "islamın qalibiyyət rəmzi" hesab edirdisə, "Bakını milli dərketmənin rəmzi" sayırdı: "*Ümumittifaq siyasət üfüqlərində parlaq ulduz olan Əliyev indi öz nitqlərində sovet rejiminin özünün ilk günlərindən müsəlman xalqlarının milli məsələ ilə bağlı istək və arzularını dəstəklədiyini vurğulamağa başladı"* [243, s.260].

Eyni zamanda, Heydər Əliyev Şimal və Cənub arasında təkcə ədəbi deyil, hərtərəfli dostluq əlaqələrinin bərpasına da çağırırdı. Buna görə də artıq nüfuzlu xarici kütləvi informasiya vasitələri Heydər Əliyevin gələcəkdə hər iki Azərbaycanın birləşməsinə ümid bəslədiyindən yazmağa başladılar. T.Svyatoxovski Heydər Əliyevin 1982-ci ilin payızında Siyasi Büroda ən yüksək vəzifə tutduğunu, "SSRİ-də heç bir azərbaycanlının belə yüksək mövqe tutmadığını" qeyd edərək yenə də Vahid Azərbaycan ideyası haqqında yazır: "*Həmin vaxt Bakıda hər iki Azərbaycana bölünməz vətən kimi baxılırdı. Vəziyyət belə gətirdi ki, bir xalqı ikiyə bölən sərhəd yarası qaysaq bağlamamış yara aradan qalxdı (buna hansı yollarla nail olduğunu heç vaxt açıqlanmadığına baxmayaraq). Türkmənçay sazişi tarixi ədalətsizliyin eybəcər yadigarı mahiyyəti kəsb etdi*" [243, s.260].

ABŞ alimi ikiyə bölünmüş vətən haqqında Şimali Azərbaycanda yalnız sadəcə bəyanatlar verilmədiyini, bu bəyanatlara ümid və inamın daha geniş əhatə dairəsinə malik olduğunu göstərir: "*Əhəmiyyətli cəhət ondan ibarət idi ki, bu bəyanatların ancaq elmi əsərlərdə və jurnallarda işlənməsinə qoyulan məhdudiyyətlərin aradan qaldırılması kifayət etmədi. Üstəlik bunun bədii-kütləvi və həftəlik jurnallarda, teatr tamaşalarında işlənilməsinə yol açıldı. Dirçəlmiş sovet panazər-baycan təbliğatı öz işində bir pillə yuxarı qalxsa da, hələ də gündəlik qəzetlərə, xüsusilə rus dilində çıxan qəzetlərə yol tapmamışdı. Bu isə yüksək dairələrin rəsmi razılığının olmadığına bir işarə idi. Tehrana qarşı məkrli oyun oynayan Moskva uzun müddət davam edəcək hər hansı bir tədbirə baş qoşmaq niyyətində deyildi*" [243, s.260-261].

T.Svyatoxovski sanki idarə edənlərlə idarə olunanlar arasında sakitcə razılaşma yolu ilə gedən "Vahid Azərbaycan" kampaniyasınaı qonşu Ermənistan və Gürcüs-tandakı dissident hərəkatlarına bənzədərək yazır: "*Meydana gələn müstəqil ictimai fikri cilalayanlar öz növbəsində sərhədin o tayı ilə birləşmək arzusunun tam olmasa da, qismən dəstəklənməsini rəğbətlə qarşıladılar. Bu arzunu təşviq etmək üçün həyata keçirilən tədbir hansı xarakterdə olursa-olsun, Azərbaycan milli dərketmə şüuruna fayda verəcək və ikiyə parçalanmış bu torpağın hər iki hissəsi arasındakı dostluq əlaqələrinin hər hansı şəkildə bərpası istər farslaşdırma, istərsə də ruslaşdırma fonunda azərbaycançılıq mövqeyini gücləndirəcəkdi*" [243, s.261].

“Vahid Azərbaycan” kampaniyasına İran İslam Respublikası paniranizm mövqeyindən yanaşaraq Şimaldakı bu torpaqlara “Azərbaycan” adının Osmanlı Türkiyəsi tərəfindən verildiyini, bolşeviklər tərəfindən işləndiyini, Cənubi Azərbaycanda işlənən türk dilinin onun öz orjinal dili olmadığını “iddia” edir: “*İran milli hərəkatının ayrılmaz tərkib hissəsi olan Azərbaycan problemi haqqında danışmağı “imperialist ixtilaflarına uymaq*” [243, s.262] kimi səciyyələndirir.

Moskva da “Vahid Azərbaycan” ideyasına sovet maraqlarına xidmət edəcək dərəcədə razılıq verir, lakin onu bütöv Azərbaycan xalqının milli mənafeyinə uyğun gəlib-gəlməməsi sovet rus-erməni elitasının heç vecinə də deyildi.

ABŞ tarixçiləri T. Svyatoxovcki və B.K. Kollinz yazırlar ki, İranda islam inqilabından sonra aktual olan “*Vahid Azərbaycan şüarı artıq siyasi məna kəsb etməyə başladı*” [332, 8]. ABŞ tarixçilərindən A.D.Aqostina yazır ki*,” Azərbaycan rəhbəri Heydər Əliyev İrandakı azərbaycanlılara qayğı göstərir, Bütöv Azərbaycanda “millətin azadlığı” uğrunda mübarizə aparırdı”* [327, s.103].

Beləliklə, ABŞ tədqiqatçıları Heydər Əliyevin Bütöv Azərbaycan uğrunda mübarizəsinin əsas mahiyyətini göstərir, bu ideyanı hər iki tərəfdə xalqın ictimai şüuruna aşıladığını bildirirlər. “*Doğrudan da, hansı xarakter daşımasına baxmayaraq, Vahid Azərbaycan, Azərbaycanın birliyi şüarı azərbaycanlıların milli şüurunu, azərbaycançılığı gücləndirir. Göründüyü kimi, Heydər Əliyevin Bakıya Cənuba təsir edən milli mərkəz kimi baxması, Vahid Azərbaycan, Bütöv Azərbaycan şüarını təşviq etməsi, Cənubla bağlı ziyalıları düşündürən problemləri özü qaldıraraq dissidentlərin yaranmasına yol verməməsi, şəxsi fəaliyyəti ilə Bütöv Azərbaycan xalqının liderinə çevrilmişdi... Bütöv Azərbaycan fikri yuxarıdan gələrək cəmiyyətə yayılırdı. Bu istiqamətdəki fəaliyyətlərinə görə H.Əliyev Bütöv Azərbaycanda böyük nüfuz qazanmışdı*” [243, s.492].

H.Əliyev şimallı və cənublu azərbaycanlıları vəhdətdə görürdü: “*Fərqi yoxdur bizim aramızda bir Araz var. Rəhmətlik Şəhriyar da bu barədə nə deyib yadınızdadır... İndi nə olsun ki, vaxtilə aramızı kəsdilər. Aramızı Araz kəsmədi, bizi parçaladılar. Nə olsun? Nə fərqi var ki, biri o tayda, biri bu tayda doğulubdur? Hamısı azərbaycanlıdır. Ona görə də gəlin daha da birləşək, bir olaq*” [18, s.45].

Bədii ədəbiyyatda və siyasət aləmində bölünmüş vətən və Vahid Azərbaycan ideyasına dövlət səviyyəsində diqqət verilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Özünün hərtərəfli strateji tədbirlərilə "*Heydər Əliyev Bütöv Azərbaycanda və dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların ümumi vahid liderinə çevrilmişdi. Hansı ideoloji-siyasi sistem çərçivəsindən asılı olmayaraq, H.Əliyevin Cənubi Azərbaycan məsələsinə diqqət yetirməsi xalqın milli özündərkini, özünə inamını, Bütöv Azərbaycan idealını, müstəqil dövlətçilik hisslərini gücləndirirdi*" [165, s.494].

XX əsrin sonlarında Azərbaycanın ikinci dəfə müstəqilliyi dövründə bölünmüş vətən mövzusuna ədəbi-bədii təfəkkürdə də, siyasi müstəvidə də münasibətdə dəyişikliklər baş verdi.

Dünyada xristian-islam qarşıdurması gücləndi. Bir vaxtlar proletar beynəlmiləlçiliyinin hakim olduğu postsovet Azərbaycanda həmin "beynəlmiləlçilik" islam birliyi və milli birliklə, dünya azərbaycanlılarının birliyi ilə, ölkədən kənarda, o cümlədən Cənubda yaşayan "qardaşları ilə birləşmək istəyilə" əvəz olundu.

Azərbaycan milli hərəkatı iki Azərbaycan arasında münasibəti önə çəkdi. Hakimiyyətə can atan Azərbaycan Xalq Cəbhəsi öz proqramında hər iki Azərbaycan ilə mədəni əlaqələrin inkişafı yolundakı bütün siyasi maneələrin götürülməsini istəyirdi: "*SSRİ ilə İran arasındakı sərhədlərin mövcudluğunu tanımaqla AXC sərhədin hər iki tayında yaşayan azərbaycanlıların etnik birliyinin bərpa olunmasını dəstəkləyir. Azərbaycan xalqı tam bir vahid kimi tanınmalıdır. İkiyə bölünmüş xalqımızın iqtisadi, mədəni, sosial əlaqələri bərpa olunmalıdır. Birbaşa canlı əlaqələrin yaradılması (qohumlara, yaxınlara baş çəkmək) yolundakı bütün maneələr aradan qaldırılmalıdır*" [20, s.8].

AXC birləşmə üçün ünsiyyətin, əməkdaşlığın gücləndirilməsini, sərhəd zonalarının ləğv edilməsini önə çəkdi.

İran tərəfi bütün günahları ABŞ-da görürdü. İran belə iddia edirdi ki, "Şimali və Cənubi Azərbaycanın birləşdirilməsi kimi ideyaları" da ABŞ təlqin edir.

AXC-müsavat hakimiyyətinin səriştəsiz xarici siyasəti qonşu dövlətlərin əksəriyyətilə, o cümlədən İranla münasibəti gərginləşdirdi. "Hələ hakimiyyətə

gəlməzdən qabaq Elçibəy iki Azərbaycan haqqındakı aşağıdakı ruhda fikirlər söyləyirdi: "*Azərbaycanın şimalında müstəqil bir dövlətin baş qaldırması, cənubda azadlığın yetişməsini asanlaşdıracaq" və İran paytaxtı Elçibəyin prezidentliyini az sezilən kinlə qarşıladı. Bunun əksinə olaraq Elçibəyin əks güclü rəqibi olan Heydər Əliyev İran İslam Respublikası ilə dil tapa biləcək bir şəxsiyyət kimi mövqe qazanmaqda idi*" [243, s.302].

Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi zamanı Cənubi Azərbaycana, bölünmüş vətən ideyasına artıq SSRİ-İran deyil, Azərbaycan-İran münasibətləri kontekstində yanaşıldı. Müstəqillikdən sonra Heydər Əliyev bəyan etdi ki, "*tarixən qonşu olmuş və eyni kökdən olan insanlar, nəhayət uzun ayrılıqdan sonra görüşmək imkanı qazandılar. Dili, dini, tarixi, mədəniyyəti eyni olan xalqlarımız yaxından əlaqələr qurmaq üçün bir-birinə tərəf sürətli addımlar atdılar. Həsrət və nisgilə son qoyuldu*" [87, c.4, s.14]. Daha sonra Ulu Öndər deyirdi: "*Şimali və Cənubi Azərbaycan arasında mədəni, ədəbi əlaqələr genişləndi. Məlum olduğu kimi, İran əhalisinin demək olar ki, yarısını etnik azərbaycanlılar təşkil edirlər və dünya azərbaycanlılarının təqribən dörddə üçü İranda yaşayır. Təkcə bu fakt regionda və dünyada bizim dövlətlərin qarşılıqlı maraqlarını təmin etməyə yönəldilən birgə siyasi xəttin aparılmasını zəruri edir*" [87, c.4, s.47].

Azərbaycan-İran münasibətlərinin əsasında Cənubi Azərbaycana qayğı durur. Ulu Öndər Heydər Əliyev bu məsələni həmişə diqqət mərkəzində saxlamışdı: "*İran və Azərbaycan arasında olan əlaqələrin tarixi böyükdür. Bu, çoxəsirlik tarixdir. Xalqlarımız əsrlər boyu yan-yana bir yerdə yaşamış, bir kökdən olaraq, eyni ənənələrə malik olaraq bir-birinə həmişə dayaq durmuşlar. Azərbaycan xalqı milli azadlığını əldə edəndən sonra, ölkəmiz dövlət müstəqilliyi qazandıqdan sonra İran ilə Azərbaycan arasındakı əlaqələr dövlət səviyyəsinə qalxdı və qarşılıqlı surətdə faydalı dövlətlərarası əlaqələrə çevrilibdir*" [87, c.4,s.47].

Müstəqilliyin ilk illərində AXC liderlərinin "Vahid Azərbaycan" ideyasını dövlət siyasəti səviyyəsinə qaldırması, İranda isə "Böyük İslam İnqlabı"-nı dünyaya, o cümlədən Şimali Azərbaycana yaymaq istəyən bəzi hakimiyyət dairələri iki ölkə arasında gərginlik yaratmışdılar.

Ulu Öndər Heydər Əliyevin Naxçıvanda olduğu dövrdə Naxçıvan İranın Şərqi Azərbaycanla (əslində Cənubi Azərbaycanın bir hissəsi) sıx dostluq, qardaşlıq əlaqəsi yaratmışdı.

Azərbaycan-İİR arasında əlaqələr aşağıdakı sahələri əhatə edir:

1. Regional və beynəlxaq məsələlər;
2. Tatix və mədəniyyət məsələləri;
3. İkitərəfli siyasi və iqtisadi münasibətlər;
4. Bir-birilərinin daxili işlərinə qarışmamaq.

Ulu Öndər Heydər Əliyev İranla dostluq münasibətlərinin qurulmasının bir səbəbi kimi orada qardaş azərbaycanlıların yaşamasını göstərirdi: "*Azərbaycan üçün başqa bir dövlət yoxdur ki, ölkəmizdə yaşayan azərbaycanlıların, müsəlmanların orada- İrandakı qədər qohumları olsun. Elə İranın özündə, xüsusən onun şimal hissəsində elə ailə tapmazsan ki, onun Azərbaycanda qohumu, qardaşı olmasın. Biz 70 ildə bundan məhrum idik. İnsanlar göstərməyə qorxurdular ki, bir yerdə bilsinlər ki, onun İranda qohumu var. Bu insanlara azadlıq verilməli idi. Bu azadlıq verilibdir*" [87, c.4, s.96]. Heydər Əliyev hər iki Azərbaycanın birliyindən danışırdı: "*Bizim xalqlarımızı birləşdirən, doğma edən böyük tariximiz vardır. Bunları heç vaxt unutmaq lazım deyildir*" [87, c.4, s.99-100].

Dövlətimizin başçısı göstərmişdir ki, Azərbaycan 70 il məcburən Sovet sistemi şəraitində yaşamasına baxmayaraq, öz milli ənənələrini qoruyub saxlaya bilmişdir... "*Dost və qardaş ölkə olan İrandan 70 il ayrı düşməyimizə baxmayaraq, xırda bir imkan yaranan kimi, sərhədlər açılan kimi insanlar bir-birinə qovuşdu. Arazın o tayından, bu tayından insanlar bir-birini görmək üçün özlərini qışın soyuğunda belə suya atdılar... Biz indi müstəqil dövlətik. Müstəqil xalqıq, sərbəstik, lakin çətin-likərimiz də çoxdur... Görülən tədbirlər nəticəsində bu çətinliklərin çoxu artıq arxada qalmışdı*" [87,c.4, s.100].

Məlum olduğu kimi, Heydər Əliyev *"Cənubi Azərbaycanda yaşayıb-yaratmış dahi şair M.Şəhriyarın 90 illik yubileyinin keçirilməsi ilə bağlı fərman imzalamış və yubiley mərasiminin iştirakçılarına məktubla müraciət etmişdir"* [86, s.462-463]. O, həmçinin Azərbaycan və İranın ortaq ədəbi-bədii və mədəni irsindən danışanda

M.Şəhriyar haqqında dəyərli sözlər demiş və anlatmışdır ki, Cənubdakı ədəbi irs Bütöv Azərbaycanın ümumi mənəvi sərvətidir. H.Əliyev Şəhriyarı bütün Azərbaycanın müasir, əziz şairi hesab edərək görkəmli şairin Təbrizdəki məzarının azərbaycanlılar üçün müqəddəs ziyarətgah yeri olduğunu, onun İran şairi olduğunu, onun İran şairi olduğu qədər də Azərbaycan şairi sayıldığını xüsusi qeyd edir "*Biz demirik ki, Şəhriyar İran şairi deyil, İran şairidir. Amma biz deyirik o, eyni zamanda, Azərbaycan şairidir. Bu, bizim doğma şairimizdir və Azərbaycan haqqında onun yazdığı əsərlər insanlara nə qədər mənəvi qida veribdir, nə qədər böyük ruh veribdir. Ancaq bizdə yubiley təkcə zirvə görüşündən ibarət deyildir. Yubiley belədir ki, bizdə konfrans keçirilir, kitablar nəşr olunur, başqa tədbirlər keçirilir, axırda zirvə tədbiri olur. O müddətdən ki, mən fərman vermişəm, Azərbaycanda Şəhriyar haqqında, yəni onun xatirəsi, onun yubileyi ilə bağlı çox işlər görülübdür. Əmin ola bilərsiniz ki, biz o zirvə tədbirini də keçirəcəyik. O vaxt sizin keçirdiyiniz yubileyə bizdən ancaq mədəniyyət naziri getdi. Bəlkə siz başqasını dəvət etməmisiniz. Amma məni dəvət etsəydiniz, mən də gələrdim. Amma mən sizi, hamınızı dəvət edirəm. O cümlədən, cənab Xatəmini də dəvət edirəm*" [90, s.67-68]. Azərbaycanda böyük ehtiram bəslənən nüfuz və şöhrət qazanan Şəhriyarı Böyük Azərbaycan şairi hesab edən Ulu Öndər H.Əıiyev dahi şairin şərəfinə ölkəmizdə yubileylər, konfranslar keçrilməsi haqqında fərman verdiyini qeyd edir.

Ulu Öndər Heydər Əliyev Şərqi Azərbaycanı, Təbrizi yüksək qiymətləndirərək onu Bütöv Azərbaycanın müqəddəs şəhəri hesab edirdi: "*Şərqi Azərbaycan, Təbriz İranın ayrılmaz bir hissəsidir. Ancaq Azərbaycan ilə İranın sərhəddinin böyük bir hissəsini təşkil edir. Bir də ki, Təbriz həm İran üçün, həm də Azərbaycan, yəni, bizim Azərbaycan üçün əziz, qiymətli və müqəddəs bir şəhərdir Şübhəsiz ki, biz ölkəmizdə Azərbaycan-İran əlaqələrinin günbəgün genişlənməsini və inkişaf etməsini istəyirik. Bu, təbiidir. Çünki biz qonşuyuq, bir dinə, məsləkə mənsubuq. İndi İranda azərbaycanlılar çoxdur. İranda azərbaycanlılar İran vətəndaşıdırlar, ancaq ölkəmizdə azərbaycanlılar müstəqil Azərbaycan vətəndaşıdırlar*" [87, c.4, s.242]. H.Əliyev əslində təkcə Şərqi Azərbaycanın deyil, Şimali, Cənubi Azərbaycanın və

Bütöv Azərbaycanın vəhdət təşkil etdiyini, Şimali Azərbaycanda yaşayan azərbaycanlıların qardaş olduqlarını göstərirdi.

Ulu Öndər Heydər Əliyev artıq azərbaycançılıq ideyası ətrafında təkcə Şimali və Cənubi azərbaycanlıları deyil, bütün dünya azərbycanlılarını birləşdirməyi qərara aldı. Dünya azərbaycanlılarının I qurultayındakı çıxışında Ulu Öndər H.Əliyev özünün bu yeni modeli-dünya azərbaycanlılarının bütövlüyü modeli haqqında danışmışdır: *"...bütün dünyaya səpələnmiş azərbaycanlılarının birliyi, həmrəyliyi indi həm bizim üçün, həm də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün xüsusi əhəmiyyət kəsb edir*" [89, s.176].

Ulu Öndər Heydər Əliyev dünya azərbaycanlılarını birləşdirən amilləri sadalayır:

1. Azərbaycançılıq ideyası;
2. Azərbaycan dili;
3. Milli mədəniyyətimiz;
4. Tarixi köklərimiz;
5. Milli-mənəvi dəyərlər;
6. Ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şeirlərimiz, mahnılarımız;
7. Xalqımıza mənsub olan adət-ənənələr.

Ulu Öndər Heydər Əliev bütün dünya azərbaycanlılarını birləşdirən azərbaycançılıq ideyasının mahiyyətini açıb göstərmişdir: "*Bizim hamımızı birləşdirən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır... Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir...Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı, Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq*" [89, s.182]. H.Əliyev haqlı olaraq azərbaycançılığı bütün azərbaycanlıları birləşdirən ümummili ideya, milli kimlik, milliliklə ümumbəşəriliyin vəhdəti, milli-mədəni fenomen kimi səciyyələndirirdi.

Akademik İsa Həbibbəyli özünün "Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr" əsərində görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycançılıq siyasətini ədəbi düşüncədən dövlət ideologiyası səviyyəsinə yüksəltdiyini göstərir.

Akademik İsa Həbibbəyli XIX əsrdə azərbaycançılığın milli məfkurəyə çevrilməsini maarifçilik və milli-mənəvi özünüdərk prosesləri ilə əlaqələndirərək yazır: "*Azərbaycançılıq ideyasının yaranmasında xalqın özünün milli varlığını və ölkəsinin coğrafi ərazisini müəyyən etməsi zərurəti mühüm rol oynamışdır. Bu proses aşağıdakı bir neçə mərhələ üzrə formalaşıb inkişaf etmişdir. Dövrü mətbuatda azərbaycançılıq ideyasının meydana çıxması; ədəbiyyatda azərbaycançı düşüncənin inkişaf etdirilib dərinləşdirilməsi; böyük siyasətdə azərbaycançılığın milli dövlətin ideologiyası səviyyəsinə çatdırılması*" [123, s.24-25]. Akademik İsa Həbibbəyli "dünya azərbaycanlıları" anlayışının Azərbaycan dövlət siyasətinə daxil edilməsinin Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan mühüm xidmətlərdən biri hesab edir. Dahi rəhbərin dünya azərbaycanlılarının birliyinin və həmrəyliyinin formalaşmasında əvəzsiz xidməti olmuşdur: Heydər Əliyevin müdrik siyasəti azərbaycançılığı ölkə sərhədlərindən dünya birliyi səviyyəsinə çatdırmışdır. *"Azərbaycançılıq dünyada yaşayan bütün azərbaycanlıların birliyinin və həmrəyliyinin ideologiyasıdır. Görkəmli dövlət xadimi Heydər Əliyev ölkə miqyasında və dünya azərbaycanlıları müstəvisində azərbaycançılığın ən uca zirvələri fəth etmişdir. Sözün obrazlı mənasında Heydər Əliyev dünyada azərbaycançılığın rəmzinə çevrilmişdir* "[123, s.40-41].

Akademik İsa Həbibbəyli yazır: "*Məhz Heydər Əliyevin ağıllı və uzaqgörən siyasəti nəticəsində Azərbaycançılıq təlimi müstəqil Azərbaycanın dövlətçilik ideologiyasına çevrilmişdir. Bu görkəmli dövlət xadimi ilk dəfə olaraq dünya azərbaycanlılarını vahid Vətən amalı ətrafında birləşdirmişdir*" [123, s.62-63].

Akademik İsa Həbibbəylinin qənaətincə, millətin və ölkənin bütövlüyü düşüncəsinin sovet dövründə cəmiyyətdə formalaşdırılmasında da Heydər Əliyev ədəbiyyat faktorundan məqsədyönlü şəkildə faydalanmışdır: "*XX əsrin yetmiş-səksəninci illərində Cənub mövzusunda yazılmış əsərlərə dövlət səviyyəsində bəslənilən real münasibətlərin kökündə Cənubi Azərbaycanla bağlı ictimai fikri*

*formalaşdırmaq tendensiyası dayanırdı*" [123, s.79]. Müəllif göstərir ki, XX əsrin II yarısına qədər nə söz sənətkarları, nə elm sahəsində çalışanlar arasında, nə də siyasətçilərdən heç biri nəinki Azərbaycanda, hətta bütün SSRİ miqyasında Cənubi Azərbaycan mövzusundan bir kəlmə də danışa bilməmişdi.

H.Əliyevin cəsarətli fikirləri və irəli sürdüyü ideyalar əsasında Azərbaycan ədəbiyyatının vəhdəti məsələsi diqqəti cəlb etdi, şimallı-cənublu yazıçılarının qarşılıqlı əlaqələri yarandı və inkişaf etməyə başladı. "*İran İslam Respublikasında yaşayan Məhəmmədhüseyn Şəhriyar kimi qüdrətli sənətkarı Azərbaycanın dövlət səviyyəsində səslənən bu cür bəyanatlarından sonra geniş dairədə tanımağa başladılar... Eyni zamanda, bu dövrdən başlayaraq Cənub mövzusunda yeni əsərlər meydana gəldi. Azərbaycan Yazıçılar Birliyində və Nizami adına Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan ədəbiyyatı antologiyalarının hazırlanıb nəşr edilməsi, ədəbi ictimaiyyətə çatdırılması görkəmli dövlət xadimi Heydər Əliyevin atdığı qətiyyətli addımların, açdığı yeni üfüqlərin sayəsində mümkün olmuşdu. Bütün bunlara görə heç tərəddüd etmədən belə demək mümkündür ki, görkəmli dövlət xadimi Heydər Əliyev hələ sovet rejimi dövründə Cənubi Azərbaycanla ədəbi-mədəni əlaqələrin yaradılmasının əsasını qoymuş, möhkəm təməlini atmışdır*" [123, s.81]. Akademik İsa Həbibbəyli göstərir ki, H.Əliyev millilik, tarixilik, müasirlik prinsiplərinə əsaslanaraq ədəbiyyat siyasəti həyata keçirir, ədəbiyyat vasitəslə milli-mənəvi özünüdərki dərinləşdirirdi. Bu dahi şəxsiyyət Azərbaycanı ədəbiyyat vasitəslə dünyada tanıtdırmışdır. O, ədəbiyyat siyasətində tarixilik prinsiplərinə söykənərk Azərbaycan xalqına öz soykökünü, milli tarixi keçmişini və mənəvi dəyərlərini dərindən dərk etdirmiş, xalqımızın milli ləyaqət və qurur hissələrini yüksək zirvələrə çatdırmışdır. "*Azərbaycan müstəqillik qazandıqdan sonra ölkə Prezidenti Heydər Əliyevin yeni tarixi epoxada apardığı məqsədyönlü siyasəti nəticəsində ədəbi-mədəni əlaqələr daha da genişlənmiş və möhkəmlənmişdir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin "Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 90 illik yubileyinin keçirilməsi haqqında" 29 oktyabr 1997-ci il tarixli sərəncamı əsasında qüdrətli sənətkarın yubileyi ilə bağlı Bakıda, Tehranda və Təbrizdə keçirilən geniş miqyaslı tədbirlərlə qarşılıqlı ədəbi-mədəni əlaqələri yeni və daha yüksək səviyyəyə*

*qaldırılmışdır. Heydər Əliyevin ədəbiyyat təlimindəki millilik anlayışı özündə bütün dolğunluğu ilə Azərbaycançılıq məfkurəsini əks etdirir. Və yaxud da Azərbaycançılıq Heydər Əliyevin apardığı milli siyasətin lokomotividir. Ədəbiyyat siyasəti görkəmli dövlət xadiminin bu istiqamətdə apardığı geniş siyasi-ideoloji və təşkilati işin özülünü təşkil edir*" [123, s.82]. Müəllifin doğru olaraq qeyd etdiyi kimi, Ulu Öndər Heydər Əliyev ədəbiyyatda bədiiliklə tarixiliyin vəhdətinə xüsusi önəm verir. Müasir ədəbiyyatın yaranmasında böyük şəxsiyyətin əvəzsiz rolu olmuşdur .

Hələ hakimiyyətinin sovet dönəmində H.Əliyev azərbaycançılıq məfkurəsinin inkişafına əlverişli şərait yaratdı. Belə bir vaxtda müxtəlif yaradıcı sahələrin adamları onun ətrafına toplaşaraq öz əsərlərilə azərbaycançılığın və milli birliyin inkişafı üçün böyük töhfələr verdilər.

XX əsrin sonlarında ikinci dəfə müstəqillik qazanan Azərbaycanda milli-azadlıq hərəkatının aparıcı ideyası bütöv azərbaycançılıq ideyası oldu. Həmin ideyanın inkişafında yaradıcı şəxsiyyətlərin əsərləri bədii –publisistik yazıları mühüm rol oynadı. Bu illərdə "meydan hərəkatı" milli-mənəvi bütövlük ideyalarının istiqamətini dəyişdirmiş onu "türkçülük" ideyalarına yönəltmiş, bununla da ölkə daxilində vətəndaş qarşıdurmasına gətirib çıxartmışdır.

1993-cü ildən azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının birliyinin modelinə çevrilmiş, həm ölkə daxilində bütün milli azlıqların və titul millətin vəhdətini, həm də xaricdə yaşayan həmvətənlərimizin müstəqil Azərbaycan dövləti ətrafında birləşməsinin simvolu kimi çıxış etmişdir.

Məhz bu dövrdən başlayaraq azərbaycançılıq dünya azərbaycanlılarının birliyini təmin edən, nəzəriyyədən təcrübəyə keçən fenomen kimi Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

Sona xanım Vəliyeva əsərində göstərir: "*Azərbaycan dilinin rəsmi dövlət dilinə çevrilməsi, azərbaycançılıq ideyalarının, milli-mənəvi dəyərlərin bütün dünyada yaşayan həmvətənlərimiz arasında yayılması, hər il 31 dekabrın Dünya Azərbaycanlı-larının birlik və Həmrəylik günü kimi qeyd edilməsi və bu münasibətlə bütün dünya-da yaşayan azərbaycanlıların iştirakı ilə keçrilən mərasimlər, xarici səfərləri zamanı Azərbaycan diasporası ilə keçirdiyi görüşlər, Dünya*

*Azərbaycanlılarının Bakıda keçirilən birinci qurultayi və bu şəpkili yüzlərlə mühüm işlər Azərbaycan Prezidenti Heydər Əliyevin 1993-cü ildən sonra həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsidir*" [258, s.130]. Müəllif qeyd edir ki, bütün bu işlər dünyada yaşayan azərbaycanlıların milli şüurunun, milli özünüdərkinin güclənməsinə, onların Azərbaycan dilinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə, dövlətçiliyinə münasibətinin daha da doğmalaşmasına öz müsbət təsirini göstərmişdir. "*Beləliklə, biz 1993-cü ildən başlayaraq milli ideologiyanın - azərbaycançılıq ideologiyasının müasir elmi-nəzəri standartlar səviyyəsində formalaşmasının və tətbiq olunmasının şahidləriyik. Keçən illərdə azərbaycançılıq ideologiyası həm milli dövlət quruculuğu strategiyasının ideya-siyasi əsası kimi praktikada tətbiq olunur, həm düşüncə adamlarının, ziyalıların, milli elitanın düşüncələrinə hakim kəslib, həm də bütün dövlət hüdudlarında kütləvi milli məfkurəyə çevrilib*" [299, s.130-131]. Bununla da azərbaycançılıq müasir dövrümüzün dünyaya inteqrasiyası və qloballaşması kimi aparıcı tendensiyaları nizamında Azərbaycana məxsus iqtisadi, siyasi, mədəni-mənəvi dəyərlərə malik bir dövlət kimi öz yerini müəyyənləşdirməsinə və gələcəkdə planetimizin yüksək inkişaf etmiş dövlətlərindən birinə çevrilməsinə geniş imkanlar açır.

AMEA-nın müxbir üzvü, professor Y.Qarayev azərbaycançılığa Azərbaycan, milli ideya, dövlətçiliyin sivil ideya modeli kimi baxaraq, milli ideologiya kimi azərbaycançılığın inkişafında Ulu Öndər Heydər Əliyevin əvəzsiz rolunu xüsusi qeyd edir: *"...Müqəddəs bir həqiqəti Heydər Əliyev xalq üçün, millət üçün tarixi məsuliyyəti çiyninə aldığı ilk gündən dərk etmiş və istisnasız, həmişə uca tutmuşdur. Dövlət, cəmiyyət miqyasında sabit, qlobal ictimai əxlaq, təfəkkür və ideologiya yalnız onda sabitləşir və etibarlı olur ki, o milli-mənəvi dəyərlərə güvənir. Yerüstü sərvətə (mənəvi dəyərlərə!) güvənməyəndə isə hətta yeraltı sərvətlər də istiqlala yox, istiqlalla alverə, ehtikarlıq vasitəsinə çevrilir. Bunsuz həm suverenliyin, həm də torpağın ərazisi gec-tez itkiyə məruz qalır, həm coğrafi, həm də milli-mənəvi məkan öz bütövlüyünü (və bütövlüyün sabitliyini!) itirir. Məhz bu mənada Heydər Əliyev Azərbaycanın dövlətçilik tarixində ən böyük öndərlərin vəsiyyət və ənənəsinə sadiq qalır.Bu bir də ona görə mümkün olur ki, Heydər Əliyevin həmişə siyasətdə sənət,*

*siyasətçidə sənətkar səviyyəsinə qalxa bilir. Daha doğrusu, məhz "siyasət əməldə, hərəkətdə fəlsəfəyə çevriləndə" (yalnız bu zaman!) siyasətçi də sənətkara çevrilir, filosof təcəssümü, mütəfəkkir obrazı, alim statusu ala bilər*" [163, c.5, s.13-14]. Müəllif Heydər Əliyevin xalqa, millətə qlobal miqyasda, dünya səviyyəsində xidmət etdiyini göstərir. Hələ yetmişinci illərdə bütöv Azərbaycan ideyasını irəli sürən Ulu Öndər Heydər Əliyev 90-cı illərdə ümummilli liderə çevrilərək təkcə genetik kökə, milli tarixi yaddaşa, mənəvi dəyərlərə qayğı göstərmədi, həm də azərbaycanlıların ümumdünya səviyyəsində vəhdəti olan "Dünya azərbaycanlıları modeli"ni reallaşdırması ilə fərqləndi.Heydər Əliyevin Dünya azərbaycanlıları modelinin əsasını onun vahid ədəbiyyat siyasəti, dövlətçilik, mədəniyyət konsepsiyası, bədii-estetik və humanitar-fəlsəfi görüşləri təşkil edir.

Yaşar Qarayev "Milli "Mən" şüuru və etnik yaddaş azərbaycançılıq" əsərində Azərbaycanı əzəli, əbədi birləşdirən mənəvi cazibə məkanın-milli-mənəvi bütövlüyün məhvərinin azərbaycançılıq" olduğunu göstərir. Müəllif "azərbaycançılığı" "iki əsrlik nəzəri-ideoloji fikrimizin yekunu kimi səciyyələndirir. Azərbaycançılığın klassik ədəbi irsin harmoniya axtarışları, dövlət, dil konsepsiyaları, vətən, millət çağırışları ilə yarandığını qeyd edərək yazır: "*Hamısı, hamısı məhz Heydər Əliyevin dövlətçilik siyasətində cari və strateji proqramın tərkib hissəsinə, elmi və fəlsəfi fəaliyyətdən əməli siyasətin müstəvisinə keçir*" [162, c.4,s.657]. Buradan aydın olur ki, H.Əliyev irsən yaranmış azərbaycançılığı yeni dövrə tətbiq edərək dövlət dilini, milli-mənəvi dəyərləri, klassiklərin yaradıcılığını, dövlətçilik və mədəniyyət quruculuğu ilə bağlı digər ideyaları, milli-ideoloji və qlobal konsepsiya kimi azərbaycançılığı inkişaf etdirdi.

Professor Mübariz Yusifov özünün "Heydər Əliyev və azərbaycançılıq ideyası" və "Azərbaycançılıq" əsərlərində göstərir ki, azərbaycançılıq ictimai şüur forması olmaq etibarı ilə tarixi bir kateqoriyadır. Vətən ideyası, milli-mənəvi bütövlük və azərbaycançılıq ideyaları özündə tarixiliyi və müasirliyi, ənənə və varisliyi, ictimai psixologiyanı və etnik təfəkkürü birləşdirir. Vətən ideyası,milli-mənəvi bütövlük və azərbaycançılıq tarixən ictimai şüur forması kimi mövcud olmuşdur. Müstəqil dövlətçilik şəraitində isə azərbaycançılıq mili şüur formasına çevrilir. Azərbay-

cançılıq ideyaları məhz tarixlə müasirliyin qovşağında izah edilir. Müəllif Ulu Öndər Heydər Əliyev irsinin gənc nəslə öyrədilməsi və mənimsədilməsi məqsədini qarşısına qoymuşdur. M.Yusifov milli ideyanın milli şüurla vəhdətdə olduğunu milli şüurun aşağıdakıları əhatə etdiyini göstərir:

*”1. Milli mədəniyyət.*

*2. Milli etnik - əxlaqi normalar.*

*3. İctimai birlik və həmrəylik.*

*4. Dövlətçilik və onun atributlarına ehtiram.*

*5. Vətənpərvərlik.*

*6. Milli-mənəvi dəyərlərin bəşəri dəyərlərlə qovuşdurulması”*[262, s.37]. Buradan aydın olur ki, milli şüur,vətənçilik və dövlətçilik qarşılıqlı münasibətdə olub milli mənsubluğun, milli dəyərlərə və suverenliyə bağlılığın dərk olunmasının vəhdətini özündə əks etdirir. Milli özünüdərketmə vətənə,dövlətə, millətə, mənəviyyata, ana dilinə, milli mədəniyyətə məhəbbəti, vurğunluğu, milli qürur və maraqların ümumiliyi hisslərinin dərk olunmasını ifadə edir.Bu baxımdan azərbaycançılıq milli-mənəvi bütövlüyə, vahid milli-etnik, sosial-siyasi birliyə - azərbaycanlılığa mənsubluğun simvolu kimi çıxış edir.

Türk xalqlarının Şimaldan Cənuba, Şərqdən Qərbə tarixi yayılmları onların böyük bir imperiya daxilində mövcud olduqlarını təsdiq edən faktlardır. Lakin indi zaman bizi həmin tarixi mərhələdən xeyli uzaqlaşdırmışdır. Türk xalqları indi ərazi cəhətdən, dövlətçilik qurumu baxımından, etnopsixoloji cəhətdən, dil normaları baxımından diferensiallaşmışdır. Hər bir xalqın özünəməxsus milli-etnik ənənələri yaranmışdır. Buna görə də, məsələn, qazax dilində, mədəniyyətində, məişətində, sosial-iqtisadi həyatında, əlbəttə ki, qırğız, qaraqalpaq, Altay, özbək, türkmən, tatar, çuvaş, kumık, noqay, qaraçay, balkar, qaqauz xalqlarından fərqlənən fərdi cəhətlər meydana gəlmişdir. Vətən amalı etnomədəni-mənəvi dəyərlər sistemində əxlaqi-etik sərvət kimi vətənpərvərlik anlayışı ilə əlaqədardır. Professor Qoşqar Əliyev H.Əliyevin vətəndaş vətənpərvərliyini vətənə, xalqa, milli mədəniyyətə, ana dilinə, dogma təbiətə, tarixi köklərə məhəbbəti kimi səciyyələndirir.Vətəndaş vətənpərvərliyi yeni humanist konsepsiya kimi vətənə və həmvətənlərə və bütün

soydaşlara məhəbbət olaraq ahəngdarlıq prinsipinə əsaslanır, burada vətənpərvər dövlətçiliyə hörmət hissi də əlavə olunur. Vətənpərvərlik dəyərləri Azərbaycan ədəbi irsinə və tarixinə və müasir milli mədəniyyətinə məhəbbətin təcəssümü kimi çıxış edir. Vətənpərvərlik ideyası yalnız cəmiyyətin mənəvi, ədəbi həyatında deyil, onun bütün sahələrində-mədəniyyətində, ədəbiyyatında, ideologiyasında, siyasətində və iqtisadiyyatında xüsusi yer tutur. Bu dəyərli ideya Azərbaycan xalqının və milli dövlətçiliyinin qanuni maraqlarının ardıcıl və möhkəm qorunmasını əks etdirir:"*Vətənpərvərlik şüuru vətənpərvərlik obyekti ilə vətənpərvərin qarşılıqlı təsirinin bütün növlərinin mənəvi tənzimləyicisi, onun şüurunun daxili determinantıdır. Vətənpərvərlik fəaliyyəti isə vətənpərvərliyin real hiss olunan və görünən tərəfləridir*" [91, s.11]. Müəllif göstərir ki, xaricdə yaşayan azərbaycanlı ziyalılarının və mütəfəkkirlərinin ədəbi irsinin müxtəlif istiqamətlərinə baxmayaraq bu unikal mədəni hadisə özünün azərbaycançılıq və milli vətənpərvərlik ideyaları fərqlənir. Azərbaycanın yeni dövlətçilik modelinin təşəkkülü prosesində onun ədəbi mədəni potensialı və əsasını təşkil edən vətənpərvərlik ideyaları bütün azərbaycanlıların mənəvi vəhdətini təşkil edərək ümumazərbaycan ideyası kimi çıxış edir.

Professor Səlahəddin Xəlilov dərk olunmuş vətənpərvərliyi milli ruhun əsası hesab edir və milli idelogiyaya söykənməyən "vətənpərvərliyi faydasız hesab edir: "*Milli ideologiyaya söykənməyən, vahid konsepsiyaya əsaslanmayan kortəbii fəaliyyətləri kimi sevgidən və millətçilik hissindən doğsa da, son nəticədə ancaq ziyan gətirə bilər"* [140, s.34]. Vətənpərvərlik ideologiyasını ümumazərbaycan vətənpərvərlik konseptinin mahiyyətini anlamadan dərk etmək qeyri-mümkündür. Bu halda ümumazərbaycan vətənpərvərliyi ictimai şüurun millətçilik, şovinizm, beynəlmiləlçilik və kosmopolitizm kimi hadisələrilə müşaiyət olunur.

Vətənpərvərlik – ciddi araşdırma tələb edən məsələlərdən biridir. Zaman-zaman bu məsələyə münasibətin dəyişməsi təbiidir. Belə ki, əgər sovet hakimiyyəti illərində vətənpərpərlik anlayışı geniş imperiya təfəkkürü ilə ölçülürdüsə, hazırda bu konkret olaraq Azərbaycan türklərinin yaşadığı coğrafiyanı əhatə edən anlayş kimi dərk

olunur. Həmçinin unutmaq olmaq ki, vətənpərvərlik bu gün azərbaycançılıq ideologiyasının tərkib hissəsi deməkdir.

Alman filosofu Hegel özünün "Hüquq fəlsəfəsi" əsərində vətənpərvərlik haqqında yazırdı: "*Vətənpərvərlik sözü altında çox zaman yalnız fövqəladə qurban verməyi və davranışları başa düşürlər. Amma, əslində, o, elə bir ovqatdır ki, adi vəziyyətdə və adi həyat şəraitində dövləti substansional əsas və məqsəd kimi başa düşür... Bu ovqat, ümumiyyətlə, etimaddır, mənim substansional və xususi marağımın başqasında, yəni dövlətdə yerləşdiyini başa düşməkdir*" [302, s.292]. Ulu Öndər Heydər Əliyev vətənpərvərliyi, vətəndaşlıq duyğusunu xalqın, vətənin taleyinin tərkib hissəsi hesab edirdi.Vətənpərvəlik tərbiyəsinin dəyərlər sisteminə vətənpərvərlik sahəsinə Azərbaycanın zəngin ədəbi-mədəni irsinin, milli dilin və mədəniyyətin, özündərkin, milli iftixar və ləyaqətin qorunub saxlanması, tarixi-vətənpərvərlik sahəsinə daxil olan Vətənin tarixin ənənələrinə, qəhrəmanlıq keçmişinə sədaqəti, tarixi həqiqətə əsaslanmağı, tarixin saxtalaşdırılmasına dözümsüzlüyü, nəsllərin varisliyinin, tarixi yaddaşının qorunub saxlanması, dövlət vətənpərvərliyi sahəsinə Azərbaycanın milli maraqlarının və dəyərlərinin prioritetləri, onun suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü, vətəndaş və hərbi borca sədaqəti, Vətənin müdafiəsinə hazır olmağı, cəmiyyətin və dövlətin problemlərinin həll olunmasında fəail iştirakı daxildir.

Vətənpərvərlik sosial hiss, ideologiya, mənəvi dəyər, milli identiklik, mənəvi-əxlaqi qaydaların məcmusu və praktiki davranışdır.

"*Heydər Əliyevin fəlsəfi görüşlərində milli ideyanın tərkib elementi kimi təqdim olunur. Şəxsiyyətin şüurunda vətən anlayışı tədricən siyasi çalarlar kəsb etmiş, vətən haqqında bilikləri, onun tarixi, ovqatı, ənənələri, hissləri, emosiyaları, vətənpərvərlik davranış normalarını və mülahizələri əks etdirmişdir. Məhz bu keyfiyyətlər sayəsində vətənpərvərlik şüuru inteqral mənəvi fenomen kimi çıxış edir, vətənin müdafiəsi kimi anlayışın məzmununu müəyyənləşdirir. Vətənpərvərlik şüuru özü müstəqil siyasi-əxlaqi dəyər olmaqla vətənin sosial dəyərlərinə münasibətdə müəyyən meyar rolunu oynayır, şəxsiyyətin ətraf hadisələrə dəyər yönümlərini formalaşdırır*" [91, s.123]. Müəllif göstərir ki, azərbaycançılığın nüvəsini vətənə məhəbbət, vətənpərvərlik

mənəviyyatı, milli özündərkin vəhdəti təşkil edir. H.Əliyevin vətənpərvərlik tərbiyəsi sistemi modeli özündə tarixi dəyərlər əsasında vətənpərvərlik şüurunun, həmin sistemin kompleks normativ, hüquqi təminatın formalaşmasını, Vətən tarixinə, ənənələrinə, qəhrəmanlara sədaqəti, vətənpərvərlik biliyi, əqidəsi və hisslərinin inkişaf etdirilməsini, vətənpərvərlik ideya və hisslərinin praktiki fəailiyyətdə reallaşmasını özündə əks etdrir. Burada əxlaqi-psixoloji və dünyagörüşü meyarları vəhdət təşkil edir, şəxsiyyətin dəyərlər strukturunda dövlətçilik- vətənpərvərlik ənənələri və keyfiyyətləri prioritet hesab olunur.

Böyük siyasətçi "azərbaycanlıların Azərbaycandan başqa vətəni yoxdur" prinsipinin milli dövlətçilik və azərbaycançılıq ideyalarını əsaslı hesab edərək bu fenomenin möhkəmləndirilməsində vətənpərvərlik şüurunun və milli özündərkin mühüm rolunu xüsusi olaraq diqqətə çatdırırdı.

Yazıçı -publisist Hidayət Orucov H.Əliyevin Azərbaycanın müstəqilliyininə qədərki dövrdə etnomədəni dəyərlərin və milli özündərketmə sahəsindəki xidmətlərinin və mühüm əsas yaratdığını yüksək qiymətləndirərək göstərir ki, o, tarixən təşəkkül tapan milli ideyalara əsaslanan ziyalılara və yaradıcı sənətkarlara qayğı göstərdi. Həmin ziyalılar milli ideyaların taleyinə görə məsuliyyət daşıyırdılar. Həmin ziyalılar öz ədəbi əsərlərilə, yaradıcılıqları ilə milli dəyərləri ictimai idealları, milli özünəməxsusluğu qoruyub saxlaya bildilər, millətin simasını yeniləşdirdilər, tarixi-mənəvi ənənələri dirçəltdilər. Ağır repressiyalara məruz qalan ziyalılar həqiqət, milli maraq uğrunda əsl vətəndaş-ziyalı fədakarlığı nümayiş etdirdilər. Milli azadlıq, müstəqillik haqqında öz ideya və təsəvvürlərini xalqın şüuruna sözün gücü ilə yeridən şairləri, nasirləri, jurnalistləri, filosofları, ədəbiyyatşünasları, alimləri H.Əliyev repressiyalardan xilas etdi. Milli özündərketmənin oyanmasına xidmət edən, millətin varlığının əsası olan Azərbaycan dilinin inkişafını təmin edən H.Əliyev etnosiyasi, etnomədəni prosesləri, milli ədəbiyyatın və mədəniyyətin humanist ənənələrinin qorunmasına əlverişli şərait yaratdı, milli ideyanı milli varlığın fəlsəfi qavranılması səviyyəsinə qaldırdı. "*Ulu tariximizin tədqiqinə diqqət artırıldı, milli ədəbiyyatımızın və mədəniyyətimizin dünya miqyasında tanınmasına və təbliğinə məqsədyönlü qayğı ön plana çəkildi. Dahi klassiklərimizin əsərləri dünya dillərinə*

*tərcümə edildi, görkəmli bəstəkar və rəssamlarımızın əsərləri beynəlxalq arenaya çıxdı, ecazkar səsli müğənnilərimiz ölkəmizdən kənarlarda məhşurlaşdı və s. Bu da sözə, sənətə qayğının təcəssümü oldu. Azərbaycançılıq ruhunu gücləndirmək üçün ölkədə yer adları yad ünsürlərdən incəliklə, tədricən təmizləndi. İlk dəfə məhz Heydər Əliyev İran Azərbaycanı kimi məqsədli təhrifi Cənubi Azərbaycan kimi obyektiv həqiqətlə əvəz elədi*" [221, s.26]. Bununla da H.Əliyev müstəqilliyə qədərki dövrdə belə konseptual milli layihələrin yaranması, müasirliklə milli tarixi zəminə əsaslanan mənəvi mədəniyyət, ədəbiyyat, fəlsəfə, ideologiya sahəsində milliliklə ümumbəşəriliyin vəhdəti olan milli ideyanın yaranması üçün şəraiti təmin etdi. Azərbaycan ədəbiyyatının və bütövlükdə milli mədəniyyətin quruculuğu sahəsində H.Əliyevin əzmkarlığı sayəsində keçmişin nailiyyətlərinin və dəyərlərinin tənqidi mənimsənilməsi və milli perspektivlərin ictimai dərk edilməsi önə çəkildi. Beləliklə də, H.Əliyevin siyasəti sayəsində Azərbaycan etnosu bütün dünya azərbaycanlıları sosial yaradıcılığın demokratik quruculuğun dünya təcrübəsinə və milli xüsusiyyətlərə əsaslandı. Eyni zamanda bölünmüş Azərbaycan ideyalarının dünya ictimaiyyətinin şüuruna çatdırılması üçün tarixi həqiqətə müraciət edildi, "Cənubi Azərbaycan" ifadəsi ictimai şüura və elmi dövriyyəyə daxil edildi.

Akademik Nizami Cəfərov Ulu Öndər H.Əliyevin təkcə Şimali Azərbaycanın deyil, bütün dünya azərbaycanlılarının milli lideri vəzifəsini yerinə yetirən və buna görə bir milli lider kimi də təkcə Şimali və Cənubi Azərbaycanın deyil, bütün dünya azərbaycanlılarının vəhdət halında siyasi, iqtisadi mədəni-mənəvi, ədəbi-bədii problemlərilə maraqlandığını, məşğul olduğunu, həll etməyə çalışdığını göstərir. H.Əliyevin "*dünyagörüşü, fəaliyyəti-mübarizə üslubunun mənsub olduğu xalqın, cəmiyyətin dünyagörüşü fəaliyyət-mübarizə uslubu səviyyəsinə qalxdığını*" [51,160], "xalqın tarixi marağının bütün mükəmməlliyi ilə milli liderdə – H.Əliyevdə təzahür etdiyini" qeyd edən N.Cəfərov onun milli liderliyə yüksəlməsini üç mərhələyə ayırır:

*"I. 60-cı illərin sonlarından 70-ci illərin sonlarına qədər;*

*II. 70- ci illlərin sonlarından 90-cı illərin əvvəllərinə qədər;*

*III. 90-cı illərin əvvəllərindən sonra"* [51, s.161].

Bu mərhələlərə uyğun olaraq, fikrimizcə, H.Əliyev I, II mərhələdə Şimali və Cənubi Azərbaycanın, 90-cı illərin əvvəllərində isə dünya azərbaycanlılarının milli lideri səviyyəsinə yüksəlmişdir

Azərbaycanlıların milli birliyinin əsasında Şimali və Cənubi Azərbaycanın bağlılığı durur. N.Cəfərov müasir İranda azərbaycanlılarda ölkədə baş verən assimliyasiya qarşı siyasi və mədəni özünüqoruma instiktinin yarandığını, iqtisadi, sosial həyatın, mədəniyyətin formalaşdırılması, milli dilin yasaq olunması, ana dilində təhsilin olmaması milli xüsusiyyətlərin və dəyərlərin aradan qaldırılmasının etnik partlayışlarla müşaiyət olunan müdafiə reaksiyasına səbəb olduğunu göstərir. Müəllifin fikrincə,bu, azərbaycanlıların milli şüurunda etnomərkəzi irəliləyişə gətirib çıxarır. "*Əlbəttə, beynəlxalq prinsiplərə görə, Azərbaycan dövlətinin İranın daxili işlərinə qarışmaq səlahiyyəti yoxdur (və dövlət tərəfindən həmin prinsipə ciddi əməl olunur!), lakin on milyonlarla insanın öz milli müəyyənliyini, etnik xarakterini unutdurmağa çalışmaq da heç bir beynəlxalq prinsipə uyğun gəlmir... Azərbaycanın Şimalı və Cənubu arasındakı munasibətlərin inkişafına bir də ona görə ehtiyac vardır ki, bu gün Qərb ölkələrində məskunlaşan azərbaycanlıların əksəriyyəti məhz Cənubdandır. Şimalla Cənub arasındakı etnokulturoloji, etnosiyasi münasibətlər normal olmazsa, Qərb ölkələrindəki azərbaycanlılar özlərini hər iki Azərbaycanaın övladı saymağa çətinlik çəkə bilərlər. Bizim fikrimizcə, tarixi Azərbaycanda etnik-ideoloji həyatın sabitliyi İran İslam Respublikasını daha çox maraqlandırmalı, özünü doğrultmayan "milləti-İran" siyasətindən əl çəkib, İranda azərbaycanlıların öz etnokulturoloji sistemləri daxilində inkişafları üçün şərait yaradılmalıdır*" [51, s.164-165]. Akademik N.Cəfərovun bütün bu mülahizələri olduqca məntiqli və əsaslıdır. Çox doğru olaraq müəllif azərbaycanlıların vətənlərinin yalnız Şimali və Cənubi Azərbaycandan ibarət olmadığını, Türkiyədə, Gütcüstanda, Dağıstanda, İraqda, Qərbi Azərbaycanda (təəssüf onlar ermənilər tərəfindən etnik təmizlənməyə məruz qalmışlar) azərbaycanlıların öz tarixi vətənlərində yaşadıqlarını, yalnız bütün dünyada azərbaycanlıların diaspor (Qərbdə, Rusiya və s.) şəklində həyat sürdüklərini, özlərinin yeganə müstəqil dövləti olan Şimali Azərbaycan Respublikası ilə qırılmaz mədəni, ideya-siyasi tellərlə bağlı oldğunu diqqətə çatdırır. Ulu Öndər H.Əliyev

Dünya azərbaycanlılarının I qurultayında özünün milli birlik modelini belə təqdim edirdi: "*Bizim vətənimiz Azərbaycandır, o, bizim doğma torpağımızdır. Bu Vətən çoxəsrlik tarixə malikdir, bu Vətən çoxəsrlik zəngin mədəniyyətə malikdir, bu Vətəndə çox zəngin ənənələri, adətləri, öz xarakteri olan xalq yaşayır... Vətənimizin intellektual baxımdan daha zəngin etmək üçün və Vətənimizin daha çox tanınması üçün Vətənimizin dünyada hər yerdə məşhur olması üçün insanlar Vətənin hüdudlarından uzaqlara getməli və istədikləri yerdə yaşamalı, istədikləri yerdə işləməlidirlər, ancaq Vətənlə əlaqələri kəsməməli, Vətəni unutmamalıdırlar*" [89, s.177]. H.Əliyevin müdrik nitqində dünya azərbaycanlılarının vahid vətən, milli mənəvi vəhdət ideyası öz təcəssümünü tapmışdır. Beləliklə, göründüyü kimi Cənubi azərbaycanlılar seçim qarşısında qalırlar: ya onlar etnik identiklərini qoruyub saxlamalı, siyasi və mədəni özünümüdafiənin etnokratik üsullarına istiqamət götürməli, dini, ideoloji, milli ümumilik əsasında həmrəylik hissinə üstünlük verməlidir, ya da ictimai inkişafın ümumdünya qanunauyğunluqlarına və meyllərinə əsaslanaraq özlərinin sosial və etnikliyin, milliliyin və ümumbəşəriliyin ahəgdarlığına əsaslanana öz milli orijinal modellərini axtarıb tapmalıdırlar. Hər iki taydakı azərbaycanlılar dil, ədəbi-mədəni bütövlüyə, milli-etnik unikallığa malik vahid millət kimi çıxış etməlidirlər.

Akademik N.Cəfərov azərbaycanlıarın beynəlxalq birliyinin milli tarixi idealların təntənəsinin əsas şərti olduğunu, azərbaycanlıların yenidən birləşməsi və bütün dünyada sosial-mədəni nüfuz qazanması üçün əsas imkanlardan bir-birilə vəhdət təşkil edən milli Azərbaycan dövləti və dünya azərbaycanlılarının milli liderinin H.Əliyevin olduğunu xüsusi nəzərə çarpdıraraq yazır: *"...Azərbaycanlıların siyasi-ideoloji birliyini aşağıdakı hadisələr son illərdə xüsusi təkidlə tələb edir:*

*1. Azərbaycan dövlətçiliyinin mənafeyi;*

*2. Azərbaycan xalqının, azərbaycanlıların mənafeyi;*

*3. Dünyanın mənafeyi. "* [51, s.172-173].

Azərbaycan xalqının birliyi onun milli tarixi ideallarının həyata keçirilməsinin əsas şərtidir ki, biz bu birliyə nail olmaq üçün aşağıdakı səviyyələrdə ardıcıl çalış-

mağı, ideoloji baxımdan əsaslandırılmış şəkildə mübarizə aparmağı məqsədə-uyğun hesab edirik:

- *"hər şeydən əvvəl Azərbaycan Respublikası, müstəqil Azərbaycan dövləti səviyyəsində;*

- *ikincisi, azərbaycanlıların müxtəlif dövlətlərin (Azərbaycan, İran, Türkiyə, Gürcüstan, Rusiyanın) ərazilərinə bölünmüş tarixi vətənləri səviyyəsində;*

- *nəhayət, üçüncüsü, ümumdünya səviyyəsində.*

*Və heç şübhəsiz, həmin səviyyələrin etnocoğrafi iyerarxiyası mövcuddur ki, onu azərbaycanlıların yer üzündəki məskunlaşma tarixi müəyyənləşdirmişdir. ...Azərbaycan xalqı, azərbaycanlılar dünyanın harasında yaşamalarından asılı olmayaraq bütöv, kifayət qədər mükəmməl (və geniş inkişaf potensialı olan!) bir xalqdır, onun müxtəlif siyasi-ideoloji şəraitlərdə yaşaması genetik birliyini, eyni etnokulturoloji sistemə mənsubluğunu inkar etmir"* [51, s.172-173].

Beləliklə, Ulu Öndər Heydər Əliyev hakimiyyətinin bütün dövrlərində azərbaycanlılara, o cümlədən cənubi azərbaycanlılara, onların ədəbi-bədii irsinə qayğı ilə yanaşmış, parçalanmış vətən və milli-mənəvi bütövlük ideyasını, XX əsrin sonlarında isə dünya azərbaycanlılarını birləşdirən azərbaycançılıq ideyasını irəli sürmüş və gerçəkləşdirmişdir. Heydər Əliyevin Böyük Azərbaycan ideyası təkcə Şimali və Cənubi Azəraycanı deyil, bütün dünya azərbaycanlılarının ideya birliyini özündə təcəssüm etdirdi.

Bütövlükdə "*Heydər Əliyevin nəzəri irsi elə böyük bir xəzinədir ki, onu təhlil etməklə qurtaran deyil*" [140, s.6]. Şübhəsiz ki, bu irsin mühüm bir qismini milli-mənəvi bütövlük problemi təşkil edir və dissertasiyada bu kontekstdə ən zəruri məsələlərdən bəhs edilməklə kifayətlənilmişdir.

# IV FƏSİL

# ŞİMALİ AZƏRBAYCANDA FƏALİYYƏT GÖSTƏRƏN CƏNUBLU MÜHACİR YAZARLARIN YARADICILIĞINDA VƏTƏN HƏSRƏTİ İDEYALARI

## 4.1. Cənubi Azərbaycan mühacirət ədəbiyyatında vahid vətən ideyası və həsrət motivləri (XX əsrin 40-50-ci illəri)

Azərbaycan mühacirət ədəbiyyatı ilə bağlı araşdırmalarda onun inkişafı dörd mərhələyə bölünür:

"1) *1909-1920-ci illər ədəbiyyatı;*

*2) 1920-1941-ci illər dövründə ədəbiyyat;*

*3) 1941-1991-ci illər dövründə ədəbi proses;*

*4)1991-ci ildən bu günədək olan dövrün ədəbiyyatı"* [37].

Bizi maraqlandıran və tədqiqat obyektimiz olan dövr 1941-ci ildən sonrakı dövrlərdə yaranmış mühacirət ədəbiyyatıdır. Bu dövrdə mühacir etmiş ədiblər əsasən Şimali və Cənubi Azərbaycandan idilər. Şimali Azərbaycandan II Dünya Müharibəsi zamanı əsir düşmüş yazarlar geri qayıtdıqda repressiyaya məruz qalacaqlarından ehtiyat edərək Almaniyada və Türkiyədə yaşayıb-yaratmışlar. Mühacir yazarların digər qismi İrandan və Cənubi Azərbaycandan mühacir etmiş yaradıcı siyasətçilər, milli ruhda əsərlər yazan yazıçı və şairlər idi. "*Seyid Cəfər Pişəvəri, Məhəmməd Biriya, Həmzə Fəthi, Hökumə Bülluri, Balaş Azəroğlu, Mədinə Gülgün, Qulamrza Səbri Təbrizi, Qulamhüseyn Saedi, Məhəmmədəli Mahmud, Həmid Nitqi və başqa yazıçı və şairlər İran hökumətinin despotizmindən yaxa qurtararaq dünyanın müxtəlif yerlərinə, bir hissəsi isə Şimali Azərbaycana mühacirət etmişdilər. Bu proses 1945-1946-cı illərdə Cənubi Azərbaycanda Milli Hökumətin süqutundan sonra baş vermişdi*" [71]. Məhz bu dövrdən sonra bölünmüş vətən, vahid Azərbaycan, parçalanmış vətən dərdi, yurd, el-oba həsrəti, milli-mənəvi birliyin zərurəti və s. mövzular ədəbiyyatda öz geniş əksini tapdı.

Şimali Azərbaycanda mühacirət ədəbiyyatının yaranması səbəbləri İranda baş verən siyasi proseslərlə bağlı idi. Yazıçı publisist, partiya ideoloqu Seyid Cəfər Pişəvəri 1945-ci ilin axırlarında Azərbaycan Demokrat Partiyasının orqanı olan "Azərbaycan" qəzetində partiyanın minimun tələblərini irəli sürdü. Bunlar aşağıdakılardan ibarət idi:

- Azərbaycan dilinin hüquq və statusunun genişləndirilməsi;

- Konstitusiyaya əsaslanan inzibati, iqtisadi və mədəni muxtariyyət əldə edilməsi;

- Vilayət şurasının yaradılması.

ADF separatçılıqdan uzaq, müstəqil və vahid İran tərkibində muxtariyyət ideyasını müdafiə edirdi. Lakin İran hökuməti buna mane olsaydı, onda Azərbaycan müstəqilliyini əldə etmək fikrində idi. Adıgözəl Məmmədov "Cənubi Azərbaycan hərəkatının süqutunun gizlinləri: *İ.Stalin–M.Bağırov–S.C. Pişəvəri*" *məqaləsində göstərir ki, "SSRİ İran neftini ələ keçirmək üçün müxtəlif gedişlər edib. İkinci Dünya müharibəsi zamanı SSRİ İran planını arxaya keçirsə də sonradan yenidən fəaliyyətə başlayıb. Bu fəaliyyət üçün isə əsas məsələ azərbaycanlıların ayağa qaldırılması, hətta müstəqil demokratik Cənubi Azərbaycan Respublikasının yaradılması da olub*" [207]. Deməli, Cənubi Azərbaycanda muxtariyyət və ya müstəqil respublika yaradılmasında SSRİ-nin geosiyasi marağı əsas rol oynamışdır.

Cənubi Azərbaycanda hakimiyyət ən az qan tökülməklə ələ keçirildi.1945-ci il Təbrizdə Milli Təsis qurultayı keçirildi. Qurultay öz bəyanatında bildirdi:

*"1. Azərbaycan xalqı tarixən özünəməxsus millət, dil, mədəniyyət və ənənələrlə səciyyələnən tarixə malikdir. Bu keyfiyyətlərin olması Azərbaycana Atlantika bəyannaməsində bütün xalqlara vəd olunan azadlıq və muxtariyyət əldə etməyə ixtiyar verir.*

*2. Azərbaycan millətinin İrandan ayrılmaq və ya İranın ərazi bütövlüyünə xələl gətirmək arzusu yoxdur. Çünki Azərbaycan özü ilə digər vilayətlər arasında mövcud olan sıx mədəni, təhsil, siyasi əlaqələrindən xəbərdardır.*

*3. Azərbaycan milləti var gücü ilə demokratiyanı, o cümlədən, onun İranda konstitusiyalı hökumət formasını müdafiə edir.*

*4. İranın bütün vətəndaşları kimi, azərbaycanlılar Milli Məclisə deputatlar seçməklə və vergi ödəməklə mərkəzi hökumətin fəaliyyətində iştirak edəcəklər.*

*5. Azərbaycan milləti açıq və rəsmi şəkildə bildirir ki, İranın bütövlüyünə hörmət etmək şərtilə, digər millətlər kimi onun öz hökumətini qurmağa və daxili prosesləri, dövlət işlərini idarə etməyə ixtiyarı vardır.*

*6. Azərbaycan milləti azadlıq yolunda böyük qurbanlar verdiyindən, öz muxtariyyətini demokratiyanın möhkəm təməli üzərində qurmağı qərara alıb, buna görə də Azərbaycan Muxtar Hökumətinə nazirlər seçilməsi üçün Milli Qurultaya müraciət edir.*

*7. Azərbaycan millətinin öz milli və ana dilinə xüsusi bağlılığı var. Bu, aşkardır ki, Azərbaycan xalqına başqa dilin qəbul etdirilməsi onun tarixi inkişafını ləngitmişdir. Məhz bu səbəbə görə qurultay öz diplomatik nümayəndələrinə məktəblərdə və hökumət idarələrində bacardıqca tez zamanda ana dilinin işlədilməsi haqqında göstəriş verir.*

*8. 150000 imza ilə dəstəklənən qurultay özünün təsis yığıncağını elan edir və Azərbaycanı idarə etmək, yuxarıda adı çəkilən qərarları həyata keçirmək üçün Milli Məclis çağırılanadək Komitə təyin edir*" [243, s.195-196]. Göründüyü kimi, Azərbaycan xalqı öz beynəlxalq və milli hüquqlarından istifadə edərək muxtar və müstəqil dövlət qurmaq, milli dilini ictimai həyatın bütün sahələrində işlətmək, separatçılığa yol vermədən özünüidarəyə nail olmaq, idarəçilik qurumlarına malik olmaq hüququnu bəyan etdi.

Azərbaycan Milli Hökuməti azərbaycançılıq ideyalarını həyata keçirirdi. Professor Tadeuş Svyatoxovski yazır: "*İki Azərbaycan arasındakı əlaqələr həm çoxcəhətli idi, həm də müxtəlif xarakter daşıyırdı: sovet dövründən qabaqkı illərdə olduğu kimi bu əlaqələr gah intensiv xarakter alır, gah da yenicə cücərməyə başlayırdı. Rəsmi nümayəndələrin səfərləri kimi, Bakı yaradıcı qurumlarının Təbrizə gəlişinin üstün olduğu mədəni mübadilə gücləndirildi. Mədəni inqilabın xarakterinə güclü sovet təsiri var idi və bunun da ən diqqətəlayiq cəhəti ədəbiyyata göstərilən dövlət qayğısından ibarət idi. Ədəbi dilin, ən çoxu ərəb deyil, fars ünsürlərindən təmizlənməsi uğrunda aparılan kompaniya, bu dili rus dilindən alınma sözlər daxil*

*etməklə, Azərbaycan dilinin Bakı variantı ilə eyniləşdirmək cəhdinə çevrildi. Forma, tematika, dramaturgiya, qəzet, redaksiya kimi istilahlar, eləcə də sırf rusca olan obraz, zavod, povest kimi sözlər Təbriz qəzet və jurnallarının dilinə daxil oldu. Bu, Təbrizdə yaşayan sovet yazıçıları, jurnalistləri və təbliğatçılarının əlbir redaksiya işinin əməli nəticəsi idi. Ana Vətən, ana dili, Azərbaycanın şanlı keçmişi və onun tarixi şəxsiyyətləri mövzusunda məhəbbətlə yazan şair və yazıçılar eynilə Sovet İttifaqı haqqında da tərifli sözlər uydururdular. Tədqiqatçı Səkinə Berengian Təbriz mətbuatında dərc olunan yazılardan elə tipik şeir başlıqları misal gətirir ki, bunların arasında Oktyabr inqilabına, qalibiyyəti Qızıl Orduya, May bayramına və hamısından daha çox Stalin və Leninə həsr edilmiş mədhiyyələr var. Şərqi Avropanı qeyri-adi dərəcədə xatırladan bir tərzdə, yerli milliyyətçiliyin təşəkkülü SSRİ-nin şəninə yaltaqlıqla söylənmiş yaltaq ifadələrinin yayılması ilə əl-ələ gedirdi*" [243, s.206-207].

Buradan məlum olur ki, iki Azərbaycan arasında mədəni, ədəbi-bədii əlaqələr güclənirdi. Əslində Şimali Azərbaycanda kommunist, sosialist ideologiyası bütün sahələrə, o cümlədən cənubdakı ədəbi-bədii və siyasi-publisist yaradıcılığa sirayət edirdi. Həmçinin Azərbaycan Milli Hökuməti dövründə "*ana dilində yazmaq yasaqlığı müvəqqəti də olsa aradan qaldırılmış, bu isə milli ədəbiyyatın tərəqqisinə təsirsiz qalmamışdır*" [110, s.9].

Azərbaycan Demokrat Firqəsi Parsabaddan Həmədana kimi ərazilərə nəzarət edirdi. M.C.Bağırovun tapşırığı ilə İran Kürdüstanının lideri Qazı Məhəmməd ona rəsmi olaraq müraciət etdi. Müraciətdən aydın olur ki, İran Kürdüstanının maraqları ilə bağlı qərarlar Demokrat Firqəsi tərəfindən qəbul olunurdu. İran Kürdüstanı müəyyən muxtariyyət hüququna malik olmaqla Cənubi Azərbaycan ərazisinə aid idi. M.C.Bağırovun tapşırığı ilə Təbrizə göndərilmiş incəsənət xadimləri və təşviqat qrupları Cənubi Azərbaycanda yaşayan xalqlar, o cümlədən də, Azərbaycan türkləri ilə görüşür və onlarda milli özünüdərk şüuru formalaşdırırdılar. İran Azərbaycanında ilk dəfə olaraq milli dil haqqında qərar qəbul olunmuşdu (28 dekabr 1945-ci il). Qərarda deyilirdi: "*Bu gündən Azərbaycanda rəsmi dövlət dili Azərbaycan dilidir*" [224, s.132].

1945-1946-cı illərdə Milli hökumətin fəaliyyəti dövründə M.C.Bağırovun köməyi ilə Cənubi Azərbaycanda Azərbaycan radiosu, Dövlət teatrı, Dövlət universiteti və digər milli mədəniyyət ocaqları yaradılmışdır.Əlbəttə, əks tərəf, yəni Tehran bütün bu hadisələri sakitcə izləmir, öz fəaliyyətinin konturlarını formalaşdırmağa çalışırdı.

M.C.Bağırov çalışırdı ki, Sovet Ordusu hissələri İranı tərk etdikdən sonra sövetlərin nəzarəti altında olan müstəqil Cənubi Azərbaycan dövləti və Şimali Kürdüstan kommunist-sovet Azərbaycanına birləşdirilsin Bununla da yeni yaranacaq Böyük sovet Azərbaycanının əraziləri İraqla həmsərhəd olacaqdı. Həmin planların gerçəkləşməsi Sovet hökumətinə İraqdakı kürdlərdən və Kərkük türkmənlərindən ingilislərə təzyiq vasitəsi kimi istifadə etməyə və Mosuldakı zəngin neft yataqlarını ələ keçirməyə imkan yaradacaqdı.

Şübhəsiz ki, bədii-publisistik səpkili əsərlərdə təcəssümün tapan “Böyük Azərbaycan”, “müstəqil Azərbaycan milləti” ideyaları vahid İran kimliyi ilə ziddiyyət təşkil edirdi.

Sovet Azərbaycanının kütləvi informasiya materialları, bədii əsərləri kiril əlifbasında yazıldığı üçün Cənubi Azərbaycanda lazimi səviyyədə yayılmırdı. Sovet Azərbaycanı daha çox Cənuba demokratlara silah-sursat verir, onlara hərbi təlim keçirməkdə yardım edirdi. Sovet Azərbaycanının rəhbəri M.C.Bağırov Moskvanın İrandakı siyasətinə uyğun hərəkət edirdi. O, Cənubi Azərbaycan Muxtar Hökumətinin Sovet Azərbaycanına birləşməyini istəyirdi. “*Təbriz rejimində, hər halda, iki rəhbər şəxsiyyət: Daneşian və Kəbiri iki Azərbaycanı birləşdirmək zərurətinə inam bəsləmələri cəhətdən tanınmışdılar və onlar mümkündür ki, Pişəvərinin xəbəri olmadan Bağırovun cəsusları ilə daim əlaqə saxlayırdılar. Həqiqətən, Pişəvəri dəfələrlə bildirmişdi ki, tabeliyində olan hökumət məmurlarından bəzilərinə tam nəzarət edə bilmir və özünün açıq çıxışlarında birləşdirilmə ideyasının nəzərdə tutulmasını qəti şəkildə rədd edirdi*” [243, s.207-208]. Bəziləri hər iki Azərbaycanın birləşməsinə kommunistlərə satqınlıq hesab edirdilər. Varlı təbəqələr, din xadimləri yeni rejimə qarşı çıxdı. Tezliklə hökumət məğlub oldu və süqut etdi.

Azərbaycan Muxtar Respublikası iqtisadiyyat, ictimai həyat və mədəniyyət sahəsində radikal islahatlar apardı. 1945-1946-cı illər milli demokratik hərəkatı "*bədii ədəbiyyatın, incəsənətin, bütün mədəniyyətin inkişafında yeni dövr açdı, demokratik və sosialist məzmunlu realist ədəbiyyata güclü təkan verdi*" [299, s.3]. Göründüyü kimi, Milli Hökumətin ədəbiyyatı realist, demokratik və sosialist məzmunlu bədii yaradıcılıq prosesi idi.

Azərbaycan Milli Hökuməti mədəniyyətin, xüsusilə ədəbiyyatın inkişafı üçün geniş miqyaslı tədbirlər gördü. *"1946-cı ildə Yazıçı və şairlər cəmiyyəti yaradıldı. Cəmiyyətin mərkəzi mətbu orqanı "Günəş" jurnalı idi. Cəmiyyətin bir çox şəhərlərdə bölmələri fəaliyyət göstərirdi"* [297, s.104-105]. Bu illərdə Azərbaycan dilində 50 adda qəzet və jurnal nəşr edilirdi, dərsliklər və bədii əsərlər də milli dildə çap edilirdi. Milli ideyaları təbliğ edən Təbriz radiostansiyası yaradıldı, milli qəhrəmanların – Səttarxanın, Bağırxanın, Xiyabaninin heykəlləri ucaldıldı. İqtidarda olan Azərbaycan Demokrat Partiyasının siyasəti "*Azərbaycan xalqının mədəni həyatının zənginləşməsinə, onun milli özünüdərkinin inkişafına səbəb oldu*" [297, s.104-105]. Mütərəqqi ideyalar təbliğ edən elmi və bədii əsərlər xalqın demokratik hüquqları uğrunda mübarizə aparırdı.

Azərbaycan Milli Hökumətinin süqutundan sonra mürtəce İran hökuməti fədailərin, demokratların kütləvi qırğınını təşkil etdi, onlar represiyaya məruz qaldılar, dar ağaclarından asıldılar, güllələndilər. Demokratik hökumətin qəbul etdiyi bütün qanun və qərarlar ləğv edildi. Təbriz Universiteti bağlandı, Azərbaycan dilində yazılmış bütün əsərlər yandırıldı. "*Yenidən Azərbaycan dilinin istifadə sahələri ciddi surətdə məhdudlaşdırıldı. "Vahid İran milləti" konsepsiyasının təbliğatı gücləndirildi... 1945-1946-cı illər hadisələrindən sonra mürtəce İran alimlərinin əsərlərində Azərbaycan xalqının tarixi, onun etnik mənsubluğu, ədəbiyyatı, dili saxtalaşdırılmaqda davam etdirildi. Mürtəce məzmunlu məqalələrdə İran hakimiyyət orqanlarının azərbaycanlıların assimliyasiya siyasətinə haqq qazandırıldı. Onların müəllifləri hökumətə Azərbaycanın Midiya adlandırılmasını təklif etdilər*" [297, s.105-106]. Bütün bunlar əslində Tehranın əsrlər boyu qeyri-farslara, o cümlədən azərbaycanlılara münasibətinin ifadəsinin, onların farslaşdırılmasının, milli özünəməxsusluğunun,

milli varlığının məhv edilməsinin davam etdirilməsini göstərir. Beləliklə, İran mürtəce, şovinist dairələri ölkədəki bütün xalqların milli mədəniyyətlərini, ədəbiyyatlarını, dillərini, ənənələrini, milli özünəməxsusluqlarını məhv edərək onlar üzərində hökümranlığını təmin etdi. Demokratik dövlətin süqutundan sonra xalqın milli varlığının daşıyıcısı olan folklor əsərləri belə qeyri-leqal şəkildə yayılırdı.

Belə bir şəraitdə Cənubi Azərbaycandan mühacirət İranın mürtəce, şovinist dairələrinin intiqamından xilas olmağın yeganə yolu idi. SSRİ isə mühacirləri qəbul etdi. T.Svyataxovski ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin məlumatına əsasən göstərir ki, "*Culfa körpüsü üzərində İran azərbaycanlılarını daşıyan 110 yük maşını qeydə alınmışdı; bunlara dövlət məmurları, hərbi heyət, mühacirlər və Pişəvəri də aralarında olmaqla partiya rəhbərləri daxil idi. Qaçqınların ümumi sayı 15000 nəfərə çatırdı*" [243, s.219]. Bununla da sovet rejimi şəraitində yaşayan cənublu yazarlar mühacirət həyatı sürməyə məcbur oldular. Onlar bölünmüş vətəninin bir parçasında mühacirət ədəbiyyatının nümunələrini yaratdılar. Azərbaycan Milli Hökumətinin süqutundan sonra Cənubdan Şimala mühacirət edən Balaş Azəroğlu, Hökumə Billuri, Mədinə Gülgün, Əli Tudə, Söhrab Tahir kimi sənətkarlar bölünmüş vətən həsrətini ədəbiyyatda daha da gücləndirdilər.

M.Mehdibəyova mühacirət ədəbiyyatın yaranma səbəblərini göstərərək yazır: "*Bəşər tarixində dəfələrlə müşahidə olunduğu kimi, dünyanın bir sıra xalqlarının həyatnıda siyasi-tarixi gedişatın təsiri altında elə hadisələr baş verir ki, sonralar uzun müddət onun əks-sədası beyinlərdə və şüurlarda səslənməkdə davam edir. Bu cür taleyüklü hadisələrdən biri də, müxtəlif səbəblərdən, ən başlıcası isə başqa bir millətin və ya dövlətin intervensiyası, kobud müdaxiləsi nəticəsində millətin ən yaxşı oğullarının vətəndən didərgin düşməsi, millət üçün fəaliyyətlərini xaricdə davam etdirməyə məcbur olması hadisəsidir. Siyasi terminlərə "emiqrasiya", yaxud "mühacirət", yəni öz yurd-yuvasından köçməyə məcbur olmaq adlanan bu hadisənin iştirakçıları da siyasi mühacirlər, köçkünlər, emiqrantlar adlanır və onların ictimai, siyasi, ədəbi, mədəni fəaliyyəti də bu termin altında ümumiləşdirilir*" [180, s.8]. Müəllif mühacirliyin məcburi zorakılıq, müdaxilə ilə bağlı olduğunu, mühacir ədəbiyyatın da həmin şəraitdə yarandığını qeyd edir. Bu baxımdan Cənubi Azər-

baycan mühacir ədəbiyyatı spesifikliyilə fərqlənir. Belə ki, Cənubi Azərbaycan yazarları öz doğma vətənlərinə gəldiyindən onları o qədər də mühacir hesab etmək olmaz. Mühacir ədəbiyyatı vahid Azərbaycan ədəbiyyatının tərkib hissəsi olsa da müəyyən cəhətlərilə fərqlənir.Tədqiqatçı Cənubi Azərbaycan mühacirət nəsrində 1947-ci ilin xüsusi mərhələ təşkil etdiyini göstərir.

Mühacirət və Cənubi Azərbaycan ədəbiyyatını qarşılıqlı əlaqə şəraitində tədqiq edən ədəbiyyatşünas Sabir Əmirovun ədəbi prosesə yanaşmasını Balaş Azəroğlu üç mərhələyə ayırmışdır:

"*1) 1941-1946-cı illərdə milli azadlıq uğrnda gedən mübarizə və milli hökumət dövrünü əhatə edən ədəbiyyat;*

*2) 1947-1979-cu illərdə ölkədə irticanın hökm sürdüyü dövrdə ədəbiyyat;*

*3) 1979-cu ildən sonra işıq üzü görən ədəbiyyat;*

*Yorulmadan axtarışda olan Sabir bu mərhələlərin ədəbi prosesini dövrün və zamanın, məkan və ictimai şəraitin çərçivəsində həqiqi bir ədəbiyyatşünas səriştəsi ilə tədqiq və təhlil etmişdir*" [100, s.3]. B.Azəroğlunun və bu bölgüsü milli-demokratik, irtica və islam inqilabı dövrlərini əhatə edir.

Sabir Əmirov öz əsərinin girişində isə aşağıdakı bölgünü irəli sürür:

"*1) 1941-1946-cı illər xalq hərəkəti dövrü;*

*2) 1947-1953-cü illər-irtica dövrü;*

*3) 1953-1978-ci illər. "Ağ inqilab" dövrü;*

*4) 1978-1985-ci illər. Pəhləvi sülaləsinin süqutu. İlk addımlar.*

*5) 1985-1990-cı illər. Təkamül və təlatümlü dövrlər*" [100, s.7].

Bu bölgüdə irtica dövrü iki mərhələyə bölünərək islam inqilabından sonra Pəhləvi sülaləsinin süqutunun proses kimi davam etdiyi və inkişaf dövrü göstərilir.

Əsrin 40-50-ci illərində Şimalda və Cənubda mühacirət ədəbiyyatı hər iki vətənin mənəvi vəhdəti prosesinə çevrildi. S.Əmirov bu münasibətlə yazır: "*Mühacirət dövrü ədəbiyyatının tədqiqini əsərə daxil etməsək də yeri gəlmişkən xatırlatmağı vacib hesab edirik ki, Milli hökumətin süqutundan sonra (1946) vətəni tərk etməyə məcbur olan fədai şair və yazıçılar öz süngülərini qələmlə əvəz etdilər. Mühacirət illərində Balaş Azəroğlu, Əli Tudə, İbrahim Zakir, Mir Mehdi Çavuşi, Aşıq Hüseyn*

*(Cavan), Mədinə Gülgün, Hökumə Billuri, Söhrab Tahir, İsmayıl Cəfərpur, Əbülfəz Hüseyni, Hüseyin Ərəboğlu, Əliqulu Heydərzadə kimi şairlər demokratik poeziyann xəzinəsini yeni motivlərlə zənginləşdirirdilər.Bu dövrün nəsrinin uğurlarından da inamla söz açmaq olar. Mühacirətə qədər Həmzə Fəthi Xoşginabi, Bəylər Haili, Mir Rəhim Vilai, Abbas Pənahi, Qəhrəman Qəhrəmanzadə, Qafar Herisçi, Rəhim Cadniki, M.Ərməğan, Məcid Ziya topladıqları zəngin həyat materialı əsasında hekayə, povest və romanlar yazmaqla Cənubi Azərbaycan nəsrində yeni cığır açdılar. Həmid Məmmədzadə, Məmmədrza Afiyət, Firuz Sadıqzadə, Məmməd Dadaşzadə, Ağaverdi, Cəfər Müciri, Əyyub Nəmini kimi yazıçıları məhz mühacirət illərinin yetirmələri hesab etmək heç də yanlış olmazdı*" [100, s.8]. Müəllifin qeyd etdiyi kimi, Cənubi Azərbaycan yazıçı və şairlərinin bəziləri mühacirətə qədərki mərhələdə, digər bir qismi isə mühacirət dövründə yetişmiş və formalaşmışlar

Cənubi Azərbaycan Milli Hökumətinin baş naziri, 1905-ci ildən 1927-ci ilə qədər Bakıda yaşamış, 1927-ci ildə Kominternin tapşırığı ilə Cənubi Azərbaycana gəlmiş, 1930-1941-ci illərdə İranda həbsxana həyatı sürən S.C.Pişəvəri 1946-cı ildən 1947-ci ilə qədər Bakıda mühacir həyatı yaşamışdır.

Filologiya elmləri doktoru, professor Almaz Əliqızı Cənub ədəbiyyatında yazıçıların mühacirət, sürgün və zindan həyatlarının povest və romanlarda bədii təcəssümünü tapdığı kimi, Z.Marağayi, M.Ə.Talıbov, Məmmədəli Sabit və S.C.Pişəvərinin vətəndən üzaqlarda keçən məcburi qurbət həyatının ədəbi qəhrəmanlarının timsalında verildiyinin göstərir: "*Milli demokratik hərəkatdan sonrakı nəslərin payına düşən sürgünlülərin xatirələri özündən qabaqkı mərhələnin ənənəvi davamı şəkilində meydana çıxırdı*" [83, s.259]. Cənubi Azərbaycan ədəbiyyatı üzrə görkəmli mütəxəssis Almaz Əliqızı İranxarici və İrandaxili sürgunlərin əsas fərqini birinci dövrdə bu mühacirətin siyasi repressiya üzündən baş verdiyi halda, ikinci dövrdə rejim tərəfindən uçqarlara məcburi sürgünlər olduğunu diqqətə çatdırır, bütün bünların isə hekayələrin, povestlərin və romanların mövzusuna çevrilməyə başladığını göstərir.

S.C.Pişəvərinin 40-cı illərdə qələmə aldığı siyasi-publisistik yazılarda azərbaycançılıq, milli-mənəvi vəhdət ideyası öz əksini tapmışdı. Onun 1945-ci ildə

yaradılmış Azərbaycan Demokrat Firqəsinin orqanı olan "Azərbaycan" qəzeti haqqında yazdığı "Ruznaməmizin dili" məqaləsində Azərbaycan dilini xalqın varlığının ayrılmaz hissəsi hesab edərək, bu dili məhv edənləri xain və düşmən sayaraq, farslaşdırma siyasətini kəskin tənqid edir və bildirir ki, Azərbaycan dilinin "yaşamasının və tərəqqisinin qarşısını almağa cəhd etsə də şah rejimi məqsədinə nail ola bilməmişdir. Çünki Azərbaycan dilinin daşıyıcısı və dayağı böyük Azərbaycan xalqıdır: "*Dilimiz xalqın yaratdığı dastanlar, zərbü -məsələlər, hekayə və nağıllar vasitəslə dünyanın ən böyük dilləri ilə rəqabət edə bilər, şairlərimiz və ədiblərimiz bu dil vasitəslə öz ehsalatlarını hünər və sənətlərini vücuda gətirib xalqın nəzərini cəlb edə bilərlər"* [62, c.3, s.324]. Buradan göründüyü kimi, Azərbaycan dili xalq yaradıcılığı və ədəbi-bədii proseslər nəticəsində inkişaf edib əsrlərin sınağından çıxmış, vahid bir xalqın -Azərbaycan xalqının mənəvi sərvəti kimi bu gün də yaşayıb inkişaf etməkdədir.

S.C.Pişəvəri Azərbaycan dilinin hüquqlarının genişləndirilməsi, alınma sözlərin milliləşdirilməsi zərurətini göstərməklə yanaşı, dilin inkişafında Azərbaycan yazıçılarının öhdəsinə böyük vəzifələr düşdüyünü də xüsusi qeyd edir: "*Azərbaycan yazıçılarının qəbul etdikləri bir çətin və ağır vəzifəni iman və əqidə ilə ifa etməklə dilimizin gözəlliyini və onun tərəqqi və təkamülünü təmin edəcəklərinə bizim ciddi imanımız vardır*" [62, c.3, s.325]. Müəllif bununla da Azərbaycan dilinin inkişafında yazıçıların roluna xüsusi önəm verirdi.

ADF-nin konqresində Azərbaycan dilinin monqollar və farslar tərəfindən assimilyasiyaya uğramadığını, milli muxtariyyət məsələsinin çox böyük yer tutduğunu qeyd edən S.C.Pişəvəri göstərir ki, İranın istiqlaliyyəti və bütövlüyü daxilində "*Azərbaycanın öz daxili işlərini azad bir surətdə idarə etməyə qadir olması və buna əməl etmək üçün əyalət və vilayət əncümənlərinin təxirəsalınmaz çağırılması"* [62, c.3, s.328] əsas bir məsələdir.

O, Azərbaycan xalqının özünü idarə etməyə layiq və qadir bir xalq olduğunu xüsusi qeyd edir. S.C.Pişəvəri öz firqə dostlarını "vahid bir ruh, vahid bir məslək, vahid bir yol təqib edən fədakar, ciddi və layiq adamlar" kimi səciyyələndirir.

İranda şah rejiminin istibdadı,onun orta əsrlərdən qalma cəza üsullarına əl atması azərbaycanlıların mühacirətinə səbəb olur, eyni zamanda Azərbaycan xalqı özünüidarə etmək üçün yollar axtarır: "*Qoy bütün dünya bilsin ki, Azərbaycan xalqı bu cinayətkar dövlətin (İranın şah rejiminin-A.H.) mənhus siyasəti nəticəsində nə bəlalar çəkmiş, nə səbəbə özünü idarə etmək üçün çarə axtarmağa başlamışdır*" [62, c.3, s. 331]. Deməli, Cənubi Azərbaycanın muxtariyyət məsələsi İran şah rejiminin istibdad və zülmündən xilas olmaq ilə əlaqədar idi. Azərbaycan xalqının əsarətdən yaxa qurtarmaq, bütün millətlər kimi müstəqil yaşamaq hüququna malik olduğunu göstərən müəllif buna nail olmaq üçün sülh, əmin-amanlığın olmasını dönə-dönə israr edirdi: "*Biz min dəfə təkrar etmişik ki, istədiklərimiz məmləkətimizin sərhəddi daxilində məhdud olmuşdur. İrandan heç vəchlə ayrılmaq istəmirik və məşrutə üsuluna da səmim-qəlbdən sədaqətimiz vardır. Bununla belə isteman (zülm, əsarət-A.H.) heykəlləri dünyanın o başından bizə qan tutmuş hərbi gözlərini bərəldib deyir: "Yox siz də İranın bütün əhalisi kimi əsarət altında qalmalısınız*" [62, c.3, s.341]. Burada bir daha İran daxilində Azərbaycan muxtariyyəti məsələsinə toxunan müəllif göstərir ki, İran şovinist qüvvələri və dünya militarist güclərlə birləşərək bütün İran xalqları kimi azərbaycanlıları da əsarət altında saxlamağı istəyirlər.

S.C.Pişəvərinin başçılıq etdiyi ADF əsgərlər, jandarmlar, xalq bütün təbəqələr arasında qan tökülməməsinin,cəmiyyətdə əmin-amanlığın, əmniyyətin, barışığın tərəfdarıdır. Lakin İranın şah rejimi demokratik hüquqlarını tələb edən Azərbaycan xalqının qanını tökür... "*Firqəmizin göstərdiyi yol düz imiş, xalqımız əgər öz milli dövlətini vücuda gətirib milli qoşunlar yarada bilməz isə Tehran irticası onun haqq və ixtiyarını hər an əlindən ala bilər. Biz İran istiqlal və tamamiyyətini dəfələrlə etiraf etmişik, Tehran isə bu istiqlaliyyəti pozmaq yolunda hər gün təzə fırıldaq çıxarır...iş belə gedərsə biz tamamilə ayrılıb müstəqil bir dövlət təşkil etməyə məcbur olacağıq. Ayrı çarə yoxdur*" [62,c.3, s.346]. Azərbaycan xalqı müstəqilliyə milli dövləti və ordusu ilə nail ola bilər, öz haqqını və ixtiyarını qoruya bilər.

Azərbaycanın Milli Hökumətinin bir illiyi münasibətilə yazdığı "Alınan azadlığı saxlamaq, ondan xalqın səadəti üçün istifadə etmək lazımdır" məqaləsində Pişəvəri göstərir ki, "*İndi biz bütün dünyada bir millət kimi ərzandam edib, özümüzü idarə edə*

*bilmək üçün vücudə gətirdiyimiz milli təşkilatlarımız vasitəslə milli mədəniyyət və milli fərhəng üstündə gündən-günə tərəqqi və təkamülə doğru böyük qədəmlər götürə bilərik*" [62, c.3, s.347]. Müəllif azərbaycanlıların bir millət kimi idarə edə bilmək qabiliyyətinə malik olduğunu, buna görə də İranda və bütün Yaxın Şərqdə demokratik xalq kimi şöhrət qazandığını göstərir, dünya siyasətçilərinin Azərbaycanın demokratik əməl sahibi olduğunu yüksək dəyərləndirdiklərini diqqətə çatdırır.

1946-cı ildə yazdığı "Qızıl sıhifələr" kitabına müqəddimədə S.C.Pişəvəri göstərir ki, onun rəhbərlik etdiyi firqə milli dövlət yaratmaqla məşğul olur. O, milli dövlətçilik və azadlıq tarixinə toxunaraq xalqın vahid bir dilə və dövlətə, Azərbaycan dilinin monqol və fars dillərindən fərqli spesifik xüsusiyyətlərə malik olduğunu göstərir: "*Azərbaycanımızda öz milli dilimizdən başqa bir dil yoxdur... Dilimizin nüfuzu daha əzim və rüştü (kökü), daha dərindir. Onun tarixi isə...fars yazıçılarının puç iddialarının xilafına olaraq çox köhnə və qədimdir*" [62, c.3, s.349].

Şovinist farsçıları kəskin tənqid edən publisist göstərir ki, Azərbaycan heç vaxt fars dilini ana dili kimi qəbul etməmiş, ondan ədəbiyyat və şeir sahəsində az istifadə etmişdir. Farsçılar fars dilində yazan Azərbaycan şairlərini, Nizami Gəncəvini misal gətirərək azərbaycanlıların "fars olduğunu sübut etməyə cəhd edirlər. S.C.Pişəvəri bu iddianın əsassız olduğunu göstərir və bildirir ki, əgər bu iddianı qəbul etmiş olsaq, bütün iranlıların ərəb olduğunu qəbul etməliyik, çünki ərəb istilasından sonra minlərcə fars ədib, şair və mütəfəkkiri öz əsərlərini ərəb dilində yazıb, intişar vermişlər.

Sovet Azərbaycanında mühacirət ədəbiyyatını təmsil edənlər vaxtilə Cənubi Azərbaycanda "ana dilində nəşrə başlayan, "Vətən yolunda", "Azərbaycan", "Covdət", "Azad millət", "Qələbə", "Günəş", "Demokrat", "Fədai", "Şəfəq", "Azər" qəzet və jurnallarının ətrafında birləşən ədəbi qüvvələr idi. Onlar hər iki Azərbaycanda qayə və amallarını tərənnüm etməklə öz əsərləri ilə milli demokratik hərəkatın tərkib hissəsi olan ədəbiyyatın inkişafının əsasını qoydular. Tədqiqatçı Xaqan Balayev yazır: "*Azərbaycanın muxtariyyəti elan edildikdən sonra ədiblər də təşkilatlanaraq, daha geniş fəaliyyət göstərməyə başladılar. "Şairlər məclisi" müstəqil bir cəmiyyətə-"Şairlər və yazıçılar cəmiyyəti"nə çevrildi. Cəmiyyətin ətrafında az müddət ərzində 60-dan çox yazıçı toplandı. Cəmiyyət "Günəş" adlı*

*bədii-ictimai məcmuə nəşr etməyə başladı. Muxtariyyətin bir ili ərzində yaranmış ədəbiyyatın heç də hamısı sənətkarlıq baxımından yüksək səviyyədə olmasa da, Milli hökumətin həyata keçirdiyi islahatların ədəbiyyatda inikası (artıq nəşr əsərləri də yaranmağa başlamışdı) nöqteyi-nəzərindən əhəmiyyət kəsb edirdi.*

*1946-cı ilin dekabrında İran ordusu Cənubi Azərbaycanda kütləvi qırğın törədəndə Əli Fitrət, Sədi Yüzbəndi, Cəfər Məmmədzadə (Kaşit), Məmmədbağır Niknam kimi şairlər də ən vəhşi üsullarla qətlə yetirildilər. Digərləri Azərbaycan SSR-ə mühacirət edib, yaradıcıqlarını davam etdirdilər*" [40, s.56-57]. Deyilənlərdən məlum olur ki, muxtariyyət dövründə milli ədəbiyyat yeni dövrə uyğun təşəkkül tapır, ədəbi qüvvələr milli ideyaları əks etdirən əsərlər yazmağa başlayırdılar. "Mühacirətin ilk günlərindən digər mühacirlərə eyni taleyi bölüşdürən yaradıcı ziyalılara AYİ rəhbərliyi, ayrı-ayrı şair və yazıçılar (onların bir çoxu Təbrizdən tanış idilər) hər cür qayğı göstərmişdilər. Onların şeir və hekayələri mətbuatda, almanaxlarda çap olunurdu. "İnqilab və mədəniyyət" jurnalında "Cənubi Azərbaycan ədəbiyyatı" guşəsi ayrılmışdı. Yazıçılar İttifaqının təşkilatçılığı ilə "Cənubi Azərbaycan ədəbiyyatı gecələri" keçirilirdi. Sonralar mühacir ədiblər yaradıcılıq ezamiyyətlərinə göndərilir. 1950-ci ildən etibarən Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti dekadalarında iştirak edir, Azərbaycanın görkəmli sənətkarlarının ümumittifaq miqyasında keçirilən yubileyləri zamanı nümayəndə heyətlərinin tərkibində ölkənin müxtəlif şəhərlərində olurdular. Demək olar ki, tədricən onların hamısı ali təhsil almışdı. Gənc şair və yazıçılar, bir qayda olaraq, Azərbaycan Sovet Yazıçılar İttifaqının Azərbaycan LKGİ MK ilə birlikdə vaxtaşırı keçirdiyi respublika müşavirələrində iştirak edir, məruzələrdə onların yaradıcılığı da təhlil olunurdu. Təbrizdə yaradılmış "Şairlər və yazıçılar cəmiyyəti" də 1947-ci ildən Bakıda "Azərbaycan Yazıçılar Cəmiyyəti" adı ilə fəaliyyətini davam etdirməyə başlamışdı (sonralar müxtəlif mənbələrdə fərqli tərzdə adlanır: ADF MK sənədlərində - Cənubi Azərbaycan Yazıçılar Cəmiyyəti" Azərbaycan KP MK sənədlərində- "SSRİ-də İran Azərbaycanı Yazıçıları Cəmiyyəti"; Azərbaycan Sovet Ensiklopediyasında – "İran Azərbaycanı Yazıçılar Cəmiyyəti"). Cəmiyyətə Balaş Azəroğlu sədrlik edirdi. İbrahim Zakir, Abbas Pənahi (Makulu), Əli Tudə, Mədinə Gülgün, Hökumə Billuri, Aşıq

Hüseyn Cavan və digər təcrübəli ədiblərlə yanaşı, yaradıcılığa Sovet Azərbaycanında başlamış ”*Söhrab Tahir, Həmzə Fəthi Xoşginabi, İsmayıl Cəfərpur, Əliqulu Heydərzadə, Firuz Sadiqzadə, Sabir Əmirov, Məmməd Dadaşzadə, Məmmədrza Afiyət, Qasım Cahani, Həmid Məmmədzadə, Qulamrza Cəmşidi, Hüseynqulu Bəhrami, Qəhrəman Qəhrəmanzadə, Ağaverdi Ələkbərzadə, Cəfər Musiri kimi gənclər də cəmiyyətin işində fəal iştirak edirdilər. Balaş Azəroğludan sonra Cənubi Azərbaycan Yazıçılar Cəmiyyətinə uzun müddət Söhrab Tahir başçılıq etmişdi. Bir xalqın öz istiqlaliyyəti uğrunda apardığı mübarizəsini əks etdirmək və bu qəhrəman xalqın adına layiq əsərlər yaratmaq vəzifəsi bu kiçik dəstənin üzərinə düşürdü. Oxucular Cənubi Azərbaycan mövzusunda yazılmış əsərləri, adətən maraqla qarşılayırdılar. Lakin mühacir ədiblərin yaradıcılığı yalnız cənub mövzusu ilə məhdudlaşmırdı. Müxtəlif mövzularda da əsərlər yaradırdılar”* [40, s.57]. Göründüyü kimi, cənublu yaradıcı qüvvələr tədricən sovet Azərbaycanı ədəbi mühitinə inteqrasiya olunsa da, bölünmüş vətən mövzusu ilə diqqəti cəlb edirdilər. Artıq bu mühitdə möhkəmlənən cənublu ədəbi qüvvələrin qurumuna digər yaradıcı qüvvələr-alimlər, rəssamlar, aktyorlar və müğənnilər də daxil olurdular. Bununla da cəmiyyət Cənubdakı səviyyəsinə yüksələrək müntəzəm olaraq mədəni-kütləvi tədbirlər, xatirə mərasimləri, yubiley gecələri, ədəbi görüşlər və məclislər keçirirdilər. “*1947-ci ildən 1954-cü ilədək mühacir ədiblərin 29 adda kitabi çap olunmuşdu. Bundan əlavə, həmin müddətdə onların əsərlərindən ibarət 5 almanax da nəşr edilmişdi. Həmin almanaxlarda təcrübəli yazıçılarla yanaşı, yaradıçılığa Sovet Azərbaycanına gələndən sonra başlayan gənclərin də əsərləri dərc olunmuşdu. ADF Komitəsinin Məsələlərinə Baxılması üzrə Komissiya da mühacir ədiblərin yaradıcılığı ilə əlaqədar daxil olan təkliflərə baxır, qərarlar qəbul edirdi. Komissiya 22 may 1954-cü il tarixli iclasında “Demokrat yazıçılar qrupunun Azərbaycan Yazıçılar İttifaqına onun seksiyası kimi təşkilati birləşməsi haqqında” məsələ müzakirə olunmuşdu. Bundan sonra AYİ-də Cənubi Azərbaycan ədəbiyyatı bölməsi yaradılaraq bir müddət fəaliyyət göstərmişdi. Komissiyanın həmin iclasında vaxtaşırı buraxılan almanaxın həcmi 20 çap vərəqinə çatdırmaq haqqında qərar qəbul edilmişdi. 25 iyul 1955-ci il tarixli iclasında Kommissiya “1956-cı ildə demokrat yazıçı və şairlərin əsərlərinin*

*nəşri haqqında" məsələ müzakirə edərək, onların əsərlərinin nəşriyyatların planlarına daxil edilməsi haqqında qərar qəbul etmiş, Azərbaycan Yazıçılar İttifaqına ADF MK ilə birlikdə demokrat yazıçı və şairlərə müşavirə keçirməyi tövsiyə etmişdi. Həmin il 12 müəllifin 8 adda şeir, 4 adda nəsr, B.Azəroğlu və Ə.Tudənin "Seçilmiş əsərləri" və bir almanax (cəmi 76 çap vərəqi həcmində) çap olunmuşdu. ADF MK-da cənublu ədiblərin təşkilati və yaradıcılıq məsələlərinin həllində yaxından iştirak edirdi. 1956-cı ildə hətta MK plenumlarının birində "Mühacirətdəki Cənubi Azərbaycan ədəbiyyatının son illərdəki yaradıcılıq prosesi barədə" məsələ müzakirə olunmuş, Söhrab Tahirin bu mövzudakı məruzəsindən sonra geniş müzakirələr aparılmışdı*" [40, s.58]. Buradan aydın olur ki, Azərbaycan sovet ədəbi mühitinə inteqrasiya olunan mühacir ədəbiyyata yeni gənc qüvvələr də qoşulur, cənublu yazarların təşkilatı AYİ-na birləşdirilir, beləliklə onlar Azərbaycan sovet yazıçıları ilə tam inteqrasiya olunur.

ADF MK-nin Sədri Çeşməzar 1958-ci il mayın 8-də AYİ-nın sədri Mehdi Hüseynə göndərdiyi məktubda yazırdı: "*Bildiyimiz kimi, ADF MK-nin təbliğat-təşkilat şöbəsinin nəzdində Cənubi Azərbaycan Yazıçıları Cəmiyyəti vardır ki, onun üzvləri bədii yaradıcılıq ilə məşğul olurlar. Bu yazıçıların bir sırası 1941-ci ildən sonra Cənubi Azərbaycanda milli azadlıq dövründə yazıb- yaratmağa başlamış, qalan dəstəsi isə 1947-ci ildən sonra Sovet Azərbaycanında yaranan imkanlardan istifadə edib, ədəbiyyat sahəsinə gəlmiş yoldaşlardır. İndi həmin yoldaşlar arasında yaradıcılıq cəhətdən yetkinləşmiş yazıçılarımızla bir sırada ümid verən gənc şair və nasirlər də vardır. Ümumazərbaycan ədəbiyyatının ayrılmaz bir hissəsini təşkil edən Cənubi Azərbaycan ədəbiyyatının inkişafı üçün Sovet İttifaqında yaranmış imkanlardan daha artıq istifadə etmək məqsədilə yazıçılarımız Azərbaycan Yazıçılar İttifaqı ilə daha sıx əlaqə saxlamaq və təşkilati cəhətdən daha çox yaxın olmaq arzusundadırlar. ADF-nin Mərkəzi Komitəsi ədəbiyyatımızın inkişafı və yazıçılarımızın yaradıcılığının irəliləməsi üçün onların arzusunu nəzərə alaraq, fərdi surətdə Azərbaycan Yazıçılar İttifaqına üzv olmaları işinə köməklik etmənizi sizdən xahiş edir*" [33, s.28]. Beləliklə, mühacir ədəbiyyatının aparıcı nümayəndələri AYİ-nin

üzvü seçildilər, onlar həm də ictimai vəzifə yerinə yetirir, ADF-nin rəhbər orqanlarında çalışır, partiyanın mətbu orqanının redaktoru kimi fəaliyyət göstərirdilər.

Azərbaycanda mühacirət ədəbiyyatının görkəmli nümayəndələrindən biri Abbas Pənahi (Makulu) Cənubi Azərbaycanda "Azərbaycan" qəzetində fəaliyyətə başlamış, azadxahlıq və dövlət əleyhinə çevrilişdə günahlandırılaraq şah rejimi tərəfindən həbs edilibdir. Onun "Təbriz gecələri", "Mübarizlər", "Səttarxan", "Xiyabani", "Gizli zindan", "Heydər Əmioğlu" əsərləri çap olunmuşdur.

1946-cı ildə Şimali Azərbaycana mühacir edən A.R.Makulunun 1950-ci ildə Bakıda "*Təbriz gecələri*" adlı hekayələr kitabı nəşr edilmişdir [176]. Yazıçının kitaba daxil olan "*İntiqam dəstəsi*" hekayəsində [176, s.166-201]. Azərbaycan Milli Hökumətinin süqutu zamanı ADF fəallarının fədakarlığı, demokratların İran şah rejimi tərəfindən təqib olunması, vətən həsrəti, qəhrəmanlıq motivləri öz əksini tapmışdır. Hekayədə Cənubi Azərbaycanda milli azadlıq hərəkatının fəallarına divan tutan, onları edam etdirənlərdən qisas alan xalq intiqamçılarının gizli fəaliyyəti bədii şəkildə təsvir edilmişdir.

Əsərdə fədailər 21 Azər-12 dekabr 1945-ci ildə Azərbaycan Milli Hökumətinin ideyalarını daşıyanlar, onun qurulmasında fəal iştirak edənlər "*xain Qavamüsəltənəninin İngilis və Amerika dövlətlərinin tələbi və köməyi ilə Azərbaycan Milli Hökumətinə qarşı etdiyi xain basqınından, indi Təbrizdə hökumətin mürtəce İran dövləti əlində olmasından və hər yerdə Azərbaycan demokratlarının təqib edilməsindən*" [176,169-170], onların edam edilməsindən, güllələnməsindən xəbərdar olan kimi mütəşəkkil bir qüvvəyə çevrilir, şah rejiminin jandarmlarına, yerli xainlərə-Səməd bəylərə, Bağır bəylərə ölüm hökmü verib məhv edirlər. Jandarm vəkilbaşı onların rejim üçün təhlükəli olduğunu bildirir: "*Bunlara əhəmiyyətsiz baxmaq olmaz, çünki bunlar indi özlərini bir intiqam dəstəsi kimi göstərir, bir dəqiqə bir yerdə aram tutmurlar. Əgər iş bir az da belə gedərsə onların dəstələri yekəlib böyüyəcək, onların öhdələrindən heç vaxt gəlmək mümkün olmayacaq*" [176, s.181]. Beləliklə, intiqam dəstəsi xalqın azadlığına, dilinə, namusuna toxunan xainləri cəzalandırırlar. İntiqam dəstəsinin sıralarının genişlənməsi xalq hərəkatının hələ də tamamilə məhv edilmədiyini sübut edir, gələcəkdə Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin davam

edəcəyinə inamı və ümidi ifadə edir. "Qırmızı aşıqlar" hekayəsində A.Makulu Azərbaycan Milli Hökumətinin süqutundan sonra şah rejiminin kəndləri xarabazara döndərməsi, Azərbaycan xalqına divan tutması, gəncləri, demokratları, fədailəri dar ağaclarından asmasını, qocaları zindana atması, qadınları, uşaqları sürgün etməsini, xalqın acınacaqlı vəziyyətini təsvir etmişdir. Hekayədə İran şah rejiminin öz cinayətlərini Azərbaycan demokratlarının "ayağına yazması", ədalətsiz şahın "adil şah" kimi təqdim edilməsi, əhalinin adi insani hüquqlarının pozulması da bədii əksini tapmışdır.

"*Təbriz gecələri*" hekayəsində [176, s.124-166] müəllif Azərbaycan Milli Hökumətinin süqutundan sonra qatillərin, soyğunçuların, xainlərin meydan suladığını, şah rejiminin onları silahlandıraraq öz xalqına qarşı cinayət törətməyə vadar etmələri, Qəvamülsəltənənin vədinə xilaf çıxaraq Azərbaycana basqın etdikləri göstərilir: "*Dünya bir saatın içində dəyişilmişdi. Qəvamülsəltənə Azərbaycan milli hökuməti ilə bağladığı əhd-peymanı tapdalayaraq, Amerika silahının gücü ilə Azərbaycana basqın etmişdi. Milli hökumət başçıları qardaş qanı tökülməsin deyə silahı yerə qoymuşdular. İndi işlər yenə də Qarnıyırtıq Kazım kimi adamların əlinə keçmişdi. Onlar bir il müddətində əl-qollarını bağlayan demokratlardan intiqam almağa, həm də vaxtdan istifadə edərək talan yolu ilə özlərinə "bir gün ağlamağa" çalışırdılar. Çapıq Qənbərlə yoldaşları da bu fikirdə olan adamlardan idilər*" [176, s.130]. Hacı Ələsgər, Cəmşidxan, Beytulla, Səttarzadə, Çapıq Qəmbər, Dabanıçəkik, İsgəndərxan, Həsən-xan, Ələkbərzadə və başqa varlı təbəqələr, eyni zamanda əyyaş, quldur, öz xalqına, milli-demokratik hərəkətə xain çıxanlar gizli fəaliyyətə keçmiş demokratik qüvvələri məhv etmək üçün şah rejiminə, güc strukturlarına kömək edirlər. Yazıçı onların əsas məkrli niyyətlərini doktor İsgəndərxanın dili ilə belə deyir: "*Müsəlmanın işini elə bu cür şeylər dala qoyur. Siz özünüz yaxşı bilirsiniz ki, mən bir nəfər həkim babayam, nə kəndim vardı yer bölgüsünə düşsün, nə adam öldürmüşdüm işim məhkəmədə olsun, nə də mədəniyyət üstündə həbs olunmuşdum. Bununla belə iki gündü yuxunu özümə haram edib bu xain vətənfüruşların kökünü qazmaqda bir saniyə də olsun qəflət etmirəm. Mən sizin yerinizə olsam bu söhbətləri buraxıb, ancaq bizə rəhbərlik edib yaxamızı o xainlərin əlindən xilas edənlərdən bərk yapışaram. Biz*

*rəhbərlərimizin əmrlərini yerinə yetirməklə öz haqşünaslığımızı sübuta yetirməliyik*" [176, s.141]. Əsərdə məlum olur ki, demokratları məhv etmək üçün onları "demokratiyanın beşiyi" ABŞ silahlandırır, bütün antimilli işlərə bu ölkənin Təbrizdəki konsulu rəhbərlik edir, ABŞ və İngiltərə öz geosiyasi maraqlarını əsas tutaraq Cənubi Azərbaycanın demokratik, muxtar dövlət olmasından, gələcəkdə onun Şimali Azərbaycanla birləşəcəyindən ehtiyat edirdilər.

Hacı Ələsgərin dediyindən məlum olur ki, amerikalıların və ingilislərin "*tankı və təyyarəsi olmasaydı dövlət qoşunu cəsarət edib Azərbaycana həmlə edə bilməzdi*" [176, s.142]. Vətən xainləri "onların boyunlarına böyük haqq qoymuş" ağalarının yolunda canlarından keçmələrinə belə and içib, demokratlara qarşı görüləcək "tədbirlər planını" bəyan edirdilər: "*Demokrat başçılarının rəsmi surətdə mühakimə edilib edam olunacaqlarını nəzərə alıb, onlardan tutulanları dövlət qoşunu şəhərə varid olana kimi möhkəm yerdə saxlamalısınız. 2-ci 3-cü dərəcəlilər küçə-bacada öldürülsünlər. Demokrat nəşriyyatına od vurulub yandırılsın*" [176, s.142]. Buradan aydın olur ki, öz xalqına qarşı çıxan xəyanətkarlar, fədakar Azərbaycan oğullarını məhv etmək, onların həyata keçirdikləri mütərəqqi ideyaları məhv etməyə fürsət gözləyirlərmiş.

Lakin bu xəyanətkar qüvvələrə qarşı xalqın azadlığı, müstəqilliyi və parçalanmış vətənin birliyi uğrunda millətin potensial gücünü təmsil edən "demokratik gənclər təşkilatı" vətən xainlərinə özlərinin intiqam məhkəməsi ilə ölüm hökmü verirlər. Demokratik firqə və Məcidin başçılıq etdiyi gənclər təşkilatı Azərbaycan Milli Hökumətinin rəhbəri S.C.Pişəvərinin lazım gəldikdə gizli fəaliyyətə keçmək ideyasını reallaşdırmaq üçün xalqın bütün mütərəqqi qüvvələrini öz ətrafında birləşdirməyi qərara alır: "*Rəhbər bugünkü günləri görüb və bizim vəzifələrimizi qabaqcadan müəyyənləşdiribdir. İndi hər bir firqəçinin borcudur ki, milli hökumətimizin dağıdılmasından ruhdan düşməyərək düşməni əzib dağıtmaq üçün fəaliyyətini birə yüz artırsın. Dünya imperialistlərinin itaətkar nökəri olan İran hökuməti ilə dünənə kimi açıq-açığına vuruşurdursa, bu gündən bu yana gizli döyüşlərə girişməliyik Bu xalq öz parlaq tarixində dəfələrlə bu cür hadisələrlə qarşılaşıb, amma düşmənə əyilməyib və həmişə mərəkədən qalib çıxıbdır. Düşməni*

*aradan qaldırmaq üçün indi yüzlərlə mənim və sənin kimi gizli fəaliyyətə başlamalıdır. Tehran cəlladları tərəfindən vəhşicəsinə öldürülən yüzlər və minlərlə fədailərimizin, vətəndaşlarımızın qanını almayınca heç bir azərbaycanlı rahatlan-mayacaqdır*" [176, s.143]. Təşkilat azadlıq fədailərinin mülkünə, həyatına qəsd edənlərdən intiqam almaq, fədailərin düşmən təqiblərindən yaxa qurtarmasını təmin etmək, gizli vərəqələrvasitəslə həqiqəti xalq arasında yaymağı planlaşdırır.

"Təbriz gecələri" hekayəsində İranın mərkəzi qoşunlarının Cənubi Azərbay-canda işğalçılıq hərəkətləri, onların faşistlərlə müqayisə ediləcək qəddarlığı təsvir edilir: "*Təbrizin vəziyyəti getdikcə pisləşirdi. Tehran qoşunu şəhərə daxil olandan sonra xalqa edilən zülmün həddi-hüdudu yoxdu. Şəhərə böyük hay-küylə gələn Tehran qoşunu özünə "istila ordusu" adı verərək Təbrizi və Cənubi Azərbaycanın başqa şəhər və kəndlərini bir yad qoşun kimi soyub talayırdı. Hökumət talançıların əməllərinə göz yumur və onları bir az da qızışdırırdı. Küçələrdə arxların içi meyitlərlə dolu idi. Şəhərin bir çox yerində dar ağacları qurulmuşdu. Gündə bir neçə demokrat bu dar ağaclarından asılır və onlarca adam həbsxanalara atılırdı.*

*Milli hökumət qüvvələrinin qan tökülməsin deyə, silahı yerə qoymalarından sui-istifadə edərək şəhərə döyüşsüz-davasız girən İran qoşununun acgöz zabitləri şəhərdə çox həyasızlıq edir, qarşılarına çıxan hər kəsi demokratsan deyə söyür, küçənin ortasında tapançalarını çəkib günahsız adamları qırırdılar.*

*Mürtəcelərin və Tehran zabitlərinin çox xoşladığı işlərdən biri kitab yandırmaq təntənəsi idi. Şəhər meydanında, məktəblərin həyətlərində tonqallar çatılır, Azər-baycan dilində nəşr olunan kitablar, jurnal və qəzetlər oda atılıb yandırılırdı. Bu mə-sələ üstündə camaatla hökumət qoşunları və yerli satqınlar arasında az toqquşma olmamışdı. Xalq öz ana dilində çıxan kitabları əzizləyir, əlindən vermək istəmirdi. Məktəblilərdən bu kitabları almaq daha da çətin olurdu. Mürtəce fars müəllimləri məktəbə soxulan ajan və əmniyyələrin qamçılarının gücü ilə uşaqların əlindən bu kitabları alıb tonqallara atırdılar*" [176, s.150]. Müəllif kitab yandıranlara İran dövlətinin mükafat verdiyini qeyd edir. Bu tonqal Hitlerin Berlində marksist ruhlu kitabları yandırdığı zaman yaranan tonqalı xatırladır. Demokratik gənclər təşkilatı maarif nazirliyinin anbarındakı kitabların və jurnalların arasına bomba yerləşdirir və

nəticədə onları yandırarkən bombaların partlaması vətən xainlərinin bir hissəsinin məhv olmasına səbəb olur. Bu isə xalq tərəfindən ilk intiqam aktı kimi qarşılanır.

Vətən xainlərinə ölüm hökmünü yerinə yetirən demokratik gənclər təşkilatı onların üzərinə aşağıdakı məzmunda vərəqə qoyurdular:"*Azərbaycan demokrat cavanlarının intiqam məhkəməsi işə başladı.Azərbaycan demokrat cavanlar təşkilatının yaratdığı "İntiqam məhkəməsi" vətənə və xalqa xəyanət edənlərin cinayət işinə baxmağa başlamışdır. Birinci növbədə Hacı Ələsgər, Hacı İbrahim oğlunun işinə baxıldı. Məhkəmə Hacı Ələsgərin vətən xaini olmasını sübuta yetirdi. O, şəhərdə qətl-qarət törədənlərin başçılarındandır. O, bu az müddətdə onlarca demokratı tutdurub, vətənimizə xaincəsinə soxulan və hər yerdə xalqımızın qanını axıdan Tehran cəlladlarının əlinə vermişdir. O, bir neçə nəfərlə bərabər vətənə edəcəkləri gələcək xəyanətlər haqqında Amerika konsuluna vermək üçün təəhhüd imzalamışdır. Biz o təəhhüdün üzünü də burada çap edirik ki, xalq vətəni satan bu adamların nə qədər xain və alçaq olduqlarını görsünlər. Qoy hamı bilsin ki, Azərbaycan demokrat firqəsi və onun mübariz dəstəsi olan demokrat cavanlar ittifaqı yaşayır və vətən düşmənlərini məhv etməyə var qüvvəslə çalışacaqdır. Azərbaycan xalqının azadlığı yolundakı mübarizə davam edir. Xalq, vətən və azadlıq düşmənlərinə ölüm*!" [176, s.165]. Bu vərəqənin məzmunundan görünür ki, vətənə xəyanət əməlləri törədən, satqınçılıq, düşmənçilik yolu tutan, Azərbaycanın siyasi və milli-mənəvi birliyinə qarşı şıxanlar ölümə məhkumdurlar.

A.Makulunun "*Gizli zindan*" povestində [176, s.42-124] İranda Rza şah rejiminin ölkədəki bütün xalqlara, o cümlədən Azərbaycan xalqına etdiyi zülm və istibdad, xalqın azadlığı uğrunda mübarizə aparan qəhrəman oğulların gedər-gəlməzə göndərilməsi, gizli zindanlara salınması təsvir edilmişdir. Yazıçı Rza şahın bərpa etdiyi gizli zindana daha çox azərbaycanlıların salındığını göstərir: "*o bilir ki, onun zalim səltənətini axırda azərbaycanlılar vurub dağıdacaqlar, torpaq ilə yeksan edəcəklər, ona görə qorxusundan belə edir*" [176, s.78]. Rza şah vətənpərvər azərbaycanlıları özünün gizli zindanlarına saldırır, ömürlük əzab verirdi. Bu azərbaycanlı dustaqlar "*İranda olan hər bir azərbaycanlı kimi öz vətənlərinin dərdini çəkirdilər*"

[176, s.78]. Buradakı dustaqların onda səkkizi azərbaycanlılardan ibarət olduğu üçün gizli zindanın “rəsmi dili Azərbaycan dili” idi.

Povestdə sovet ordusunun “xilaskarlıq” missiyası mədh olunur. A.Makulu sovet Azərbaycanında yaşadığına görə kommunist ideologiyasına uyğun hərəkət edirdi. “*Bütün İran zəhmətkeşlərinə azadlıq gətirən Sovet Ordusu bizim ailələri böyük xoşbəxtliyə çatdırdı*” [176, s.123]. Əslində isə işğalçı rus ordusu əsrlər boyu da, sovet dövründə də (1990-cı il 20 yanvar hadisəsi bunun ən yüksək zirvəsi idi) Azərbaycan xalqının başına bəlalar açmış, bədbəxtliklər gətirmişdir. *“Qeyd edək ki, A.Makulu “Gizli zindan” povestini yenidən işləyərək təkmilləşdirmiş, 1964-cü ildə roman kimi ayrıca kitab şəklində nəşr etdirmişdir”* [177]. Povestdə yığcam formada verilən hadisə və əhvalatlar romanda geniş epik lövhələrlə canlandırılmışdır.

A.Makulu “Sirli çoban” hekayəsində Cənubi Azərbaycanda milli adət-ənənələr, toponimlər, maddi mədəniyyət abidələrindən, dağlarından, qayalarından bəhs edilir, Maku şəhəri və qalasının təsviri verilir. Əsərdə tayfalararası münaqişə və qan davasının milli birliyə ziyan vurduğu göstərilir.

Yazıçının “Təbriz gecələri” adlı kitabına ön söz yazan tədqiqatçı İ.Novruzov göstərirdi ki: “*Amerika və İngiltərə imperialistləri, onlara quyruq bulayan, İranın hakim dairələri belə bir mürtəce qüvvə idi. Mürtəcelər xalq ilə üz-üzə gəlməkdən qorxduqlarından xəyanətə əl atmağı üstün tutdular. Tehran hökuməti azərbaycanlıların və kürdlərin milli muxtariyyətini təsdiq etdikdən bir az sonra öz əhdini pozdu, Amerika və İngiltərə imperialistlərinin gücü ilə azərbaycanlıların və kürdlərin milli azadlıq hərəkatına hücum etdi, onların qazandığı demokratik azadlıqları məhv etdi. “Təbriz geçələri” adı ilə oxuculara təqdim edilən hekayələrində A.Makulu İran xalqlarının həyatının məhz bu dövrlərini əhatə edir.“Sirli çoban” hekayəsində müəllif demokratik inqilabi hərəkatdan qabaq Maku mahalında olan bir hadisəni qələmə almışdır ki, burada kəndlilərin hələ azad olmadığını, feodallar tərəfindən xalqın azad hisslərinin boğulduğunu, qəbilə başçıları arasındakı şəxsi ədavətin nəsllərə keçirilib dillərdə böyük bədbəxtlik törətdiyini təsvir etmişdirsə, “Gizli zindan” povestində Rza şah və onun nəslinin müstəbid və hiyləgər sifətlərini ifşa etmişdir*” [176, s.5].

Tədqiqatçı daha sonra qənaətlərini ümumiləşdirərək yazır: "*Kitabda toplanmış sonrakı hekayələrdə ("İntiqam dəstəsi", "Təbriz gecələri", "Qırmızı aşıqlar") müəllif ingilis-Amerika silahı zoruna İran mürtəcelərinin Azərbaycan xalqının milli azadlıq hərəkatına divan tutmalarını, İranın hakim dairələrinin "məhv olmuş" hesab etdikləri bu inqilab qığılcımlarının əslində daha şiddətlə alovlanmasını göstərməyə çalışmışdır. A.Makulu xüsusi məktəb görməmiş, yalnız mədrəsədə təhsil almağa müvəffəq olmuş Cənubi Azərbaycan ziyalılarından və ictimai xadimlərindən biridir. O, Azərbaycanda milli dövlət yaradıldıqdan sonra Təbrizdə ana dilində çıxan mətbuatda iştirak etmək imkanına malik olmuşdur. Müəllifin bu kitabda olan hekayələri onun Azərbaycan xalqının inqilabi mübarizəsini daha bədii və realist boyalarla verməyə çalışdığını göstərir və gələcəkdə bu hekayələrdə rast gəldiyimiz səthilik, qəhrəmanların zahiri hərəkətlərinin təsvirlə kifayətlənib onların daxili aləminə dərindən nüfuz etməmək kimi hallardan qurtarıb daha yüksək bədii əsərlər yazacağına ümid verir*" [176, s.6]. Müəllif köhnə metodologiyaya əsaslanaraq İran Azərbaycanının Demokrat Firqəsinin nicat yolu göstərdiyini, yazıçının problemə daha dərindən nüfuz edəcəyinə, xalqın mübarizəni davam etdirəcəyinə əminliyini bildirir.

Cənubi Azərbaycan mühacirət ədəbiyyatının tədqiqatçısı M.Mehdibəyova A.P.Makulunun mühacir həyat və yaradıcılığı (40-cı illər) haqqında yazır: "*Əzilən, haqqı tapdalanan, istismar və təhqir edilən başqa güneylilər kimi, Abbas Pənahinin də ürəyində uşaq yaşlarından azadlıq uğrunda xoş xəyallar baş qaldırmış və o, öz həyatını bu müqəddəs iş uğrunda yorulmadan çalışmağa həsr etməyi qərara almışdı. 1941-1946-cı illərdə Cənubi Azərbaycanda yaranmış siyasi şəraitlə bağlı olaraq Abbas Pənahi də Azərbaycan Demokrat Firqəsinin işində yaxından iştirak edir, milli hökumət qurulduqdan sonra isə bütün varlığı ilə onun yolunda çalışmağa, öz xalqının müstəqilliyi uğrunda bütün güc və istedadını sərf etməyə başlayır.*

*1946-cı ilin noyabrında dünyada siyasi şəraitin dəyişməsindən xaincəsinə sui-istifadə edən şah rejimi milli hökuməti qan içində boğduqdan sonra A.P.Makulu da başqa məsləkdaşları ilə birgə Şimala mühacirət edir və Bakıda yaşayıb işləməyə başlayır. Ədəbi fəaliyyətə də burada başlayan Makulu "İnqilab və mədəniyyət"*

*jurnalında, "Azərbaycan" qəzetində eləcə də başqa mətbu orqanlarda hekayə, felyoton, povest və romanları ilə çıxış etməyə başlayır.*

*"Sirli çoban", "Qırmızı aşıqlar", "Təbriz gecələri", "İntiqam dəstəsi", "İki rəqib", "Məzhəb təəssübü" kimi ilk hekayələri "İnqilab və mədəniyyət" jurnalında və "Azərbaycan" qəzetlərində işıq üzü görəndən sonra ədib 1950-ci ildə "Təbriz gecələri" adlı hekayələr kitabını nəşr etdirir*" [180, s.42-43]. Tədqiqatçı A.Makulu əsərlərində milli hökumətin süqutundan sonra azərbaycanlılara zülm edildiyindən, onların qətl və edamlara məruz qaldığından bəhs edir.

A.P.Makulunun 1949-cu ildə yazıb tamamladığı "Mübarizlər" əsəri 1952-ci ildə nəşr olunmuşdur. Yazıçının bu əsəri də 40-cı illərdə qələmə aldığı bədii örnəklərin süjetinə bənzəyir. Belə ki, *"1946-cı ildən Tehran hökuməti Azərbaycan milli hökumətinə qarşı öz düşmənçilik siyasətini daha da gücləndirmiş, artıq gizli qəsddən açıq təcavüzə girişmişdi. Amerika və ingilis silahları ilə silahlanıb sivil paltar geyinmiş İran sərbazları və jandarmları yerli mülkədarların atlıları adı ilə Azərbaycan kəndləri üzərinə basqın etmək üçün göndərilmişdilər. Bu quldur dəstələri soxulduqları kəndləri çapıb-talayır, dinc əhalini qarət edir və öldürürdülər. Azərbaycan xalqını mürtəce İran hökumətinin bu quldur dəstələrindən qorumaq üçün Azərbaycan milli demokrat hökuməti ölkənin bəzi kəndlərində kiçik qoşun dəstələri saxlayırdı. Həsən kəndində yerləşmiş dəstə də bu qoşun hissələrindən biri idi.*

*Başqa dəstələr kimi bu dəstə də xüsusi rabitəçilər vasitəslə öz mərkəzi ilə əlaqə saxlayırdı. Bu rabitəçilərdən əlavə, dəstənin radioqəbuledici cihazı da var idi ki, əsgərlər hər gün Təbrizdən verilən xəbərləri eşidirdilər"* [178, s.4]. Hərbi dəstə milli azadlıq hərəkatının fəallarından Azərbaycan milli ordusunun kapitanı Rəşidin başçılığı ilə Tehran işğalçılarına qarşı gizi silahlı müqavimətə başlayırlar.

Azərbaycan Milli Hökuməti ilə bağladığı sazişi xaincəsinə pozan şahənşah rejiminin qoşunları quldurcasına Azərbaycana basqın edir, milli hökumət isə qırğınlara, dağıntılara yol verməmək naminə düşmən qoşunlarına atəş açmağı milli orduya qadağan etdi. Lakin Tehran qoşunları ən alçaq yola əl ataraq silahsız əsirləri kütləvi şəkildə məhv edirdi. Öz cinayətlərini ört-basdır edən şahənşah hökuməti guya Azərbaycana "xeyirxah məqsədlə daxil olduğunu, seçkilər zamanı asayişi bərpa

etmək istədiklərini" bildirirdilər. "*Tehran qoşunları Azərbaycana soxulmaqda davam edir; onlar şəhər və kəndləri çapıb- talayır, dinc əhalini vəhşicəsinə qırırlar. Bir kəndli İran təyyarələrinin saldığı vərəqələrdən birini gətirmişdi; bu vərəqədə Tehran hökuməti Azərbaycana yağlı vədlər verirdi. Haman kəndli nağıl edirdi ki, bu vədlərin tamamilə əksinə olaraq, İran tanklarının körpələri, qadınları, qoca və uşaqları əzdiyini öz gözü ilə görmüşdür. Söylənilənə görə, fədailərin və əsgərlərin çoxu silahlarını götürüb dağlara çəkilmişlər, camaat da onlara əlindən gələn köməyi edir. Çəyirtkə kimi hər tərəfə səpələnən İran qoşunları bu gün –sabah Həsən kəndinə soxula bilərdi*" [178, s.9].

Yaralı əsgərlərin çobana söylədiyi sözlər bütün Azərbaycan xalqının rəyini ifadə edir. Çobanın: "Demək hər şey puç olub getdi. Yenə də fars təpiyi altına düşdük?" deyə soruşan çobana əsgər deyir: "*Yox! Hələ heç kim məhv olmamışdır!-dedi-Azərbaycan xalqı, onun milli dövləti və demokrat firqəsi yaşayır və yaşayacaqdır! Mübarizə davam edir! Biz təslim olmayacağıq! Qana-qanla cavab verəcəyik! Öldü var, bu yoldan döndü yoxdur*" [178, s.21]. Düşmənlə qeyri-bərabər açıq döyüşdə əsgərlərini itirən Rəşid partizan müharibəsinə rəhbərlik edir.

Şahənşah rejimi Azərbaycanın müstəqilliyi uğrunda mübarizlərə divan tutur. Şahın Azərbaycana gəlməsi münasibətilə İran qoşunlarının Təbrizdəki komandanı fars generalı milli azadlıq hərakatının əhəmiyyətini heçə endirmək üçün belə bir təklif edir:- Məhbusları əlahəzrət şahənşaha ərizə yazmağa məcbur etmək lazımdır. Bu ərizədə onlar deməlidirlər ki, "*Biz demokrat-filan deyilik. İndidən qiyamətə kimi də Azərbaycanda milli hökumət qurulmasını istəmirik. Özümüz də azərbaycanlı yox, əslən fars oğlu-farsıq. İndi danışdığımız dil də ləjceyin-məhəlli və fars dilinin bir şöbəsindən başqa bir şey deyil. Üç-beş nəfər mühacir bizləri yoldan çıxarıb özlərinə qarışdırdılar. Əlahəzrət padşah bizim mehriban atamızdır. "Kiçikdən xəta, böyükdən əta" deyiblər. Cavan, mehriban, adil və demokrat padşahımızdan təvəqqe edirik ki, bizim ailə vəziyyətimizi nəzərə alıb zindandan azad olunmağımızı əmr etsin. Biz söz veririk ki, əlahəzrətin dostu ilə dost, düşməni ilə düşmən olacağıq. Milli muxtariyyət sözünü bir də dilinə gətirənlərin dilini kökündən çıxardacağıq... və sairə bu növ..."* [178, s.52-53]. Burada vətən xainlərinin xalqı şah rejiminin Azərbaycandakı fars-

laşdırma, parçalama, assimiliyasiya (əritmə) siyasətilə barışdırmaq fikirləri əks olunmuşdur.

M.Mehdibəyova yazıçının hadisələri obyektiv şəkildə qiymətləndirə bilməməsini yaşadığı sovet ideologiyasından irəli gəldiyini göstərir: "*Buna baxmayaraq, mübarizənin davam etməsi, azadlıq mücahidlərinin qanlı qırğınlardan panikaya düşməməsi, ən ağır bir zamanda soyuqqanlı hərəkət etməsi oxucuya gələcəyə ümidlə baxmaq duyğuları aşılayır. Doğrudur, müharibədən bilavasitə sonra Sovet İttifaqında qələmə alınmış bir romanda İrandakı və Cənubi Azərbaycandakı geosiyasi vəziyyətin bütün obyektivliyi ilə təsvir ediləcəyini gözləmək sadəlövhlük olardı. Burada şübhəsiz ki, müəllif Sovetlərin tərəfini saxlamalı, Stalinin sovet qoşunlarını xəyanətkarcasına İrandan geri çəkməsi və bununla da demokratik qüvvələri arxa və dayaqdan məhrum etməsi, ingilis və amerikan havadarlarına söykənən vəhşi İran cəlladlarının dinc əhaliyə qarşı qanlı qırğınlarına soyuqqanlıqla rəvac verməsi faktlarını açıqlamamalı idi və açıqlaya da bilməzdi*" [180, s.108-109]. Yazıçı sovet və beynəlxalq kommunist liderlərinin xəyanəti, xüsusilə türk dünyasına nifrət edən Stalin və onun erməni ətrafının Böyük Azərbaycan ideyasının əleyhdarı olan qüvvələrlə birləşib Cənubi Azərbaycan xalqını İran fars faşistlərinin qurbanına çevirdiyini acı təəssüflə bilsə də əsərdə bu fikrini açıq ifadə edə bilmir.

ABŞ konsulu kürd əyanlarından Ağayi İbrahimini Kürdüstandakı üsyançıları şahın düşmənləri olan Azərbaycan demokratlarının əleyhinə qaldırmağı, onları bunun üçün "Amerikanın yeni silahları ilə təmin etməyi" təklif edir. ABŞ diplomatı Lenin və Stalinin şəkli toxunulmuş Təbriz xalçalarını Azərbaycan demokratlarının "kommunist agentləri olduqlarını sübut etmək üçün əşyayi dəlil hesab edirlər. ABŞ hökuməti İrana Cənubi Azərbaycanı itaətə sövq etmək, Şimalla birləşməsinə "əbədi son qoymağın yollarını göstərir: "*Gərək hər şeyi biz deyib, biz göstərək. Siz özünüz də fikirləşib təzə tədbirlər icad edin. Bu üsyankar Azərbaycanı birdəfəlik məhv edib onun yerində itaətkar bir Azərbaycan tikmək vaxtı çoxdan çatmışdır. Bu Azərbaycana elə bir od vurmaq lazımdır ki, tüstüsü Arazın o tayına yayılsın! Bircə dəfə də olsa demokratiya deyilən dillər dibindən qoparılmalıdır! Siz, İranın hər tərəfindən şahlıq üsulunu saxlamaq üçün su yerinə qan axıtmalısınız!..Mən təkrar edirəm: Bu*

*demokratlardan bir neçə nəfərini şaha qurban kəsməlisiniz!..Divarlardakı elanlara bax...İndi də karxanaların bağlanmasını, işsizlərin çoxalmasını, İran iqtisadiyyatının tənəzzülünü amerikalılardan görürlər,-konsul ani bir fasilədən sonra üzünü nəzmiyyə rəisinə çevirdi:-bu xüsusda mənim ağayi sərhəngdən gileyim var. Bu günə kimi belə vərəqələr buraxanları hələ də ələ gətirə bilməyibdir. Mən əvvəl də demişəm, indi* də *deyirəm: nə qədər ki, bu cür elanları gizlində nəşr edən demokrat mətbəələri dağıdılmayıb, xalq onlardan ümidini kəsməyəcəkdir. Əgər siz bir daha Azərbaycanda milli hökumət qurulmasını istəmirsinizsə, onda işlərə daha ciddi yanaşmalısınız. Necə olursa-olsun, onların mərkəzi komitəsini ələ keçirməlisiniz*" [178, s.62-63]. Beləliklə də, ABŞ diplomatı öz ölkəsinin geosiyasi maraqlarını güdərək yeri gələndə müstəqillik, demokratiya haqqı olan bir xalqın məhv olmasına belə rəvac verir. Onu ən çox narahat edən İranın Sovet İttifaqı ilə qonşu olması, Şimali və Cənubi Azərbaycanın birləşmək təhlükəsidir: "*Siz beş nəfər demokrat tutub həbs etməklə bütün işlərinizi bitmiş hesab edirsiniz. Bir halda ki, məsələ qətiyyən bununla qurtarmır. Unutmayın ki, siz Sovetlər ölkəsi ilə həmsərhədsiniz, Təbrizdən Bakıya cəmi bir neçə saatlıq yol vardır. Siz buranı əsl cəbbəxanaya çevirməlisiniz. Burada hərbi məqsədlər üçün yaxşı şose yolları, böyük təyyarə meydanları, sərhəd boyu istehkamlar, gələcək müharibə üçün təzə silahlarınız və nəhayət, hər şeydən artıq amerikalılar kimi sizə də düzgün məsləhətlər verən məşvərətçi dostlarınız olmalıdır. Siz hər işdə Birləşmiş Ştatlara arxalanın, ağalar, mən öz hökumətim adından sizi əmin edirəm ki, həmişə bizə bel bağlaya bilərsiniz... Mən ümidvar oluram ki, bizim məsləhətlərimiz sizin üçün bir dərs olar və İran öz böyük dostu Amerikanın sözündən çıxmaz*!" [178, s.64]. Bununla da ABŞ İranda İngiltərənin yerini tutmaqla yanaşı, İranın hərbi mövqeyini möhkəmləndirməklə hər iki Azərbaycanın bir-birinə yaxınlaşmasının qarşısının alınmasını təkid edir, Böyük Azərbaycanın yaranmasının əleyhinə çıxır.

Edama məhkum olunan demokratlar Azərbaycanın müstəqilliyə qovuşacağına inamlarını ifadə edirlər: "*Fars işğalçılarının əsarətində qalıb onların ağası olan ingilis-amerika istismarçılarına qul olunca, vətən yolunda, xalq yolunda, azadlıq və istiqlal yolunda mərdliklə ölmək böyük bir nemətdir! Qoy amerikan-ingilis imperialistlərinin əlində oyuncaq olan şah bilsin ki, bu gün biz ölsək də, Azərbaycan*

*xalqı ölməyəcəkdir! Qoy Tehran cəlladları bilsinlər ki, artıq onların şahlıq və sərmayədarlıq üsulunun sonu yaxınlaşır... Qardaşlar, unutmayın ki, bu üsulu kökündən baltalamaq üçün gərgin mübarizə lazımdır. Biz əminik ki, siz bu mübarizəni qalibiyyətlə sona qədər davam etdirəcəksiniz. Buna görə də biz həyatdan arxayın gedirik. Sağlıqla qalın, yoldaşlar! Sizə müvəffəqiyyət və səadət arzu edirik! Rədd olsun zülm və irtica! Yaşasın azadlıq və demokratiya!...Yaşasın Azərbaycan xalqı və bünövrəsi illərdən bəri şahidlərin qanı ilə yoğrulan Azərbaycan cümhuriyyəti!"* [178, s.94-95]. Beləliklə, vətənpərvər demokratlar ölümdən qorxmayaraq Azərbaycan demokratik respublikasının yaranacağına və parçalanmış millətin birləşəcəyinə inamlarını itirmirlər.

Əsərdə Rəşidin başçılıq etdiyi gizli silahlı dəstə xalqın intiqamını alır, sürgünə göndərilən məhbusları azad edir və partizan müharibəslə mübarizəni davam etdirir. M.Mehdibəyova A.P.Makulunun əsərlərində süjet oxşarlığından bəhs edərək yazır: "*Bütün süjet boyu təbii bir axarla inkişaf edən süjet finalda Cənub mühacirət nəsri üçün xarakterik olan sünilikdən yaxa qurtara bilmir; jandarmlardan terror yolu ilə intiqam alan kəndlilər qalan ömürlərini qaçaqçılıqla keçirərək jandarmlara və ajanlara qarşı partizanlıq edirlər. Beləliklə, müəllif hekayənin başlanğıcında yaxşı qoyduğu və ortasında uğurla inkişaf etdirdiyi süjeti təbii sonluğuna çatdıra bilmir və yurdsuzların intiqamını buyruq qulu olan jandarmalardan almaqla oxucunun keçirdiyi sarsıntını aradan qaldırmaq istəyir. Aydındır ki, sosializm realizminin təlqin etdiyi nikbin sonluq ideoloji istiqamətindən irəli gələn bu ədəbi üsul ancaq infantil (sadəlövh-A.H.) oxucunun başını qataraq onda "xoşbəxt gələcək" haqqında xoş xülyalar yaratmaqdan başqa bir şeyə yarıya bilməzdi*" [180, s.49].

Müəllif haqlı olaraq onun bütün əsərlərində nikbin sonluğun sosialist realizmindən və yaşadığı sovet ideologiyasının təsiri altında baş verdiyini göstərir. Lakin "Mübarizlər" əsərində intiqam ruhuna baxmayaraq Abbas Pənahinin kiçik həcmli əsərlərindəki terrorçuluq meyli burada yoxdur. "Hətta şahı terror etmək istəyən Şövkət xanıma, daha yetkin inqilabçı olan Mərziyənin dediyi aşağıdakı sözlər terrorizmə qarşı mübarizənin qlobal şəkil aldığı çağdaş siyasi şərait üçün çox aktual səslənir: "*Biz şah və onun dəstəsi ilə düşmən olduğumuz kimi, terrorçuları da*

*müdafiə etmirik. Əzizim, "mollanı öldürməkdən fayda çıxmaz, əlifbeyi öldürmək lazımdır". Rza şahın birinci oğlunu öldürərsən, ikinci oğlu onun yerinə keçər, onu öldürərsən, üçüncüsü onu əvəz edər... Unutmayın ki, biz tək şahı yox, şahlığın bütün üsulunu öldürməliyik. Bu çürümüş dəzgahı aradan qaldırmaqla yüz ildən bəri zəli kimi qanınızı soran ingilis imperialistlərinin də vətənimizdən ayağını kəsməliyik. İngilislərdən daha insafsız və yüz dəfə vəhşi olan amerikalıları ölkəmizdən çıxarıb qovmalıyıq! Bizim mübarizəmiz fərdi yox, ümumi olmalıdır*" [178, s.88]. Buradan məlum olur ki, vətənin o tayındakı milli-azadlıq hərəkatı sepa-ratçılıqdan və terrorçuluqdan uzaq, demokratik üsul-idarə qurmağı, sosial-iqtisadi və mədəni islahatları həyata keçirməyi qarşısna məqsəd qoymuş xalq hərəkatıdır.

Beləliklə, "*A.Makulunun hekayələrinin əsas ideya istiqamətlərini bölünmüş vətən dərdi, Cənubi Azərbaycanda milli hərəkatın yenidən başlanmasına inam motivləri, xalqın layiq olduğu bütün bəşəri hüquqlara nail olmaq arzusu, vətən xainlərinə nifrər ruhu təşkil edir*" [135, s.55]. Eyni zamanda A.P.Makulu mühacirət dövründə 1947-ci ildən sonra yazdığı əsərlərilə bölünmüş vətən və milli-mənəvi vəhdət ideyasının təbliğinə sovet dövrünün məhdudiyyətlərinə baxmayaraq öz töhfəsini vermiş yazıçılardandır.

Ötən əsrin 40-50-ci illərdə Şimali Azərbaycanda mühacirət həyatı sürən şairlərdən Balaş Azəroğlu [22; 23], Mədinə Gülgün [106; 107], Məhəmməd Biriya [47; 48], Hökumə Billuri [43; 44; 45; 46] və başqa şairlər hər iki Azərbaycanın görkəmli sənətkarları kimi yaradıcılıqlarında vətənin ağır dərdlərini, ikiyə bölünmüş vətən ideyasını, vahid bir xalqın milli, mənəvi dəyərlərini bədii şəkildə əks etdirmişlər. Onların əsərlərinə hakim olan vətənpərvərlik ruhu sonrakı dövrün ədəbiyyatına, o cümlədən bədii nəsr örnəklərinə ciddi şəkildə təsir göstərmişdir.

Hər iki Azərbaycanın görkəmli yazıçısı, ürəyi vətənin birləşməsi üçün döyünən akademik Mirzə İbrahimov bu dövrün ədəbiyyatını onun ictimai-siyasi şəraitlə bağlılığını belə səciyyələndirirdi: "*1940-1950 -ci illər Cənubi Azərbaycan ədəbiyyatının çiçəklənmə dövrü oldu. Bunun da kökləri həmin illərdə ictimai həyatın canlanmasında, xalqın milli-azadlıq və demokratik hərəkatının o vaxta qədər görünməmiş dərəcədə genişlənməsində, fırtınalı dərya kimi coşaraq şiddətli dalğalarla*

*şəhərlərdən kəndlərədək ölkənin bütün guşələrini əhatə etməsində, bütün ictimai təbəqələri hərəkətə gətirməsində idi. Bu canlanma, bu geniş ictimai hərəkat bir tərəfdən Rza şah Pəhləvi istibdadının xalq kütlələrini cana gətirməsi, həyatı dözülməz dərəcədə pisləşdirməsi ilə bağlı idisə, digər tərəfdən dünya siyasi vəziyyətinin son dərəcə gərginləşməsi və İkinci dünya müharibəsinin başlanması ilə dövlətlərarası münasibətlərdə törəmiş ağır vəziyyətlə əlaqədar idi*" [62, c.3, s.8]. M.İbrahimov 40-50-ci illər ədəbiyyatının çiçəklənməsinə təsir edən amillərdən İkinci dünya müharibəsində faşizm üzərində qələbəni və Cənubi Azərbaycanda milli azadlıq və demokratik hərəkatın genişlənməslə milli dövlətin yaranmasını xüsusi qeyd edir.

40-50-cı illərdə həm Şimali Azərbaycandakı mühacirət ədəbiyyatını, həm də Cənubdakı ədəbi prosesin, eləcə də vahid Azərbaycan ədəbiyyatının inkişafına təsir edən ən başlıca amil ustad Şəhriyarın tərənnüm etdiyi ideyalar idi. Qaçaq Nəbini hər iki tayın qəhrəmanı hesab edən Şəhriyar bölünmüş vətən niskilini belə ifadə etmişdir:

*Haralı olmalı bilə bilmədik,*
*Qanların ləkəsini silə bilmədik,*
*Bir də biz bir yana gələ bilmədik,*
*Arazın suyundan bir içax, Nəbi,*
*Qeyrətin qurbanı, ay qaçax Nəbi* [62, c.3, s.122].

M.Şəhriyarın "Aman ayrılıq" şeirini parçalanmış vətənin milli elegiyası hesab etmək olar. Şeirdə Araz, Xəzər dərdi, bütöv Azərbaycan həsrəti öz ifadəsini tapmışdır:

*Arazım vursun baş daşdan, daşa*
*Göz yaşı gərək başlardan aşa,*
*Necə yad olsun qardaş qardaşa,*
*Nə din qanır, nə aman ayrılıq,*
*Aman ayrılıq, aman ayrılıq*! [62,c.3, s.123].

“Döyünmə və söyünmə” şeirində ustad şair gözü qaşdan, bədəni başdan, canı ciyərdən, qardaşı-qardaşdan ayırmış cəlladlara nifrətini bildirir, Azərbaycanın parçalanmasını “milli faciə” hesab edir:

*Bir millətə dünya boyu bir faciə doğmuş,*
*Biz ellərin ol qəhrəman ehsasını boğmuş,*
*Sanki Bakını, Gəncəni verdin, mənə qardaş,*
*Tapdım elimi, arxamı, qurban sənə, qardaş* [62,c.3, s.124].

“Türkün dili” şeirində M.Şəhriyar Azərbayacan dilinin incəliklərinə toxunaraq yazır:

*Türkün dilitək sevgili, ehsaslı dil olmaz,*
*Ayrı dilə qatsan bu əsl dil əsl olmaz.*
*Öz ləfsini farsa, ərəbə qatmasa şair*
*Şerini oxuyanlar, eşidənlər kəsin olmaz* [62, c.3,s.126].

Şair türk dilinin özünəməxsus şeir dili olduğunu göstərir, alınma ərəb, fars sözlərilə zəngin, ancaq bütün azərbaycanlıların milli-mənəvi vəhdətini yaradan bir mənəvi vasitə kimi səciyyələndirir.

M.Şəhriyarın “Azərbaycan” şeiri vahid xalqımızın himni səviyyəsinə yüksələn bir mükəmməl sənət əsəridir:

*Evladların nə vaxtadək tərki-vətən olacaqdır?*
*Əl-ələ ver, üsyan elə oyan, oyan, Azərbaycan.*
*Bəsdir fəraq odlarından kül ələndi başımıza,*
*Dur ayağa, ya azad ol, ya tamam yan, Azərbaycan.*
*Şəhriyarın ürəyi də səninki tək yaralıdır,*
*Azadlıqdır mənə məlhəm, sənə dərman, Azərbaycan* [62, c.3, s.135].

Böyük şair Azərbaycanın İran tərkibində daim bəlalara düçar olduğunu, qolu bağlı, əsir olduğunu, azərbaycanlıların zülm, istibdad əlindən mühacir həyatı sürdüklərini ürək ağrısı ilə bildirir, ona görə də Azərbaycanı üsyan edib azadlıq və müstəqillik əldə etməyə çağırır.

M.Şəhriyar Azərbaycanın bütövlənməsini istəyir, "İnsanlarıq, insanları xoşlayın, Bir millətik, birləşməyə başlayın", - deyə xalqa müraciət edirdi.

Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi Y.Qarayev Beynəlxalq Şəhriyar Elmi Konqresindəki (29 mart-6 aprel 1993-cü il) çıxışında demişdir: "*Şəhriyarın öz poeziyası ilə birləşdirdiyi hüdudlar yalnız mənşə ilə zirvə, soyköklə yaddaş, bugünlə keçmiş və gələcək arasında deyildir. Milli-etnik qütblər, coğrafi sərhədlər də bu bədii ərazidə qaynayıb qovuşub, millətin bətninin hər iki parası arasındakı vahid əsəbsinir, qapalı qan damar dövriyyəsi hətta ən çətin, ən böhranlı dövrlərdə belə, məhz Şəhriyarın şeirinin telləri və sətrləri ilə mənəvi vücud və bədii məcra, estetik məkan kəsb edə bilər*" [162, c.4, s.415]. Müəllif Şəhriyarın parçalanmış Azərbaycanın milli-etnik, coğrafi sərhədlərinin bədii, şeir, mənəvi məkanda birləşdirdiyini diqqətə çatdırır.

Bölünmüş vətən ideyasını özündə əks etdirən bədii əsərlər *"vaxtilə ərazisi Dəmirqapı Dərbənddən başlayıb Həmədana-Qəzvin-Ərak-Qumadək uzanan Azərbaycan türklərinin ayrılıq dərdi, həsrəti, bir-birinə qovuşmaq arzusu və istək harayının poeziya dili ilə verilmiş nümunələridir. Bu bölünmənin ağrılı-acılı yükünü, iki əsrə yaxın bir müddət ərzində çəkmək məcburiyyətində qalmış xalqımız nə o vaxt, nə də indi bu haqsızlıqla barışmamışdır. Milli birlik ideyasından narahat olan kəslərin təmsilçisi olduğu millətin taleyində belə bir faciə baş versəydi, onun vətəni zorla parçalansaydı, ata oğula, ana balaya, bacı qardaşa, qohum qardaşa ancaq sərhəd məftilləri arxasından baxmalı olsaydı və üstəlik onun millət bütövlüyü danılsaydı, görəsən onlar bu faciə ilə barışardılarmı? Bu ağır, əzablı yükə tab gətirə bilərdilərmi? Həsrət, ayrılıq yarası neçə-neçə nəsllərimizi bu yaranın əzablarını çəkə-çəkə, hicranı qovub vüsala çatmaq diləyi ilə yaşatmalı olmuş, minlərlə insan vüsala qovuşmaq həsrəti ilə dünyasını dəyişmişdir*" [222, s.9]. Buradan aydın olur ki,

Böyük Azərbaycanı məqsədyönlü şəkildə bölüb-parçalayan qüvvələr onun milli-mənəvi vəhdətini poza bilməmiş, birlik duyğusunu məhv edə bilməmişlər.

Böyük Azərbaycanı "Şimal"a və "Cənub"a bölənlər millətin vəhdəti və bütövlüyünü, vahid tarixini, mədəniyyətini, ədəbiyyatını unutdura bilməmiş, xalq öz kökünü, dilini, milli kimliyini qoruya bilmişdir.

Azərbaycanın milli-mənəvi vəhdət və bütövləşməsində M.Şəhriyarın Azərbaycan türkcəsində yazdığı "*Heydərbabaya salam*" poemasının [245] rolu əvəzsizdir. Akademik İsa Həbibbəyilinin yazdığı kimi, "Heydərbabaya salam" poemasındakı həsrətin mayasını Vətən həsrəti, el-oba həsrəti təşkil edir. Ona görə də əsərdəki Vətən həsrəti dərin və yüksək mənada əsl Vətən məhəbbəti mənasını ifadə edir... *Bütövlükdə "Heydərbabaya salam böyük vətən məhəbbəti poeması, ciddi vətənpərvərlik əsəridir"* [67, s.8]. Akademikin bu sözləri Şəhriyarın bütövlük, vətən rəmzi olduğunu təsdiq edir.

AMEA-nın müxbir üzvü, professor Y.Qarayev M.Şəhriyar yaradıcılığındakı Azərbaycan milli-mənəvi vəhdətinə vahid Şərq bədii-fəlsəfi məkanının tərkib hissəsi kontekstindən yanaşır: "*Bizim qədim və orta əsrlərin mənəvi ədəbiyyatının yarandığı və yayıldığı poetik orbit, vahid bədii-fəlsəfi məkan bütün Yaxın və Orta Şərq üçün həmişə müştərək olmuşdur. Məhz bu mənada min yaşlı, qocaman, ağsaçlı "Asiya və Şərq evi"nin tarixi-mədəni bütövlüyə və birliyə qarşı çevrilən hər hansı irticaya qarşı etibarlı sipər-ziyalı qarantı olmaq vaxtı gəlib çatmışdır. Böyük ədəbiyyat, böyük sənət bu işi həmişə görüb və bu missiyanı həyata keçirməyə Şəhriyar şeiri də həmişə hazırdır. Təsadüfi deyil ki, indi də Azərbaycanda, bütün türk dünyasında müasir şeir Şəhriyara bütövlük və vəhdət rəmzi kimi baxır, qütbləri və sahilləri birləşdirən, ədəbi mənəvi körpüyə-Xudafərinə çevrilən obraz və simvol kimi müraicət edir*" [162, c.4, s.426]. Göründüyü kimi, Y.Qarayev Şəhriyarı türk-müsəlman aləmində vahid Şərq mədəniyyəti, fəlsəfəsi, ədəbiyyatı tərkibində bütöv azərbaycançılıq idealını gerçəkləşdirən milli və ümumbəşəri şair hesab edir.

40-50-ci illər Cənubi Azərbaycan mühacirət ədəbiyyatında Gəncəli Səbahinin, Həmzə Fəthi Xoşginabinin və Həmid Məmmədzadənin nəsr əsərləri də mühüm yer

tutur və bu əsərlərdə Azərbaycan xalqının milli-mənəvi vəhdəti, dil, mənəviyyat, mədəniyyət birliyi məsələləri öz bədii əksini tapmışdır.

Gəncəli Səbahinin "Həyat faciələri" əsərində Cənubda mülkədarların Azərbaycan Milli Hökumətinin süqutundan sonra xalqa etdiyi zülmdən, qanunsuzluqdan, ədalətsizlik və özbaşınalıqdan bəhs edilir. Əsərdə Qüdrət mərdlik, ədalətlilik, qeyrətlilik, namusluq mücəssəməsi olan azərbaycanlı obrazıdır. Yazıçı ərbabın bakirə bir qıza hücum etməsi, Qüdrətin sevgilisini xilas etməsi, namusu uğrunda mübarizəsini təsvir etməklə ümumi Azərbaycan üçün milli-mənəvi vəhdət hesab olunan igidlik ("İgid basdığını kəsməz"), namusluluq ("ərbab rəiyyətinin ağası, atası, sərvəridir, ehtiramı əzizdir. Ancaq başqasının namusuna əl atsa, ölümü vacibdir"), vüqarlılıq, qürurluluq dəyərlərini, xalqın mənəviyyatının əsası kimi təsvir etdiyi halda, qanunsuzluğu dərəbəylik dövrünün hökmü, ərbabların iradəsi, əmniyyələrin şallağı kimi təqdim edir: "*İstədikləri kimi evlərə soxulub talasınlar. Döyüb, söyüb təhqir etsinlər. Başqasının namusuna əl atsınlar. Bütün bu yaramaz-lıqları üçün heç kəs onlardan hesab istəməyəcəkdir. Nə vaxt bunlara son qoyulacaqdır?!"* [233, s.391]. Buradan belə bir fikir hasil olur ki, bütün bu dərəbəyliyə yenidən xalq öz milli hökumətinin birliyini əldə etdikdən sonra istibdada, zülmə, sitəmə son qoyulacaqdır.

Həmzə Fəthi Xoşginabi Cənubi Azərbaycanda milli-demokratik hərəkatda iştirak etmiş, orada ədəbi fəaliyyətə başlamış, ADF-nin orqanı olan "Azərbaycan" ruznaməsinin redaktoru olmuş, milli hökumətin süqutundan sonra *"Şimali Azərbaycanda mühacirət həyatı sürmüşdür. Ədibin Bakıda "İki dost" (1951), "Son bayraqdar" (1954), "Hekayələr" (1956), "Ata" (1959), "İki qardaş"(1959), "Məhəbbət və nifrət" (1965) kitabları nəşr olunmuşdur [142; 143; 144; 145; 146]. Yazıçının "Ata" və "İki qardaş" romanları sonralar təkrar nəşr edilərək oxuculara təqdim olunmuşdur"* [143]. Həmçinin ədibin bəzi əsərləri rus dilinə tərcümə edilərək ayrıca kitabda nəşr olunmuşdur [320].

*"Əsərlərini üç dildə –Azərbaycan, fars və rus dillərində qələmə almış Həmzə Fəthi Xoşginabi çağdaş Güney Azərbaycan nəsrində orijinal üsluba, rəvan dilə, maraqlı obrazlı ifadələrə malik olan bir yazıçı kimi tanınmışdır. Həmzə Fəthi hələ*

*Təbrizdə olarkən nəsr sahəsində qələmini uğurla sınamış və sonralar bu fəaliyyətini mühacir yazıçı kimi davam etdirmiş sənətkarlardandır*" [180, s.34-35].

Həmzə Fəthi hekayələrində, xüsusilə "Ulduz" hekayəsinin nümunəsində ADF və Azərbaycan Milli Hökumətini ideallaşdırır, sinfi ziddiyyətlərin antaqo-nizmindən, sosialist həyat tərzi və partiya intizamından yazmış, onu fetişləşdirmiş, onun simvollarını bütövləşdirmişdir. "*Bəşəriyyətin nicat yolunu Şimalda parlayan ulduzda görən yazıçı və onun qəhrəmanı üçün qiblə Kəbədə deyil, Moskvadadır. Hətta qəhrəman ölərkən də üzünü Şimaldakı parlaq ulduza çevirərək dünyadan rahat gedir və elə bu vəziyyətdə də dəfn edilməsini vəsiyyət edir*" [180, s.38].

"Dördüncü adam" hekayəsində yazıçı sosializm realizmi prinsiplərinə uyğun olaraq sovetin Cənubi Azərbaycana ixrac etdiyi "inqilab"dan, kommunist partiyasına bənzər demokratik firqəni xatalı iş hesab edən Səməd ağa fanatik firqəçilər tərəfindən "səfeh adam" kimi qiymətləndirilir. "*Bolşevik vədinə aldanmış, ixrac olunmuş inqilabın onlara xoşbəxtlik gətirəcəyinə sadəlövhlüklə inanmış, sidq-ürəkdən iman gətirmiş insanlar isə buna görə onu "gic" adlandırırlar*" [180, s.41].

H.F.Xöşginabi "Uzunqulaq meşəyə gedir" təmsilində meşəyə qaçan uzunqu-lağın şah seçilməsi, onun vəzirinin isə tülkü olması təsvir olunur. Canlandırılan bu əhvalat fonunda yazıçı İrandakı şahlıq üsul-idarəsini tənqid edir. Onun verdiyi qanunda şahlığın İran üçün dəyişməz üsul-idarə olduğunu, uzunqulağın (şahın) bu məmləkətin hökmdarı, padşahlığın "ədalətli" quruluş olduğunu, hökmdarlığın – uzunqulaq (şah) nəslinin irsi olduğunu göstərir, meşədəki (cəmiyyətdəki) narazılığın isə səthi islahatlar-heyvanların adlarının dəyişməsi yolu ilə "aradan qaldırıldığı" tənqid olunur. Əslində yazıçı Cənubi Azərbaycanın müstəqillik yolu ilə uzunqulaq (şah) xanədanının müstəbidliyindən xilas olmasının zəruriliyini göstərir.

Cənubi Azərbaycanın mühacir nasirləri içərisində Həmid Məmmədzadənin yaradıcılığı da xüsusi yer tutur. Onun 40-50-ci illərdə Şimali Azərbaycanda "Hekayələr" (1957), "Futbolçu" (1961), "İlk məhəbbət" (1966), "Təbriz xatirələri" (1978), "Oğurlanmış abidə" (1984) kimi kitabları nəşr olunmuşdur [197; 198; 199; 200; 201]. Qeyd edək ki, yazıçının nəsr əsərləri əsas etibarilə hekayə janrında qələmə alınmış bədii örnəklərdən ibarətdir.

Bədii yaradıcılıq spekti daha çox Azərbaycanın Güneyinə yönələn, *“...yaşadığı ölkənin adamlarının dünyagörüşünə, psixologiyasına yaxşı bələd olan Həmidin nəsr əsərlərində milli kolorit, rejimin formalaşdırdığı etiraz psixologiyası çox güclüdür*” [187, s.90]. Məhz bu cəhət ədibin əsərlərinin oxunaqlılığını, inandırıcılığını təmin edən faktorlardandır.

Həmid Məmmədzadənin nəsr yaradıcılığında xüsusi yer tutan “Milli meydan” adlı hekayəsində şahlıq üsul-idarəsinin və Azərbaycan Milli Hökumətinin azadlıq bəxş etdiyi günləri müqayisə olunur, qəhrəman azərbaycanlı qadınların azadlıq uğrunda apardıqları mübarizə təsvir edilir. Hekayənin baş qəhrəmanı olan Gülsüm bacı tipik Təbriz qadını kimi təqdim olunur. Lakin onu ağır sosial-əxlaqi şərtlər altında yaşayan digər qadınlardan fərqləndirən cəhət öz hüqüqunu dərk etməsi, monarxiya rejiminin eybəcər qanunlarına kor-koranə boyun əyməməsidir.

“Milli meydan” hekayəsində Təbrizin Gülüstan bağında çadranı atmaq kompaniyası adı altında keçirilən şou Gülsümün daxili-mənəvi dünaysının aşkarlanmasına xidmət edir. *“Müəllifin dəqiq ifadəsi ilə təqdim etdiyi kimi, bu şən bir karnaval deyil, kədərli bir şoudur. Karnaval iştirakçılarının özü kimi, tamaşıçılar da gülməkdən daha çox hiddət və təəssüf hissi keçirirlər*” [180, s.85].

Yazıçının yaradıcılığının son mərhələsinə təsadüf edən “Qəbirləri sökürdülər” adlı hekayəsində Dağlıq Qarabağda işğal altında olan torpaqlarda Azərbaycan məzarlıqlarının dağıdılması bədii təsvir obyektinə çevrilmişdir. Hekayənin əslən Güneydən olan qəhrəmanı qəbiristanlığı addım-addım dolaşaraq erməni işğalçılarının törətdikləri vandalizmi nümayiş etdirir.

Həmid Məmmədzadə, eyni zamanda, tərcümə fəaliyyəti və elmi yaradıcılıqla da məşğul olmuş, Azərbaycan ədəbiyyatının təbliği və araşdırılmasında əhəmiyyətli rol oynamışdır.

Cənubi Azərbaycan mühacirət ədəbiyyatının təmsilçiləri içərisində ilk əsərlərini “Dadrəs” imzası ilə dərc etdirən Firuz Sadıqzadənin yaradıcılığının da bəhs olunan problem müstəvisində dəyərləndirilməsinə ehtiyac vardır. Onun müxtəlif illərdə nəşr etdirdiyi “Savalanın ətəklərində” (1956), “Məhəbbət və azadlıq” (1963), “Tüfənglə ölçülən torpaq” (1967), “Məhəbbət körpüsü” (1975) kimi kitablarına daxil edilən

povest və hekayələr Cənubi Azərbaycan həyatının ictimai-siyasi mənzərəsinə aydınlıq gətirən bədii örnəklərdir [72; 234; 235; 236]. Yazıçının əsərlərində ən çox diqqət yetirilən dövrlərdən biri S.C.Pişəvərinin başçılığı ilə yaradılmış Azərbaycan Milli Hökuməti illəridir. Bu dövrdə yaşanan ictimai-siyasi hadisələr, fədailərin milli azadlıq uğrunda apardığı mücadilə, bütün iqtisadi məhrumiyyətlərə baxmayaraq xalqın mübarizə əzmindən dönməməsi hekayələrin başlıca mövzusunu təşkil edir.

Firuz Sadıqzadənin bədii yaradıcılığında xüsusi yer tutan *““Bıçaq sümüyə dayananda” hekayəsində Cənubi Azərbaycanda vətənpərvər azərbaycanlıların zülm və istibdad altında olan həyatı təsvir edilir. Lakin artıq istibdad zülmündən cana doymuş kəndlilər ağaların qarşısında müti qul olmaq istəmirlər, müxtəlif təşkilatlarda birləşərək, azadlıq uğrunda mübarizəyə qoşulurlar. Məhəmməd də torpaq və azadlıq uğrunda mübarizlər cərgəsindədir. Ancaq o, öz doğma kəndinin nicatını Təbrizdə görür və Azərbaycanın bu qədim mədəniyyət mərkəzinə, azadlıq uğrunda görkəmli mücahidlər yetirmiş bu şəhərə can atır, öz nişanlısı gözəl Rənanı da özü ilə aparmaq istəyir. Bu hadisə onun bu niyyətini daha da tezləşdirir və məcburiyyət şəklinə salır. Hekayənin simvolik adı da elə həmin hadisə ilə bağlıdır”* [180, s.90].

Firuz Sadıqzadənin “Tüfənglə ölçülən torpaq” hekayəsində Azərbaycan Milli Hökuməti dövründə torpaqların hakim təbəqələrdən alınaraq kəndlilərə paylanılması hadisəsi təsvir olunmuşdur. Yazıçının özünəməxsus bir üslubda qələmə aldığı hekayədə canlandırılan əhvalatlar istiqlaliyyət arzusu ilə yaşayan xalqın mübarizə əzmini əks etdirir.

Cənubi Azərbaycan mühacirət nəsrində şər qüvvələr üzərində xeyirxah qüvvələrin qələbə çalması, vətənin demokratik gələcəyinə inamın əsas yer tutması özünü göstərir. Bütün bunların isə dolayısı ilə sosialist realizmi prinsiplərindən qaynaqlandığı şübhə doğurmur.

Cənubi Azərbaycanın mühacirət nasirlərindən biri də özünəməxsus yaradıcılıq dəst-xəttinə malik olan Məmmədrza Afiyətdir. *”Onun “Alov”, “Atamı istəyirəm”, “Ürəkdə işıq” kitablarına toplanan hekayələrində diqqəti çəkən əsas problem Cənubi Azərbaycan xalqının həyatının sosial-mənəvi müstəvidə canlandırılmasıdır”* [1; 2; 3].

Məmmədrza Afiyətin “Biz yenə qayıdacağıq” hekayəsi Cənubi Azərbaycanda müstəqillik ideyasının reallaşmasına ümidin olmasıı ilə fərqlənir. Bu hekayədə də oxucuya nikbin sonluq bəxş etməkdə yazıçı müəyyən qədər səxavət göstərməyə çalışmış və buna nail olmuşdur. Soyuqdan donan və ananın artıq öldüyünü zənn edən körpə Yadigarın sağ qalması, eləcə də Fəridənin son dəfə Mərəndə baxaraq vətənlə vidalaşması epizodunda bir daha görüşmək ümidini itirməməsi-əsərin bu funksiyasına xidmət edən bədii detallardır. “*Öz vətəni ilə axırıncı dəfə vidalaşdığı üçün Fəridənin gözlərinin yaşı axırdı. Lakin bu həsrət dolu gözlərdə bir ümid var idi. Fəridə Yadigarı əlləri üstdə yuxarı qaldıraraq: Əlvida, doğma Mərənd! Əlvida ana vətən! Biz yenə də sənin doğma qucağına qayıdacağıq!-deyib başqa bir səmtə üz tutdu*” [70, s.300]. Bununla da yazıçı Cənubi Azərbaycan demokratik hərəkatın reallaşacağına inamı ifadə edir. Bütövlükdə Cənubi Azərbaycan nəsri səksən illik formalaşma və inkişafı dövründə keçməkeşli bir yol keçmiş, bəzən süstlük və durğunluğun dadını da hiss etmişdir.

Cənubi Azərbaycan mühacir nəsri “*çağdaş Şimali Azərbaycan və Türkiyə nəsrinə deyil, bütövlükdə dünya nəsrinə inteqrasiya etməkdədir. 1946-1950-ci illər mühacirət nəsri isə bütün fərqləri və ayrılıqları ilə birlikdə bu nəsrin tərkib hissəsi kimi qiymətləndirilə bilər. Onu da qeyd etmək yerinə düşərdi ki, keçən əsrin qırxıncı illərindən uzaqlaşdıqca Cənubi Azərbaycan mühacirət nəsrində inqilabçı pafosun və yaxın qələbənin, yurda dönmənin lap yaxınlarda baş verəcəyinə ümidin bədii təsviri getdikcə öləziyir və öz yerini sərt həyat reallığının bədii-publisist inikasına verir. Bu baxımdan Güney Azərbaycan mühacirət nəsrinin tarixi inkişaf yolu-inqilabi romantikadan və sosializm realizmindən gerçəkliyin olduğu kimi dərkinə və bədii əksinə doğru ağrılı bir  yol kimi qiymətləndirilə bilər*” [180, s.97]. Müəllif bu dövrün mühacirət ədəbiyyatının sosialist realizminin təsiri altında olmasına baxmayaraq obyektiv həqiqətləri də əks etdirdiyini  bildirir.

Ötən əsrin 40-50-ci illər mühacirət ədəbiyyatında vətən eşqi, əcdadlarımızın yadigarı olan doğma dil, Azəristan məhəbbəti, Babəklər, Koroğlular, Səttarxanlar yurdu bütöv Azərbaycan sevgisi, 21 Azər gününün fəxrlə yad edilməsi, Azərbaycanın vüqarı Təbrizin vəsfi, fədailərin qəhrəmanlığıöz əksini tapmışdır. Eyni zamanda

həmin ədəbiyyatda sovet hökumətinə, sovet ordusuna, Leninə, kommunistlərə, Oktyabr inqilabına təriflər, şaha, şahlığa, taxt-taca nifrət, vahid Azərbaycanın düşmənləri tərəfindən parçalanması, Şimali Azərbaycanın qardaşlıq köməyilə zəfər bayrağının yenidən Təbrizdə sancılması, demokratik dövlətin süqutunun milli matəm hesab edilməsi kimi məsələlər bədii şəkildə təcəssüm etdirilmişdir.

Beləliklə, XX əsrin 40-50-ci illər milli demokratik mühacir ədəbiyyatını öyrənərkən ona təsir edən amillər aşağdakılar idi:

- İranda Rza şahın istibdadının sarsılması;
- Cənubi Azərbaycanda demokratik hərəkatın güclənməsi, şah rejimi əleyhinə mübarizənin genişləndirilməsi və Azərbaycan Milli Hökumətinin yaranması nəticəsində siyasi, iqtisadi, sosial-mənəvi, mədəni həyatın, ədəbi həyatın canlanması;
- Bu dövrlərdə təcrübəli yazıçıların ruhlanması, ədəbiyyata istedadlı gənclərin gəlməsi;
- Yeni mütərəqqi məzmunlu, dolğun ədəbi əsərlərin meydana gəlməyə başlaması.

## 4.2. XX əsrin 60-90-cı illərində Cənubi Azərbaycan mühacirət ədəbiyyatında milli-mənəvi bütövlük ideyalarının xüsusiyyətləri

Məlum olduğu kimi, 1978-1979-ci illərin inqilabı ilə Güney Azərbaycanda demokratik siyasi, sosial-iqtisadi, mənəvi-mədəni, ədəbi mühit yaranmağa başlasa da o, uzun çəkmədi. *“Təqribən 1960-cı illərə qədər Azərbaycan mədəni həyatında durğunluq yarandı.Şah rejiminin farslaşdırma siyasətinə baxmayaraq, ana dilində ədəbiyyat 1950-1970-ci illərdə inkişafdan qalmamışdır (Səhənd, Əli Kərimi, Əli Təbrizi, Həbib Sahir, Səbahi, Səməd Behrəngi, Savalan, Sönməz, Coşqun, Yəhya Şeyda, Piruz Dilənçi və b.). Azərbaycan folklorunun toplanması və nəşri sahəsində müəyyən tədqiqat işləri aparılmışdır (S.Behrəngi, M.Fərzanə, S.Cavid, A.Təbrizi, M.Tərbiyət, M.Təbrizi, H.Məmmədzadə, Q.Kəndli, Q.Beqdeli, M.Müsəddiq, M.Mənafi, C.Müciri, Məhəmmədsədiq Hüseyn Məhəmmədzadə (Hüseyn Düzgün) və*

*başqaları) 1978-1979-cu illər İran islam inqilabından sonra keçən qısa müddət ərzində Azərbaycan türkcəsində onlarla kitab nəşr edilmişdir. Onların bir neçəsi təkrar işıq üzü görmüşdür"* [71]. Deməli, Sovet Azərbaycanı, Cənubi Azərbaycan mühacir ədəbiyyatı, eləcə də İrandakı azərbaycandilli ədəbi proses müxtəlif rejimdə və ideoloji şəraitdə milli zəmində inkişaf edirdi.

Altmışıncı illərdə qısa bir müddət ərzində (1960-1966-cı illərdə) bölünmüş vətən mövzusu Sovet İttifaqında – Şimali Azərbaycanda qadağan edildi. Bu barədə AMEA-nın İnsan Hüquqları İnstitutunun əməkdaşı Xaqan Balayev belə yazır: "*Mühacir ədiblərin söylədiklərindən və bir arxiv sənədindən 1960-cı illərdə Cənubi Azərbaycan mövzusunun bir müddət qismən yasaq edildiyi aydınlaşır. 1950-ci illərin sonunda, yaxud altmışıncı illərin əvvəlində Bakıda olan Sov.İKP MK Rəyasət Heyətinin üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Anastas İvanoviç Mikoyan partiya-sovet fəalları yığıncağındakı çıxışında söyləmişdi ki, Cənubi Azərbaycan mövzusunda yazılan bəzi əsərlərdəki iki Azərbaycanın birləşməsi ideyasını İran dövləti öz daxili işlərinə qarışmaq, suverenliyinə qəsd kimi qiymətləndirir. Bundan sonra Azərbaycan KP MK-nın təbliğat və təşviqat şöbəsi Azərbaycan SSR Nazirlər Soveti yanında Mətbuatda Dövlət Sirrini Qoruyan İdarəyə, qəzet-jurnal redaksiyalarına müvafiq şifahi göstəriş verilmişdi. Bu, Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin sənədlərində əksini tapmasa da, digər arxivin – S. Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin bir sənədi ilə dolayısı ilə təsdiqini tapır*" [40, s.58].

Azərbaycan Yazıçılar İttifaqı Rəyasət Heyətinin 23 may 1962-ci il tarixli iclasında millətçilikdə günahlandırılan Xəlil Rzanın məsələsi müzakirə olunarkən, AYİ İdarə Heyətinin birinci katibi Mehdi Hüseyn Xəlil Rzaya birbaşa belə sualla müraciət edir: "*Tez-tez Cənubdan, dildən niyə yazırsan? Cavansan, inkişaf edirsən, niyə düz yolla getmirsən?"* [34, s.49]. Deməli, bölünmüş vətən mövzusunda yazmaq "əyri yolla getmək" hesab edilirdi. 1965-ci ildə Mikoyan hakimiyyətdən kənarlaşdırıldıqdan sonra qadağan da öz-özlüyündə aradan qalıxdı.

XX əsrin 60-90-cı illərində Cənubi Azərbaycan mühacir ədəbiyyatının görkəmli nümayəndələri – Əli Tudə, Söhrab Tahir, Abbas Pənahi Makulu, G.Səbahi, F.Xoşginabi, Q.Saedinin əsərləri böyük şöhrət qazanmışdır.

XX əsrin 60-90-cı illərində Şimali Azərbaycan, Cənubi Azərbaycan mühacir ədəbiyyatı və İrandakı milli demokratik ədəbiyyat bir-birilə vəhdət təşkil edirdi. Lakin şimaldakı sovet ideologiyası və İrandakı farslaşma siyasəti milli ruhlu ədəbiyyatın inkişafına mane olurdu.

Qeyd edək ki, Abbas Pənahi Makulu Cənubi Azərbaycan nəsrində 60-80-ci illərdə yazdığı "Səttarxan " (1983), "Xiyabani" (1979), "Heydər Əmioğlu" (1985) tarixi romanları ilə məşhurdr.

"Səttarxan"romanını hələ Cənubi Azərbaycanda yazsa da, əsər itmiş, yazıçı onu Bakıda bərpa edə bilmişdir. Roman 1972-ci ildə Moskvada, 1983-cü ildə Bakıda nəşr olunmuşdur. A.P.Makulunun "Səttarxan" romanı kommunist ideologiyasının təsiri altında yazıldığından vətənin o tayında Cənubi Azərbaycanda əsas məqsədə çatmaq üçün inqilabi hərəkatla yanaşı, qabaqcıl dünya təcrübəsinə əsaslanan yeni, modern sistemin yaradılması və xalqın maarifləndirilməsinə, bir sözlə siyasi inqilabdan az əhəmiyyət kəsb etməyən mədəni inqilaba da yüksək əhəmiyyət verilir. Lakin A.P.Makulu kommunist ideologiyasına uyğun olaraq siyasi inqilaba üstünlük verir. Onun maarifçi ziyalı obrazı Mirzə Həsən çıxış yolunu bolşevizmdə görür.

XX əsrin əvvəllərində şübhəsiz Şimali Azərbaycanda da, Cənubi Azərbaycanda da dinin mövqeyi güclü idi. A.P.Makulu "Səttarxan" romanında bu dövrdə İranda bütün işlərin də, idarəçiliyin də xanların və din xadimlərinin əlində olduğunu göstərir. "*Camaatın ən kiçik işlərindən böyük işlərinə qədər hamısından mollaların xəbəri olmalı idi*" [174, s.225]. Sovet ateist ideologiyası din xadimlərini mənfi, inkişafa əngəl olan qüvvə kimi qiymətləndirirdi. Halbuki din xadimləri arasından da mütərəqqi şəxsiyyətlər çıxırdı, kommunist ideologiyasına uyğun olaraq yazıçı şah və onun əyanlarını birtərəfli şəkildə yalnız mənfi obraz kimi təsvir etmişdir. Romanda Cənubi Azərbaycanda başlanan xalq inqilabı hərəkatına qarşı İran və Rusiyanın əlbir hərəkət etdiyi, azadlıqsevər qüvvələri məhv etməkdə birgə fəaliyyət göstərdikləri təsvir edilir. "Məşrutə inqilabının məğlubiyyətində hərəkata qoşulmuş səbatsız

ünsürlərin günahlandırılması da "Səttarxan" romanında proletar inqilabları haqqında marksist metodologiyası əsasında qoyulub həll edilmişdir. İnqilaba şəxsi qazanc məqsədi ilə qoşulmuş bu cür səbatsız zümrələr müəllifin kəskin tənqid atəşinə məruz qalır və o, əsl demokratik inqilabın necə həyata keçiriləcəyini "*"Piter fəhləsindən" öyrənməyi məzlum Şərqə, o sıradan İran kəndlilərinə məsləhət görür*" [180, s.129-130] . Bununla da o, sovet rejimi şəraitində yaşadığı üçün İranda da, Cənubi Azərbaycanda da sosialist inqilabı tipli hərəkatın reallaşmasını istəyirdi.

İnqilabi qüvvələrə rəğbət bəsləyən Simon Daniloviç Təbrizə gələrkən həyati həqiqətlərə rast gəldiyinin şahidi olur: "*Yeniliyə doğru irəliləyən bir hərəkat ilə qarşılaşdım. Mən hələ yolda ikən Təbriz əhalisinin öz azadlığı uğrunda apardığı mübarizələr haqqında, bu mübarizəyə başçılıq edən Səttarxan haqqında çox sözlər eşitmişdim*" [174, s.270]. Xarici nümayəndələr Cənubi Azərbaycanda baş verən xalq hərəkatı, onun lideri xalq qəhrəmanı Səttarxanı yüksək dəyərləndirirdilər. Səttarxan Cənubi Azərbaycanda milli azadlıq hərəkatının əsas mahiyyətini, bu hərəkata mane olan və ona yardım edən qüvvələri müəyyənləşdirir: "*Biz bu yolla getməliyik, həm də ildırım sürətilə getməliyik. Zamanın çağırışna cavab verməli, zamanla ayaqlaşmalı, onun tələbatını ödəməliyik*" [180, s.129]. Tərəqqiyə nail olmaq istəsə də Səttarxan bir tərəfdə sürətlə inkişaf edən Avropa ölkələrini, "*o biri tərəfdə hər cür tərəqqiyə zidd olan İran üsul-idarəsini və onu idarə edən ləyaqətsiz, xəyanətkar adamları, onların köməkçisi olan ruhaniləri, mövhumat uçurumuna yuvarlanmış camaatı, dünənə kimi özünü azadlıq tərəfdarları hesab edən adamları düşünür və öhdəsinə aldığı vəzifənin nə qədər çətin, nə qədər ağır olduğunu daha artıq dərk edirdi. Bütün bunlar onun arzuları və planlarının həyata keçirilməsinə böyük maneə təşkil etdiyi bir vaxtda, ancaq rus-sosial demokratlarının inamla apardıqları cəsarətli işlər onu ruhlandırır, ona ilham verirdi. O, indi yenə də bu haqda düşünür, bərk ayaqda Bakı ilə əlaqəyə girişməyi mümkün hesab edir, oradakı inqilabçılardan kömək ola biləcəyi ilə özünə təskinlik verirdi*" [175, s.4]. Səttarxan Bakıya, Şimali Azərbaycana öz arxası, ilham mənbəyi, öz eli, vətəni kimi baxır.

Eyni zamanda o, məşrutəyə şahlıq hüququnu məhdudlaşdıran parlament üsulu kimi baxır, onu monarxiyadan, mütləqiyyətdən üstün hesab edir, onun dinə, məz-

həbə zərəri olmadığını bildirir. Bununla da Abbas Pənahi Makulu "*xalq hərəkatının dar bir çərçivədə, məhdud maraqlar və mənafelər üçün deyil, regional və qlobal əhəmiyyətli problemlərin həlli uğrunda aparıldığını nəzərə çatdırmaq istəmişdir. Həm də yazıçı göstərmək istəmişdir ki, Azərbaycan xalqı öz mübarizəsində tək deyildir, arxasız-köməksiz qalmamışdır; əgər irticaçı qüvvələrə beynəlxalq imperializm, o zaman dünya jandarmlığı iddiasında olan rus çarizmi qahmar çıxırsa, Səttarxan hərəkatına yardım üçün də Bakı və Tiflisdə xüsusi komitələr təşkil edilir və proqressiv qüvvələr əllərindən gələn köməyi göstərməyə çalışırdılar*" [180, s.129-130]. Bunlardan "*İran inqilabçılarına yardım komitələri"ni göstərmək mümkündür*" [74, s.19]. Yazıçı bu yardım komitələrinin meydana gəlməsinin və fəaliyyət göstərməsinin təkcə İran və Cənubi Azərbaycan üçün deyil, bütün dünyada mümkün olduğunu, faşizmə qarşı beynəlxalq qüvvələrin birləşməsinin, antifaşist koalisiyasının yaranmasının da bu yolla meydana gəlməsini, ədalətsizliyə qarşı mütərəqqi qüvvələrin birləşməsinin mümkün olduğunu göstərir.

A.Makulunun sovet ideologiyasına uyğun olaraq beynəlmiləlçilik, xalqlar dostluğu ideyasından bəhs etməsi, türk xalqlarının qanlı düşməni olan ermənilərin Səttarxan hərəkatına qoşulmaları heç cür həqiqətə uyğun deyildir. "*Axı, biz həmişə bir ağlayıb, bir gülmüşük. Bu gün bütün Təbriz azadlıq uğrunda vuruşmağa hazırlaşarkən biz evimizdə tamaşa edə bilmərik*"-deyən erməni dəstə başçısına ağ- saqqal bir mücahidin: "*Allah sizi dostluqdan və qonşuluqdan əskik eləməsin*!" [175, s.23] - deməsi yalnız sovet ideologiyasına uyğun yalançı "xalqlar dostluğu" ideyasını "əsaslandıran" boş mənasız sözlərdir. Elə məşrutə inqilabi dövründə Şimali Azərbaycanda qırğınlar, qətliamlar törədən ermənilər, Türkiyədə Şərqi Anadoluda və Cənubi Azərbaycanda da azərbaycanlıları kütləvi şəkildə məhv edirdilər. Əslən Cənubi Azərbaycandan olan AMEA-nın akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun dissertantı Həsən Səfərinin yazdığı kimi: "*Güney Azərbayvanın qərb bölgəsində-Urmiya, Salmas, Xoy və ətraf ərazilərdə Azərbaycan türklərinə qarşı erməni-aysor hərbi dəstələrinin törətdiyi soyqırım XX əsrin ən dəhşətli soyqrımlarından biridir. Əslində Güney Azərbaycanda törədilən soyqırım mahiyyət etibarı ilə regionda türklərə qarşı son iki əsrdə ermənilər tərəfindən törədilən*

*soyqırımın tərkib hissəsi saylır. Bundan əsas məqsəd isə müsəlman türklərin yaşadığı ərazilərdə və xüsusilə güclü türk dövləti olan Osmanlı imperiyasının qonşuluğunda özlərinə dayaq nöqtəsi kimi süni şəkildə erməni dövləti yaratmaq idi. Lakin ermənilər Azərbaycan torpaqlarına köçürüldükləri üçün burada dağınıq şəkildə yaşayırdılar. Onlar hər bir şəhər və məntəqədə yerli türk əhali ilə müqayisədə əhalinin çox az hissəsini təşkil edirdilər. Ona görə də erməni dövləti yaratmaq üçün Şimali Azərbaycan və Şərqi Anadoluda olduğu kimi, Cənubi Azərbaycanın qərb bölgəsində* də *əhalinin əksəriyyətini qətl edib, demoqrafik dəyişikliklə buna nail olmaq məcburiyyətində idilər. Məhz buna görə, türklərin yaşadığı bütün bölgələrdə (Şərqi Anadolu, Qüzey və Güney Azərbaycan) eyni taktika ilə soyqırım tətbiq edilib. Yəni yerli türk əhalini qırıb, erməni dövlətinin yaradılmasına şərait yaratmaq istiqamətində işlər aparılmışdır*" [108, s.4]. Göründüyü kimi, ermənilər bütün əsrlər boyü, hətta sovet dövründə də türk xalqlarına, o cümlədən azərbaycanlılara düşmən olmuş, indi də düşməndir.

"*Soyqırımın baş verdiyi dövrdə yaşayan Əhməd Kəsrəvi həmin hadisələrdə 130 mindən artıq insanın erməni və aysorlardan ibarət xristian qoşunu tərəfindən qətlə yetrildiyini yazır*" [337, s.703]. Bəzi mənbələr insan itkisinin 200 min nəfərdən artıq olduğunu göstərirlər.

Cənubi Azərbaycan ədəbiyyatının tədqiqatçılarından filologiya elmləri doktoru, professor Vüqar Əhmədli haqlı olaraq yazır: "*Ötən dövrlərdə zamanın ədəbi-nəzəri tələb və ölçüləri ilə qələmə alınan həmin tədqiqatların bir çoxu bu gün də öz elmi əhəmiyyətini itirməmişdir. Bunlara baxmayarq, hər yeni dövrdə tarixə, sənət nümunələrinə yeni baxış, əski zamanı çağdaş meyarlarla dəyərləndirmək bütün elmlərin, o çümlədən ədəbiyyatşünaslığın əsas vəzifələrindən biridir*" [103]. Müəllif xüsusilə müstəqillik dövründə belə yanaşmalara böyük ehtiyacın olduğunu, Cənubi Azərbaycandakı ədəbi prosesləri, bölünmüş vətən mövzusunda aparılan tədqiqatları Şimali Azərbaycan ədəbiyyatı ilə qarşılıqlı təsir və əlaqə şəklində aparılması zərurətini göstərir.

V.Əhmədli daha sonra yazır: "*Güneydə yaşayan soydaşlarımızın istər nəsr, istərsə də poeziyada demokratik ideyaları, ictimai motivlər müqayisə edilməklə*

*araşdırılmaların leytmotivini təşkil etməlidir*" [103]. Müəllif öz fikrini əsaslandırmaq üçün sovet dövründə kommunist ideologiyası ilə layihələnən bölünmüş vətən mövzusunda yazılmış əsərlərin və tədqiqatların yenidən nəzərdən keçirilməsini məsləhət görür, mühacirət ədəbiyyatında bölünmüş vətən mövzusuna yeni metodologiyadan yanaşmağı ədəbiyyatşünaslığın əsas vəzifələrindən biri hesab edir.

Romandan məlum olur ki, xislətində xəyanət, yalan, ikiüzlülük olan şah məclisi topa tutur, millət vəkillərini zindana saldırır, qətl-qarətə əl atır, Azərbaycanı susdurmaq üçün hərbi gücdən, istibdad və terrordan istifadə edir. Bütün İran xalqlarının ümidgahı isə Azərbaycan idi. Əsərdə ikinci bir nöqsan isə Azərbaycan xalqının qanlı düşməni daşnak Şaumyanla Cənubi Azərbaycandan olan millət vəkili Mirzə İbrahim ağanın görüşməsidir. Şimali Azərbaycan nümayəndələri Cənuba öz qardaşlıq köməyini göstərirdilər: onları silah və canlı qüvvə ilə təmin edirdilər.

İngilis konsulu ilə Səttarxanın görüşündə Böyük Britaniya dövlətinin ona "yardım etmək" vədindən imtina edən Sərdari-milli belə cavab verir: "*Çox təşəkkür edirəm, cənab! Lakin cəsarətlə deyə bilərəm ki, istibdad və hüquqsuzluq əleyhinə apardığımız mübarizədə Azərbaycan xalqı yardım üçün heç kəsə möhtac görmür*" [175, s.47]. Böyük Britaniya özünün mənafeyini qoruması müqabilində Səttarxana pul və silahla yardım etməyi vəd edir. Səttarxanın isə ona cavabı çox mərdanədir: "*Xalqın qadir əli mənə Böyük Britaniya dövlətindən daha çox kömək edir, mənə yenilməz qüvvə verə bilər. Siz bunu da yaxşı bilməlisiniz ki, nə mənim, nə də xalqımın İran xalqlarına fərmanrəvalıq etmək fikrimiz yoxdur. Biz azad olmaq, özümüzün və evimizin sahibi olmaq istəyirik. Bunun üçün də başqa azadixah xalqlar bizə kömək etdiyi kimi, yeri gəldikdə biz də fars qardaşlarımza yardımımızı əsirgəməyəcəyik! O ki, qaldı sizin təklifinizə, cənab, nə mənim, nə də mənim xalqımın Böyük Britaniya dövlətinin verəcəyi maddi yardıma və məsləhətlərə ehtiyacı yoxdur*" [175, s.50]. *"Mənə xalqımın səadətin-dən və azadlığından başqa heç bir şey lazım deyil. Xalqımı xoşbəxt görmək mənə ən böyük mükafatdır. Xalqımı azad etmək üçün şah və onun sarayı ilə mübarizə aparmaq, onu məhv etmək, mənə hər şeydən artıq lazımdır*" [175, s.50-51]. Bununla da Səttarxan dünyanın ən güclü dövlətinin ona şah olmaqda yardımından imtina edir, şahlıq sisteminin ləğvini, İranın bütün xalqlarının, o

cümlədən azərbaycanlıların hüquq və azadlığının təmin olunmasını özünün əsas məramı və məqsədi hesab edir.

Romanda hər iki Azərbaycanın milli-mənəvi vəhdətini təmin edən Novruz bayramı və el adət-ənənələri də təsvir olunubdur. Sərdari-milli Azərbaycan xalqının birliyini möhkəmləndirmək üçün təriqiətçiliyin aradan qaldırılmasına dair islahatlar həyata keçirir: "Geniş və əsaslı bir islahat aparmaq fikrində olan Sərdar hələ çox qədimdən qalma pis, zərərli, xalqın birliyini pozan adətləri camaatın arasından qaldırmağı lazım bilirdi. Bu adətlər durduqca Azərbaycan xalqının birliyi mümkün deyildi. Həmin adətlərin nəticəsində bu məhəllə o məhəllə ilə, bu dəstə o dəstə ilə, bu tayfa o tayfa ilə kin saxlayır, bu,  bəzən onları bir-birinə düşmən edirdi. Heydəri, neməti, sünnü, şiə, şeyxi, dəhri və bu kimi bir-birinə zidd olan təriqətlərdən başqa məhərrəm ayında təşkil edilən dəstələr arasında düşmənçilik olur, bir çox halda onların silahlı toqquşmaları baş verirdi. Bu adətləri aradan qaldırmaq və onların yerinə möhkəm bir ittifaq yaratmaq lazım idi. Bunun üçün Sərdar həftədə bir gün məhəllə yığıncaqları keçirməyi məsləhət görüb və özü də məhəllə ağsaqqalarının məclisini çağırırdı" Səttarxan eyni bir milləti parçalayan təriqətçiliyi xalqın ən böyük bəlası hesab edir, bu təriqətşiliyi aradan qaldırmaq üçün onun potensial gücündən istifadə edir.

Səttarxan yalnız Azərbaycan türklərinin deyil, İranın bütün xalqlarının azadlığını təmin etmək istəyir: "*İran xalqlarının ancaq birgə hərəkatı və doğma bir ailə kimi bərabər yaşamaları onların azadlığını təmin edə bilər,- dedi. Buna görə də milliyyətindən asılı olmayaraq bütün İran azadixahları bu məqsədə çatmaq üçün cani-dildən çalışmalıdırlar*" [175, s.68]. Səttarxan İran xalqlarının səadətini onların azadlığında, istiqlaliyyətində və bərabərhüquqluğunda görürdü.

Fars ziyalısı Məlikül-Mütəkəllim öz çıxışında deyir: "*Bütün İran Azərbaycanın apardığı mübarizəni dörd gözlə izləyir. Bu hərəkat doğrudan da Azərbaycan xalqının milli hərəkatıdır. Bu hərəkat olduqca mühümdür. Ona görə mühümdür ki, o, Yaxın Şərqdə başlanacaq milli hərəkatın əlifbeyidir.Yaxın Şərq azadixahlarının, xüsusən İran azadixahlarının gözü sizdə və sizin başladığınız inqilabdadır. Mən uca səslə deyirəm: Yaşasın Azərbaycan xalqı və onun başladığı milli azadlıq hərəkatı! Yaşasın*

*Azərbaycan xalqı ilə fars xalqının sarsılmaz dostluğu!*" [175, s.72]. Bununla da xalq hərəkatının fars xalqına qarşı deyil, şahlıq rejimi əleyhinə olduğu göstərilir.

Əsərdə rus topçusu İvanovun mühacirlərə qoşulması, Leninin Təbriz inqilabı haqqında məqaləsinin verilməsi də bolşevik ideologiyasına hədsiz sadiqlikdən irəli gəlir.

Səttarxanın dostu Süleymandan aldığı məktub İngiltərənin İranda və xüsusən Cənubi Azərbaycanda talançılıq fəaliyyətini ifşa etmək baxımından maraq doğurur: "*Əziz qardaşım Səttarxan! Cənub kömrüklərimizi, neft yataqlarımızı, bir sözlə, ölkənin bütün iqtisadiyyatını istismar edərək, xalqımızı dilənçi kökünə salan İngiltərə istismarçıları daha iki talançılıq planını həyata keçirməyə başlamışlar. Birincisi budur: onlar ölkədə olan bütün abidələri və mədəniyyətimizə aid olan sənədləri təşkil etdikləri oğru dəstələri vasitəslə soyub aparırlar. Əlbəttə, Azərbaycanda olan abidələrdə, xüsusilə Şeyx Səfi məqbərəsində və onda saxlanılan qədim Azərbaycan mədəniyyətinə aid olan əlyazmalarından, qablardan və başqa asarətiqələrdən (əntiq əsərlərdən-A.H.) müğayat olmaq lazımdır. Mədəniyyətimizi və abidələrimizi bu mədəni oğrulardan qorumaq bu gün bizim ən müqəddəs vəzifəmiz olmalıdır. İkincisi, bunlar şahla razılaşıblar ki, dörd yüz min lirənin müqabilində bütün səltənət cəvahirlərini banki-şahidə girova götürsünlər. Əlbəttə, bu pul inqilabi hərəkatı və xüsusilə Təbriz inqilabını boğmaq işinə xərclənəcəkdir. Onu bilməlisiniz ki, bu cəvahirlərin ən azı on milyon lirə dəyəri vardır. İngiltərə hökuməti bu yol ilə bir oxla iki nişan vurmaq istəyir: həm inqilabı yatırmaq, həm də az bir pulun müqabilində bu böyük və qiymətli sərvətə yiyələnmək istəyir. Hər vasitə ilə bu işləri ifşa etmək lazımdır. Qoy xalq üsyanı və qəzəbi şahın bu xəyanətinə də mane olsun*" [95, s.60-61]. Bununla da Böyük Britaniyanın İran şahı ilə əlbir olub, Azərbaycan xalqının təbii və mədəni sərvətlərini talaması göstərilir. Bundan başqa ingilislər bütün müxalif qüvvələri, o cümlədən islamçı qüvvələri pul və silahla təmin edib. "Səttarxan hərəkatının kökündən qazımaq" planını həyata keçirməyə ruslarla birlikdə başçılıq edirlər. İngilislərin Səttarxana qarşı istifadə etmək istədikləri pozucu qüvvələrdən biri də erməni daşnaklarının olması maraq doğurur: "*Bu günlərdə daşnaksyon başçılarından müsyö Yefrem ilə Keri iyirmi beş nəfər başqa yoldaşı ilə Təbrizə gələcəklər.*

*Təbrizdə olan başqa daşnakları da onlara qatıb Səttarxanın dəstəsinə qoşulmaları və o hərəkatı içərisindən pozmaları üçün hər imkandan istifadə edin. Yefrem yeri gəldikdə çox yaxşı işlər görə bilər*" [175, s.124]. Göründüyü kimi, bütün dövrlərdə ermənilər ingilislər və böyük dövlətlərin əllərində Azərbaycana qarşı, onun parçalanmasının dərinləşdirilməsi üçün bir vasitə olmuşdur.

Səttarxan Təbrizdəki bütün xarici ölkələrin konsulluqlarının və xalqın vətənpərvər milli qüvvələrinin nümayəndələrinin iştirak etdiyi görüşdə İngiltərənin İranda Azərbaycan xalqına qarşı düşmənçilik fəaliyyətini ifşa edir, İngiltərə və onun müttəfiqləri arasında diplomatik qalmaqal yaradır, xalqın nümayəndəsinin bir çıxışında İngiltərənin İranı və Cənubi Azərbaycanı müstəmləkəyə çevirmək cəhdi ifşa edilir: "*Biz bu məlun ingilislərə ona görə iblis adını veririk ki, şeytan kimi xalqı bir-birinə, dostu-dosta düşmən edir. Öz mənfəəti üçün xalqları bir-birinin üstünə qaldırır, onları bir-birinə düşmən edir. O, alçağa yoldaşdır, oğruya sirdaş. Xərdəcəlin (uzunqulaq-A.H.) ulağı kimi hər tükü bir rəngə çalır. Tehranda özünü məşrutəçi göstərir, Təbrizə silah gətirib məşrutə düşmənlərinə paylayır. Onun tərəfdarı olan qəzetlər öz qonşumuz rus xalqına qarşı bizdə pis fikir və düşmən rəylər oyadır. Ruslarla osmanlıları, çinlilərlə rusları, yaponlarla rusları bir-birinə qırdıran həmin bu ingilislərdir. O, bizi də var-yoxdan çıxarandan sonra, mədənlərimizi, pulumuzu, qızılımızı aparandan sonra, indi də müqəddəs məkanlarımızı söküb və oradan əlyazmalarını daşıyır. O, şahla birləşərək səltənətin cəvahirətını qapıb qaçırmaq istəyir, şahı Azərbaycan inqilabının əleyhinə silahlandırır, məşrutəni boğmaq istəyir*" [175, s.145-146]. Bununla da ingilislərin İrandan və Cənubi Azərbaycandan yığışdırılması tələb olunur, ingilislərə qarşı nifrət yaranırdı. Bu isə yüz ildən artıq Şərqdə, xüsusən İran və Azərbaycanda ağalıq edən ingilis siyasətinin iflası demək idi: "*Bu heç də ingilis diplomatiyasının fəaliyyətinin zəifləməsi demək deyidi. Onlar indi başqa, yeni formalı siyasətlərə əı atacaqdır. Ancaq hələlik məlum olan bir şey vardır: ingilis diplomatları Azərbaycan inqilabına, onun başçılarına qarşı yalnız İranda yox, beynəlxalq miqyasda iftira, böhtanlarla düşmənçilik siyasətini daha qızğın və vəhşiliklə davam etdirirdilər*" [175, s.148]. Beləliklə, Səttarxan hərəkatına, Azərbaycanın azadlığına və müstəqilliyinə qarşı gizli fəaliyyət

aparan İngiltərə bu xalqın açıq-aşkar düşməninə çevrildi. Əsərdə ağsaqqalların nümayəndələrindən birinin Sərdari-milliyə bayrağı Azərbaycan xalqının adından təqdim etməsi hərəkatın geniş xaiq hərəkatı olduğuna dəlalət edir. Sərdari-milli bütöv Azərbaycanın və bütün İran azadixahlarının məşrutə inqilabına kömək etdiyini xüsusi qeyd edir: "*Bizim də köməyimiz var. Bizim köməkçilərimiz onlardan da çoxdur. Onların köməkçiləri beş-üç nəfər mülkədar və xanlardırsa, bizim arxamız bütün Azərbaycan xalqıdır. Təbrizdən başqa Marağadan, Ərdəbildən, Urmiyadan, Miyanadan, Zəncandan, Qəzvindən və Azərbaycanın hər yerindən, eləcə də Tehrandan, Rəştdən də bizə köməyə gələn var. Xalq bizimlədir. Bundan başqa, əmi can, unutmayın ki, Bakı da bizə kömək edəcək*" [175, s.164]. Şimali Azərbaycandan silah və canlı qüvvədən başqa "Molla Nəsrəddin" jurnalı hərəkata mənəvi dayağını əsirgəmir, Səttarxana hərbi qüvvədən artıq yardım edirdi.

Romanda göstərildiyi kimi,1909-cu il İranda "İstibdad-səzir" (kiçik zülm –A.H.) adıyla tarixə düşdü. Bu il bütün İranı ayağa qaldırdı. İranda şahlıq sistemini saxlamaqla cüzi dəyişiklik edilməsi Səttarxanı Azərbaycanın müstəqilliyini elan etməyə vadar edir: "*Azərbaycan Əncüməni əyaləti tam bir müstəqillikdə saxlamalı işlərimizə Tehranın qarışmasına qəti yol verməməli və qəti mübarizə üçün hazır olmalıdır. Bunları etməklə bərabər biz və eləcə də Tehrandakı demokrat yoldaşlarımız həmin hökumət başçıları və həmin üsul-idarəni ifşa etməyi bir vəzifə olaraq qarşımıza qoymalıyıq. Azərbaycan Əyalət Əncüməni tam bir istiqlaliyyətlə yaşayıb. Azərbaycanda olan bütün işlərə rəhbərlik etməyi, xalqın vəziyyətini yaxşılaşdırmaq üçün qarşıda duran islahatı həyata keçirməyi öz əlinə alması qərara alındı, Tehranda olan Azərbaycan qoşunlarının geri çağrılmasına əmr verildi*" [175, s.252]. Beləliklə, məlum olur ki, yaranmış tarixi şəraitdə Azərbaycan müstəqilliyini elan edərək, islahatlar yolu ilə ölkənin demokratikləşməsini həyata keçirməyə başlaya bilər.

Əsərdə xarici səfirlərin "Azərbaycan məsələsinə" münasibəti də maraq doğurur. İngilis səfirinin İran hökumətinə başçılıq etmək istəyən Qəvamülsəltənəyə dedikləri sözlər Azərbaycan xalqının əleyhinə yönəlmişdir: "*Sizin qüdrətiniz varsa nə üçün Azərbaycan məsələsini həll edə bilmirsiniz? Bir o qalır ki, Səttarxan özünü padişah*

*elan etməsin. Ağalar, gəlin bir az açıq danışaq! Əgər doğrudan da siz hökumətsiniz, bəs nə üçün Azərbaycandan vergi ala bilmirsiniz?. Nə üçün Azərbaycanın işinə qarışa bilmirsiniz? Nə üçün Azərbaycanda fars xalqından başqa bir xalqın varlığına inananlara özlərini qədim, qüdrətli bir xalq adlandıranlara, ölkəni ikiyə bölənlərə qarşı heç bir tədbir görə bilmir, onların özbaşınalığına imkan verirsiniz? Bu, ölkəni parçalamaq, məmləkətin istiqlaliyyətinə xəyanət etmək deyilmi*" [175, s.263]. Əslində guya İranın parçalanmaması "qayğısına qalan" ingilis səfiri vahid Azərbaycanın parçalanmasını daha da dərinləşdirməyi, Böyük Britaniyanın mənafeyinə, geosiyasi maraqlarına təhlükə olan bütöv Azərbaycanı məhv etməyi təklif edir. Sonra isə o, Səttarxanın xəyanətlə aradan götürülməsi, "bir ucu biclik, bir ucu güclük" siyasətindən istifadə edilməsini tövsiyə edir: "*Siz nə üçün Azərbaycan haqqında, Səttarxan haqqında bu qədər tərəddüd göstərirsiniz? Nə üçün ona qarşı heç bir ölçü götürmürsünüz? "Yeddi dərviş bir kilim üstə sığsa da, bir ölkənin iki padşahı olmaz"- deyirlər. Bu adam istiqlal bayrağı qaldırıb İranı yedirdən Azərbaycan kimi zəngin bir əyaləti ondan ayırmaq istəyir. Mən sizə açıq deyirəm ki, bu adam nəinki mərkəzin mənafeyinə, eləcə də Böyük Britaniya dövlətinin mənafeyinə zidd olan qorxulu bir ünsürdür. İş belə getsə, onun üstündə Böyük Britaniya kimi sizə həmişə ən yaxın dost olmuş bir dövlətlə dostluğu pozmuş olacaqsınız*" [175, s.265]. Səfir Azərbaycanın müstəqilliyini Britaniya imperiyası üçün ən böyük təhlükə hesab edir.

Əsərdə Səttarxanın dostu Mahmuda yazdığı məktubda Tehranda yaradılmış məşrutə hökumətinin anti-Azərbaycan siyasəti ifşa olunur: "*Xarici ölkələrin dəllalxanası olan Tehran şəhərində açılan məclis və qurulan məşrutə hökuməti qəhrəman xalqımızın mənafeyini təmin etmir. İranın və xüsusilə Azərbaycanın ən böyük düşməni İngiltərə dövləti və onun tərəfdarları olan yerli vəzirlər, saray adamları ancaq maliklərin mənafeyini müdafiə edirlər. İndi biz silahımızı onlara tərəf çevirməliyik. Biz xalqımızı onlardan qorumalı və Təbriz Əyalət əncümənini milli məclis adlandırmalıyıq. Bir sözlə, öz evimizin sahibi olmalıyıq. Bu ali məqsədə çatmaq üçün lazım olarsa, yenə də qurbanlar verməliyik. Bunu yaxşı düşünməliyik ki, mübarizədə qurban verməyən bir xalq öz azad və xoşbəxt həyatını qura bilməz. Əzab içərisində ömür sürən xalqımız üçün müstəqil bir həyat yaratmalıyıq. Yaşamaq*

*üçün balığa su lazım olduğu kimi, Azərbaycan xalqına da azadlıq və istiqlaliyyət lazımdır. Müstəqil bir həyata malik olmayanlar cansız cəsədlərdən başqa bir şey deyildir*" [175, s.289-290]. Bu məktub Azərbaycanın müstəqillik və azadlıq yollarını göstərən vəsiyyətnamə və nəsihətnamə xarakterli bir sənəd kimi diqqəti cəlb edir.

Əsərdə 1910-cu ildə Səttarxan və Bağırxanın Tehrana daxil olmaları tarixi hadisə kimi təqdim olunur. Xalqından aralı salınan Səttarxan ingilislərin və iranlı nazirlərin planı ilə xəyanətlə öldürülür, mübarizə isə davam edir.Tədqiqatçı M.Mehdibəyova yazır: "*Baş qəhrəmanın həyatının ilk çağlarından tutmuş xaincəsinə öldürülməsinə qədərki mübarizələrlə dolu həyatı, xalq hərəkatının başçısı kimi fəaliyyəti geniş epik lövhələr, rəngarəng bədii təsvir və təqdim vasitələrilə verilmişdir. Bu baxımdan "Səttarxan" əsəri klassik roman janrının bütün formal tələblərinə cavab verir. Əsərdəki ideya istiqamətinə gəldikdə isə bu gün oradakı dövrü üçün aktual olan bir çox problemlər yeni rakursdan qiymətləndirilməli, dünyanın dəyişmiş ictimai-siyasi mənzərəsi qlobal geosiyasi şəraitin dəyişməsi fonunda saf-çürük edilməlidir. Bütün bunlara baxmayaraq, xalqımızın yaxın keçmişinin qəhrəmanlıqla dolu səhifələrini, ədalət uğrunda mübarizəsini əsasən obyektiv əks etdirdiyinə görə "Səttarxan" romanı bu gün də öz ideoloji və poetik əhəmiyyətini saxlamaqdadır"* [180, s.133]. Beləliklə, "Səttarxan" romanı Azərbaycan xalqının azadlıq və müstəqillik tarixinin şərəfli salnaməsi kimi bəzi ideoloji yanaşmalara baxmayaraq olduqca dəyərli və əhəmiyyətli bir əsər hesab olunur.

Abbas Pənahi Makulunun növbəti əsəri "Xiyabani" tarixi romanı da Səttarxan hərəkatının məntiqi davamı və bölünmüş vətən dərdini və həsrətini ifadə edən mükəmməl bir əsərdir.

Səttarxanın məşrutə inqilabından doqquz il sonra Şeyx Məhəmməd Xiyabani 1920-ci ildə vətənin o tayında Cənubi Azərbaycanda Azadistan dövləti yaratmışdır. A.Pənahi Makulunun "Xiyabani" romanında Xiyabaninin Azərbaycan Demokrat Partiyası və "Təcəddüd"(Yeniləşmə) qəzetini təsis etməsi, partiyanın fəaliyyət istiqamətləri, Azərbaycana Tehranın etdiyi haqsızlıqlara və ədalətsizliyə son qoyması tələbləri əksini tapmışdır.

Romanın qəhrəmanı Xiyabani gənc yaşlarından öz ömrünü xalqının, vətəninin səadəti və azadlığı yolunda sərf etməyə and içir, ona görə də ticarəti buraxıb ruhaniliklə məşğul olur: "*xalqıma, vətənimə məhəbbətim sonsuzdur. Hüdudsuzdur, lakin bu məqsəd, arzu, amala nail olmaq işində təkcə ruhaniyyət və ədəbiyyatla kifayətlənmək olmaz! Təbliğatla yanaşı, təşviqat da, təşkilat işi də lazımdır. Vətənpərvər gəncləri bir yerə cəm edib, onları bir mərkəzdə birləşdirmək lazımdır. Mütərəqqi millətlərdə həmişə belə olub*" [173, s.160]. Xiyabani Azərbaycanın müstəqilliyi üçün təbliğat və təşviqatı təşkilatlanma ilə birləşdirməyi tövsiyə edir.

Məşrutə və azadlığın mahiyyətini xalqa başa salan Xiyabani millət vəkili kimi xalqın mənafeyini müdafiə edir.Pənahi Makulu göstərir ki, İranın məşrutə hərəkatı Şərq dünyasını oyandırdı. "*İranda azadlıq cəbhəsinin başında Azərbaycan dururdu*" [173, s.186].

Şimali Azərbaycan sovetləşdikdən sonra da Cənubi Azərbaycanda Xiyabani hərəkatına yardım edir. Romanda tarixi gerçəkliyə uyğun olaraq Xiyabani yaratdığı hökumətin adını müəyyənləşdirir və ondan qurduğu hökumətin adını soruşduqda:

" *– Azərbaycan hökuməti!*

*- Əlbəttə, Azərbaycan! Amma hələlik Azərbaycan adı qoymaq olmaz. O səbəbə ki, Arazın o tayında müstəqil Azərbaycan hökuməti yaranmışdır. Əsas işə başlamalıyıq. Ad qoymaq həmişə və hər vaxt mümkündür*" [173, s.285].

Tədqiqatçı Arif Kəskin "Bakı-Təbriz" dərgisində Xiyabaninin elan etdiyi dövlətin "Azadistan" olduğuna diqqəti çəkərək yazır: "*Xiyabani Azərbaycanda Tehrandan asılı olmayan bir dövlət qurmaq istəyində idi. Bunun üçün o, xalqın dəstəyi ilə Təbrizə nəzarəti ələ keçirdi. Nəhayət, o, Azərbaycanı müstəqil bir dövlət elan etdi və adını dəyişib "Azadistan" qoydu, dövlət də "Azadistan dövləti" adlandırıldı. Xiyabani ictimai və siyasi baxışlarını fəlsəfi əsasda irəli sürür, bütün çıxışlarında hadisələri bir siyasətçi kimi deyil, bir filosof kimi təhlil edirdi. O, Güney Azərbaycan milliyyətçi hərəkatının lideri olmaqdan əlavə, həm də Azərbaycanın ən görkəmli siyasi zəkası sayıla bilər*" [161, s.30-31]. Müəllif Xiyabaninin düşüncəsinin mərkəzində "Təcəddüd" (müasirləşmə) məfhumu dayandığını, İranda müasirləşmənin Qərbləşmə ilə sinonim olduğunu və Qərbləşmənin milli dəyərlərin inkarı kimi başa

düşüldüyünü göstərir: "*Xiyabaniyə görə isə "təcəddüd cəmiyyət və fərd səviyyəsində müasir dövrün şərtlərini mənimsəmək və zamanla ayaqlaşmaqdır*" [161, s.30]. O, təcəddüdü milli dəyərlər üzərində qurulmuş yeniləşmə prosesi kimi görür. Xiyabaninin düşüncəsində müstəqilliyin çox önəmli yeri vardır. Müstəqillik olmadığı yerdə təcəddüddən (müasirləşmədən) söhbət gedə bilməz. İran və Azərbaycan müstəqil olmalıdır. Lakin ilk vaxtlar İranın da müstəqilliyini tələb edən Xiyabani sonralar müxtəlif daxili və xarici səbəblərdən İranı azad etməyin çətin olduğunu başa düşür və belə olan halda Azərbaycanı xilas etməyin daha asan və gərəkli olduğu qənaətinə gəlir. Xiyabani bu məntiqə söykənərək, Azərbaycanı düşünürdü. O, Azərbaycanı İranın Qərbə açılan gözü, demokratikləşmə və modernləşmənin əsl dayağı sayırdı. Xiyabani Azərbaycanın tarixi yalnızlığını hiss edərək, onun müstəqil dövlət elan olunması zərurətinə inanmışdır. "*Xiyabaninin Azadistan dövləti Azərbaycan milli mücadiləsini yeni bir mərhələyə daxil etmişdir. Azərbaycan İranın tərkibində öz rifahını, inkişafını və azadlığını tapmayacaqdır. Bununla da Xiyabani Güney Azərbaycan milli mücadiləsində müstəqillik düşüncəsinin təməlini qoymuşdur*" [161, s.30-31]. Romanda da Xiyabani bu fikri ifadə edərək Azərbaycanın öz müqəddaratını düşünməsi zərurətini xüsusi qeyd edir: "*Özümüz-özümüzü idarə etməsək bədbəxtlik hamımızın qapısını döyəcək*" [173, s.266] və sonra isə o, qətiyyətlə bildirir: "*Tehranla əlaqəni kəsib, özümüz-özümüzü idarə etməliyik! Azərbaycan nəinki özünü, hətta İranı da idarə etməyə qadirdir*" [173, s.284]. Bununla da Xiyabani qəti olaraq Azərbaycanın tam müstəqilliyini bəyan edir.

XX əsrin əvvəllərində Cənubi Azərbaycanda bütöv millətimizin həyatında qəhrəmanlıq səhifəsi kimi daxil olmuş Xiyabani hərəkatının bədii təcəssümü olan "Xiyabani" romanını yazmaqla A.Makulu böyük siyasi xadimin tarixi şəxsiyyəti və bədii obrazı arasında bağlılığı göstərməyə cəhd etmişdir.

Romanda Şeyx Məhəmməd Azərbaycanın müstəqilliyi, azadlığı və birliyi uğrunda mübarizədə ilkin olaraq vətənpərvər, fədakar milli ordunun yaradılmsını önə çəkir, Azərbaycan türkcəsini rəsmi dövlət dili elan edir.

Tədqiqatçı M.Mehdibəyova romandakı sosialist realizmi yaradıcılıq metodundan irəli gələn nöqsanları göstərərək yazır: "*Qüvvələrin birmənalı olaraq iki cəbhəyə*

*bölündüyü bu əsərdə də sosializm realizmi metodunun təsiri və bolşevik ideologiyasının tələbi altında proletar beynəlmiləlçiliyi ideyası, böyük rus proletariatının qardaşlıq köməyi, əksinə, rus imperializminin xəyanəti və s. əvvəlki romandan artıq bizə məlum olan stereotip məsələləri burada da qoyulmuş və "bədii həllini" tapmışdır*" [180, s.136]. Bununla da müəllif bəhs olunan problemlərə yeni nöqteyi-nəzərdən yanaşılması zərurətini irəli sürür.

Romanda Xiyabani hərəkatının tərəfdaşları, Təbriz qiyamının iştirakçıları Azərbaycan xalqının milli hüquqları, şah generallarının və xarici ağaların dar ağacları qurduqları bir torpağın istiqlaliyyəti uğrunda canlarından keçməyə hazır olduğu düşüncəsi ilə yaşayırlar. Bütövlükdə azadlıqla demokratizm, ədalətlə haqsızlıq, həqiqətlə yalan, gözəlliklə eybəcərlik, mərdliklə xəyanət və rəzalət arasındakı gizli-açıq toqquşmalardan və təzadlardan doğan mürəkkəb konflikt əsasında qurulmuşdur. Qəhrəman probleminə, xalq anlayışına, milli-azadlıq məsələsinə baxış, müasirliyi əsərin aktuallıq ruhunu dərinləşdirmiş, İran həyatının bugünkü hadisələri və vəziyyəti ilə səsləşməsinə də səbəb olmuşdur.

Yazıçı öz əsərində Xiyabani hərəkatının çox ağır və çətin geosiyasi şəraitdə aparıldığını xüsusi nəzərə çatdıraraq yazır: "*Təbrizim! Ey başı bəlalı şəhər, nə müsibətlər qalmadı sənin bu əyilməz başın çəkməsin?! Kimin üzünə xoş baxdın? Kimin üzünə güldün, qapılarını taybatay açıb*: "*Buyurun, qonağımız olun!"-dedin. Kimə can deyib zəhrimar eşitmədin?.. Ancaq Təbrizim! Bilməlisən ki, məlun ingilislər hələ də səndən əl götürməyiblər. Onların qoşunları hələ də İranın Cənub hissəsində tufan eləyir, qanlar tökür, evlər yıxır, azadlıq adını çəkənlərin dilini boyunun ardından çıxarırlar*" [173, s.225]. Əsərdən görünür ki, dünya güclərinin geosiyasi maraqları dairəsində olan Azərbaycanın Cənub hissəsinin müstəqilliyi olduqca müşkül problemə çevrilmişdir.

Romanda Xiyabani hərəkatının məğlubiyyətinin səbəbləri açıb göstərilir və müəllif bu hərəkatın məğlubiyyətinin xəyanət nəticəsində baş verdiyini göstərir.

Romanda Şeyx Məhəmmədin bu və digər sözlərində, mübariz ruhlu çıxışlarında, vətənpərvər düşüncələrində Azərbaycanın tarixi keçmişinə, xalqın qəhrəmanlıq ənənəsinə, Səttarxanın xəyal, istək və arzularına qırılmaz mənəvi bağlılıq görün-

məkdədir. Yazıçı mövzunun ideya istiqaməti və inikas xüsusiyyəti ilə, qəhrəmanın müraciət və çağırışları, ifşa və mübarizə hədəfləri ilə əlaqədar olaraq təbii şəkildə, süjet boyu real və bədii zərurət kimi səciyyələnən cəsarətli publisistikaya müraciət etmiş, özünəməxsus sənət örnəyi ərsəyə gətirmişdir.

A.Makulunun "Xiyabani" romanının konfliktini dərinləşdirən və təsvir olunan hadisələrin dramatizmini gərginləşdirən düyün nöqtələrindən biri Şeyx Məhəmmədlə və İran şahlıq rejiminin qarşılaşmasıdır. Bu qarşılaşmada toqquşma daha açıq şəkil alır, iki ideologiya, iki siyasət, iki baxış üz-üzə gəlir. Xiyabani xalqa azadlıq və demokratiya tələbləri ilə çıxış edir, şahlıq rejiminin və siyasətinin nəticələrini aşkarlayır. Hakimiyyət isə İran dövlətinin mənafeyini qoruyur, müstəqil Azərbaycan məsələsinə əks mövqedə dayanır, Azərbaycana gah İran dövlətinin tərkib hissəsi kimi baxır, gah da əsəbi çılğınlıqla onun varlığını tamam inkar edir. Belə məqamlarda həqiqətin səsi daha gur çıxır, Xiyabani sözünün kəsəri və təpəri xüsusi qüvvət kəsb edir.

Şeyx Məhəmməd əsrlərlə İran dövlətinin başında duran, milliyyətcə Azərbaycan türkü olan şahların milli köklərini unutduğunu, fars şoivinizminə xidmət etdiyini, indiki şahın da öz sələflərindən seçilmədiyini düşünür. *"Bəhs olunan dövrdə Həmid Nitqi, Qulamrza Səbri Təbrizi, Məhəmmədtağı Zehtabi kimi qələm sahibləri də davamlı şəkildə bölünmüş vətən, milli-mənəvi bütövlük probleminə diqqət yetirmişlər"* [216; 254; 264].

Bütöv Azərbaycan məhəbbəti, şimallı, cənublu Azərbaycan dərdi, ayrılıq, bölünmüş vətən mövzusu, həsrət motivləri Əli Tudənin "Vətən həsrəti", "Təbriz notları", "Dözüm", "Şəhid arzular", "Ayrılıq", "Ay Araz", "Təbriz yadıma düşdü", "Savalanın qüzey qarı", "Etiraz", "Hanı", "Sərhəd", "Qürbət bayatıları", "Səfər arzusu", "Təbrizdə qış səhəri" və s. bu kimi şeirlərində əsas yer tutmuş, Cənubi Azərbaycanda demokratik ədəbiyyatın yaranmasında və inkişafında fəal rol oynamış, o, Azərbaycan Milli Hökumətinin ictimai və dövlət xadimi olmuşdur. Ə.Tudənin bütün kitablarında "Cənub nəğmələrindən (1950) tutmuş, "Mənə elə baxma" (1990) kitabınadək "Cənub həsrəti" əsas yer tutmuşdur. Ə.Tudənin poemalarının əksəriyyətində bölünmüş vətən mövzusu əsas yer tutur. "Azərbaycan torpağı", "Xalq",

“Vətən bayatıları”, “Azərbaycan olmasa”, “Vətənin vüqarı”, “Vətən məhəbbəti”, “İstiqlal şəhidləri”, “Anacan, fərman ver”, “Sağlıq”, “Şükür deyirik”, “Ölmək istəmirəm”, “Azərbaycan” və s. şeirləri məhz bu qəbildəndir. Əli Tudənin “Vətən həsrəti”, “Təbriz notları”,“Dözüm”, “Şəhid arzular”, “Ayrılıq”, “Ay Araz”, “Təbriz yadıma düşdü”, “Savalanın quzey qarı”, “Etiraz”, “Hanı”, “Sərhəd”,“Qürbət bayatıları”, “Səfər arzusu”, “Təbrizdə qış səhəri” və s. bu kimi şeirləri də ayrılıq mövzusunda olub özünəməxsusluğu ilə fərqlənir. Şairin “Mən səni görsəydim” şeiri Təbrizə ünvanlanmışdır. Öz məhsuldar, əhatəli yaradıcılığı ilə Cənubi Azərbaycan demokratik ədəbiyyatının təməlini qoyanlardan biri olan Əli Tudənin arzuları böyük idi. Əli Tudənin 1996-cı ildə çapdan çıxmış “Təbriz yolu” kitabında verilmiş “Şair həyatının nəğmələri” və “Görüş ömrü” poemaları bu baxımdan əhəmiyyətlidir. Həmin əsərlərdə Cənub mövzusu başlıca istiqamət kimi götürülsə də hər iki poema şair həyatının fəlsəfi inikasına çevrilir, vətənin azadlığı, xəlqilik və vətənpərvərlik duyğuları önə çəkilir. Poemalar müasirlik baxımından da böyük əhəmiyyətə malikdir. Əli Tudənin müxtəlif illərdə qələmə aldığı poemalar içərisində Cənub mövzusu qırmızı xətlə keçir. “Arazın o tayında” (1954), “Yaralanmış nəğmələr” (1964), “Yanıqlı tütək”(1966), ”Mehabadlı tələbə” (1968), “Hicran yolu” (1981), “Çanax-bulaq dastanı” (1984), “Əbədi nisgil” (1984), “Gecikmiş vüsal” (1988), “Ayrılmış sahillər” (1996), “Görüş ömrü” (1996) və başqa poemaları məhz bu səpkidədir. Həmin əsərlər bu gün də öz əhəmiyyətini qoruyub saxlamışdır. “*Ölkəmizdə formalaşmış milli mənlik şüuru, azərbaycançılıq ideologiyası, bu ideologiyanın tərkib hissəsi olan türkçülük məfkurəsi bu gün özünün minilliklərin dərinliklərindən gələn möhkəm köklərinə qayıdır. Bu qayıdış müqabilində vaxtilə yasaqlanmış mövzular, hətta XX əsrin sonlarınadək az qala unutdurulmuş tarixi gerçəkliklər üzə çıxır, tarixin qaranlıq məqamlarına işıq salınır*” [248, s.14]. Ədibin bölünmüş vətən və milli istiqlal probleminə həsr olunmuş əsərlərinin bir qismi “*Mənim səsim*” adlı kitabında toplanmışdır [256]. Bu deyilənlərdən belə qənaətə gəlmək olur ki, Əli Tudənin müraciət etdiyi bölünmüş vətən mövzusu qadağan olunmuş digər mövzularla qarşılıqlı əlaqədə təqdim olunmuşdur.

Akademik Mirzə İbrahimov yazırdı: "*Vətən eşqi böyük, əzəmətli, müqəddəs duyğudur. Onun həsrətə çevrilməsi isə ancaq böyüklüyünü, əzəmətini təcəssüm etdirir: İnsanın bu ağır imtahandan qalib çıxması, öz müqəddəs həsrətinə qovuşması isə insanın həm idrakı və mənəvi, həm də fiziki qüvvələrinin tükənməzliyinə dəlalət edir*" [152]. Müəllif vahid vətən məhəbbətinin böyük və əzəmətli müqəddəs hiss olduğunu, həsrətə, ayrılığa son qoyulmaq üçün insanın mənəvi və fiziki gücünün vəhdətinin zərurətə çevrildiyini göstərir. Bu baxımdan Ə.Tudə yaradıcılığında həmin mövzular qırmızı xətlə keçir.

Əli Tudənin "Öz gözlərimlə", "Mənə elə baxma" kitablarında toplanmış hekayə və povestlərində bölünmüş vətən mövzusuna müraciət edilmiş, Cənubi Azərbaycanda fəaliyyət göstərən Milli Hökumət, onun qurucuları və qəhrəmanları xatırlanmışdır.

Əli Tudənin "Zindanda ağarmış saçlar" adlı ilk hekayəsi Seyid Cəfər Pişəvəriyə həsr olunmuş, burada Azərbaycan Milli Hökumətinin süqutu kədərlə xatırlanmışdır. Hekayədə S.C.Pişəvərinin dili ilə onun öz məsləkdaşlarına mübarizlik ruhu aşılaması, mühacirlik həyatının təzadları və ziddiyyətləri qələmə alınmışdır. Əsərdə mühacirlik həyatı, onun doğurduğu sosial-psixoloji problemlər və bu problemlərdən çıxış yolları göstərilmişdir. Mühacirliyi həyatın saysız-hesabsız imtahanlarından biri hesab edən yazıçı yazır: "*Bu ciddi imtahanda mühacirin Vətənə də, xalqa da, əqidəyə də münasibəti dönə-dönə yoxlanılır. Daha döğrusu, mühacirin ürəyində yaxşı-yaman nə varsa, hamısı onun davranışında, baxışında, söhbətində açıq-aydın duyulur. Mühacirət həm mərd, həm də namərd sifətləri doğru-düzgün əks etdirən böyük həqiqət güzgüsüdür!*" [255, s.3]. Yazıçı mühacirliyə vətəni, xalqı sevmək, əqidəyə, inama sadiqlik rəmzi kimi baxır.

Hekayədə müdrik rəhbər Seyid Cəfər Pişəvərinin obrazı insanların ürəklərini işıqlandıran, milləti birləşdirən bir surət kimi təsvir edilmişdir. "*Vaxtı ilə Vətəndə azadlıq uğrunda gedən döyüşlərdə düşmən istehkamlarına atəş açan, fədailərə "yalnız topların ağzından çıxan səslər həqiqətdir"- deyən bu cəsur, sədaqətli, müdrik inqilabçının hekayəti sanki çiyinləri ətalət yüklü adamları silkələdi*" [255, s.8]. Bununla da S.C. Pişəvəri cəsarətli, müdrik rəhbər, alovlu natiq, əqidəli inqilabçı kimi təqdim olunur.

“Yaşıl orkestr”, “Lent yazıları”, “Qaval”, “Yallı”, “Təbriz Filarmoniyası”, “Günahdan betər savab”, “Göz dağı”, “Baxtın da baxtı var”, “At sədaqəti”, “Qəfil dəvət”, “Sarı işıq”, “Sevdalı yaylaq” hekayələri Cənubi Azərbaycanın kənd həyatı ilə bağlı xatirələrdən qaynaqlanır. “*Onun bu məzmunda qələmə aldığı yüzə yaxın hekayəsi şəxsi arxivində əlyazma şəklində saxlanılır. Bu xatirələrdə XX əsr Cənubi Azərbaycan inqilabi hərəkatının, buradakı tarixi prosesin, həyat və məişətinin maraqlı, oxucuları düşündürə biləcək məqamları öz əksini tapmışdır. Şair nəsr əsərlərində şifahi xalq ədəbiyyatı nümunələrindən də kifayət qədər bəhrələnmiş, eşitdiyi hadisə və əhvalatlardan, atalar sözü və məsəllərindən geniş istifadə etmişdir. Əli Tudə nəsrinin bir özünəməxsusluğu da ondadır ki, o, bəzi hallarda öz şeirlərini hekayə daxilində verməklə bərabər, həm də bir sıra hekayələrində özünün poetik misralarını epiqraf kimi işlədir. Bu da onun nəsr əsərlərinin bədiiliyini bir az da qüvvətləndirməyə xidmət edir*” [248, s.15-16]. Buradan göründüyü kimi Ə.Tudənin nəsr yaradıcılığı real faktlara əsaslanan, yazıçının görüb müşahidə etdiyi, yaddaşında saxladığı xatirə nəsr əsərlərdən ibarətdir.

Bütövlükdə Ə.Tudənin “Tellərdə çırpınan həsrətlər” kitabına (1983) altı hekayə və “Vətən parçası” povesti daxildir. Burada əsərin əsas qəhrəmanları yazıçı özü və vətənpərvər, humanist, ziyalı, vicdanlı, saf, qeyrətli vətən oğullarıdır. “*Tudənin nəsr əsərləri səmimiyyəti ilə sevilir, tarixiliyi ilə diqqət çəkir. Azərbaycançılıq təfəkkürü ilə yanaşı şərqlilik ab-havasının hökm sürdüyü bu əsərlərin ədəbi-bədii qayəsi müasir oxucunu düşünməyə vadar edir, onun mənəvi tələbatını ödəyə bilir. Onun hekayələrinin süjeti yəqin ki elə öz həyatından götürülmüşdür: nəsr əsərlərinin əksəriyyətini ömrü mübarizələrdə keçmiş bir azəri türkünün həyat tarixçəsi adlandırmaq isə daha düzgün olar*” [248, s.16]. Göründüyü kimi,yazıçının əsərərində həyatı milli mücadilələrdə keçmiş yazıçının öz obrazı da bədii təcəssümünü tapmışdır.

“Tellərdə qovuşan həsrətlər” hekayəsi Cənub niskili ilə yaşayan mühacir yazıçınını həsrətlilərin telefonda qovuşdurulmasına həsr olunubdur. Cənubda yaşayan qız Şimalda mühacir olan atası ilə mənən qovuşur. Bu isə yalnız şahlıq rejiminin çökməsindən sonra mümkün olur.

“Şirinlik yanğısı” əsərində də yazıçının Cənubdakı qohumları ilə qovuşmaq arzusu ifadə olunub. “*Qorxuram ki, uzun illərin ağır həsrət nisgili ilə yüklənmiş zərif, həssas, isti bir ürəyin gərilmiş telləri bu həyacanlı, şikayətli, yanğılı həsb-hala dözməyib qırıla. Mən sizinlə telefon tellərində danışmaq deyil, vüsal təntənələrində görüşmək istəyirəm*” [255, s.10]. Burada yazıçının Şimal və Cənubun milli-mənəvi vəhdəti və qovuşması zərurətini önə çəkməsi özünü göstərir. Hekayənin adı da vüsal, şirinlik istəyini ifadə edir.

“Şala dönmüş vərəqlər” hekayəsində Ə.Tudə şalı bədii obraz səviyyəsində işləyərək onu universal mahiyyət daşıyan bir rəmz kimi təsvir etmişdir. Hekayədə şal qeyrət, namus rəmzi kimi təqdim olunur, inqilab zamanı kütlənin qarşısında bayraq kimi dalğalanır.

Xalasının yazıçıya yazılarından məlum olur ki, *“qanlı şal inqilab bayrağı kimi şərəfli funksiyanı yerinə yetirərək mərdliklə döyüşmüş, qorxmazlıqla yaralanmış, qəhrəmanlıqla həlak olmuşdur”* [255, s.50]. Bununla da yazıçı kommunist ideologi-yası-nın məhdudluğunu aradan qaldıraraq qloballaşma şəraitində inqilaba və in-qilabçılığa yeni yanaşmanı ifadə edərək bu ideologiyanın əsiri olduğuna,yalançı dəyərlərə xidmət etdiyinə təəssüflənir, bütöv bir xalqın parçalandığına şiddətlə ağlamaq istəyir.

Ə.Tudənin “Hər bağın öz bülbülü” hekayəsində Cənub həsrəti motivləri əksini tapmışdır. “*Hekayənin süjetində İkinci Dünya müharibəsi illərində Sovet Ordusunun Cənubi Azərbaycana keçməsi, onlarla birlikdə Qüzey Azərbaycanının görkəmli mədəniyyət və incəsənət xadimlərinin də gəlib konsertlər verməsi durur. Ərdəbildə verilən və müəllifin də tamaşaçısı olduğu konsertin “gülü”, əlbəttə, ölməz sənətkarımız Bülbül olmuşdur*” [180, s.61]. Bülbül hər iki Azərbaycanı mənən bağlayan, xalqımızın milli-mənəvi bütövlüyünün daşıyıcısı kimi çıxış edir. Yazıçı bütöv, müstəqil vətənin azad nəğmələrinin azad səhnələrdə səslənəcəyinə inam bəsləyir, Cənubi Azərbaycanda sahibsiz müğənnilərin biganəlik ucbatından nəğ-mələrinin eşidilmədiyinə təəssüf edir. “*Beləcə, hekayə major notlar üzərində, gə-ləcəyə, milli mənliyin milli işğal və başqı, milli istismar və istibdad üzərində yüksələcəyinə, xalqın azadlıq arzularının gerçəkləşəcəyinə, müstəqil vətənin milli*

*mədəniyyətinin çiçəklənəcəyinə dərin inamla başa çatır*" [180, s.63-64]. Deyilənlərdən yazıçının vətənin birlik, müstəqillik və azadlığına ümidinin olması qənaətini hasil etmək olur.

Ə.Tudəninin "Bir gözəl vardır" hekayəsinə "Hər bağın öz bülbülü" hekayəsinin davamı kimi baxmaq olar. Ə. Tudə yazırdı: *"...Ürəyim oxuyurdu. Ancaq oxuya-oxuya inanırdı ki, zaman gələcək, Arazın bu tayındakı naməlum bülbüllər də o taydakı məlum bülbüllərtək oxuyacaqlar. Mütləq oxuyacaqlar!..*" [255, s.56]. Burada yazıçı Cənubi Azərbaycanda da sahibsiz nəğməkarların kəşf olunacağına və bütöv, vahid, müstəqil vətəndə xalqa xidmət edəcəyinə inanırdı.

Ə.Tudənin "Kardioqramma" hekayəsində təsvir olunur ki, həkim qız yazıçının ürəyini yoxlayarkən onun ən böyük dərdini – vətənini ikiyə bölən "Araz boyda ömür yolunu, inqilab, döyüş, azadlıq, qələbə, ayrılıq" notlarını görə bilmir.

Ə.Tudənin nəsrində təhkiyə ilə poeziya vəhdət təşkil edir, yaradıçılığında nasirlik və şairlik bir-birini tamamlayır."*Beləliklə, mühacirət ədəbiyyatında daha çox şair kimi tanınmasına baxmayaraq, Əli Tudə bir nasir kimi də öz qələmini uğurla sınamış və bir sıra orijinal hekayələr ərsəyə gətirməyə nail olmuşdur. Bu baxımdan, çağdaş Güney mühacirət nəsrində onun öz səsinin, öz nəfəsinin duyulduğunu inamla söyləmək mümkündür*" [180, s.79]. Beləliklə, yazıçı özünü bölünmüş vətən mövzusunda yazan peşəkar bir sənətkar kimi göstərmişdir.

Cənubi Azərbaycanın mühacirət nəsrinin tanınmış imzalarından olan Qəhrəman Qəhrəmanzadənin müxtəlif dövrlərdə nəşr olunan "İftira" (1963), "Tozlu palto" (1965), "Qırmızı başmaq" (1973), "Tanınmayan qonaq" (1989) kitablarına daxil edilmiş hekayələr ədibin özünəməxsus yaradıcılıq üslubuna, yazı tərzinə malik olduğunu göstərir [168; 169; 170; 171]. Yazıçının hekayələrinin başlıca mövzusu Cənubi Azərbaycanın ictimai-siyasi həyatından alınmışdır. Bu mənada ədibin yazılarına doğulub boya-başa çatdığı, uşaqlıq və gənclik illərini keçirdiyi doğma vətənin ağrı, açı, həsrət və iztirab motivləri yansımışdır.

Janr özəllikləri və üslubundan asılı olmayaraq Qəhrəman Qəhrəmanzadənin hekayələrində *"şahlıq rejiminin təzyiqlərinə məruz qalmış insanların ağır məhrumiyyətlərə baxmayaraq yaşamaq uğrunda mübarizələri təsvir olunur"* [7, s.96]. Həm-

çinin ədibin hekayələrində bölünmüş vətən və milli-mənəvi bütövlük problemi fərqli prizmalardan canlandırılır. O, nədən yazır yazsın, əsərlərinin bu motivə köklənməsinə çalışır. İkiyə parçalanmanın insanların xarakter və düşüncələrində qoyduğu izlər onu bir yazıçı-vətəndaş kimi dərindən düşündürür. Hətta, məişət problemindən bəhs olunan məqamlarda da, müəllif bu amili unutmamağa çalışır.

Ancaq təəssüf ki, Qəhrəman Qəhrəmanzadənin yaradıcılığı ciddi, sistemli şəkildə araşdırılmadığı üçün onun əsərinin başlıca leytmotivi, ideya-estetik siqləti aşkarlanmamışdır.

Yaradıcılığında poeziya və nəsrin qovuşduğu mühacir yazıçı-şairlərdən biri də Söhrab Tahirdir. Əvvəllər şeir yaradıcılığı ilə daha çox məşğul olan [251] ədibin ilk nəsr kitabı 1981-ci ildə *““Ölümdən güclü, həyatdan uca” adı ilə nəşr olunmuşdur. Söhrab Tahir poeziyasında olduğu kimi nəsr əsərlərində də bölünmüş vətən mövzusuna müraciət etmişdir.”* [16, s.101]. Deməli, yazıçı poeziyada deyə bilmədiklərini nəsrdə ifadə etmək istəyirdi.

Söhrab Tahirin “Ölümdən güclü, həyatdan uca” kitabına əllidən artıq hekayə daxildir. Burada bölünmüş vətən dərdi də əsas yerlərdən birini tutur. Bu hekayələrdə S.Tahir şahlıq rejiminin istibdad və zülm ilə azadlıq və müstəqillik uğrunda döyüşən insanlara divan tutmasını təsvir etmişdir

Söhrab Tahir 1961-ci ildə yazdığı “İki sevgi və iki güllə” povestində Cənubi Azərbaycanda baş verən milli-azadlıq hərəkatını qələmə almışdır. Mühacir yazıçının “Əmanət” kitabında yeddi povest cəmləşmişdir. S.Tahir “Fədai general” povestində Cənubi Azərbaycanın milli ordusunun sərkərdələrindən biri general Qulam Yəhyanın vətən uğrunda döyüş yolunu təsvir etmişdir.

Yazıçının ilk romanı “Qonşu qızın məktubları” 70-80-ci illərdə tamamlanaraq 1985 və 1988-ci illərdə nəşr olunmuşdur. Mühacirət nəsrinə xas olan aparıcı mövzu kimi bölünmüş vətən və xalqımızın milli-mənəvi bütövlükmövzusu bu əsərlərin də ana xəttini təşkil etmişdir. S.Tahir bu mövzuya özünəməxsus şəkildə yanaşaraq müxtəlif bədii üsullardan istifadə edərək vətənin hər iki tayında baş verən ictimai-siyasi prosesləri realist tərzdə təsvir edibdir. Əsərin qəhrəmanı Şimali Azərbaycanda yaşayan Bəhram qardaşı Pərvizdən dəvətnamə ilə öz vətəni Cənubi Azərbaycanda üç

aylıq qonaq qalmaq üçün dəvət edilir. “*Öz vətəninə qonaq getmək elə də asan deyildi. Tale belə gətirmişdi. Taleyi belə dəyişmək omazdı*” [250, s.4]. Yazıçının fikrincə, bu taleyi ciddi mübarizələrlə dəyişmək olardı ki, mühacir həyatı sürən Bəhram bu mübarizələrdən uzaq düşmüşdü. Lakin sevindirici hal budur ki, vətənin o biri tayında mübarizə sönməmiş, yeni fədakar qüvvələr azadlıq məşəlini sönməyə qoymamışlar: “*Vətəndə vuruşlar davam edirdi. Cavanlar istibdadın taxtını, tacını gəmirirdilər. Öz qışqırıq və fəryadları ilə küçələrə od vururdular, odlu sözləri ilə zindanları və hasarları dağıdırdılar, boş tüfənglərə güllə doldururdular, polislə alın-alına vuruşub ölümü şirin şərbət kimi başlarına çəkirdilər*” [250, s.4]. Yazıçı yeni mübariz gənclər nəslinin qəhrəmanlıq, ölüm-dirim mübarizəsinin, azadlıq, müstəqillik uğrunda savaşın davam etdiyini böyük ruh yüksəkliylə təsvir edirdi, İrandakı və Cənubi Azərbaycandakı ictimai-siyasi proseslər yenidən onun qələminin obyektinə çevrilirdi.

Ədəbiyyatşünas M.Mehdibəyova S.Tahirin romanlarında tarixiliklə bədiiliyin vəhdət təşkil etdiyini xüsusi qeyd edir. Öz romanında yazıçı şah rejimi və onun güc strukturlarını XX əsrin 60-cı illərində ziyalılara, marksistlərə, islamçılara, liberallara və bütün siyasi partiyalara qanlı divan tutduğunu göstərir. Şah rejiminin tutduğu bu qanlı divan “*marksistləri, islamistləri, liberalları bir məqsəddə birləşdirmişdi. Zindanlarda yan-yana yatan və öz qanlı aqibətini gözləyən, şahdan qisas almaq istəyənlər, onunla ölüm-dirim vuruşuna girənlər ölkədən imperialistlərin qarətçi əllərini kəsmək istəyirdilər*” [250, s.4]. Deməli, bütün siyasi qüvvələr əvvəlcə İranın azadlığı və demokratikləşməsi, sonra isə milli-azadlğa nail olmaq uğrunda əlbir fəaliyyət göstərirdilər.

1988-ci ildə nəşr olunmuş “İki dəfə yox olmuş adam” romanının qəhrəmanları olan Əkbərlə Göyçəyin məslək və məhəbbət əlaqələri fonunda *“S.Tahir ikiyə bölünmüş vətənin o tayında baş verən faciəli, ancaq millətin tarixi üçün qürurla dolu hadisələri mövzu seçmiş və bu kontekstdə bir çox ağrılı problemlərə öz münasibətini bildirmişdir. Bunlardan biri-azadlığın başlıca əlaməti olan dil azadlığı, doğma dildə təhsil almaq problemidir ki, bunu yazıçı qəhrəmanların dialoqu vasitəslə, sadə və şirin dillə oxucularına çatdırmağa nail olmuşdur”* [180, s.141]. Qəhrəmanların dialoqundan aydın olur ki, azadlığı olmayan, farslaşmaya məruz qalan Azərbaycan xalqı

indiyə qədər olduğu kimi yenə də inkişafdan geri qala bilər: "*Əgər bir azərbaycanlı uşaq farsca deyilən bir dərsi yanında oturan fars uşağından bir saniyənin yüzdə biri qədər gec başa düşsə, o uşağın mənsub olduğu xalq bir il içində yüz il o birisindən geri qalacaq*" [249, s.253]. Yazıçı bu geriliyə son qoymaq, sürətlə inkişaf etmək üçün Azərbaycan dilinin ünsiyyət vasitəsinə çevrilməsi, təhsil dili olmasının zəruriliyini irəli sürür, bu yolda xalqın öz mübarizəsini davam etdirməsini göstərir.

Söhrab Tahir Cənubi Azərbaycanın Milli Hökumətinin ideoloqu və rəhbəri S.C.Pişəvərinin həyat və fəaliyyətinə həsr etdiyi "Sevgisində itən qız" (2000-ci il) və 1996-2001-ci illərdə nəşr olunan "Sonuncu şah" romanlarında tarixi proseslərin bədii inikasını vermişdir. Bu əsərlərdə 1941-1979-cu illər arasında vətənpərvər qüvvələrin şah rejiminə qarşı apardığı mübarizə təsvir edilmişdir.

Əsərdə İranın sonuncu şahı Məmmədrza şahın fəaliyyəti və onun bölünmüş vətənin cənub hissəsindəki azərbaycanlılara zülm etdiyindən bəhs olunur.

Məlum olur ki, Məmmədrza şah İngiltərənin və Müttəfiq Dövlətlər İttifaqının razılığı ilə şahlıq postuna gətirilir. Əsərdə ingilis səfirliyinin məlumat şöbəsinin müdiri Çarl Trat şahı idarəçiliyə hazırlayarkən onun *"taktika və strategiyada, güzəşt və qərar qəbul etmədə son dərəcə müasir anlaqlı olmağı, lakin qəddarlıq və rəhimsizliyə da əsaslanmağı"* [21, s.15] tövsiyə edir.

Atası Rza şah ölkənin tərk etdikdən sonra hakimiyyətə keçən Məmmədrza Pəhləvinin fəaliyyətinə amerikalılar, xüsusilə ingilislər ciddi nəzarət edirlər. Onlar hətta İranın gələcək dövlət quruluşunu (monarxiya-şahlıqmı və ya cümhuriyyətmi olmasını) müəyyənləşdirirlər.

Romandan məlum olur ki, dünyada qüvvələr nisbəti ABŞ və SSRİ-nin xeyrinə dəyişmişdi. Müttəfiq dövlətlərin orduları İrana yeridilmişdir.

Məmmədrza şah ölkədə baş verən prosesləri, xüsusən Azərbaycanda, Kürdistanda, Xuzistanda, Farsda partlayış həddinə çatmış ictimai-siyasi hərəkatların mahiyyətini dərk edə bilmirdi.

Öz sarayında Tehran konfransına gəlmiş Sovet İttifaqının dövlət başçısı İ.Stalinlə görüşündə Məmmədrza şah anasının əslən Qafqaz Azərbaycanından olması, azərbaycanlı olması ilə fəxr etdiyini bildirir.Şah sovet qoşunlarının Cənubi

Azərbaycanda yerləşdirilməslə əlaqədar "yerli əhalinin hər gün mərkəzi hökumətə və yerli inzibati orqanlara qarşı müqavimətinin artdığından" danışmaq istəsə də İ.Stalin diplomatik yolla söhbətdən yayınmağı bacarır.

Şah Sovet qoşunlarının "*Azərbaycanda azadlıq hərəkatına gizli yardım etməsini xatırlayırıdı"* [21, s.26]. O, Cənubi Azərbaycanda minlərlə insanın-azərbaycanlıların qanını tökdüyü, *"Azərbaycanda və Kürdistanda törətdiyi qanlı hadisələri xatırladıqca şöhrət qüruru da artırdı*" [21, s.26].

Tədbirlərin birində Məmmədrza şaha sui-qəsd edilir. Sui-qəsdçin təşkilatçısı Azərbaycan Demokratik Xalq Partiyasının üzvü gənc bir hərbi idi.Təhlükəsizlik qüvvələrinin öldürdüyü bu gənc məhv edilmiş minlərlə soydaşlarının intiqamını almaq istəyirdi.Sui-qəsd nəticəsində ağır yaralanmış şah vaxtilə Azərbaycan üzəri-nə xalqın qurduğu Milli hökümət üzərinə hərbi yürüş təşkil edəndə azərbaycanlı zabitlər bunu yaxşı qarşılamamışdı.

Romanda gənc azərbaycanlı zabit,şahın tələbəlik dostu Behzad və şah ordusunun yüksək rütbəli zabiti arasındakı mükalimədən aydın olur ki, onların vətənpərvərlik, vətən, xalqa münasibətlərində kəskin fərqlər vardır. İran ordusunun polkovniki İranın bölgələrə, muxtarlıqlara bölməsinin qarşısının alınmasını "qeyrət işi" hesab edir. Azərbaycanlı zabit Behzad ona etiraz edərək deyir: *"mən əsrlər boyu zülm görmüş, məhrum olmuş indi isə bir ilə yaxın bir müddət ərzində azadlıq əldə edib mədəni-iqtisadi islahatlarla İranın başqa bölgələrindəki xalqları da heyran qoyan bir xalqın üstünə bu sayaq qoşun çəkməyi ədalətli hesab etmirəm"* [21, s.44].

Azərbaycanlı zabiti şahın fərmanını ədalətsiz hesab etməkdə, Azərbaycan Xalq Partiyasının zabitləri kimi İrandan ayrılmaq istəyən Azərbaycan xalqının köməyinə getməkdə ittiham edən polkovnik, guya bu hərbi yürüşün "əncümən seçkilərinə nəzarət" məqsədilə edildiyi iddiasına Behzad belə cavab verir: *"Biz Azərbaycanda əncümən seçkilərinə nəzarət etməyə belə gediriksə, yenə azad, qəhrəman, inqilabçı bir xalqın daxili işlərinə müdaxilə edirik"* [21, s.44].

Polkovnik azərbaycanlı zabiti Behzad ilə fars hərbiçisi Xosrov Ruzbehin bu "şəhanə yürüşə" etirazlarını İran dövlətinin və şahın maraqlarına ləkə hesab edir.

Şah İran qoşunlarında Azərbaycan Milli hökümətinin əlindən qaçan iranpərəst hərbi elitadan, "Azərbaycanı yenidən ana Vətənimız-İranın qoynuna qaytarmaq" fikri ilə yaşayan Teymur Bəxtiyar kimi milli satqınlardan istifadə edirdi. Belə hərbi hissələrdə "*bir il bundan qabaq milli hərəkat nəticəsində qaçaq düşən, ya da torpaqları əlindən çıxan xan, bəy, mubaşirlər və onların yaxın qohum və qardaşları da var idi. Onlar Azərbaycana böyük qisas hissi ilə, maraq və həvəslə gedirdilər*" [21, s.45].

Şah qoşunları müqavimət göstərməyən, silahsız əhalini amansızcasına məhv edirdi. Qəzəbli xalq şahpərəstləri, iranpərəstləri heç vaxt sevməyəcəklərini, Azərbaycanın heç vaxt İranın olmayacağını, qisas alacağını bildirirdi.

Firqəçiləri güllələyən şah qoşunları onların ailələrini İranın cənubuna sürgün etdilər. Şah Azərbaycanın üzərinə ən müasir reaktiv təyyarələr göndərdi. Bütün bu qanlı olayların şahidi olan Behzad gördüklərindən dəhşətə gələrək belə nəticəyə gəldi: "*Azərbaycanda davam etməkdə olan bu qan-qadanı dayandırmaq və ya ona müqavimət etmək mümkün deyil. Birinci ona görə ki, əhali başsız və silahsızdır. İkinci şahla Qəvam buraya nəzarət adıyla göndərdikləri qoşun hissələri, hətta xarici dövlətlərin reaktiv təyyarələrilə müşaiyət olunur. Bu təyyarələr isə hələ dünya dövlətləri və orduları üçün tamamilə yeni idi. Üçüncü isə Azərbaycan xalqının arxasında heç kəs dayanmırdı*" [21, s.57].

Romanda şah sarayında baş verən çəkişmələr, Azərbaycan hadisələrinə amansız, qəddar münasibət ətraflı təsvir olunmuşdur. Baş nazir Qəvvam hiyləgər, ikiüzlü siyasəti ilə Cənubi Azərbaycandakı milli-azadlıq hərəkatını İranın ərazi bütövlüyünə təhdid hesab edib, onun qarşısını almaq üçün diplomatik səylərini də artırırdı.

Romanda Cənubi Azərbaycan xalqının islam inqilabında iştirakı və sonuncu müstəbid şahın-Məmmədrza şah Pəhləvinin devrilməsində qəhrəmanlıq mübarizəsindən də bəhs edilmişdır.

Artıq uzun illərdir ki, Azərbaycan siyasi cəhətdən parçalanmışdir. Lakin hər iki taydakı eyni bir xalqın ədəbi-mədəni, mənəvi birliyini Şimalda sovet reşimi Cənubdakı şah və teokratiya rejimləri müxtəiif mənfur vasitələrdən istifadə etsələr də

poza bilməmişlər. Nə yaxşı ki, hər iki Azərbaycanı milli-mənəvi vəhdət birləşdirir. Görkəmli ədəbiy-yatşünas-alim Yaşar Qarayev bu barədə belə yazır: "*Vay o gündən ki, bu Araz qəlbləri ayıra, ədəbiyyatlar, mədəniyyətlər, mənəviyyatlat arasında axa! Bax onda həyat quruyar, vahid bir ürəyin, millətin iflici- infarktı baş verər. Onda heç bir intibah, heç bir inqilab da artıq köməyə gəlməz. Yalnız vahid, yekdil, bütöv milli mədəniyyət (!) indi bizi, bütün xalqı mənən birləşdirə, eyni bəşəri, insanı əxlaqi zirvəyə qaldıra və ədəbi-mənəvi vəhdətə, sabaha doğru yolda, bütün dünya ilə birgə irəli apara bilər. Sahillər arasında tarixi, genetik, mənəvi əlaqə, qan yaddaşı və daxili dil birliyi bunu tələb edir! Damarlarda eyni cövhər axır və ruhlarda eyni müqəddəsliyə, eyni dəyər və sərvətlərə inam çırpınır. Daha tənha qanadlı, daha tək tağlı, daha qarşı sahilsiz yaşaya bilmərik! Yeni idrak, yeni təfəkkür, yeni dünya və bəşər əxlaqı bunu etiraf edir*" [162, c.4,s.430]. Müəllif iki Azərbaycan arasında siyasi vəhdətin hələ mümkün olmadığı dövrdə ədəbiyyatın, mədəniyyətin, mənəviyyatın parçalanmadığını, bölünmədiyini, əksinə daha da birləşdiyini, möhkəmləndiyini göstərir.

Beləliklə, XX əsrin 60-90-cı illərində Cənubi Azərbaycan mühacir nəsri Şimali Azərbaycanın ədəbi mühitinə inteqrasiya olunsa da  ideoloji məhdudiyyətdən uzaqlaşaraq bölünmüş vətən, milli-mənəvi vəhdət və azərbaycançılıq ideyalarını, milli ideyanı, milliliklə ümumbəşəriliyin birliyini, bütövlük duyğularını da bədii şəkildə təcəssüm etdirmişdir.

# NƏTİCƏ

Təhlillərdən göründüyü kimi, müasir Azərbaycan ədəbiyyatı və ədəbi prosesi Cənubi Azərbaycan və mühacirət ədəbiyyatı ilə birlikdə vahid milli mədəniyyətin ayrılmaz tərkib hissəsi kimi təzahür edir. XIX əsrin 20-ci illərinə qədər vahid bir məkanda yaranmış və inkişaf etmiş, bütövlükdə Şərq ədəbiyyatı və mədəniyyətinin tərkib hissəsi, türk-müsəlman mədəniyyəti kimi mövcud olmuş Azərbaycan ədəbiyyatı ölkə Şimala və Cənuba bölündükdən sonra fərqli rejimlərdə və ideoloji şəraitdə inkişaf etmişdir.

Belə ki, Şimali Azərbaycan ədəbiyyatı XIX əsrdə çar imperiyası, XX əsrin əvvəllərində xalq cümhuriyyəti, sonra sovet siyasi rejimi dövründə mövcudluğunu sürdürmüş, XX əsrin sonlarında isə müstəqil Azərbaycan Respublikasının yaranması ilə inkişafının yeni mərhələsinə daxil olmuşdur.

Cənubi Azərbaycan ədəbiyyatı isə XIX əsrdə İran şahlıq rejimi (Qacar xanədanı və Pəhləvi sülaləsi), XX əsrin əvvəllərində məşrutə inqilabı (1906-1911-ci illər), Xiyabani hərəkatı (1920-ci il), 21 Azər inqilabı – Milli hökumət və 1978-1979-cu illərdə İran İslam İnqilabından sonrakı ədəbiyyat mərhələlərindən keçmişdir. Bununla yanaşı, 1947-ci ildən əsrin sonunadək Şimali Azərbaycanda Cənubi Azərbaycan mühacirət ədəbiyyatı yaranmış və inkişaf etmişdir.

XIX əsrin əvvəllərində "Gülüstan" və "Türkmənçay" sülh müqavilələrindən başlayaraq istər Şimali, istərsə də Cənubi Azərbaycanda, həmçinin mühacirət ədəbiyyatında bölünmüş vətən və milli-mənəvi bütövlük ideyası bədii düşüncənin aparıcı mövzulardan birinə çevrilmişdir.

Azərbaycan ədəbiyyatında bölünmüş vətən və milli-mənəvi bütövlük ideyasının bədii inkişafı bir sıra mərhələlərdən keçmişdir. Parçalanmanın gerçəkləşdiyi ilk yüzillikdə yaranan bir çox əsərlərdə Cənubi və Şimali Azərbaycan anlayışları mövcud olmamış, hər iki tayda ortaq ideallar təbliğ edilmiş, maarifçilik kontekstində milli şüurun oyanışına, yeni, modern ədəbiyyatın inkişafına çalışılmışdır.

Azərbaycan Xalq Cumhuriyyəti dövründə yaranan ədəbiyyatda bölünmüş vətən problemi aktuallıq kəsb etmişdir. Cümhuriyyət dövründə Cənubi Azərbaycanda baş

verən məşrutə hərəkatı, xalqın taleyi, milli müqəddəratı, vətənpərvərliyi, dövlətçiliyi haqqında bədii və elmi əsərlər yazılmışdır. Bu əsərlərdə Qafqaz Azərbaycanı (Şimali Azərbaycan) və İran Azərbaycanının (Cənubi Azərbaycanın) dərdlərinə eyni dərəcədə şərik çıxılmış, bir cox əsərlərdə Azərbaycanda baş verən ictimai-siyasi proseslər ortaq baxış bucağından əks etdirilmişdir.

Cümhuriyyət dövrü ədəbiyyatında Şimali və Cənubi Azərbaycanda milli kimlik məsələsinə, milli mənsubluğun dini mənsubiyyətdən ayrılmasına toxunulur, iranlı türkun "persiyan" adlanması, Qafqazda yaşayan iranlı şiə türklərin cənubi azərbaycanlılar kimi səciyyələndirilməsi, hər iki Azərbaycanı bir-birindən uzaqlaşdıran dil, məzhəb fərqləri, onların milli-mənəvi bütövlüyünə xələl gətirən amillər aydınlaşdırılır. AXC dövrünün vətənpərvər yazıçıları türkləri (hər iki Azərbaycanda yaşayan azərbaycanlıları) keçmişdən ibrət almağa, elmə, milli birliyə, millətçiliyə və millətpərvərlik əqidəsinə qovuşmağa dəvət edirdilər. Onlar müxtəlif məzhəblərə parçalanan Osmanlı, İran (Cənubi Azərbaycan) Qafqaz türklərinin (Şimali Azərbaycan) xilas yolunun milli birlikdə, millətpərvərlikdə olduğunu israrla göstərirdilər. Azərbaycançılıq ədəbi-bədii, siyasi-ideoloji, fəlsəfi sistem kimi Şərqdə ilk demokratik respublikada dövlətçilik səviyyəsində, türkçülük, islamçılıq və müasirləşməklə qarşılıqlı əlaqədə rəsmiləşərək təkcə Azərbaycan Xalq Cümhuriyyətini milli istiqlalının, ərazi bütövlüyünün əsası deyil, həm də vahid vətən ideyasının, bütöv Azərbaycan idealı modelinə çevrildi.

Sovet siyasi rejiminin həyata keçirdiyi repressiya dövründə bölünmüş vətən və milli-mənəvi bütövlük mövzusuna münasibət ciddi sınaqlarla üzləşmişdir. 20-30-cu illərdə kommunist ideologiyası, sosialist realizmi yaradıcılıq metodu, senzura siyasəti milli məfkurəni, türkçülüyün, azərbaycançılığın bütün təzahürlərini yasaqlamış, milli düşüncəli sənətkarları məhv etmişdir.

XX əsrin 40-cı illərində Cənubi Azərbaycanda güclənən milli-azadlıq hərəkatı Şimali Azərbaycan ədəbiyyatında bu və ya digər şəkildə təcəssümünü tapmışdır. İran və Cənubi Azərbaycandan bəhs edən əsərlərdə oyanmış Şərqin güclü etiraz dalğası olan məşrutə hərəkatı və Təbriz üsyanının aparıcı qüvvələri, xalqın mübarizəsi özünəməxsus şəkildə işıqlandırılmış, Şimali Azərbaycan ədəbiyyatında Cənubi

Azərbaycan həyatının bədii salnaməsi yaradılmışdır. Yazılan əsərlərdə Azərbaycan xalqının həyatı, demokratik və milli azadlıq hərəkatı uğrunda aparılan döyüşlər, qazanılan uğurlar öz əksini tapmış, Azərbaycanın ikiyə bölünərək İran və Rusiya arasında müstəmləkəyə çevrildiyi diqqətə çatdırılmış, İranla Azərbaycanın münasibətlərinə güzgü tutulmuşdur. Həmçinin İranın sosial-siyasi həyatında müstəsna rola malik Azərbaycan türklərinin haqlarının tapdanması, onların öz hüquqları uğrunda mübarizəni davam etdirdikləri də bədii təcəssümünü tapmışdır.

Bu dövrdə milli ədəbiyyatda tarixi roman janrının banisi M.S.Ordubadinin qələminə məxsus "Dumanlı Təbriz" əsəri bölünmüş vətən və milli-mənəvi bütövlük ideyasını özündə əks etdirən və Azərbaycan bədii nəsrinin böyük uğuru və epopeya tərzində yazılmış şah əsərlərdən biri kimi diqqəti çəkir. Romanda Səttarxanın başçılığı ilə Təbrizdə baş verən və bütün İrana sirayət edən məşrutə hərəkatı canlandırılır.

Ötən əsrin 40-50-ci illərində ikiyə bölünmüş Azərbaycan problemi sovet ədəbiyyatında aktual olmaqla yanaşı, həm də vətənin bütövlüyünə, milli-mənəvi birliyinə yönəlmiş demokratik hərəkata, azadlıq və istiqlaliyyət ideyalarının təbliğinə xidmət edən bəşəri hisslərlə aşılanmış vətənpərvər ruhlu ədəbi əsərlər də yaranmışdır. Bu əsərlərdə Cənubi Azərbaycanda böyük miqyasda əks-səda doğurmuş məşrutə hərəkatı, milli azadlıq mübarizəsi müxtəlif yönlərdən canlandırılmışdır. Eyni zamanda, bölünmüş vətəndən bəhs edən əsərlərin Azərbaycan və dünya nəsri kontekstində yeri və tarixi-siyasi, ədəbi-kulturoloji dəyərləri müəyyənləşdirlmişdir. İkiyə bölünmüş Azərbaycan mövzulu həmin əsərlərin ideya-bədii zənginliyi, tarixi-ictimai, etnoqrafik və milli-psixoloji məzmununun müasir əhəmiyyətilə diqqəti cəlb etdiyi vurğulanmışdır.

Azərbaycan nəsrində bölünmüş vətən və vahid Azərbaycan ideyasının gerçəkləşməsi və bədii ədəbiyyatda bu ideyanın təcəssüm etdirilməsində S.C.Pişəvərinin başçılığı ilə yaradılmış Azərbaycan Milli Hökuməti mühüm rol oynamışdır. Həmin hadisələr fonunda Mirzə İbrahimovun qələmə aldığı "Gələcək gün" romanında, həmçinin digər əsərlərində vahid vətən və milli-mənəvi birlik ideyası təsvir edilmişdir. Vahid Azərbaycan, ana dilinin dövlət dili elan edilməsi, bir sözlə azər-

baycançılıq uğrunda mübarizə aparan Mirzə İbrahimov Cənubi Azərbaycanda vətənin bölünməsi əleyhinə xalqın qəhrəmanlıq mübarizəsini, vətənpərvər qüvvələrin dağıdıcı, mürtəce qüvvələrə qarşı durmasını, demokratik hökumətin yaranmasını real, inandırıcı detallarla canlandırmışdır. M.İbrahimov parçalanmış Azərbaycanın hər iki tayına vətənpərvərlik, yurdsevərlik hissləri aşılayaraq hər iki hissəni bir-birinə mənən bağlamışdır. Əsrin 40-50-ci illərində bölünmüş vətən mövzusunda yazılmış əsərlərdə İran Pəhləvi rejiminin şovinist, farslaşdırma siyasətinin acı nəticələrinin Cənubi Azərbaycanda yaratdığı dəhşətli vəziyyətə qarşı xalqın mübarizə əzmi təcəssüm etdirilmişdir. M.İbrahimov "Azərbaycan" deyəndə yalnız bütöv Azərbaycanı, "Azərbaycan xalqı" deyəndə bütün azərbaycanlıları nəzərdə tutmuşdur. Onun əsərlərində milli vətənpərvər qüvvələrin şah rejiminin farslaşdırma siyasəti apararaq vahid İran milləti yaratmaq üçün bütün qeyri-millətlərin hüquq və azadlıqlarının məhv edilməsinə, yerli elitanın satqınlığına, İranın, o cümlədən Cənubi Azərbaycanın Qərbin iri dövlətlərinin oyuncağına çevrilməsinə qarşı mübarizəsinin bədii təsviri verilmişdir. M.İbrahimov öz əsərlərində Rza şah Pəhləvinin Azərbaycan xalqını və dilini xəritədən silmək istədiyini diqqətə çatdırmış, milyonlarla sayı olan qeyri-fars millətləri, xüsusilə azərbaycanlıları assimilyasiya etməsinin İrana bədbəxtlik gətirəciyini, parçalanmış Azərbaycanın birləşəcəyinə əminliyini bildirmişdir.

İkinci dünya savaşı dönəmində Təbrizdə fəaliyyət göstərən "Vətən yolunda" qəzeti Cənubi Azərbaycan ədəbiyyatında, publisistikasında yeni yaradıcı qüvvələrin formalaşmasında böyük rol oynamışdır. Şimaldan gələn yazıçılarla yanaşı, Mirmehdi Etimad, Əli Fitrət, Balaş Azəroğlu, Çavuşi, Əli Tudə, Mədinə Gülgün, Mirrəhim Vilayi, Məhəmməd Abbasi, Hilal Nasiri, Məhəmməd Biriya kimi cənublu yazarlar da burada yazıb-yaratmışlar. 1945-ci ildə "Şairlər məclisi" nəzdində yaradılan "Vətən yolunda" qəzeti Cənubi Azərbaycan sənətkarlarının ədəbi məktəbinə çevrilmiş, ikiyə bölünmüş vətənin o tayında Azərbaycan dilinin statusunu qaldırmış, azərbaycanlıları ictimai-siyasi proseslərə cəlb etmiş, onların milli şüurunu oyatmış və özünüdərk hissi formalaşdırmışdır. Sovet Ordusunun tərkibində Təbrizə getmiş ədiblərdən Mirzə İbrahimov, Ənvər Məmmədxanlı, Süleyman Rüstəm, Məmməd Rahim, Rəsul Rza,

Qılman Musayev, Cəfər Xəndan, publisist Qulam Məmmədli, Əvəz Sadıq və başqaları "Vətən yolunda" qəzetində sovet ideologiyasını təbliğ etməklə yanaşı, Azərbaycan türklərini maarifləndirmiş, Cənubda milli şüurun və milli iftixar hissinin oyanmasına xidmət etmişlər. Onlar Azərbaycan ədəbiyyatının klassiklərini, müasir söz sənətkarlarını cənublulara və iranlılara tanıtmış, anadilli ədəbiyyatı inkişaf etdirmiş, Güney Azərbaycandakı ictimai-siyasi prosesləri işıqlandırmışlar.

Yazıçılardan Mirzə İbrahimov, Ənvər Məmmədxanlı, Mir Cəlal, İlyas Əfəndiyev və başqaları Cənubi Azərbaycanda 1945-1946-cı illərin milli-azadlıq hərəkatı dağıldıqdan sonrakı şah rejiminin törətdiyi fəlakətləri, yeni tarixi mərhələdə əqidəsindən dönməyən, xalqın azadlığı və müstəqilliyi uğrunda etiqadlı, demokratik ruhlu insanların mübarizəsini əks etdirməyə çalışmışdır.

Ötən əsrin 60-90-cı illərində Şimali Azərbaycan nəsrində bölünmüş vətən problemi ulu öndər Heydər Əliyevin dövlət səviyyəsində qayğısı ilə diqqəti çəkmişdir. Həmin dövrdə bütöv Azərbaycana, onun dil, mədəniyyət, ədəbiyyat birliyinə, bölünmüş vətən mövzusuna Şimali Azərbaycandakı ədəbi qüvvələrin, mühacir yazarların, eləcə də Cənubi Azərbaycandakı yaradıcı qüvvələrin diqqəti yönəldilmişdir. Ana dilində əsərlər yazmağa, millətin azadlığını öz əsərlərində əks etdirməyə, bölünmüş vətən mövzusuna başlıca problem kimi yanaşmağa, hər iki taydakı xalqın ayrılıq dərdlərini, birlik arzularını, həsrətlərini əks etdirməyə sövq edilmişdir.

Bölünmüş vətən ideyası Azərbaycan ədəbiyyatında XX əsrin II yarısında və müstəqillik dövründə geniş bədii təcəssümünü tapmışdır. Bu dövrdə Azərbaycan bədii nəsrinin əsas inkişaf istiqamətlərindən biri bölünmüş vətən problemi ilə bağlı tarixi mövzuya müraciət edilməsi və vətənin birliyi uğrunda mübarizə aparan tarixi şəxsiyyətlərin bədii obrazlarının yaradılması olmuşdur. Belə ki, yazılan tarixi romanların əksəriyyətinin baş qəhrəmanı vahid vətən uğrunda vuruşan siyasi və ədəbi şəxsiyyət kimi diqqəti çəkir. Fərman Kərimzadənin "Xudafərin körpüsü", "Çaldıran döyüşü", Əlisa Nicatın "Qızılbaşlar", Əzizə Cəfərzadənin "Bakı -1501", romanlarında vahid Azərbaycan və milli-mənəvi vəhdət ideyası uğrunda qılınc çalan Şah İsmayıl Xətainin ictimai-siyasi, ədəbi fəaliyyətindən bəhs olunmuşdur.

Cənubi Azərbaycan mühacirət ədəbiyyatı XX əsrin 40-cı illərində meydana gəlmişdir. Bunun əsas səbəblərindən biri Azərbaycan dövlətçilik tarixində böyük rol oynamış Cənubi Azərbaycan Milli Hökumətinin süqutundan sonra cənublu yazıçıların Şimali Azərbaycana mühacirəti və orada yaşayıb-yaratması olmuşdur. Sovet rejimi şəraitində yeni ideoloji və ədəbi mühitə inteqrasiya olunan bu yazıçılar 1947-ci ildən başlayaraq öz əsərlərilə vahid Azərbaycan məfkurəsinə xidmət etməyə başlamışlar. Onlar Şimal Azərbaycan ədəbiyyatında hökm sürən vahid sosialist realizmi yaradıcılıq metodunun təsiri ilə öz ədəbi üslublarını formalaşdırmışlar. Bütövlükdə Şimalda mühacirət həyatı yaşayan şair və yazıçıların əsərlərində Cənub həsrəti, bölünmüş millət dərdi motivləri üstünlük təşkil etsə də, onlar bədii sənətkarlıq baxımından qeyri-adi sənət örnəkləri ərsəyə gətirə bilməmişlər. Onların əsərlərində daha çox Cənubi Azərbaycanda milli demokratik hərəkatın yenidən qələbə çalacağına ümid və inam duyğusu ifadə edilmişdir. Bu dövrdə Abbas Pənahi Makulu və Həmzə Fəthi Xoşginabinin əsərlərində cənubda xəyanət nəticəsində süqut etmiş Milli Hökumətdən sonra mübarizənin gizli fəaliyyət, partizançılıq formalarda davam etdirilməsi motivləri əsas yer tutur. Azərbaycan nəsri təkcə Cənubi Azərbaycandakı milli-azadlıq hərəkatını əks etdirməmiş, burada Şimali Azərbaycandakı totalitar rejimə qarşı aparılan mübarizə proseslərinə də diqqət yetirilmişdir. Şimali Azərbaycanda antisovet qruplar, qəsdən məhv edilmiş Pişəvərinin silahdaşları, o cümlədən Məhəmməd Bağırzadə Biriya özünün ədəbi-bədii yaradıcılığı və siyasi fəaliyyətilə hər iki rejimə-Şimalda totalitar sovet quruluşuna, Cənubda amansız şah üsul-idarəsinə meydan oxumuş, vahid vətən ideyası uğrunda mətanətlə, mərdliklə mübarizə aparmışdır.

Ötən əsrin 60-90-cı illərində Cənubi Azərbaycan mühacirət ədəbiyyatında bölünmüş vətən və milli-mənəvi bütövlük problemi intensiv şəkildə bədii ədəbiyyata nüfuz edir. Bu illərdə Şimali Azərbaycan sovet ədəbi mühitinə tam inteqrasiya olunmuş Cənubi Azərbaycan mühacirət ədəbiyyatı iri həcmli əsərlər –romanlar yaratmaqla, daha geniş məqsədləri və idealları oxucuların şüurlarına və qəlblərinə yeridir. Xüsusilə, A.M.Pənahi və S.Tahirin iri həcmli nəsr əsərlərində ənənəvi mövzulara – bölünmüş vətən, milli-mənəvi bütövlük, Cənubda baş verən inqilablar

kontekstində hər iki Azərbaycanın birləşməsi zərurəti ideyalarına müraciət edilsə də, yeni qloballaşma şəraitində inqilabi fəaliyyətə baxışların dəyişməsi, sovet tipli dövlətçilik konsepsiyasının liberal-demokratik, milli və ümumbəşəriliyin vəhdəti olan ideyalarla əvəz olunması proseslərinin inikası diqqəti çəkir. S.Tahir özünün iri həcmli romanları, xüsusən “Sonuncu şah” əsərilə bölün-müş vətən həsrətini, vahid Azərbaycan ideyası uğrunda mübarizənin bədii təcəssümünü əks etdirmişdir.

Bu mərhələdə artıq tarixiliklə müasirliyin vəhdəti olan Cənubi Azərbaycan mühacirət nəsri inteqrasiya olunaraq ümumi Azərbaycan ədəbiyyatının ayrılmaz tərkib hissəsi kimi çıxış edir.

Şübhəsiz ki, həcmcə o qədər də böyük olmayan bir dissertasiya işində XX əsr Şimali Azərbaycan nəsri və Cənubi Azərbaycan mühacirət ədəbiyyatında bölünmüş vətən və milli-mənəvi bütövlük ideyasının geniş, sistemli və əhatəli şəkildə araşdırılması mümkün deyildir. Araşdırmada ən ümumi məsələlərə toxunulmaqla kifayətlənilməsi də məhz burdan irəli gəlir. Şübhəsiz ki, gələcəkdə bölünmüş vətən və milli-mənəvi bütövlük ideyasına həsr ediləcək tədqiqat işlərində məsələyə bir qədər də konkret şəkildə yanaşılacaq, dissertasiyanın ayrı-ayrı fəsl və bölmələrində təhlil edilən problemlər müstəqil tədqiqat obyektinə çevriləcəkdir. Müdafiəyə təqdim olunan dissertasiya işində XX əsr Şimali Azərbaycan nəsri və Cənubi Azərbaycan mühacirət ədəbiyyatında bölünmüş vətən və milli-mənəvi bütövlük ideyasının təcəssümü ümumi şəkildə səciyyələndirilmişdir. Gələcəkdə aparılacaq tədqiqatlarda indi ümumi şəkildə qoyulmuş problemlərin daha geniş miqyasda araşdırılmasına ehtiyac duyulmaqdadır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

*Azərbaycan dilində*


1. Afiyət, M. Alov (hekayələr) / M. Afiyət. -Bakı: Uşaqgəncnəşr, -1959. -49 s.
2. Afiyət, M. Ürəkdə işıq / M. Afiyət. -Bakı: Yazıçı, -1984. -127 s.
3. Afiyət, M. Atamı istəyirəm / M.Afiyət. -Bakı: Uşaqgəncnəşr, -1961. -74 s.
4. Ağaoğlu, Ə. İran və inqilabı / Ə. Ağaoğlu. -Bakı: Azərnəşr, -2009. -160 s.
5. Ağaoğlu, Ə. Seçilmiş əsərləri/ Ə. Ağaoğlu. -Bakı: Şərq-Qərb,-2007, -392 s.
6. Ağaoğlu, Ə. Üç mədəniyyət / Ə.Ağaoğlu -Bakı: Mütərcim, -2006, -160 s.
7. Ağayeva, G.Təbriz ədəbi mühiti: 1941-1946-cı illər / G.Ağayeva. -Bakı: Nurlan NPM, -2004, -127 s.
8. Axundov, M.F. Əsərləri: [III cilddə] /M.F.Axundov. -Bakı: Azərbaycan SSR EA nəşriyyatı, -c.2. -1961. -576 s.
9. Axundlu, Y. Ədəbi estafet / Y.Axundlu. -Bakı: Adiloğlu, -2013. -559 s.
10. Axudlu, Y. Ədəbi portretlər/ Y.Axudlu. -Bakı: Adiloğlu -2004. -240 s.
11. Axundlu, Y. Ədəbi yaddaşdan səhifələr / Y. Axundlu. -Bakı: Adiloğlu, -2002, -174 s.
12. Axundlu, Y. Məmməd Səid Ordubadi (həyatı, dövrü, mühiti və yaradıcılığı), / Y. Axundlu. -Bakı: Elm və təhsil, -2012, -384 s.
13. Axundlu, Y. Tarixi roman yeni mərhələdə / Y.Axundlu. -Bakı: Maarif, -1998, -176 s.
14. Alışanlı, Ş. Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı, / Ş. Alışanlı. -Bakı: Elm, -2011, -376 s.
15. Arif, M. Ədəbi-tənqidi məqalələr / M.Arif -Bakı: Azərbaycan Dövlət, -1958, -444 s.
16. Arzumanlı, V. Yetmiş beş yaşın pillələri. Ömürdən yarpaqlar / V. Arzumanlı. Bakı: Qartal, -2001, -378 s.
17. Atabəyi, T. Azərbaycan: etnik mənsubiyyəti və İranda qüdrət uğrunda mübarizəsi / T.Atabəyi. Bakı: Təhsil, -2002, -248 s.

18. Azərbaycan beynəlxalq aləmdə: (Azərbaycan Prezidenti Heydər Əliyevin 1997-ci ildə xarici ölkələrə səfərləri) / -Bakı: Azərbaycan, -1998, -770 s.

19. Azərbaycan ədəbiyyatı tarixi: [3 cilddə] / -Bakı: Azərbaycan SSR EA, -c.2.-1960, -906 s.

20. Azərbaycan Xalq Cəbhəsinin Proqramı // Qafqaz və Mərkəzi Asiya xronikası, 8:4.1989, s.7-10.

21. Azərazər, S.T. Sonuncu şah / S.T.Azərazər. –Bakı: Ağrıdağ, –2001, –500 s.

22. Azəroğlu, B. Lirika / B.Azəroğlu. –Bakı: Şirvannəşr, –2004, –80 s.

23. Azəroğlu, B. Seçilmiş əsərləri / B. Azəroğlu. -Bakı: Öndər, -2004, -288 s.

24. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi M.C.Bağırovun İrana gedən şəxslərlə söhbətinin stenoqramması (Azərbaycan dilində 15.09.1941) // Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, Fond№ 1, siyahı 26, iş 92, vərəq-17.

25. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi M.C.Bağırovun İrana gedən şəxslərlə söhbətinin stenoqramması (Azərbaycan dilində 24.09.1941) // Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, Fond№ 1, siyahı 26, iş 94, vərəq-6.

26. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi H.Əliyevə Azərbaycan Demokratik Firqəsi Mərkəzi Komitəsinin sədri Q.Y.Danışyanın məktubu. 03.10.1974 // Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, Fond№ 1, siyahı 61, iş 160, vərəq-6,36.

27. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi H.Əliyevə Azərbaycan Demokratik Firqəsi Mərkəzi Komitəsinin sədri Q.Y.Danışyanın məktubu. 07.11.1975 //Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, Fond№ 1, siyahı 62, iş 333, vərəq-82,83.

28. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi M.C.Bağırovun İrana gedən şəxslərlə söhbətinin stenoqramması (Azərbaycan dilində 15.09.1941) // Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi. Fond№ 1, siyahı 26, iş 92. vərəq-1.

29. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi M.C.Bağırovun İrana gedən şəxslərlə söhbətinin stenoqramması (Azərbaycan dilində 15.09.1941) // Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, Fond№ 1, siyahı 26, iş 92, vərəq-15.

30. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi M.C.Bağırovun İrana gedən şəxslərlə söhbətinin stenoqramması (Azərbaycan dilində 24.09.1941) // Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, Fond№ 1, siyahı 26, iş 92, vərəq-19.

31. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi M.C.Bağırovun İrana gedən şəxslərlə söhbətinin stenoqramması (Azərbaycan dilində 24.09.1941) // Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, Fond № 1, siyahı 26, iş 94, vərəq-55.

32. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi M.C.Bağırovun İrana gedən şəxslərlə söhbətinin stenoqramması (Azərbaycan dilində 24.09.1941) // Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, Fond№ 1, siyahı 26, iş 94, vərəq-14.

33. Azərbaycan Demokratik Firqəsinin Mərkəzi komistənin sədri Çeşmazərin Azərbaycan Yazıçılar İttifaqının sədri Mehdi Hüseynə məktubu // Salman Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi: Fond№ 340, siyahı1, iş 878, vərəq-28

34. Azərbaycan Yazıçılar İttifaqı Rəasət heyətinin 23 may 1962-ci il tarixli iclasının 14 saylı protokolu // Salman Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi: Fond № 340, siyahı 1, iş, 958, vərəq-49-50.

35. Azərbaycan ədəbiyyatında Cənub həsrətinin ifadəsi. http://davam.az/7800-azərbaycan-ədəbiyyatında-cənub-həsrətinin-ifadəsi.html

36. Azərbaycan ədəbiyyatının Mirzəsi: [Elektron resurs] /http:// www.erq.az/sitefir.5234

37. Azərbaycan mühacirət ədəbiyyatı: [Elektron resurs] /https// az.wikipedia. org/wiki/Az

38. Babayeva, E. Xalq yazıçısı İlyas Əfəndiyevin nəsrində Cənub mövzusu // 525-ci qəzet. -2016, 1 iyul. –s.4.

39. Bağırova, N. M.S. Ordubadi və tarixi roman janrı (monoqrafiya) / N.Bağırova. -Bakı: Azərnəşr, -1968. -129 s.

40. Balayev, X. Cənubi Azərbaycan şair və yazıçılarının Azərbaycan ədəbi mühitinə inteqrasiyası // - Bakı: Xəzər xəbər, -2011. № 297, - s.56-60.

41. Bayramoğlu, A. Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat / A.Bayramoğlu. -Bakı: Elm, -2003. -276 s.

42. Bayramoğlu, A. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki / A. Bayramoğlu. -Bakı: Elm və təhsil, -2013. -199 s.

43. Billuri, H. Bir də bahar gəlsə / H.Billuri. -Bakı: Yazıçı, -1984. -274 s.

44. Billuri, H. Məhəmmədhüseyn Şəhriyar (monoqrafiya) / H.Billuri. -Bakı: Elm, -1984. -151 s.

45. Billuri, H. Nə qəribə dünya imiş / H.Billuri. -Bakı: Azərbaycan, -1997.- 224 s.

46. Billuri, H. Seçilmiş əsərləri / H.Billuri. -Bakı: Şərq-Qərb, -2005. -224 s.

47. Biriya, M. Hər addımda məzarım var / M.Biriya. -Bakı: Yazıçı,-1997. -120 s.

48. Biriya, M. Əsərləri / M.Biriya. -Bakı: Elm, -2010.- 353 s.

49. Babayev Z.S.M.C.Bağırovun Cənubi Azərbaycan siyasəti: [Elektron resurs] / http: www/ azpress //lannaz

50. Bütöv Azərbaycan ideyası: [Elektron resurs] / http:axcp. biz/wp. content// uploads/2015/09/1328880138_turk-men.jpg.

51. Cəfərov, N. Azərbaycanlılar: etnokulturololoji birliyin siyasi-ideoloji üfüqləri. / N.Cəfərov -Bakı: XXI əsr Yeni Nəşrlər Evi, -2001. -174 s.

52. Cəfərov, N. Azərbaycanşünaslıq məsələləri / N.Cəfərov Bakı: Bakı Universiteti, -2001. -105 s.

53. Cəfərzadə, Ə. Bəla (povest) / Ə.Cəfərzadə. -Bakı: Şirvannəşr, -2001. -140 s.

54. Cəfərzadə, Ə. Xəzərin göz yaşları (roman) / Ə.Cəfərzadə. -Bakı: El-Allianse, -2003 -160 s.

55. Cəfərzadə, Ə. Eldən-elə (roman) / Ə.Cəfərzadə. -Bakı: Gənclik, -1992. -365 s.

56. Cəfərzadə, Ə. "Gülüstan"dan öncə (roman) / Ə.Cəfərzadə. -Bakı: Şur, -1996, -204 s.

57. Cəfərzadə, Ə. Bakı – 1501 / Ə.Cəfərzadə. -Bakı: Yazıçı,-1981. -267 s.

58. Cəfərzadə, Ə. Zərrintac – Tahirə (roman) / Ə.Cəfərzadə. -Bakı: Göytürk, -1996. -300 s.

59. Cənubdan səslər. Tərt. ed. H.Məmmədzadə -Bakı: Yazıçı, -1987. -198 s.

60. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası: [4 cilddə] / -Bakı: "Elm" nəşriyyatı, - c.1. -1981. -382 s.

61. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası: [4 cilddə] / -Bakı: Elm, -c.2. -1983, -580 s.

62. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası: [4 cilddə] /-Bakı: Elm, -c.3. -1988, -549 s.

63. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası: [4 cilddə] /-Bakı: Elm, c.4. -1994. -404 s.

64. Cənubi Azərbaycan ədəbiyyatı məsələləri / -Bakı: Sabah, -2015, -298 s.

65. Cənubi Azərbaycan ədəbiyyatı: tədqiqlər. I kitab / -Bakı: Elm və təhsil, -2015. -198 s.

66. Cənubi Azərbaycan ədəbiyyatı: tədqiqlər. II kitab / -Bakı: Elm və təhsil, -2016. -235 s.

67. Cənubi Azərbaycan ədəbiyyatı: tədqiqlər. III kitab / -Bakı: Elm və təhsil, -2016. -246 s.

68. Cənubi Azərbaycan ədəbiyyatı: tədqiqlər. IV kitab / -Bakı: Ulu, -2017. -159 s.

69. Cənubi Azərbaycan tarixi oçerki (1828-1917) / -Bakı: Elm, -1985. -316 s.

70. Cənubi Azərbaycan yazıçılarının ədəbi məcmuəsi / -Bakı: Azərnəşr, -1986. -396 s.

71. Cənubi Azərbaycan ədəbiyyatı.//http://haqqında.az// b1.html.

72. Dadrəs, F. Savalan ətəyində (hekayələr) / F.Dadrəs. -Bakı: Azərnəşr, -1956. -90 s.

73. Dağlı, S. Gəcil qapısı (roman) / S. Dağlı. -Bakı: Gənclik, -1968. -194 s.

74. Dubinski-Muxradze İ.M.Nərimanov / Muxradze-Dubinski. -Bakı:Yazıçı, -1979. -258 s.

75. Əhməd, V. Şeyx Məhəmməd Xiyabani: həyatı, mühiti və ədəbi fəaliyyəti / V. Əhməd. -Bakı: Müəllim, -2010. -139 s.

76. Əhməd,V. M.C.Pişəvəri: həyatı, mühiti və yaradıcılığı / V.Əhməd. -Bakı: Göytürk, -1998. -198 s.

77. Əhmədov, B. XX yüzil Azərbaycan ədəbiyyatı: mərhələlər, istiqamətlər, problemlər / B.Əhmədov. -Bakı: Elm və təhsil, -2015. -552 s.

78. Əhmədov, T. Azərbaycan yazıçıları XX-XXI yüzilliklərdə: Ensiklopedik məlumat kitabı / T. Əhmədov. -Bakı: -Nurlar, -2011. -1055 səh.

79. Əhmədov, T. Ədəbi-bədii fikir tarixindən / T.Əhmədov. -Bakı: AME, -2001. -430 s.

80. Əhmədov, T. Mirzə İbrahimov / T.Əhmədov. -Bakı: Nurlar, -2001. -183 s.

81. Əfəndiyev, H. Azərbaycan bədii nəsrinin inkişaf tarixindən / H.Əfəndiyev. -Bakı: Azərnəşr, -1963. -202 s.

82. Əfəndiyev, İ. Seçilmiş əsərləri: [7 cilddə] / İ.Əfəndiyev. -Bakı: Çinar-Çap, -c.1. -2002. - 448 s.

83. Əliqızı, A. Güney Azərbaycan ədəbiyyatı: mərhələlər, təmayüllər, etüdlər / A.Əliqızı. -Bakı: Bakı Universiteti, -1998. -321 s.

84. Əliqızı, A. Güney Azərbaycan zamanın məngənəsində / A.Əliqızı. -Bakı: Elm və təhsil, -2011. -112 s.

85. Əliqızı, A. Zamanzadə Dilbər. Ədəbiyyatımızın aktual problemləri / A.Əliqızı. -Bakı: Azərnəşr, -2010. -314 s.

86. Əliyev Heydər: Ədəbiyyatın yüksək borcu və amalı / tərt. ed. V.Quliyev -Bakı: Ozan, -1999. -496 s.

87. Əliyev Heydər və Şərq: [6 cilddə] / H. Əliyev. -Bakı: Çaşıoğlu, -c.4, -2005, -480 s.

88. Əliyev, H. Azərbaycan Yazıçılarının VII qurultayında nitqi // Kommunist. -1981, 14 iyun. –s.1.

89. Əliyev, H. Dünya azərbaycanlılarının I qurultayında nitqi // -Bakı: Dirçəliş XXI əsr, -2003, №70, -s.175-189.

90. Əliyev, H. Müstəqilliyimiz əbədidir, V kitab / H.Əliyev. -Bakı: Azərbaycan, -1998. -480 s.

91. Əliyev, Q. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi / Q.Əliyev. -Bakı: Qismət, -2003. -248 s.

92. Əliyeva, A. Əzizə Cəfərzadənin bədii yaradıcılığı: / filologiya üzrə fəlsəfə doktoru dissertasiyası) / -Bakı, 2005. -132 s.

93. Əliyeva, İ. Kiçik janrın imkanları // -Bakı: Bakı Universiteti Xəbərləri, Humanitar elmlər seriyası, -2012. №1, -s.22-28.

94. Əlyazması Ordubadinin məşhur tarixi romanının birinci cildinin variantlarındandır. AMEA-nın M.Füzuli ad.Əlyazmaları İnstitutu. Arxiv 16, /56/ 480, səh. 9-10, 12-13

95. Əlyazması Ordubadinin məşhur tarixi romanının birinci cildinin variantlarındandır. AMEA-nın M.Füzuli ad.Əlyazmaları İnstitutu. Arxiv 16, /56/ 480, səh. 60-61

96. Əlyazması Ordubadinin məşhur tarixi romanının birinci cildinin variantlarındandır. AMEA-nın M.Füzuli ad.Əlyazmaları İnstitutu. Arxiv 16, Q-46/385/14589, səh.15

97. Əlyazması Ordubadinin məşhur tarixi romanının birinci cildinin variantlarındandır. AMEA-nın M.Füzuli ad.Əlyazmalar İnstitutu. Arxiv 16, Q-46/385/14589,səh.27

98. Əlyazması Ordubadinin məşhur tarixi romanının birinci cildinin variantlarındandır. AMEA-nın M.Füzuli ad.Əlyazmalar İnstitutu. Arxiv16, Q-46/385/14589, səh.21

99. Əlyazması Ordubadinin məşhur tarixi romanının birinci cildinin variantlarındandır. AMEA-nın M.Füzuli ad.Əlyazmalar İnstitutu. Arxiv 16, Q-46/385/14589, səh.33-34

100. Əmirov, S. Cənubi Azərbaycan Milli-demokratik ədəbiyyatı (1941-1990), / S. Əmirov. -Bakı: Elm, -2000. -257 s.

101. Ənvəroğlu, H. Azərbaycan ədəbiyyatının yaradıcılıq problemləri / H. Ənvəroğlu. -Bakı: Elm, -2004. -773 s.

102. Əsgərli, Z. Cənubi Azərbaycan ədəbiyyatı tarixi // -Bakı: Azərbaycan, -2008. №1, -s.5-9.

103. Əhmədli V. Ədəbi qaynaqlar yeni baxımdan tədqiq olunmalıdır: [Elektron resurs] /http:// news xəzər. info. az.

104. Əsgərli Z. Cənubi Azərbaycan ədəbiyyatı tarixi. Eyni adlı nəşrin ikicildliyi haqqında qeydlər: [Elektron resurs] / http:www. azyb.net/enilhin-furn/azyb.net/ enihin-furn/main. Ru i=4540

105. Fuad, E. Sözə sevdalılar (Ədəbi düşüncələr)/ E.Fuad. -Bakı: Nərgiz, - 2011. -424 s.

106. Gülgün, M. Mən bu ömrü yaşadım / M.Gülgün. -Bakı: Təbriz, -1997. -92 s.

107. Gülgün, M. Seçilmiş əsərləri/ M.Gülgün. -Bakı: Şərq-Qərb,-2004. -224 s.

108. Güney Azərbaycan: tarix və müasirlik (məqalələr toplusu) / -Bakı: Zərdabi LTD, -2014. -215 s.

109. Güney Azərbaycan: tarixi, siyasi və kulturoloji müstəvidə /-Bakı: Azərnəşr, -2010. -169 s.

110. Güney Azərbaycan nəsri: başlanğıcdan bu günə qədər / -Bakı: Nurlar, -2017. -570 s.

111. Hacıyev, A. Mirzə İbrahimov / A. Hacıyev. -Bakı: Yazıçı,-1982. -206 s.

112. Heyət, C. Azərbaycan şifahi xalq ədəbiyyatı / C.Heyət.-Bakı: Azərnəşr, -1990. -167 s.

113. Heyət, C. Azərbaycan ədəbiyyatına bir baxış / C.Heyət. -Bakı: Yazıçı, -1993. -176 s.

114. Heyət, C. Azərbaycan ədəbiyyatı tarixinə bir baxış: [2 cilddə] / C.Heyət. -Bakı: Azərnəşr, -c.2. -1998. -360 s.

115. Heyət, C. Ədəbiyyatşünaslıq / C.Heyət. -Bakı: Elm, -1996. -216 s.

116. Heyət, C. İki dilin müqayisəsi / C.Heyət. -Bakı: Təhsil, -2003. -140 s.

117. Heyət, C. Kamillik zirzəsi / C. Heyət. -Bakı: Azərnəşr, -2009. -373 s.

118. Heyət, C. Türk dili və ləhcələrinin tarixi / C.Heyət. -Bakı: Şəms, -2006. -321 s.

119. Heyət, C. Türklərin tarix və mədəniyyətinə bir baxış / C.Heyət. -Bakı: Azpoliqraf, -2009. -181 s.

120. Həbibbəyli, İ. Böyük ədəbiyyat nəhəngi Məmməd Səid Ordubadi/ İ. Həbibbəyli. -Bakı: Elm və təhsil, -2012. -89 s.

121. Həbibbəyli, İ. Böyük ədəbiyyatşünaslıq uğrunda // 525-qəzet. - 2014, 24 may. –s.14-15.

122. Həbibbəyli,İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri / İ. Həbibbəyli. -Naxçıvan: Əcəmi, -2009. -421 s.

123. Həbibbəyli, İ. Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr / İ. Həbibbəyli. -Naxçıvan: Əcəmi, -2013. -272 s.

124. Həbibbəyli, İ. Ədəbi-tarixi yaddaş və müasirlik / İ.Həbibbəyli. -Bakı: Nurlan, -2007. -689 s.

125. Həmidqızı, M. Zeynalabdin Marağalının “İbrahimbəyin səyahətnaməsi” romanı / M.Həmidqızı. -Bakı: Elm, -2001. -133 s.

126. Həsənli, C. Güney Azərbaycan, Tehran-Bakı- Moskva arasında (1939-1945) / C.Həsənli. -Bakı: Diplomat, -1998. -324 s.

127. Həsənli, C. Hər iki tayın gerçək aynası // - Bakı: “Azərbaycan” dərgisisinə ön söz, -2014. - s.4-7.

128. Həsənli, C. Soyuq müharibənin başlandığı yer: Güney Azərbaycan (1945-1946) / C.Həsənli. -Bakı: Mütərcim, -1999. -356 s.

129. Həsənov, N. Oyanmış Təbriz və Səttarxan / N.Həsənov. -Bakı: Azərnəşr, -1986. -192 s.

130. Həsənova, M (Saraclı). Cəlil Məmmədquluzadə publisistikası və mili özü-nüdərk // -Bakı: Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, -2011. №3, -s.36-40.

131. Həsənzadə, T. Məşrutə inqilabı və “Molla Nəsrəddin”// Məşrutə inqilabı-100, Beynəlxalq elmi konfransın materialları, -Bakı: Günəş, -2005. -s.227-236.

132. Hüseynov, A. Sənət meyarı / A.Hüseynov. -Bakı: Yazıçı, -1986. -284 s.

133. Hüseynov, Ç. Fətəli fəthi / Ç.Hüseynov. -Bakı: Yazıçı, -1986. -709 s.

134. Hüseynova, A. Məmməd Səid Ordubadinin nəsrində Cənubi Azərbaycan / A.Hüseynova. -Bakı: Bakı Universiteti, -2007. -154 s.

135. Hüseynova, A. Abbas Pənahi Makulunun hekayələrində vətən həsrəti motivləri // -Bakı: Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, -2018. № 02, -s.52-56.

136. Hüseynova, A. XX əsrin 20-ci illərində 2-ci Respublika-Sovet Azərbaycanı nəsrində bölünmüş Vətən və milli-mənəvi vəhdət ideyasına münasibət // -Naxcıvan: Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər, Humanitar elmlər Seriyası, -2017. №.5(86), -s.86.

137. Hüseynova A. Mirzə İbrahimovun «Gələcək gün» romanında Cənubi Azərbaycan mövzusu // -Sumqayıt: Sumqayıt Dövlət Universiteti, Elmi Xəbərlər, Sosial və humanitar elmlər bölməsi, -2010, №2, -s.21.

138. Hüseynova A. Mirzə İbrahimovun hekayələrində Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının təsviri // Filologiyanın aktual problemləri: Axtarışlar və perspektivlər, Respublika Elmi Konfransının Materialları, -Sumqayıt: -2012, -s. 55-61

139. Xəlilov, Q. Azərbaycan romanının inkişaf tarixindən / Q.Xəlilov. -Bakı: Elm, -1973. -350 s.

140. Xəlilov,S. Lider, dövlət, cəmiyyət / S.Xəlilov. -Bakı: Azərbaycan Universiteti, -2001. -358 s.

141. Xəndan, C. Uğur yolu. Cənubi Azərbaycanda ədəbiyyat, mətbuat, maarif və incəsənət / C.Xəndan. -Bakı: Azərnəşr, -1987. -283 s.

142. Xiyabani, Ş. M. Azərbaycan və Azərbaycanda demokratik qüvvələr / Ş.M. Xiyabani. -Bakı: Azərbaycan ruznaməsi, -1961. -26 s.

143. Xoşginabi, H.F. Ata. İki qardaş (romanlar) / H.F.Xoşginabi. -Bakı: Yazıçı, -1989. -388 s.

144. Xoşginabi, H.F. Hekayələr / H.F. Xoşginabi. -Bakı: Azərnəşr, -1956. -110 s.

145. Xoşginabi, H.F. İki dost / H.F.Xoşginabi. -Bakı: Uşaqgəncnəşr,-1951. -65 s.

146. Xoşginabi,H.F. İki qardaş / H.F.Xoşginabi.- Bakı: Uşaqgəncnəşr, -1959. -250 s.

147. Xoşginabi, H.F. Məhəbbət və nifrət / H.F.Xoşginabi.-Bakı: Azərnəşr, -1965. -121 s.

148. Xoşginabi, H.F. Son bayraqdar / H.F.Xoşginabi. -Bakı: Uşaqgəncnəşr, -1954. -139 s.

149. İbrahimov, M. Əsərləri: [2 cilddə] / M.İbrahimov. -Bakı: Şərq-Qərb, -c.1. -2005. -432 s.

150. İbrahimov, M. Gələcək gün / M.İbrahimov. -Bakı: Maarif, -198.-471 s.

151. İbrahimov, M. Seçilmiş əsərləri: [10 cilddə] / M.İbrahimov. -Bakı: Yazıçı, -c.7. -1981. -330 s.

152. İbrahimov, M. Vətən eşqi, vətən həsrəti // Vətən həsrəti. -1993, 22 yanvar. –s.2.

153. İsmayılov, Y. Ənvər Məmmədxanlı (monoqrafiya) / Y. İsmayılov. -Bakı: Elm, -2000. -164 s.

154. İsmayılov Y. İlyas Əfəndiyevin yaradıcılığın yolu (monoqrafiya) / Y. İsmayılov. -Bakı: Elm, -1991. -262 s.

155. İsmayılova, N. Cənubi Azərbaycan ədəbiyyatı müasir mərhələdə, yaxud "Varlıq" ədəbi məktəbinin nümayəndələri / N.İsmayılova. -Bakı: Elm və təhsil, -2010. -275 s.

156. İsmayılova C.A. Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı (1917-1920 : [Elektron resurs] / Kayzen.az/blog/Azərbaycan tarixi/

157. İbrahimov Mirzə: bir ömür həsrəti və 556 saylı iş : [Elektron resurs] / Milli az.27 aprel 2011//http: www milli az/ 1921/html

158. İbrahimov Mirzə yaradıcılığında İran Azərbaycanı: [Elektron resurs] / www.amerikaninsesi.org/a/725857.html

159. Kərimzadə, F. Xudafərin körpüsü (tarixi roman) / F.Kərimzadə. -Bakı: Qanun, -2012. -479 s.

160. Kərimzadə, F. Çaldıran döyüşü (tarixi roman) / F.Kərimzadə. -Bakı: Yazıçı, -1987. -300 s.

161. Kəskin, A. Güney Azərbaycanda milli hərəkatın tarixi təməlləri // -Bakı: Bakı-Təbriz dərgisi, -2006. №1, -s.15-31.

162. Qarayev, Y. Seçilmiş əsərləri: [5 clddə] / Y.Qarayev. -Bakı: Elm, -c.4. -2016. -772 s.

163. Qarayev, Y. Seçilmiş əsərləri: [5 cilddə] / Y.Qarayev. -Bakı: Elm, c.5. -2016. -727 s.

164. Qarayev, Y. Tarix: yaxından və uzaqdan / Y.Qarayev. -Bakı: Sabah, -1996. -712 s.

165. Qasımlı, M. Heydər Əliyev – İstiqlala gedən yol (1969-1987-ci illər) / M. Qasımlı. -Bakı: Bakı Unversiteti,-2006. -608 s.

166. Qasımov, C. Siyasi repressiya: həyatda və ədəbiyyatda /Qasımov C. Bakı: Elm və təhsil, 2020, -508 s.

167. Qasımov, C. Birinci Türkoloji qurultay: şahidlər və şəhidlər./ Qasımov C. Bakı: Gənclik, 2019, 736 s.

168. Qəhrəmanzadə, Q. Qırmızı başmaq (hekayələr) / Q.Qəhrəmanzadə. -Bakı: Gənclik, -1973. -60 s.

169. Qəhrəmanzadə, Q. İftira (hekayələr)/ Q.Qəhrəmanzadə. -Bakı: Azərnəşr, -1963. -58 s.

170. Qəhrəmanzadə, Q. Tanınmayan qonaq (hekayələr) / Q.Qəhrəmanzadə. -Bakı: Yazıçı, -1989. -151 s.

171. Qəhrəmanzadə, Q. Tozlu palto (hekayələr) / Q.Qəhrəmanzadə.-Bakı: Azərnəşr, -1965. -74 s.

172. Qəribli, İ. Ədəbiyyat sərhəd tanımır:Cənubi Azərbaycan ədəbiyyatı və mədəniyyəti ilə bağlı çəqalə və oçerklər / İ.Qəribli. -Bakı: Elm və təhsil, -2014. -262 s.

173. Makulu, A.P. Xiyabani (roman) / A.P. Makulu. -Bakı: Xan, -2015. -416 s.

174. Makulu, A.P. Səttarxan (roman), I kitab / A.P.Makulu. -Bakı: Azərbaycan Dövlət, -1983. -339 s.

175. Makulu, A.P. Səttarxan (roman), II kitab / A.P.Makulu. - Bakı: Azərbaycan Dövlət, -1983. -335 s.

176. Makulu, A.P. Təbriz gecələri / A.P. Makulu. -Bakı: Azərnəşr, -1950. -211 s.

177. Makulu, A.P. Gizli zindan (roman) / A.P. Makulu. -Bakı: Azərnəşr,-1964. -573 s.

178. Makulu, A.P.Mübarizlər /A.P.Makulu. -Bakı: Azərbaycan Uşaq və Gənclər ədəbiyyatı, -1952. -112 s.

179. Marağayi, Z. İbrahim bəyin səyahətnaməsi və təəssübkeşliyin bəlası / Z. Marağayi. -Bakı: Avrasiya Press, -2006. -456 s.

180. Mehdibəyova, M. Cənubi Azərbaycan mühacirət nəsri / M.Mehdibəyova -Bakı: Nurlan, -2007. -192 s.

181. Mehdiyev, R. Müasir Azərbaycan mili ideyasının təcəssümü kimi // -Bakı: AMEA-nın Fəlsəfə və Hüquq Universitetinin Elmi əsərləri, -2011. №1(16), -s.17-34.

182. Mədətoğlu, A. Güney Azərbaycan türkləri son 100 ildə / A. Mədətoğlu -Bakı: Adiloğlu, -2012. -202 s.

183. Məmmədxanlı, Ə. Babək (tarixi roman) / Ə.Məmmədxanlı. -Bakı: Azərnəşr, -1994. -264 s.

184. Məmmədxanlı, Ə. Seçilmiş əsərləri / Ə. Məmmədxanlı. -Bakı: Avrasiya Press,-2005. -416 s.

185. Məmmədquluzadə, C. Əsərləri: [6 cilddə] / C.Məmmədquluzadə. -Bakı: Azərnəşr, - c.4. -1985, -274 s.

186. Məmmədli, Q. Azərbaycan teatrının salnaməsi (1920 1930), İki hissədə, II hissə / Q. Məmmədli. -Bakı: Azərnəşr, -1983. -326 s.

187. Məmmədli, P. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər, I hissə, / P. Məmmədli. -Bakı: Sabah, -2015. -199 s.

188. Məmmədli, P. Cənubi Azərbaycan mətbuatı tarixi / P.Məmmədli. -Bakı: Elm, -2009. -199 s.

189. Məmmədli, P. Hər iki tayın gerçək aynası “Azərbaycan” dərgisi (1945, Bakı, Təbriz) / P. Məmmədli. -Bakı: Elm və təhsil, -2013. -240 s.

190. Məmmədli, P. Milli mətbuatda Mirzə İbrahimov imzası: görkəmli ədib Azərbaycan dilinin ardıcıl təəssübkeşi kimi // 525-ci qəzet. -2011, 6 dekabr. –s.6.

191. Məmmədli, P. Hər iki tayın gerçək aynası // -Bakı: Azərbaycan dərgisinə ön söz, -2014. –s.7-22

192. Məmmədov, A. Cəlil Məmmədquluzadə yaradıcılığında Azərbaycançılıq / A.Məmmədov. -Bakı: Elm, -2003. -190 s.

193. Məmmədov, M. Azərbaycan yazı qrafikasının latından rus qrafikasına keçirilməsi haqqında / M.Məmmədov. -Bakı: Elm, -1990. -126 s.

194. Məmmədova P. “Varlıq” jurnalında ədəbiyyat məsələləri, Bakı: “Elm” nəşriyyatı, 2000, 200 s.

195. Məmmədova, S. Mirzə İbrahimov “Vətən yolunda” qəzetinin baş redaktoru kimi // N.İmanquliyevin 100 illik yubileyinə həsr olunmuş “Azərbaycan jurnalistikası qloballaşma dövründə: qaynaqlar və perespektiv baxış. Respublika elmi-praktik konfransın materialları, -Bakı: -21-22 dekabr, - 2011, - s. 421-445.

196. Məmmədzadə, B. Azərbaycan milli xartiyası // -Bakı: Azərbaycan, -1991. №3, -s.126-139.

197. Məmmədzadə, H. Futbolçu (hekayələr) / H.Məmmədzadə. -Bakı: Azərnəşr, -1961. -118 s.

198. Məmmədzadə, H. Hekayələr / H.Məmmədzadə. -Bakı: Azərnəşr, -1957. -79 s.

199. Məmmədzadə, H. İlk məhəbbət (hekayələr) / H.Məmmədzadə. -Bakı: Azərnəşr, -1966. -92 s.

200. Məmmədzadə, H. Oğurlanmış abidə (hekayələr) / H.Məmmədzadə. -Bakı: Yazıçı, -1984. -222 s.

201. Məmmədzadə, H. Təbriz xatirələri / H.Məmmədzadə. -Bakı: Gənclik, -1978. -106 s.

202. Məmmədzadə, M. Milli Azərbaycan hərəkatı / M.Məmmədzadə. -Bakı: Azərnəşr, -1992. -240 s.

203. Mir Cəlal. Seçilmiş əsərləri /M.Cəlal -Bakı: Şərq-Qərb, -2005. -384 s.

204. Mir Cəlal. XX əsr Azərbaycan ədəbiyyatı / Mir Cəlal, F.Hüseynov -Bakı: Elm və təhsil,-2018. -560 s.

205. Muğanna, İ. İdeal (roman) / İ.Muğanna. -Bakı: Lider, -2005. -536 s.

206. Məmmədli P. Ana dilinin fədaisi: [Elektron resurs] / http:www.clb.az/ html/galleries/ tov/anadil. pdf

207. Məmmədov A. Cənubi Azərbaycan hərəkatının süqutunun gizlinləri: İ.Stalin-M.Bağırov-S.C. Pişəvəri: [Elektron resurs] /ölke.az/news/ofetail İranda-adr-in-yararması-kürdüstan - planları-stalinin-atom-silahına-göre-irana-etdiyi- güzəşt/ 93225

208. Nemanzadə, Ö.F. Seçilmiş əsərləri / Ö.F.Nemanzadə. -Bakı: Yazıçı, -1992. -530 s.

209. Nəbioğlu, S. Bir ovuc hədiyyə / S.Nəbioğlu. -Bakı: Nurlan, -2005.-256 s.

210. Nəbioğlu, S. Bu karvanın yolu Güneyədəir / S.Nəbioğlu. -Bakı: Nurlan, -2007. -447 s.

211. Nəbioğu, S. İntizar günlərinin nəğmələri / S.Nəbioğlu. -Bakı: Elm və təhsil, -2013.-199 s.

212. Nəbioğlu, S. Səməd Behrəngi / S.Nəbioğlu.-Bakı: Azərnəşr, -2009. -134 s.

213. Nəbioğlu, S. Vüsalın qanadlarında / S.Nəbioğlu. -Bakı: Elm və təhsil, -2013. -199 s.

214. Nəsibzadə, N. Bölünmüş Azərbaycan, bütöv Azərbaycan / N.Nəsibzadə -Bakı: Ay-Ulduz, -1997. -246 s.

215. Nicat, Ə. Qızılbaşlar / Ə.Nicat. -Bakı: Yazıçı, -1983. -238 s.

216. Nitqi, H (Aytan). Seçilmiş əsərləri / H. (Aytan) Nitqi. -Bakı: Avrasiya Press, -2005. -152 s.

217. Oldric, C. Diplomat (roman) / C.Oldric. / -Bakı: Qanun, -2015. -858 s.

218. Ordubadi, M.S. Dumanlı Təbriz, I kitab / M.S. Ordubadi. -Bakı: Yazıçı, -1985. -376 s.

219. Ordubadi, M.S. Dumanlı Təbriz, II kitab / M.S. Ordubadi. -Bakı: Yazıçı, -1986. -730 s.

220. Oruc, M. “Bəla” // Ədəbiyyat. -2000, 19 may. –s.3.

221. Orucov, H. Heydər Əliyev və milli siyasət / H.Orucov. -Bakı: Şərq-Qərb, -2002. -171 s.

222. Parçalanmış millətin harayı: I cild. -Bakı: Nurlar, -2011. -656 s.

223. Rəhimli, Ə. Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946), / Ə.Rəhimli. -Bakı: MEQA, -2003. -208 s.

224. Rəhimli, Ə. Seyid Cəfər Pişəvəri / Ə.Rəhimli. -Bakı: Nurlar,-2009. -245 s.

225. Rəsulzadə, M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Azərbaycan tarixi / M.Ə.Rəsulzadə. -Bakı: Gənclik, -1991. -112 s.

226. Rəsulzadə, M.Ə. Milli birlik / M.Ə.Rəsulzadə. -Bakı: Çıraq, -2009. -176 s.

227. Rəsulzadə, M.Ə. Səttar xan // İqbal. -1914, 10 noyabr. –s.3.

228. Rəsulzadə, M.Ə. İran türkləri / M.Ə.Rəsulzadə. -Bakı: Təknur, -2013. -100 s.

229. Rizvan, N. Cənubi Azərbaycan ədəbiyyatının yeni inkişaf mərhələsi/ N.Rizvan. -Bakı: Səda, -2005. -240 s.

230. Rüstəmxanlı,S. Özümüzdən böyük sözümüz (Ədəbi düşüncələr) / S. Rüstəmxanlı. -Bakı: Qanun, -2019. -656 s.

231. Rüstəmova, A. Azərbaycan ədəbiyyatı./ B.Nəbiyev, Y.Qarayev -Bakı: Elm, -2006. -376 s.

232. Rza R. Milli şüur və milli iftixar // -Bakı:Azərbaycan, -1945. № 10, -s.7-22.

233. Sabahi, G. Həyat faciələri / G.Sabahi. -Bakı: Azərnəşr, -1987. -398 s.

234. Sadıqzadə, F. Məhəbbət körpüsü/ F.Sadıqzadə. -Bakı:Gənclik, -1975. -110 s.

235. Sadıqzadə, F. Məhəbbət və azadlıq/ F.Sadıqzadə. -Bakı: Azərnəşr, -1963. -58 s.

236. Sadıqzadə, F. Tüfənglə ölçülən torpaq/ F.Sadıqzadə. -Bakı: Gənclik, -1967. -76 s.

237. Salamoğlu, T. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri / T.Salamoğlu. -Bakı: BDU, -2008. -554 s.

238. Səfərli, Ə. Bölünmüş Azərbaycan / Ə.Səfərli. -Bakı: Ozan, -2010. -256 s.

239. Səfərli, Ə. Dərdli Azərbaycan/ Ə.Səfərli. -Bakı: Elm və təhsil, -2011. -396 s.

240. Səfərli, Ə.Həsrətli Azərbaycan / Ə.Səfərli. -Bakı: Elm və təhsil,-2011. -381 s.

241. Səfərli, Ə.Yaralı Azərbaycan / Ə.Səfərli. -Bakı: Elm və təhsil, -2011. -384 s.

242. Suxomlinski,V.A. Vətəndaşın doğulması /V.A.Suxomlinski. -Bakı: Maarif, -1975. -362 s.

243. Svyatoxovski, T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə, keçid dövründə. / T.Svyatoxovski. -Bakı: Xəzər Universiteti, -2000. -374 s.

244. Şaiq, A. Əsərləri: [3 cilddə] / A.Şaiq. -Bakı: Avrasiya Press, -c.1. -2005. -496 s.

245. Şəhriyar, M. Heydərbabaya salam / M.Şəhriyar. -Bakı: Adiloğlu,- 2004. -94 s.

246. Şəmsizadə, N. Azərbaycançılıq / N.Şəmsizadə. -Bakı: Nurlar, -2006. -192 s.

247. Şəmsizadə, N. İtmiş nəsl haqqında uvertura // -Bakı: Azərbaycan, -2008. №1, -s.21-33.

248. Şükürov, A.M. Əli Tudənin yaradıcılıq yolu: / filologiya üzrə fəlsəfə doktoru dissertasiyanın avtoreferatı) /- Bakı, 2014. -24 s.

249. Tahir, S. İki dəfə yox olmuş adam / S.Tahir. -Bakı: Yazıçı, -1988. -383 s.

250. Tahir, S. Qonşu qızın məktubları / S.Tahir. -Bakı: Gənclik,-1985 .-272 s.

251. Tahir, S. (Azərazər). Lirika / Tahir S. -Bakı: Azərbaycan Kitab Cəmiyyəti, -1992. -88 səh.

252. Tağıyev, Ə. Türkçülük və azərbaycançılıq //Müasir qlobal siyasi proseslər və milli dövlət ideyası. Bakı. Səda, 2006, s.21-32

253. Tağıyeva, Ş. Güney Azərbaycan/ Ş.Tağıyeva. -Bakı: Orxan, -2000. -514 s.

254. Təbrizi, Q.S. Xudafərin / Q.S. Təbrizi. -Bakı: Turan evi, -2005. -392 s.

255. Tudə, Ə. Tellərdə çırpınan həsrətlər / Ə.Tudə. -Bakı: Gənclik,-1983. -168 s.

256. Tudə, Ə. Mənim səsim / Ə.Tudə. -Bakı: Azərbaycan,-2002. -472 s.

257. Vahabzadə, B. Seçilmiş əsərləri / B.Vahabzadə. -Bakı: Çaşıoğlu, -2005. -440 s.

258. Vəliyeva, S. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi / Vəliyeva S. -Bakı: Azərbaycan Universiteti, -2002. -140 s.

259. Vəliyeva, S. Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideyası / S.Vəliyeva. -Bakı: Azərbaycan, -2003. -128 s.

260. Vəzirova, F. Məmməd Səid Ordubadi / F.Vəzirova. -Bakı: Gənclik, -1970. -121 s.

261. Vurğun, S. Əsərləri: [5cilddə] / S.Vurğun. -Bakı: Şərq-Qərb, -c.5. -2005. -384 s.

262. Yusifov, M. Heydər Əliyev və azərbaycançılıq ideyası / M.Yusifov.- Bakı: Nurlar, -2005. -179 s.

263. Yeni dünya xəritəsində Böyük Azərbaycan dövləti. 2012,22 sentyabr: [Elektron resurs] /http: //www. azadlıq. arq. /a/ 24718325.html.

264. Zehtabi, M. Başqa dilim, elim var mənim / M.Zehtabi. -Bakı: Elm, -2011. -204 s.

*Türk dilində*

265. Akpinar,Y. Azeri Edebiyatı Araştırmaları / Y.Akpinar. –İstanbul: Dergah, -1994. -512 s.

266. Azer, Senan. İran türkləri / Senan Azer. -İstanbul: Cumhuriyet, -1942. -44 s.

267. Bosnalı,S. İran Azerbaycan Türkçesi / S.Bosnalı. -İstanbul: Kitab, -2007. -227 s.

268. Caferoğlu, A. Azeri edebiyatında istiklal mücadelesi / A.Caferoğlu. -İstanbul: Bürhaneddin, -1932. -44 s.

269. Caferoğlu,A. Azerbaycan dil ve edebiyatının dönüm noktaları / A. Caferoğlu. -Ankara: Yeni Cezaevi, -1953. -26 s.

270. Caferoğlu,A. Türk Kavimleri / A.Caferoğlu. -Ankara: Türk Kültürünü Araştırma Enstitüsü, 1983, 96 s.

271. Caferoğlu,A. Azerbaycan Edebiyatı. “Türk dünyası edebiyatı”, I / A. Caferoğlu. -İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, -1991. -290 s.

272. Çemenzeminlı,Y.V. Tarihi, coğrafi ve iktisadi Azerbaycan / Y.V. Çemenzeminlı. -İstanbul: -1921. -110 s.

273. Kafkasyalı,A. İran Türk Edebiyatı Antolojis: [6 cilte] /A.Kafkasyalı. -Erzurum: Atatürk Üniversitesi yayınları, c.1. – 2002. -500 s.

274. Kafkasyalı,A. İran Türk Edebiyatı Antolojisi: [6 cilte] /A.Kafkasyalı. -Erzurum: Atatürk Üniversites yayınları, c.2. -2002, -649 s.

275. Kafkasyalı,A. İran Türk Edebiyatı Antolojisi, [6 cilte] /A.Kafkasyalı. -Erzurum: Atatürk Üniversitesi yayınları, c.3. -2002. -550 s.

276. Kafkasyalı,A. İran Türk Edebiyatı Antolojisi, [6 cilte] /A.Kafkasyalı. -Erzurum: Ataturk Üniversitesi yayınları, c.4.-2002. -518 s.

277. Kafkasyalı,A. İran Türk Edebiyatı Antolojisi, [6 cilte] /A.Kafkasyalı. -Erzurum: Atatürk Üniversitesi yayınları, c.5, -2002. -621 s.

278. Kafkasyalı,A. İran Türk Edebiyatı Antolojisi, [6 cilte] /A.Kafkasyalı. -Erzurum: Atatürk Üniversitesi yayınları, c.6, -2002.-689 s.

279. Kafkasyalı, A. İran Türkleri Aşık Mühitleri / A. Kafkasyalı. -Erzurum: Salkım sögüt, -2009. -318 s.

280. Kafkasyalı, A. İran Coğrafyasında Türkler / A. Kafkasyalı.-İstanbul: Çağaloğlu, -2011. -232 s.

281. Kafkasyalı, A. İran Türkleri / A. Kafkasyalı. -İstanbul: Cağaloğlu, -2010. -976 s.

282. Keykurun, N (Şeyhzamanlı). Azerbaycan istiklal mücadelesi hatıraları, / N (Şeyhzamanlı) Keykurun. -İstanbul: Ekspres, -1964.-176 s.

283. Mehmetzade, M.B. Ermeniler ve İran / M.B.Mehmetzade. -Ankara: Ankara Üniversitesi Osmanlı Tarihi Araştırma ve Uygulama Merkezi yayınları, -1994. -44 s.

284. Mehmetzade, M.B. Milli Azerbaycan Harekatı / M.B.Mehmetzade. -Ankara: Azerbaycan Kültür Derneği, -1991. -239 s.

285. Oder, K. Azerbaycan / K.Oder. -İstanbul: Boğaziçi, -1982. -180 s.

286. Özcan, U. Ahmet Ağaoğlu ve rol değişikliği / U.Özcan. -İstanbul: Donkişot Yayınevi, -2002. -280 s.

287. Resulzade, M.E. Azerbaycan Cumhuriyeti (Keyfiyeti-teşekkülü ve şimdiki vaziyeti) / M.E.Resulzade. -İstanbul: Azerbaycan Türkleri Kültür ve Dayanışma Derneği Yayınları, -1990. -205 s.

288. Resulzade, M.E. Azerbaycan Kültür Gelenekleri ve Çağdaş Azerbaycan Edebiyatı / M.E.Resulzade. -Ankara: Kardeş matbaası, -1984. -88 s.

289. Resulzade, M.E. Edebi bir hadise, I, "Azerbaycan" dergisi (Ankara), Temmuz-Ağustos, 1955, yıl 4, sayı 40-41; II, Eylül-Ekim, 1955, yıl 4, sayı 42-43

290. Resulzade, M.E. İran türkleri / M.E.Resulzade. -İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, -1993. -142 s.

291. Şimşir, S. Azerbaycan'ın İstiklal Mücadelesi / S.Şimşir. -İstanbul: İQ kültür sanat yayıncılık, -2002. -280 s.

292. Uzun,E. Güney Azerbaycan basın tarihi (1816-2002)/ E.Uzun. -Trabzon: Türk Ocağı yayınları, -2002. -210 s.

293. Uzun, E. İran Türk folkloru / E.Uzun. -Trabzon: Eser Ofset Yayınları, -2007. -124 s.

294. Uzun,E. İran izlenimlerim: tarih ve etnoğrafya / E.Uzun. -Trabzon: Eser Ofsen yayınları, -2010. -120 s.

*Rus dilində*

295. Антология прозы Южного Азербайджана: / Перевод М. Гусейнзаде -Баку: Юрд, -2008. -548 с.

296. Бакыханов, А.А. Гюлистан-и-Ирам / А.А.Бакыханов.-Баку: Элм, -1991. -304 с.

297. Байрамзаде, С. Южный Азербайджан: от "21 Азер"а до "Белый револю-циив Иране / С.Байрамзаде. - Баку: Taraqqi, -2016. -334 с.

298. Бердяев, Н. Народническое и национальное сознание // Русская мысль. Июль-августь, -1917. -с. 90-97

299. Биллури, А.И. Развитие реалистической демократической поэзии в Иран-ском Азербайджане / А.И.Биллури. -Баку: Элм, -1972. -122 с.

300. Бусыгина, И.М. Регионы Германии. / И.М. Бусыгина. -Москва: Росспэн, -1999. -120 с.

301. Гасанлы, Дж. Южный Азербайджан: начало холодной войны / Дж.Гасанлы. -Баку: Адилоглу, -2003. -456 с.

302. Гегель. Философия права / Гегель. -Москва: Мысль, -1990.- 524 с.

303. Гусейнов, Ч. Доктор N. Роман в 2 книгах, Кн. 1 / Ч.Гусейнов. Москва: Московский рабочий, -1998. -245 с.

304. Гусейнов, Ч. Доктор N. Роман в 2 книгах, Кн. 2 / Ч.Гусейнов. -Москва: Московский рабочий, -1998,- 280 с.

305. Гусейнов, Ч. Неизбежность / Ч.Гусейнов. -Москва: ПоЛит, -1981. -320 стр.

306. Гусейнов, Ч. Фатальный Фатали / Ч.Гусейнов. -Москва: Советский писатель, -1980. -464 с.

307. Гусейнов, Ч. Этот живой феномен / Ч.Гусейнов. -Москва: Советский писатель, -1988. -480 с.

308. Дашдамиров,А.Ф. Национальная идея и этничность (Азербайджанская идея вэтнокультурном интерьере). Москва: УОП ИЭ и А РАН, -1996, -55 с.

309. Зеркалов, Д.В. Политическая безопасность (монография) / Д.В. Зеркалов. -Киев: Основа, -2012. -1067 с.

310. Кляшторина В.Б. Иран 60-80-х годов. От культурного плюрализма к исламизации духовных ценностей: (Идеология. Политика. Литература) / В.Б. Кляшторина. -Москва: Наука, -1990. -205 с.

311. Косорукова М.И. Влияние национального самосознания на литературу русского зарубежья (20-30 гг. XX в): [Електронный ресурс] /http://www. hist.msu.ru./ Srence/MNS 2002/htm.

312. Люлечник, В. Русский вопрос в России // Новый журнал, -1995. №196, -с.359-370.

313. Поливанов Е.Д. За марксистское языкознание / Е.Д.Поливанов. -Москва: Федерация, -1931. -167 с.

314. Петров И.А. Объединение Германии: Историко-культурные и общест-венно- психологические аспекты: [Електронный ресурс] / Международный исторический журнал, 2000. №9, //http//historu.macbaxn.ru/all/mabre

315. Рогожин ,А.А. Проблема генезисо немецкого национального самосоз-нания, в контексте международных отношений, история и современность // Вестник Волгоградского Государственного Университета, Серия 4, История, -2011. №7 (19), -с.98-103.

316. Сандомирская И. Книга о Родине. Опыт анализ дискурсовных практик. М. 200 [Електронный ресурс] / http:yaukor.chat.ru/ya.htmb; с. 23.

317. Топчубашов, А. Дипломатические беседы в Стамбуле (1918-1919 гг.), / А.Топчубашов. -Баку: Эргюн, -1994. -159 с.

318. Федотов, Г.П. Зачем мы здесь // Современные записки (Париж), -1939. № 8, -с.422-470

319. Хоркхаймер, М. Диалектика Просвещения, Философские фрагменты / М.Хоркхаймер, В.Теодор, Адорко // Москва - Санкт Петербург: Медиум, -1997. –с.61-103.

320. Хошгинаби, Г.Ф. Сыновья Халимы, Пер. В.Василевского / Г.Ф. Хошгинаби. -Баку: Азерб. гос., -1971. -160 с.

### *İngilis dilində*

321. Altstadt, A. Issues in National Identity in Soviet Azerbaijan / A. Altstadt. -Center for International Perspectives, University of New Hampshire, -1989. -226 p.

322. Altstadt, A. The Azerbaijani Turkish Community of Baku Before World War I / A. Altstadt. -University of Chicago, -1983. -247 p.

323. Altstadt A. The Azerbaijani Turks: Power and Identity Under Russian Rule. / A. Altstadt. -Hoover, -1992. -339 p.

324. Altstadt, A. The Politics of Culture in Soviet Azerbaijan, 1920-1940 / A. Altstadt. -London and New York. Routledge publishing, -2016. -256 p.

325. Anderson, B. İmaginel Communites: Reflektons on the Origin and İpread of Nationalism / B. Anderson. -London-New York: Verso publishing, -1991. -220 p.

326. Brawne, E.G. The Persian Revolution,1905-1909 / E.G. Brawne. -Cambridge Univerity, -1914. -320 p.

327. D'Agostina, A. Qorbachev's Revolition / A. D'Agostina. -New York: New York Unversity, -1998. -306 p.

328. Guddens, A. Modernity and Self - İdentity, I Edition / A. Guddens. –Stanford: Stanford University, -1991. -264 p.

329. Nissman D.The Soviet Union and Iranian Azarbaijan.The Use of Nationalizm for Politikal Penetrafion Bulder Solo/Westwiew 1987.//http.//badkubeh com/tarix/1392758794 937783

330. Shuster, M.N. İran in drowing/ M.N.Shuster. -New-York: -1912. -220 p.

331. Swietochowski,T. Russia and Azerbaijan. A.Borderland in Transstion / T.Swietochowski. -New York: Columbia Universitw, -1995. -374 p.

332. Swietochovski,T. Brian, Histerial dictionaries №31, / T. Swietochovski, S.Collins-Marilend and London, The scarecrow Ins. Lauham, -1999. -346 p.

333. The National Security Archive of the George Washington University. Dos. 00011. 1947 /06/ 0 4, ORE 19, p.4-23

*Fars dilində*

334. Adəmiyyət, F. Fikri demokrasiyi ictimai der nehzəti Məşrutiyyəti İran / F.Adəmiyyət. -Tehran: 1354/1975, 578 s.

335. Ariyenpur, Y. Əz Səba ta Nima, II c. / Y. Ariyenpur. -Tehran: 1351/1972, 680 s.

336. Braun E. Tarixi mətbuat və ədəbiyyati İran dər dövreyi Məşrutiyyət / E. Braun, M.Tərbiyət -Tehran: 1337/1958, 560 s.

337. Kəsrəvi,S. Ə. Tariz-e 18 sale-ye-Azərbaycan / S.Ə.Kəsrəvi. -Tehran: Əmir Kəbir, -1971. -804 s.

338. Ordubadi, M.S. Təbrizi mihalud: [3 cilddə] / M.Ordubadi. -Tehran: İntişarati Dünya, 1364/1985, 290; 398 və - 480 s.

339. Rəsulzadə, M.Ə. Tənqidi-firqeyi-etidaliyyun / M.Ə. Rəsulzadə. -Tehran: -1910. -60 s.